ŞAMAXININ MİLLƏT VƏKİLİ
BİRİNCİ İL

Bakı - 2011

Buraxılışa məsul: **Fuad Babayev**
siyasi elmlər üzrə fəlsəfə doktoru

"Şamaxının millət vəkili – birinci il" kitabı 85 saylı Şamaxı seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinin üzvü Elxan Süleymanovun millət vəkili kimi fəaliyyətinin bir ilinə həsr olunmuşdur.

www.elkhan-suleymanov.az saytının nəşri olan kitaba Şamaxının millət vəkili Elxan Süleymanovun müsahibələri, müraciət və çıxışları, ilboyu ərzində gərgin və məqsədyönlü fəaliyyətini əks etdirən materiallar daxil edilmişdir.

120 400 00000 Qrifi nəşr
036 - 11

ISBN: 978 9952 8234 7 8

© www.elkhan-suleymanov.az 2011

SEÇKİ - 2010

85 saylı Şamaxı seçki dairəsindən Azərbaycan Respublikasının Milli Məclis üzvlüyünə namizəd SÜLEYMANOV ELXAN SİRAC OĞLUNUN həyat və fəaliyyəti haqqında qısa məlumat

Süleymanov Elxan Sirac oğlu 1940-cı ildə Göyçay rayonunun Hacalı kəndində anadan olmuşdur. O, 1953-cü ildə 7 illik təhsilini başa vurduqdan sonra Göyçay Pedaqoji texnikumunun ibtidai məktəb müəllimliyi fakültəsinə daxil olmuş, 1958-ci ildə həmin texnikumda təhsilini başa çatdırmışdır. 1961-1966-cı illərdə Azərbaycan Dövlət teatr institutunun mədəni-maarif fakültəsində təhsilini davam etdirmişdir. Elxan Süleymanov ali təhsil aldığı dövrdə eyni zamanda pedaqoji fəaliyyətlə məşğul olmuş, Bakının 7 və 25 saylı orta məktəblərində müəllim işləmişdir.

E.Süleymanov 1966-cı ildə Respublika Həmkarlar ittifaqı Yeyinti Sənayesi işçilərinin Həmkarlar komitəsinin Fioletov adına klubuna direktor təyin edilmiş və 1979-cu ilə qədər həmin vəzifədə çalışmışdır. Onun geniş fəaliyyəti sayəsində bu klub əsl mədəniyyət və sənət ocağına çevrilmiş, bir çox görkəmli sənət xadimləri, musiqiçilər, bəstəkarlar, müğənnilər ilk yaradıcılıq addımlarını məhz burada atmışlar. Həmin illərdə kluba toplaşmış sənətçilərin çıxışları bütün Azərbaycanı əhatə etmişdir.

Bir təşkilatçı, xeyriyyəçi kimi, Elxan Süleymanovun

fəaliyyətinin sonrakı dövrləri də mədəniyyət, incəsənət və təhsildən ayrılmaz olmuşdur. O, 1981-1982-ci illərdə Yazıçılar itifaqının Şüvəlandakı Yazıçılar Evinin direktoru, 1982-1985-ci illərdə Mədəniyyət Nazirliyi nəzdində "Azəratraksion"un baş direktoru işləmiş, 1985-1989-cu illərdə isə "Nizami" kino-teatrının direktoru vəzifəsində fəaliyyətini davam etdirmişdir.

E.Süleymanov 23 il ərzində respublikanın müxtəlif mədəniyyət müəssisələrinin rəhbəri kimi ölkədə mədəniyyət, incəsənət və Azərbaycan kinosunun inkişafı və təbliği, gənc istedadların üzə çıxarılması və inkişafı üçün yorulmadan çalışmışdır. Bu illər ərzində o, bir çox istedadlı gəncin yetişməsi üçün münbit şərait yaratmış, onlara dəstək olmuşdur. Onun rəhbərlik etdiyi mədəniyyət ocaqlarında yetişmiş onlarla istedadlı gənc bu gün nüfuzlu sənətkarlar, xalq artistləri kimi respublikamızın teatrlarında, kino, musiqi sahələrində uğurla fəaliyyət göstərirlər. E.Süleymanovun kino sahəsində xidmətləri də xüsusi qeyd olunmalıdır. O, 1987-ci ildə Azərbaycanda keçirilən nüfuzlu beynəlxalq kino festivalının təşkilatçılarından biri olmuş, bu məqsədlə məhz onun təşkilatçılığı ilə "Nizami" kinoteatrı köklü şəkildə rekonstruksiya edilmiş, sənət mərkəzlərindən birinə çevrilmişdir.

Bir çox ədəbi-bədii, elmi, maarifçi kitabların işıq üzü görməsi, böyük tirajla nəfs tərtibatda dərc edilib oxuculara çatdırılması da E.Süleymanovun xeyriyyəçilik fəaliyyəti sayəsində mümkün olmuşdur.

Elxan Süleymanov 1990-1998-ci illər ərzində Rusiya-Amerika Universitetinin Azərbaycan bölməsinin baş direktoru vəzifəsini icra etmişdir. Ölkəmizin müharibə şəraitində və keçid dövrünü yaşadığı 1990-1993-cü illərdə respublikamızda ərzaq probleminin həllində, o cümlədən, əhalinin gündəlik qida məhsulları ilə təmin edilməsində fəal iştirak edən E. Süleymanov 1990-1993-

cü illərdə Azərbaycana yüz min tondan çox qənd, şəkər tozu, taxıl, taxıl məhsulları və digər bir çox çeşidli ərzaq mallarının gətirilməsini təmin etmişdir. O, 1990-1993-cü illərdə müharibə zamanı cəbhə xətinə, döyüşlərdə iştirak edən ordu hissələrinə yüzlərlə ton müxtəlif ərzaq və geyim göndərmişdir.

E. Süleymanov Göyçay, Ağsu, kürdəmir, Biləsuvar rayonları ərazisində 2500 hektar nar bağları salmış, həmin ərazilərdə yolları abadlaşdırmış, su kanallarını təmir etdirmiş və nəhayət, 850-dən çox ailəni işlə təmin etmişdir.

Bütün Şirvanda məşhur xeyriyyəçi və maarifçi kimi tanınmış mərhum babası Hacı Rəhim əfəndinin xeyriyyəçilik fəaliyyətini davam etdirən Elxan müəllim Göyçay şəhərində Azərbaycan şairi əli kərimə və şəhid ismət Qayıbova abidələr qoydurmuş, Qaraman kəndindəki tarixi məscid binasını bərpa etdirmiş və həmin kəndə 7 km uzunluğunda yol çəkdirmiş, respublikanın 300-dən artıq şəhid ailəsinə yardımlar etmiş, 1993-1996-cı illər ərzində Göyçay məktəblərində təhsil alan 150 əlaçı şagirdi təqaüdlə təmin etmiş, Azərbaycanın müxtəlif regionlarından olan bir çox gənclərin ölkəmizdə, ABŞ-da və Avropa ölkələrində təhsillərini davam etdirməsinə, doktoranturada oxumasına sponsorluq etmiş, soydaşlarımızın müxtəlif xəstəliklərdən müalicəsi üçün onları maliyyə vəsaiti ilə təmin etmişdir.

E. Süleymanov 2005-ci ildə Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyasını (AvciYA) təsis etmiş və onun rəhbərliyi ilə bir sıra böyük layihələr həyata keçirilmişdir. xocalı soyqırımına həsr edilmiş "xocalı soyqırımı", "xocalı soyqırımı: milyon imza-bir tələb", "Şuşa - qədim Azərbaycan diyarı", "Bir faciə haqqında iki foto-söhbət", "tarixi faktlar erməni mifərinə qarşı" topluları nəşr edilərək ABŞ və Avropa dövlətlərinin parlamentlərinə, dünyanın məşhur kitabxanalarına göndərilmişdir.

"xocalı soyqırımı: milyon imza-bir tələb" layihəsi çərçivəsində bir milyon Azərbaycan vətəndaşının imzası toplanaraq kitab halında nəşr etdirilmiş, böyük dövlətlərin parlamentlərinə təqdim olunmuşdur. xocalı faciəsi şahidlərinin ifadələri toplanmış və Azərbaycan, ingilis, rus dillərində dərc etdirilmişdir. Faşizm üzərində qələbənin 60 illiyi ərəfəsində keçirilən "Bakı-qəhrəman şəhər" layihəsi çərçivəsində isə ikinci Dünya müharibəsi dövründə Azərbaycan paytaxtının xidmətləri növbəti dəfə dünya ictimaiyyətinə çatdırılmışdır. Azərbaycanda keçirilən seçkilərdə və referendumda müşahidəçilik və "exit-poll" fəaliyyətini də həyata keçirən bu təşkilat insan hüquqları, söz azadlığı, iqtisadiyyat, ekologiya, xəzərin problemləri ilə bağlı bir çox irimiqyaslı layihələr həyata keçirmiş, beynəlxalq konfranslar təşkil etmişdir. Beləliklə Av ciYA çoxşaxəli fəaliyyəti ilə ölkəmizin beynəlxalq aləmdə müsbət imicinin formalaşmasında və Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı istiqamətində inamla irəliləyir.

85 saylı Şamaxı seçki dairəsindən Azərbaycan Respublikasının Milli Məclis üzvlüyünə namizəd Süleymanov Elxan Sirac oğlunun seçkiqabağı platforması

Borc, Öhdəlik, Şərəf, Ölkə. Bu dörd müqəddəs söz siyasətçinin amal və məramını diktə edir. Mənim üçün bu anlayışlar bölünməz vəhdət deməkdir: ruh düşkünlüyü olduqda onu bərpa etmək; inama doğru kiçik bir yol olduqda onu doğrultmaq, ümidsizlik olduqda ümidi oyatmaq.

Ola bilsin, mən bunların hamısının mənasını sizə çatdırmaq üçün kifayət qədər natiqlik istedadına və təxəyyülün poeziyasına malik deyiləm. Buna inanmayanlar deyəcək ki, bunlar yalnız sözlər, yalnız şüar və yalnız parlaq ibarələrdir. Hər xırdaçı, hər demaqoq, hər pessimist, hər böhtançı, hər riyakar, hər ftnəkar və tam müxtəlif xarakterli digərləri hət a istehza və rişxəndlə bu sözlərin əhəmiyyətini azaltmağa cəhd edəcəklər.

Bütün həyatım boyu bu dəyərlər, **Borc, Öhdəlik, Şərəf və Ölkə** mənim bələdçilərim olub. və indi, qırx ildən artıq müddətdə yerli, beynəlxalq fəaliyyətdə olduqdan sonra **mən özümü Şamaxıya, onun vətəndaşlarına və regionuna həsr etmək istəyirəm.** Bu gün mənim diqqətim, mənim öhdəliyim və bütün komandam yalnız bir məqsədi səbirsizliklə gözləyir: **Bakıda Şamaxının irəliləyiş və tərəqqisini təmin etmək üçün Milli Məclisdə bütün Şamaxı vətəndaşlarının istəklərini reallaşdırmaq.**

Elxan Süleymanov mümkün olmayan vədlərlə təəssürat yaratmaq istəyən namizəd deyil. Mən əmək haqlarının və ya təqaüdlərin qəfldən qaldırılacağına

və işsizlik problemlərinin dərhal həll ediləcəyinə söz vermirəm

Elxan Süleymanov vəd verib yerinə yetirməyənlərdən deyil.

Ancaq bir şey artıq çox aydındır: 7 noyabrda, mən həqiqətən Bakıda qapıları açа bilən və Şamaxı vətəndaşlarının ölkəmizin paytaxtında unudulmayacağına inandıra bilən Şamaxı üçün tək namizədəm. 7 **noyabrda, Elxan Şamaxının həqiqətən təcili problemlərilə məşğul olmaq üçün Bakıda zəruri maliyyələşməni tapmağı özünə borc biləcək tək namizəddir.**

Mən Şamaxı vətəndaşlarına yalnız konkret, lakin həyata keçə biləcək bir vəd verəcəyəm. Bu vədi yalnız mən verə bilərəm və yalnız mən yerinə yetirə bilərəm. Mən bunu yalnız şərəf işi deyil, eyni zamanda öz doğma Şirvan torpağımın mərkəzi olan Şamaxı rayonuna xidmət göstərmək kimi hesab edirəm.

Mən 7 noyabrda bütün Şamaxı seçicilərinin dəstəyi ilə bir əsas hədəf anlamaq istəyirəm: **Şamaxı vətəndaşlarının daha çox marağında olduqları yüksək keyfiyyətli ictimai xidmətlərin (su, işıq, yol, kanalizasiya) təcili təmin edilməsi.**

Yerli qərarvericilər və vətəndaş cəmiyyətləri ilə dialoq vasitəsi ilə 5 illik plan tərtib olunmalıdır. Bu planda bütün inşaat investisiyaları xronoloji olaraq nəzərdə tutulmalıdır, burada üstünlük ən pis vəziyyətdə olan və ya əhali üçün vacib olan bütün sahələrə verilməlidir. **Mənim üçün içməli su, qaz, kanalizasiyalar və müasir yollar böyük əhəmiyyət kəsb edir və bu, 21-ci əsrdə insan üçün minimal həyat səviyyəsi deməkdir.**

Mən Şamaxının bir ilə cənnətə çevriləcəyinə söz vermir, lakin ürəkdən inanıram ki, yollar, kanalizasiyalar, su və qazötürücülərinin çəkilməsi, şübhəsiz ki, Şamaxının görünüşünü addımbaaddım dəyişəcək. **Mən iş yerlərini**

artırmaq məqsədilə investisiyaları cəlb etmək üçün Şamaxının imkanlarını artıracağam və ən vacibi, bu, nəhayət Şamaxının bütün vətəndaşlarının rahat həyat standartlarını yüksək səviyyəyə çatdıracaq.

lakin mən bu hədəfə yalnız bütün Şamaxı seçicilərinin dəstəyi ilə nail ola bilərəm. Bu iş tək bir şəxsin səyi olmayacaq, bu, bütün Şamaxı vətəndaşlarının istəyinin nəticəsi olacaq, yəni onlar Bakıda mənim səsimlə bu məqsədlərə nail olacaqlar.

Mənim üçün Şamaxının səsi, vətəndaşların və vətəndaş cəmiyyətinin iştirakı həlledicidir. Buna görə də, **Şamaxıda seçki ofisi açılıb və bu ofisdə Elxanın komandası daim bütün sualları cavablandıracaq və bütün təklifləri nəzərə alacaq.** əlbəttə ki, bu ofs seçkilərdən sonra da açıq qalacaq. Elxan Süleymanov üçün - Şamaxı vətəndaşlarından gündəlik məlumatları dinləmək vacibdir, **çünki mən ictimai pulun əhalinin lazımi real ehtiyaclarına xərcləndiyinə əmin olmalıyam.**

Mən kasıb adam deyiləm. Allahın köməyi ilə yaxşı ailənin məğrur başçısı, uğurlu biznesmen və ruhlanmış siyasətçiyəm. Mənim üçün 7 noyabrda ən vacib fərq: mənim Şamaxıdan namizədliyim şəxsi zənginləşməyə yönəlmir, əksinə, **mən Şamaxı regionuna investisiyalar cəlb etməklə Şamaxının gələcəyinə olan inamımı sübut edəcəyəm.**

7 noyabrdan etibarən mən ictimai məsələlərə və Şamaxının inkişaf və tərəqqisinə öz vaxtımı və enerjimi sərf etməklə hamıya daha çox rifah gətirmək üçün saf niyyətimi həyata keçirəcəyəm.

Beləliklə, qoy birdəfəlik bütün Şamaxıya aydın olsun: Elxan Süleymanov üçün bütün bunlar yalnız **Borc, Öhdəlik, Şərəf və Ölkə ilə** bağlıdır.

Mən sizlərdən biriyəm, sevincinizi və kədərinizi bölüşürəm və həmişə sizin ixtiyarınızdayam!

85 saylı Şamaxı seçki dairəsindən Azərbaycan Respublikasının Milli Məclis üzvlüyünə namizəd Süleymanov Elxan Sirac oğlunun seçicilərə müraciəti

əziz Seçicilər!

Sizi və məni yaxından maraqlandıran Şamaxının gələcəyi üçün etdiyim müraciətə bir neçə dəqiqə vaxt ayırmağınızı xahiş edirəm. Biz hamımız bilirik ki, Şamaxıda problemlər var və onlar öz həllini tapmalıdır. Siz bu problemlərin həllini tələb etdikdə çox böyük tələb yox, sadəcə öz haqqınızı tələb edirsiniz. Bu, Sizin haqqınızdır və mən Sizin öz haqqınıza çatmağınız üçün Sizinlə birlikdə daima çalışacağam.

vətənimizin gözəl bir guşəsi olan Şamaxıda görəcəyim işlərlə bağlı verdiyim vədləri yerinə yetirməyi özümə Borc, Öhdəlik və Şərəf bilirəm. Bunlar yalan vədlər deyil. Mən vəd verib yerinə yetirməyənlərdən deyiləm.

əziz Seçicilər! Bu gün rayonumuzda olan vacib problemləri real maliyyə resursları olmadan həll etmək mümkün deyildir. Bu maliyyə resurslarını tapmaq üçün bütün imkanlarımı səfərbər etməyə söz verirəm.

Şamaxının su, işıq, yol, kanalizasiya problemləri həll olunmalıdır. Bu, xxI əsrdə insan üçün minimal həyat şəraiti deməkdir. Milli Məclisin üzvü seçiləcəyim halda Şamaxıda həyata keçirməyi nəzərdə tutduğum 5 illik plana uyğun olaraq, bu məsələlərin həlli üçün müvafq strukturlarda daima məsələ qaldırıb həllini tapmağa səy göstərəcəyəm.

Şamaxıda yeni iş yerlərinin açılması mənim əsas məqsədlərimdən biridir. Bunun üçün yerli və xarici investisiyaların cəlb edilməsinə bütün imkanlarımı səfərbər edəcəyəm.

Hər biriniz müxtəlif səciyyəli problemlərlə rastlaşıb çətinliyə düşdükdə mən Sizinlə olacağam.

Mən Şamaxının tərəqqisində iştirak etmək, insanların həyat tərzinin yaxşılaşmasına imkanlarımı sərf etmək üçün namizədliyimi irəli sürmüşəm. Milli Məclisdə sizlərin təmsilçisi, istəklərinizi gerçəkləşdirəcək millət vəkiliniz olmağımı 7 noyabrda Sizin Səsiniz həll edəcək. ə gər Şamaxının inkişafı və daha da yaxşı olması sizi maraqlandırırsa, tərəddüd etməyin, Noyabr ayının 7-də, Elxan Süleymanova səs verin, çünki yalnız mən daha fərqli işlər görə bilərəm, və bunu da sizin üçün edəcəyəm.

Gəlin gözləməyək! Doğma Şirvan torpağımızın mərkəzi Şamaxının işıqlı gələcəyini qurmaqda mən Sizin tək və real namizədinizəm. Birlikdə xxI əsr üçün Şamaxını quraq! Gəlin indi xəyallarımızın Şamaxısını birgə gerçəkləşdirək!

Mən sizlərdən biriyəm, sevincinizi və kədərinizi bölüşürəm və həmişə sizin ixtiyarınızdayam!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Protokolu dərc edilmişdir

23.11.2010

Noyabrın 23-də rəsmi dövlət qəzetlərində 7 noyabr 2010-cu il tarixdə keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə (dördüncü çağırış) səsvermənin ümumi yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki komissiyasının Protokolu dərc edilmişdir. Həmin protokola əsasən, 85 saylı Şamaxı seçki dairəsindən Süleymanov Elxan Sirac oğlu Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi parlament seçkilərinin nəticələrini təsdiqlədi

29.11.2011

Azərbaycan Respublikası konstitusiya Məhkəməsi Plenumunun noyabrın 29-da keçirilən iclasında konstitusiyasının 86-cı maddəsinə uyğun olaraq, 2010-cu il noyabrın 7-də Azərbaycan Milli Məclisinə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq olunmasına dair məsələyə baxılması davam etdirilib. xatırladaq ki, konstitusiya Məhkəməsi Plenumunun bununla bağı ilk iclası noyabrın 26-da keçirilmişdi.

konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclasın qərarını elan edib. Qərara əsasən, konstitusiya Məhkəməsi seçkilərin nəticələrini təsdiqləyib. Yalnız ayrı-ayrı dairələr üzrə ümumilikdə 46 məntəqədə səsvermənin nəticələri ləğv olunub ki, bu da dairələr üzrə nəticələrə təsir etmir.

xatırladaq ki, 2010-cu il noyabrın 7-də 4-cü Çağırış Azərbaycan Milli Məclisinə keçirilən seçkilərdə 743 nəfərin namizədliyi qeydə alınıb. Namizədliyi qeydə alınmış şəxslərdən 53 nəfəri namizədliyini geri götürüb. 125 deputat mandatı uğrunda 690 namizəd mübarizə aparıb.

Seçici siyahılarında 4 946 588 nəfər səsvermə hüququ olan vətəndaşın adı olub. Seçkilərdə 2 480 205 seçici (ölkə üzrə seçicilərin 50,14%-i) iştirak edib.

Seçkiləri qeydiyyatdan keçmiş 48 mindən artıq müşahidəçi, o cümlədən MSk-da akkreditə olunmuş 1024 beynəlxalq müşahidəçi izləyib.

MSk 7 noyabr seçkiləri ilə bağlı 20 DSk üzrə 46 seçki məntəqəsində seçkinin nəticələrini ləğv edib, DSk-lar

tərəfndən nəticəsi ləğv olunan məntəqələrin sayı 3 olub.

Seçkilərdə Yeni Azərbaycan Partiyası 71, vətəndaş Həmrəyliyi Partiyası 3, Ana vətən Partiyası 2, Demokratik islahatlar Partiyası 1, Bütöv Azərbaycan xalq cəbhəsi Partiyası 1, Böyük Quruluş Partiyası 1, vətəndaş Birliyi Partiyası 1, ədalət Partiyası 1, Azərbaycan Sosial Rifah Partiyası 1, Ümid Partiyası 1 yer qazanıb. Seçkilərdə qələbə qazanmış digər şəxslər bitərəfərdir.

konstitusiya Məhkəməsi 85 saylı Şamaxı seçki dairəsindən Süleymanov Elxan Sirac oğlunun Azərbaycan Respublikası Milli Məslisinin deputatı seçildiyini təsdiq etmişdir.

XƏBƏRLƏR

“İnsan Hüquqları XXI əsr” Fondunun əməkdaşları Dəmirçi və Ərçiman kəndlərinin sakinlərinə hüquqi yardım göstərmişlər

20.11.2010

www.elkhan-suleymanov.az

85 saylı Şamaxı seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin qalibi olmuş Elxan Süleymanovun təşəbbüsü ilə noyabrın 20-də Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyasına daxil olan “insan Hüquqları xxI əsr” Fondunun prezidenti Şahin camalovun rəhbərliyilə fondun əməkdaşları E.Süleymanovun səlahiyyətli nümayəndəsi Dəyanət Musayevlə birgə Şamaxı rayonunun Dəmirçi və ərçiman kəndlərində vətəndaşlarla görüşmüş, onlara hüquqi yardım göstərmişlər.

Qeyd olunan görüşlər “Şamaxı əhalisinə hüquqi yardım göstərilməsi” layihəsi çərçivəsində həyata keçirilmişdir. Görüş zamanı vətəndaşlar daha çox pay torpaqlarının bölünməsi və istifadəsi zamanı qarşılaşdıqları problemlərdən, Dəmirçi və ərçiman kəndləri arasında mövcud olan torpaq mübahisələrindən danışmışlar.

Görüş zamanı müəyyən olunmuş problemlərlə bağlı geniş hüquqi araşdırmalar aparılır.

Azərbaycan Respublikası Milli Məclisinin yeni tərkibdə iclası olub

29.11.2010

Milli Məclisin mətbuat xidməti.

Azərbaycan Respublikası Milli Məclisinin yeni tərkibdə iclasında Azərbaycan Respublikasının Prezidenti ilham əliyev iştirak edib.

Azərbaycan Respublikasının dördüncü çağırış Milli Məclisinin ilk iclası öz işinə başlayıb. Azərbaycan Respublikası Milli Məclisinin yeni tərkibdə iclasında Azərbaycan Respublikasının Prezidenti ilham əliyev iştirak edib.

iclası Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev açıb. Parlamentin daxili nizamnaməsinə əsasən yeni çağırış Milli Məclisin ilk iclasını aparan ən qocaman deputat Fətah Heydərov iclası açıq elan edib.

Azərbaycan Respublikasının dövlət himni səslənib.

Sonra Milli Məclisin daxili nizamnaməsinə əsasən seçilən deputatların siyahısı oxunub.

Azərbaycan Respublikasının Prezidenti ilham əliyev iclasda nitq söyləyib.

Hesablayıcı komissiyanın tərkibi müəyyən edildikdən sonra Milli Məclisin sədrinin seçkisi keçirilib, Oqtay əsədov dördüncü çağırış Milli Məclisin sədri seçilib. Deputat Ziyafət əsgərov sədrin birinci müavini, Bahar Muradova və valeh ələsgərov isə müavinləri seçilib.

Deputat əli Hüseynov Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Ziyafət əsgərov təhlükəsizlik və müdafə komitəsinin, Ziyad Səmədzadə iqtisadi siyasət komitəsinin, valeh ələsgərov təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Eldar ibrahimov aqrar siyasət komitəsinin, Hadi Rəcəbli

sosial siyasət komitəsinin, Arif Rəhimzadə regional məsələlər komitəsinin, Şəmsəddin Hacıyev elm və təhsil komitəsinin, Nizami cəfərov mədəniyyət komitəsinin, Rəbiyyət Aslanova insan hüquqları komitəsinin, Səməd Seyidov beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədrləri təsdiq ediliblər.

Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi üzvlərinin seçilməsi haqqında

Azərbaycan Respublikası Milli Məclisinin qərarı

Azərbaycan Respublikası Milli Məclisi qərara alır:

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri seçilsinlər:

Abbasov Aydın Abbas oğlu,
Alıyev Sahib Eyvaz oğlu,
əhmədova Gülər Mikayıl qızı,
əliyeva Mehriban Arif qızı,
Feyziyev cavanşir əyyub oğlu,
kərimli Azər Şəmşid oğlu,
Mollazadə Asim Nazim oğlu,
Musabəyov Rasim Nəsrəddin oğlu,
Osmanlı ceyhun Yunis oğlu,
Paşayeva Qənirə ələsgər qızı
Rüstəmxanlı Sabir xudu oğlu,
Süleymanov Elxan Sirac oğlu.

Azərbaycan Respublikası Milli Məclisinin Sədri
O.əsədov,
Bakı şəhəri, 7 dekabr 2010-cu il

Dördüncü çağırış Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin ilk iclası keçirilmişdir

08.12.2010

AzərTAc

Dekabrın 7-də dördüncü çağırış Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin ilk iclası keçirilmişdir.

AzərtAc xəbər verir ki, komitənin sədri Səməd Seyidov deputat həmkarlarını təbrik etmiş və qurumun fəaliyyəti barədə məlumat vermişdir.

Sonra gündəlikdəki qanun layihələri barə-də məlumat verilmişdir. Bildirilmişdir ki, gündəlikdə "türkdilli Ölkələrin Dövlət Başçılarının x Zirvə toplantısının Bəyannaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası və türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" Müqavilənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikası və türkiyə Respublikası arasında Yüksək Səviyyəli əməkdaşlıq Şurasının yaradılması haqqında" Birgə Bəyannamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya prezidentlərinin və Macarıstanın Baş nazirinin Bakı Bəyannaməsinin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında" Müqavilənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafzəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə" və s. qanun layihələri daxil edilmişdir.

komitə sədri layihələr barədə ətrafı məlumat vermiş-

dir.

Çıxış edən deputatlar adları çəkilən sənədlərin Azərbaycan xalqının milli maraqlarına, Azərbaycan - türkiyə münasibətlərinin daha da möhkəmlənməsinə, eləcə də ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasına xidmət etdiyini bildirmişlər.

Sonda qanun layihələri təsdiqlənmək üçün Milli Məclisin müzakirəsinə tövsiyə olunmuşdur.

Milli Məclis qanunvericilik fəaliyyəti ilə ölkəmizin demokratik inkişafına əsaslı töhfələr verəcək

07.12.2010

Milli Məclisin mətbuat xidməti

Dekabrın 7-də Milli Məclisin növbəti iclası keçirildi. Deputatları salamlayan Milli Məclisin Sədri Oqtay Əsədov bildirdi ki, ölkəmizin demokratik inkişafı parlament seçkilərinin də azad və ədalətli keçirilməsinə münbit şərait yaratdı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dördüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisi öz qanunvericilik fəaliyyətində ölkəmizin demokratik inkişafına əsaslı töhfələr verəcək.

İclasda Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi, üzvləri və MSK Aparatının işçiləri də iştirak edirdilər. Milli Məclisin Sədri Oqtay Əsədov bütün deputatlar adından parlament seçkilərinin yüksək səviyyədə keçirilməsinə görə onlara minnətdarlığını bildirdi. Qeyd etdi ki, Azərbaycanın seçki tarixində ilk dəfə olaraq 2010-cu ilin parlament seçkilərində heç bir seçki dairəsində nəticələr ləğv edilməmişdir. Bu, bir daha onu göstərir ki, Azərbaycanda seçki təcrübəsi çox yüksək səviyyədədir.

Deputat vəsiqələrinin ilk dəfə olaraq 2005-ci ildə Milli Məclisdə deputatlara təqdim olunduğunu deyən Oqtay Əsədov bu ənənənin davam etdirildiyini bildirdi.

İclasda çıxış edən MSK-nın sədri Məzahir Pənahov dördüncü çağırış Milli Məclisin ölkəmizin inkişafına öz töhfələrini verəcəyinə əminliyini ifadə etdi. O dedi ki, demokratik prinsiplər əsasında şəffaf və ədalətli seçkilərin keçirilməsi üçün ən əsas məqamlardan biri ölkə başçısının siyasi iradəsidir. Bütün dünyada ar-

tıq özünə vətəndaşlıq qazanmış bir faktor seçkilərin keçirilməsində mühüm rol oynayır. istənilən ölkədə demokratik seçkilərin keçirilməsi üçün orada ölkə rəhbərliyinin siyasi iradəsi olmalıdır. MSk sədri ardıcıl olaraq nümayiş etdirdiyi siyasi iradəyə görə, ölkə başçısı cənab ilham əliyevə minnətdarlığını bildirdi.

Məzahir Pənahov onu da bildirdi ki, parlament seçkilərində 125 deputat yerinə 700-ə yaxın namizəd qeydə alınmışdı. Bu namizədlər arasında 23 siyasi partiyanın nümayəndələri var idi və 125 seçki dairəsinin hamısında demək olar ki, seçkilərin siyasi plüralizm, yüksək siyasi mədəniyyət və siyasi fkirlərin çoxluğu şəraitində keçirilməsi təmin olundu.

Parlamentin işinə uğurlar arzulayan Məzahir Pənahov əmin olduğunu bildirdi ki, dördüncü çağırış Milli Məclis də Azərbaycan xalqına layiqincə xidmət edəcək.

MSk-nın sədri Məzahir Pənahov Milli Məclisin Sədri Oqtay əsədova, Milli Məclis sədrinin birinci müavini Ziyafət əsgərova, müavinləri Bahar Muradovaya, valeh ələsgərova və seçki dairəsi ardıcıllığı ilə deputatlara deputat vəsiqələrini təqdim etdi.

Sonra gündəlikdəki məsələlərə baxıldı. əvvəlcə Milli Məclisin intizam komissiyası təşkil edildi.

Sonra Milli Məclisin komitələrinin sədr müavinləri və komitələrin üzvləri seçildilər.

Bununla da Milli Məclisin iclası başa çatdı.

Milli Məclisdə spiker Oqtay Əsədov Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin yeni tərkibi ilə görüş keçirib

15.12.2010

APA

APA-nın məlumatına görə, görüşdə 12 nəfərlik əsas və ehtiyat üzvlərdən ibarət heyət elan olunub.

Altı nəfərlik əsas heyətə Səməd Seyidov, Əli Hüseynov, Sabir Hacıyev, Qənirə Paşayeva, Rafael Hüseynov və Rövşən Rzayev daxildir. Ehtiyat heyətdə isə Fəzail ibrahimli, Elxan Süleymanov, Aydın Abbasov, Sevinc Fətəliyeva, Sahibə Qafarova və Fazil Mustafa yer alıb. Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin sədri Səməd Seyidov, onun müavini vəzifəsinə isə Əli Hüseynov təyin olunub.

Qeyd edək ki, Azərbaycan parlamentini beynəlxalq qurumlarda təmsil edən nümayəndə heyətləri Milli Məclis sədri tərəfindən müəyyənləşdirilir.

xatırladaq ki, AŞPA-nın qış sessiyasının iclası yanvarın 24-28-də Strasburqda keçiriləcək. Sessiyanın gündəliyinə Azərbaycanda keçirilmiş parlament seçkiləri ilə bağlı məsələ də daxil edilib.

Şamaxı əhalisinə hüquqi yardım

21.01.2011

www.elkhan-suleymanov.az

Azərbaycan Respublikası Milli Məclisinin üzvü Elxan Süleymanovun təşəbbüsü ilə "Şamaxı əhalisinə hüquqi yardım" layihəsi çərçivəsində 21.01.2011-ci il tarixində hüquqşünas qrupu deputatın qərdrgahında saat 10:00-dan etibarən vətəndaşlara pulsuz hüquqi yardım göstərmiş və hüquqi məsləhətlər vermişlər.

Qeyd edək ki, müraciətlər daha çox torpaq mübahisələri, mülkiyyət problemləri, sosial müavinətlər sahəsini əhatə etmişdir.

Müraciət üçün gəlmiş vətəndaşlara istəklərinə uyğun olaraq hüquqi məsləhətlər verilmiş, hüquqi yardımlar göstərilmişdir.

"Azərbaycan 10 il Avropa Şurasında"

Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul olunmasının 10 illiyinə həsr edilmiş kitab
01.02.2011

"Xalq qəzeti"

10 il əvvəl, 25 yanvar 2001-ci ildə Azərbaycan dövləti və xalqı üçün xüsusi əhəmiyyət kəsb edən tarixi hadisə baş vermişdir - Azərbaycan Respublikası Avropa Şurasına tam və bərabərhüquqlu üzv qəbul edilmişdir.

Avropa Şurasına üzv olmaq, bir tərəfdən, Azərbaycan Respublikası üçün müasir dövrdə beynəlxalq aləmdə, o cümlədən Avropa məkanında baş verən proseslərə qoşulmaq, Avropa ölkələri ilə ikitərəfi və çoxtərəfi münasibətləri genişləndirərək daha da inkişaf etdirmək, qlobal problemlərin həllində bilavasitə iştirak etmək üçün əsas faktorlardan olmuşdur.

Digər tərəfdən, belə bir nüfuzlu beynəlxalq təşkilatın üzvü kimi insan hüquqları və əsas azadlıqları sahəsində konvensiyalara qoşulmaq, onlardan irəli gələn öhdəliklərə əməl etmək dünya birliyi tərəfndən Azərbaycanın demokratik dövlət kimi tanınmasında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizdə insan hüquqları sahəsində hüquqi bazanın yaradılmasına, əhalinin sosial təminatının Avropa standartlarına uyğunlaşdırılmasına, Avropa ölkələri ilə siyasi, iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığın daha yüksək mərhələyə keçməsinə təminat vermişdir.

Bütün bu məsələlər kontekstində Azərbaycanın Avropa Şurasına bərabərhüquqlu üzv qəbul edilməsinin 10 illiyi münasibətilə millət vəkili, Azərbaycanın AŞPA-da nümayəndə heyətinin üzvü Elxan Süleymanovun Brüsseldə

ingilis dilində nəşr edilmiş “Azərbaycan 10 il Avropa Şurasında” kitabı diqqəti cəlb edir.

Azərbaycanın Avropa Şurası ilə əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi, bu quruma üzvlük dövründə ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində əldə etdiyi nailiyyətlərlə yanaşı, Avropa Şurası strukturlarında bir sıra məsələlərlə bağlı qarşılaşdığı problemləri və onların həlli yollarını müəllif obyektiv və yığcam formada təhlil etmişdir.

Elxan Süleymanovun “Azərbaycan 10 il Avropa Şurasında”əsərini məntiqi olaraq iki hissəyə bölmək olar.

Birinci hissə Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra Avropa Şurasına üzvlüyə qəbul edilənədək bu beynəlxalq təşkilatla əməkdaşlıq əlaqələrinin formalaşdırılması və inkişaf etdirilməsi dövrünü əhatə edir. Müəllif haqlı olaraq qeyd edir ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra dünyəvi, demokratik, hüquqi dövlət quruculuğunu əsas inkişaf istiqamətləri kimi bəyan etmiş və bu məqsədlərinə nail olmaq üçün sivil dünyaya inteqrasiya, dünya dövlətləri və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələri formalaşdırmağa başlamışdır.

Şübhəsiz ki, Avropa Şurasının insan hüquqları və əsas azadlıqların müdafəsi, dövlət müstəqilliyini yenidən bərpa etmiş ölkələrdə demokratik proseslərin genişləndirilməsi və hüququn aliliyi prinsipinin təmin edilməsi istiqamətində, o cümlədən Avropa məkanında ümumi maraq kəsb edən digər məsələlərin həllində müstəsna rolunu nəzərə alaraq Azərbaycan bu quruma üzv olmaq təşəbbüsü ilə çıxış etmişdir.

Müəllif əsərdə Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın labüdlüyü, ölkəmizin bu qurumda “xüsusi qonaq”statusunda təmsil olunması, Avropa standartlarına uyğun olaraq qanunvericilik sisteminin formalaşdırılması kimi məsələləri şərh etmiş və göstərmişdir ki, Avropa Şurasına üzvlüyə dəvət edilmə Azərbaycan

dövlətinin ciddi səyləri nəticəsində qəbul edilmişdir. kitabın ikinci hissəsi Azərbaycanın Avropa Şurasına qəbul edilməsindən keçən 10 il ərzində bu qurumda ölkəmizin fəaliyyətini əks etdirir. Elxan Süleymanov burada Azərbaycanın milli qanunvericilik sisteminin Avropa standartlarına uyğunlaşdırılması prosesini və Avropa Şurası çərçivəsində Azərbaycan nümayəndə heyətinin aktiv və səmərəli fəaliyyətini dərindən təhlil etmişdir. Bununla yanaşı, müəllif haqlı olaraq, ölkəmizin Avropa Şurası strukturlarında qondarma "siyasi məhbus"problemi ilə qarşılaşmasını, beynəlxalq-hüquqi əsası olmayan bu məsələ ilə bağlı Azərbaycanın ikili standartlara və ayrı-seçkiliyə məruz qalmasını ön plana çəkmişdir. Millət vəkili bu problemlərin aradan qaldırılması istiqamətində Azərbaycan tərəfinin apardığı qətiyyətli mübarizəni oxucuların diqqətinə çatdırmağa müvəffəq olmaqla yanaşı, belə ciddi məsələlərin həlli istiqamətində konkret təkliflər də irəli sürmüşdür.

Dövlət müstəqilliyini bərpa etdiyi andan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə nail olunması Azərbaycan Respublikasının xarici siyasətinin başlıca istiqamətidir. təqdirəlayiq haldır ki, Elxan Süleymanov təqdim etdiyi kitabda ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edən bu məsələyə daha geniş yer ayırmışdır. Milli Məclis üzvü göstərmişdir ki, Azərbaycan tərəfinin ciddi səyləri nəticəsində Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və mahiyyəti ilə bağlı bu beynəlxalq təşkilatda 90-cı illərin əvvəllərində mövcud olan həqiqətdən uzaq, qeyri-obyektiv, ermənipərəst mövqelərin əsassız olması sübuta yetirilmiş və reallığı əks etdirən, müasir beynəlxalq hüquq normalarına əsaslanan münasibət formalaşdırılmışdır. Avropa Şurasının Ermənistan dövlətinin Azərbaycan ərazilərini işğal etməklə yanaşı, azərbaycanlılara qarşı soyqırım, etnik təmizləmə və terrorçuluq kimi cinayətkar fəaliyyətini dünya ictimaiyyətinə çatdırmaq üçün

əlverişlı tribuna olmasını və Azərbaycanın bu tribunadan müvəfəqiyyətlə istifadə etməsini də müəllif diqqətə çatdırmışdır. Azərbaycan parlamentarı daha sonra Avropa Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qərarlardan söz açmış, eyni zamanda vurğulamışdır ki, Avropa Şurası da digər beynəlxalq təşkilatlar kimi bu münaqişə ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etməklə öz missiyasını başa çatmış hesab etmişdir. təəssüf ki, AŞ təcavüzkar Ermənistan dövlətinə qarşı öz arsenalında olan sanksiyaları tətbiq etməkdən yan keçmişdir.

Qeyd etməyə dəyər ki, Elxan Süleymanovun oxucular a təqdim etdiyi bu kitaba ön sözü uzun müddət Belçikanın Avropa Şurasında nümayəndə heyətinin üzvü olmuş və hazırda AŞPA-nın fəxri üzvü, cənab Jan-Pol Anri yazmışdır. kitabın elmi rəhbəri isə 1992-1998-ci illərdə Almaniya daxili işlər nazirinin müavini, 1976-2009-cu illərdə Almaniya Bundestaqının deputatı olmuş, hazırda Almaniya - Azərbaycan əlaqələrinin inkişafına Yardım cəmiyyətinin sədri cənab Eduard lintnerdir. Nəhayət, bildirək ki, Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul olunmasının 10 illiyi münasibətilə 25-26 yanvar 2011-ci ildə Strasburqda keçirilmiş yubiley tədbirləri zamanı millət vəkili, Azərbaycanın AŞPA-da nümayəndə heyətinin üzvü Elxan Süleymanovun "Azərbaycan 10 il Avropa Şurasında"kitabı tədbir iştirakçılarına təqdim edilmişdir. Hesab edirik ki, bu əsərin Azərbaycan dilində də nəşr edilməsi ilə ölkəmizin Avropa Şurasında 10 illik fəaliyyətinin ən mühüm məqamları barədə soydaşlarımız gərəkli məlumat və bilgi əldə edə biləcəklər.

Səməd SEYİDOV,
Milli Məclisin Beynəlxalq münasibətlər komitəsinin sədri, millət vəkili, Azərbaycanın AŞPA-da nümayəndə heyətinin rəhbəri

Milli Məclisdə görüş

10.02.2011

Milli Məclisin Mətbuat xidməti

Fevralın 10-da Milli Məclisin Sədri Oqtay əsədov Avropa Parlamentinin üzvləri ivo vayqlı və Pino Arlaççini qəbul etmişdir.

Spiker qonaqları səmimi salamlayaraq onları Milli Məclisdə görməyindən məmnun olduğunu bildirdi. Qeyd edildi ki, Azərbaycan Avropa itifaqı və onun strukturları ilə əlaqələrin genişləndirilməsinə böyük maraq göstərir. Avratlantik məkana inteqrasiya ölkə Prezidenti ilham əliyevin böyük diqqət yetirdiyi məsələlərdəndir. Heç də təsadüf deyildir ki, bu sahə müstəqil Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən hesab olunur. Nümayəndə heyətlərinin qarşılıqlı səfərləri və bu cür görüşlər əlaqələrimizin daha da dərinləşməsinə xidmət edir.

Spiker belə bir fkri vurğuladı ki, əgər ilk dövrdə əlaqələrimiz Avropa itifaqının Azərbaycana yardımı şəklində idisə, bu gün münasibətlərimiz ikitərəfi, qarşılıqlı əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Heç də təsadüf deyildir ki, 2006-cı ildə ölkəmizlə Avropa itifaqı arasında enerji təhlükəsizliyi haqqında memorandum imzalanmışdır. Qurumun yüksək rütbəli nümayəndələri Azərbaycana tez-tez səfərlər edirdilər. Avropa komissiyasının sədri Joze Manuel Barrozunun ölkəmizə səfəri zamanı tərəfərin maraqlarına cavab verən iki mühüm sənəd imzalanmışdır.

Sədr Avropa Parlamentində bölgədə gedən proseslərə böyük maraq göstərildiyini müsbət hal kimi dəyərləndirərək Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qurumda qəbul

olunmuş qətnaməyə görə qonaqlara öz təşəkkürünü ifadə etdi. Spiker ümidvar olduğunu bildirdi ki, gələcəkdə də Avropa itifaqı və Avropa Parlamenti bu məsələyə obyektiv mövqedən həssaslıqla yanaşacaqlar.

Sədr Şərq tərəfdaşlığı Proqramı çərçivəsində əlaqələrimizin yüksələn xətlə inkişafını da diqqətə çatdırdı. Qeyd edildi ki, proqram çərçivəsində layihə iştirakçıları olan ölkələrin Parlament Assambleyasının - "AvRONESt"in yaradılması istiqamətində də təqdirəlayiq işlər görülmüşdür. Spiker əməkdaşlığımızın böyük perspektivləri olduğunu söylədi.

Görüşdə çıxış edən qonaqlar səmimi qəbul üçün minnətdarlıqlarını ifadə edərək Azərbaycanda gördüklərindən məmnun olduqlarını söylədilər. Qeyd edildi ki, Avropa Parlamenti Qafqazın bu bölgəsinə böyük maraq göstərir və bölgədə gedən prosesləri diqqətlə izləyir. Qurum gələcəkdə də ölkəmizlə əməkdaşlığı davam etdirmək, Avratlantik strukturlara inteqrasiya sahəsində Azərbaycana hər cür köməklik göstərmək niyyətindədir.

Söhbətdə tərəfəri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Görüşdə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri əli Hüseynli, deputat Elxan Süleymanov və digər rəsmi şəxslər iştirak edirdilər.

Şamaxının millət vəkili Elxan Süleymanov rayonun iki təhsil müəssisində tələbələrə özünün təsis etdiyi təqaüdləri təqdim edib

17.02.2011

www.elkhan-suleymanov.az

Azərbaycan Respublikası Milli Məclisinin üzvü Elxan Süleymanovun Azərbaycan Müəllimlər institutunun Şamaxı flialı və Şamaxı Humanitar kollecinin tələbələri üçün təyin etdiyi adlı təqaüdlərin sahibləri məlum olub.

Azərbaycan Müəllimlər institutunun Şamaxı Filialı üzrə adlı təqaüdün sahibləri:

1. Gülalıyev Qismət kərim oğlu
2. Abdullayeva Süsən Qadir qızı

Şamaxı Humanitar kolleci üzrə adlı təqaüdün sahibləri:

1. Rəşidova Ayşən Elşən qızı
2. isgəndərov ilham ismayıl oğlu

təqaüdlər fevralın 17-də adı çəkilən təhsil müəssisələrinin tələbələrinin iştirakı ilə millət vəkili Elxan Süleymanov tərəfndən həmin təqaüdçülərə təqdim olunub.

Millət vəkili Elxan Süleymanov qəhrəman analarla görüş keçirib

03.03.2011

www.elkhan-suleymanov.az

Şamaxıdan olan millət vəkili Elxan Süleymanovun rayonun qəhrəman analarının böyük bir qrupu ilə görüşü keçirilmişdir. Millət vəkili görüşdə iştirak edən 200-dək qəhrəman ananı təbrik etmiş, anaların bu gün Azərbaycan ailəsinin qədim ənənələrinin, safığının qorunmasında, cəmiyyətimizin inkişafında danılmaz rolu olduğunu bildirmişdir. O, bu istiqamətdə aparılan işlərə millət vəkillərinin də öz töhfələrini verməli olduğunu dilə gətirmişdir.

Görüşdə həmçinin, Şamaxı rayon icra Hakimiyyətinin başçısı Nazim ismayılov, mədəniyət şöbəsinin müdiri Məleykə kamilova, rayon qadınlar şurasının sədri Nəzakət Rəzzaqova iştirak etmişdir. tədbirin sonunda qəhrəman analara millət vəkilinin adından təbrik məktubları və hədiyyələr təqdim edilmişdir.

Millət vəkili öz seçicilərinə dəstək verir

www.elkhan-suleymanov.az

Şamaxı rayonu və seçiciləri üçün durmadan çalışan Elxan Süleymanovun bu fəaliyyətləri sırasında hüquqları pozulmuş Şamaxı sakinlərinin hüquqlarının bərpa edilməsinə kömək etmək istiqaməti də mühüm yer tutur. Bu günədək millət vəkilinə inanaraq müraciət edən çoxsaylı Şamaxı sakinlərinə key f yyətli hüquqi yardım göstərilir - hüquqi məsləhətlər verilir, pozulmuş hüquqları bərpa edilir. Millət vəkilinə daxil olan şikayət ərizələri dəqiqliklə incələnir və hüquq pozuntusu aşkar edildiyi halda deputatın səlahiyyətləri çərçivəsində müva f q qurumlara müraciətlər edilir.

Şamaxı rayonu Sabir qəsəbəsi sakini Şıxıyev ə vəz Şıxı oğluna və onun ailə üzvlərinə rayon Aqrar islahat komissiyası tərə f ndən torpaq sahələri ayrılmış və 30.06.2009-cu ildə bu torpaq sahələri üçün "torpaq sahəsinin planı və ölçüsü" hazırlanmışdır. Bu tarixdən 2 ilə yaxın vaxt keçməsinə baxmayaraq vətəndaş bu sənədləri əldə edə bilmirdi. Bununla bağlı dəfələrlə komitənin rayon və regional bölmələrinə müraciət etsə də müsbət nəticə əldə edə bilməmişdir. vətəndaş Şıxıyev ə vəz məsələ ilə bağlı Dövlət torpaq və xəritəçəkmə komitəsinə də müraciət etmişdir. komitə məsələnin araşdırılması və nəticə ilə bağlı vətəndaşa məlumat verilməsi üçün 03.08.2010-cu ildə Şamaxı rayon şöbəsinə rəsmi məktub ünvanlamışdır. Rayon şöbəsindəki yerli məmurlar komitənin müraciətinə də məhəl qoymamış və bununla da vətəndaşın hüquqlarını kobud şəkildə pozmaqda davam etmişlər.

Millət vəkili bütün seçiciləri kimi Şıxıyev ə vəz Şıxı oğlunun probleminə də biganə qalmamış, məsələ ilə bağlı müva f q qurumlara deputat müraciəti ünvanlamış və problemin dərhal həll edilməsini tələb etmişdir. Nəticədə vətəndaşa və onun ailə üzvlərinə torpaq sahələrinin sənədləri təqdim edilmişdir.

Millət vəkili Elxan Süleymanov Novruz bayramı münasibətilə Fatimə və Zəhra Rzayevaları təbrik edib

19.03.2011

www.elkhan-suleymanov.az

Martın 19-da Şamaxının millət vəkili Elxan Süleymanov rayondakı qərargahında Mədrəsə kəndinin balaca sakinləri Fatimə və Zəhra Rzayevaları Novruz bayramı münasibətilə təbrik edib. Millət vəkili hələ yeni il ərəfəsində Şamaxının kiçik yaşlı sakinlərinə bayram hədiyyələri təqdim edərkən, Fatimə və Zəhranı Novruz bayramında da təbrik edəcəyinə söz vermişdi. Balacalara bayram sovqatı təqdim edən millət vəkili onlarla xatirə şəkilləri çəkdirib.

Millət vəkili Elxan Süleymanov şəhid ailələrinə bayram sovqatı təqdim etmişdir

19.03.2011

www.elkhan-suleymanov.az

Şamaxının millət vəkilinin təşəbbüsü ilə Şamaxı rayonunda yaşayan 70 şəhid ailəsinə bayram sovqatı paylanmışdır. Millət vəkili şəxsən Şamaxı sakini, Ağdərə rayonunda döyüşlərdə həlak olmuş şəhid Adil Ağagül oğlu Zülfüqarovun (15.10.1968 - 19.01.1993) atası Ağagül Zülfüqarovun və Qaravəlli kənd sakini, tərtər rayonunda həlak olmuş şəhid Asəf Ağamurad oğlu Rəcəbovun (28.02.1968 - 28.04.1994) anası Firuzə Rəcəbovanın ailəsində olmuş, onlara bayram münasibəti ilə xoş arzularını yetirmiş və Novruz sovqatı təqdim etmişdir.

Şamaxı əhalisinə hüquqi yardımın göstərilməsinin növbəti mərhələsi 14.04.11-ci il tarixində millət vəkilinin təşəbbüsü ilə əhaliyə hüquqi yardım kampaniyası davam edəcək

www.elkhan-suleymanov.az

Şamaxının millət vəkili Elxan Süleymanovun təşəbbüsü ilə 14 aprel 2011-ci il tarixində millət vəkilinin Şamaxıdakı qərargahında hüquqşünaslar qrupu vətəndaşların ərizə və şikayətlərini qəbul edəcək və hüquqi məsləhət verəcəklər. Bununla bağlı müraciət etmək istəyən bütün Şamaxı əhalisi 14.04.11-ci il tarixində saat 10:00-dan etibarən Şamaxı şəhəri Şirvani küçəsi 9 ünvanında yerləşən qərargaha yaxınlaşa bilər və ya əvvəlcədən (0176) 5 14 74 nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Şamaxıda hüquqi yardım günü keçirilmişdir

14.04.2011

www.elkhan-suleymanov.az

14 aprel 2011-ci il tarixində millət vəkili Elxan Süleymanovun təşəbbüsü ilə Şamaxı sakinləri üçün hüquqi yardım günü keçirilmişdir. Hüquqşünas qrupu ilə görüşə 20-yə yaxın vətəndaş gəlmişdi. vətəndaşların əksəriyyətinə hüquqi məsləhətlər verilmiş, bir çoxlarının şikayət ərizələri götürülmüşdür. Müraciətlər əsasən rayonda yol problemi, torpaq mübahisələri, qaz və su təchizatı, məhkəmə qərarlarının icrası ilə bağlı olmuşdur. Bundan başqa vətəndaşlar bir çox qurumlarda onların müraciətlərinə baxılmaması, ərizə və şikayətlərinə cavab verilməməsi ilə bağlı haqlı narazılıqlarını bildirmişlər.

"Avropa İttifaqı və Azərbaycan: strateji tərəfdaşlığa doğru" kitabı çapdan çıxıb

22.04.2011

www.elkhan-suleymanov.az

Azərbaycan Respublikası Milli Məclisinin üzvü Elxan Süleymanovun "Avropa itifaqı və Azərbaycan: strateji tərəfdaşlığa doğru"adlı yeni kitabı çapdan çıxıb. kitabda Azərbaycan - Avropa itifaqı münasibətlərinin inkişaf dinamikası araşdırılır, "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi"çərçivəsində, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq, milli qanunvericiliyin Avropa itifaqı hüquq sisteminə uyğunlaşdırılması, təşkilatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair səyləri münasibətlərin prioritet istiqamətləri kimi təhlil edilir.

kitabda müxtəlif statistik məlumatlardan, rəsmi sənədlərdən geniş istifadə edilib.

Azərbaycan və ingilis dillərində nəşr edilən kitab ümidvarıq ki, Azərbaycan və Avropa itifaqı arasında münasibətlərlə maraqlanan oxucuların ürəyincə olacaqdır.

AVRONEST Parlament Assambleyasının təsis olunması barədə akt imzalanıb
Deputat Elxan Süleymanov qurumun həmsədri seçilib
03.05.2011

APA. Viktoriya Dementyeva

Brüsseldə AvRONESt Parlament Assambleyasının ilk iclasının əsas hissəsi başa çatıb. APA-nın məlumatına görə, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərlərinin çıxışından sonra bu strukturun təsis olunması barədə akt imzalanıb. Daha sonra Avropa itifaqı, Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova və Ukraynadan olan parlamentarlar təşkilatın fəaliyyətinə dair prosedur mexanizmini səsvermə ilə qəbul ediblər.

Avropa Parlamentinin prezidenti bildirib ki, prosedura əsasən, AvRONESt-də qərarlar parlamentarların 2/3 səs çoxluğu ilə qəbul olunacaq. Daha sonra AvRONESt-in həmsədrləri elan olunub. Hər ölkənin bir təmsilçisi, Avropa Parlamentindən isə bolqar deputat kristian viqenin AvRONESt-in həmsədrləri seçiliblər. Azərbaycandan deputat Elxan Süleymanov həmsədr olub.

Parlamentarlar bundan sonra AvRONESt komitə və işçi qruplarının yaradılması məsələsini müzakirə edəcəklər.

xatırladaq ki, iclasda Azərbaycanı Ziyafət əsgərovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edir. Heyətin tərkibinə Milli Məclisin dövlət quruculuğu və hüquq siyasəti komitəsinin sədri əli Hüseynli, deputatlar Gülçöhrə Məmmədova, Elxan Süleymanov, Fuad Muradov və Asim Mollazadə daxildir.

Şamaxıda müharibə veteranları ilə görüş keçirilib

07.05.2011

525-ci qəzet

Şamaxıda millət vəkili Elxan Süleymanovun qərargahında Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyasının (Av ciYA) təşkilatçılığı ilə Şamaxı rayonundan olan II Dünya müharibəsi veteranları ilə görüş keçirilib. Millət vəkili E.Süleymanov Azərbaycan xalqının ikinci dünya müharibəsi illərində göstərdiyi rəşadətdən, müharibədə Bakı nefinin həlledici rolundan danışaraq, bu sırada Şamaxı sakinlərinin də xüsusi rolunu qeyd edib. Həmin dövrdə Şamaxının 43 min nəfər sakininin 28 faizinin müharibəyə könüllü getdiyini vurğulayan millət vəkili, onların demək olar ki, yarıdan çoxunun döyüş meydanlarında həlak olduğunu vurğulayıb. tədbirdə çıxış edən Şamaxı rayon icra hakimiyyəti başçısının birinci müavini Nəsimi Abdullayev, şair Musa Yaqub, 91 yaşlı Muradəli Heydərov müharibə veteranlarını Qələbə günü münasibətilə təbrik edib, onların cəmiyyətin ən əziz, hörmətli insanları olduğunu bildiriblər. Millət vəkili Elxan Süleymanov faşizm üzərində Qələbənin qazanılmasında müstəsna xidmətləri olan veteranlara bayram münasibətilə qiymətli hədiyyələr təqdim edib, onların qayğı və problemləri ilə maraqlanıb. Bildirilib ki, hazırda Şamaxıda 48 ikinci dünya müharibəsi veteranı yaşayır. Mərasim yerli incəsənət ustalarının ifasında musiqi proqramı ilə davam etdirilib.

Seyid Əzim Şirvaninin qəbirüstü abidəsinin əsaslı yenidənqurmadan sonra açılış mərasimi olmuşdur

21.05.2011

www.elkhan-suleymanov.az

Mayın 21-də Şamaxının Şahxəndan qəbiristanlığında görkəmli şair və mütəfəkkir Seyid əzim Şirvaninin qəbirüstü abidəsinin əsaslı yenidənqurmadan sonra açılış mərasimi olmuşdur. Mərasimi giriş sözü ilə qəbirüstü abidənin yenidənqurulmasının təşəbbüsçüsü və dəstəkçisi, Şamaxının millət vəkili Elxan Süleymanov açmışdır. Şamaxı rayon icra Hakimiyyətinin başçısı Asif Məmmədov qonaqları salamlayaraq, tədbirin əhəmiyyətini vurğulamışdır. Azərbaycan MEA-nın akademiki Bəkir Nəbiyev abidənin üzərindəki örtüyü götürmüşdür. Sonra, akademik Bəkir Nəbiyev, millət vəkilləri Qənirə Paşayeva, Sabir Rüstəmxanlı, xanhüseyn kazımlı, bədii qiraət ustası Ağalar Bayramov, Azərbaycan Yazıçılar Birliyinin üzvü Arif Səfa çıxış edərək, S. ə .Şirvaninin Azərbaycan ədəbiyyatındakı rolundan bəhs etmiş, iştirakçısı olduqları hadisənin müstəsna əhəmiyyətini vurğulamışlar.

Şamaxıda Mirzə Ələkbər Sabir günlərinə həsr olunmuş tədbir keçirilib

24.05.2011

APA. 26.05.2011

Şamaxıda Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyasının (AvciYA) və Söz Azadlığını Müdafə Fondunun (SAMF) təşkilatçılığı ilə böyük Azərbaycan şairi Mirzə ələkbər Sabirin yaradıcılığına həsr olunmuş tədbir keçirilib. AvciYA-dan APA-ya verilən məlumata görə, tədbiri SAMF sədri Musa Yaqub açaraq Mirzə ələkbər Sabirin Azərbaycan ədəbiyyatında tutduğu yerdən danışıb. M. Yaqub AvciYA və SAMF-nin gördüyü işlər haqqında məlumat verib. M.Yaqub AvciYA rəhbəri, Şamaxıdan seçilmiş millət vəkili Elxan Süleymanovun təşəbbüsü və dəstəyi ilə əfzələddin xaqaninin Məlhəm kəndindəki abidəsinin və M. ə. Sabirin müəllimi Seyid əzim Şirvaninin qəbirüstü abidəsinin bərpa edildiyini, Şamaxı Humanitar kollecin və Azərbaycan Müəllimlər institutunun Şamaxı flialının tələbələrinə xaqani və Şirvani adına təqaüdlərin təsis edildiyini bildirib. SAMF sədri bildirib ki, hər iki təşkilatın təşkilatçılığı ilə Şamaxıda M.ə Sabir yaradıcılığına həsr olunmuş bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqə mayın 24-də sona çatıb. Müsabiqədə Şamaxı rayonunda təhsil alan şagird və tələbələr iştirak edərək bacarıqlarını nümayiş etdiriblər. M. Yaqub Sabir yaradıcılığına böyük qiymət verərək belə müsabiqələrin ənənəvi olaraq keçiriləcəyini iştirakçıların diqqətinə çatdırıb.

Şamaxı rayon icra Hakimiyyəti başçısının müavini əşrəf Şükürov tədbirin Şamaxı rayonunun ictimai həyatında xüsusi əhəmiyyətə malik olduğunu, şagird və

tələbələrə yeni stimul verdiyini qeyd edib. Şamaxı rayon ziyalısı, flologiya elmləri namizədi Eyvaz Eminalıyev də bu müsabiqənin böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

Yazıçılar Birliyinin təmsilçisi ədalət əsgəroğlu tədbirin təşkilatçılarına Yazıçılar Birliyinin sədri Anarın təbriklərini çatdıraraq, bu xeyirxah missiyanın davamlı olmasını arzulayıb. M. ə. Sabir nəslinin nümayəndəsi şair Musa ələkbərli çıxışında, Sabir irsinə olan hörmət və qayğıya görə tədbirin təşkilatçılarına minnətdarlıq edib.

Münsifər heyətinin sədri, xalq artisti tofiq ismayılov müsabiqənin təşkili və münsifər heyətinin fəaliyyəti haqqında məlumat verərək qeyd edib ki, müsabiqədə Şamaxı rayonunun təhsil müəssisələrinin şagird və tələbələri iştirak ediblər, 10 nəfər qalib adını qazanıb. əməkdar artist Ağalar Bayramov da M.ə.Sabir yaradıcılığından danışıb. Yekun sözü ilə AvciYA prezidenti, millət vəkili Elxan Süleymanov çıxış edib.

E. Süleymanov Sabir şəxsiyyəti, yaradıcılığı, onun Azərbaycan xalqının maarifənməsi istiqamətində gördüyü işlər haqqında ətrafı məlumat verib. AvciYA prezidenti müsabiqə qaliblərinə uğurlar arzulayıb, onlara pul mükafatı, kitablar və diplomlar təqdim edib. Bununla yanaşı, 10 nəfər qalibin hər birinin bir il ərzində, M.ə. Sabirin 150 illik yubileyinədək 50 manat olmaqla təqaüd alacağını bildirib.

M.Ə. Sabir günləri davam edəcək

25.05.2011

www.elkhan-suleymanov.az

Şamaxının millət vəkili Elxan Süleymanov 2011-ci ilin sentyabr ayından - yeni tədris ilindən etibarən, böyük Azərbaycan şairi M.ə. Sabirin yaradıcılığına həsr olunmuş Bədii Qiraət Müsabiqəsinin keçirilməsi təklif ilə çıxış etmişdir. Müsabiqə M.ə.Sabirin anadan olmasının 150 illiyinə həsr olunacaq. Elm, mədəniyyət xadimlərinin, müxtəlif təhsil müəssisələrində təhsil alan şagird və tələbələrin iştirakı nəzərdə tutulan müsabiqənin ümumrespublika səviyyəsində keçirilməsi nəzərdə tutulur.

Bakıda "Siyasi məhbus anlayışının vahid tərifinin qəbul edilməsi zərurəti" mövzusunda beynəlxalq konfrans keçirilib

27.05.2011

APA

Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyası (AvciYA), "insan hüquqları 21-ci əsr Azərbaycan Fondu", insan hüquqlarına dair beynəlxalq standartların təsbiti üzrə birgə işçi qrupu, Məhbusların Reinteqrasiya Assosiasiyası və Azərbaycan ədliyyə Nazirliyinin dəstəyi ilə "Siyasi məhbus anlayışının vahid tərifinin qəbul edilməsi zərurəti" mövzusunda beynəlxalq konfrans keçirilir.

APA-nın məlumatına görə, konfransın sədri, AŞ PA-nın fəxri sədri Jaako laakso deyib ki, bu tədbir beynəlxalq aləmə mövzu ilə bağlı əhəmiyyəti töhfə verəcək.

Prezident Administrasiyasının Hüquq-mühafzə orqanları ilə iş şöbəsinin müdiri Fuad ələsgərov tədbirin əhəmiyyətindən danışaraq bu məsələyə vahid yanaşmanın olacağını söyləyib. ədliyyə nazirinin müavini toğrul Musayev də konfransın "siyasi məhbus" anlayışının meyarlarının müəyyənləşəcəyinə kömək edəcəyinə ümid bəslədiyini söyləyib.

"Avropa Şurasında siyasi məhbus probleminin mahiyyəti" mövzusunda çıxış edən Milli Məclisin deputatı, AvciYA-nın prezidenti Elxan Süleymanov bildirib ki, bəzi təşkilatlar bu məsələ ilə bağlı siyahı tərtib edərkən siyasi maraqlardan çıxış edir. Onun sözlərinə görə, siyasi məhbus anlayışının müəyyənləşdirilməsi beynəlxalq aləmin qarşısında duran ən mühüm məsələlərdən biridir. O, bu məsələyə hüquqi yanaşmanın müəyyənləşəcəyinə əminliyini vurğulayıb.

Belçika konstitusiya Məhkəməsinin hakimi Jan-Pol Murman "Siyasi təşkilatlar tərəfndən hüquqi öhdəliklərin monitorinqi: güclü və zəif tərəfər, siyasi məhbusların monitorinq vəziyyəti" mövzusunda çıxış edib.

tədbirdə bu sahə üzrə beynəlxalq ekspertlər lauri Hanni kaynen, Roman vieruş Elski, Harri Bloed, Edmon Jouve və digərləri "Siyasi məhbus konsepsiyasının tarixi aspektləri", "Siyasi məhbus anlayışının tərif, tənqidi yanaşma" mövzularında çıxış ediblər.

"Siyasi məhbus" anlayışının vahid tərifinin qəbul edilməsi zərurəti

Bakı. 27.05.2011

Beynəlxalq Konfransın nəticələri

Beynəlxalq konfransın təşkilatçıları: Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyası, insan Hüquqlarına dair Beynəlxalq Standartların təsbiti üzrə Birgə işçi Qrupu, insan Hüquqları xxI əsr-Azərbaycan Fondu və Məhkum edilmiş Şəxslərin Reinteqrasiyası Assosiasiyası (Bolqarıstan).

Beynəlxalq konfransda əsas çıxışçılar: Belçika konstitusiya Məhkəməsinin hakimi cənab Jan-Pol Murman; Finlandiyanın Helsinki və tampere Universitetlərinin fəxri professoru lauri Hannikainen; Poznan insan Hüquqları Mərkəzinin Direktoru Dr. Roman vieruşevski; Niderlandın "təhlükəsizlik və insan Hüquqları" (keçmiş "Helsinki Monitor") jurnalının baş redaktoru Dr. Ari Bloed; Rene Dekart Universitetinin professoru Edmond Jouve, Paris, Fransa; kastellon I ceyms Universitetinin prorektoru professor Dr. xuan luis Qomez kolomer, ispaniya.

Beynəlxalq konfransın iştirakçıları:

- dövlətlərin beynəlxalq münasibətlərin bərabərhüquqlu subyekti olmasını, dövlət suverenliyinə hörmət edilməsinin müasir beynəlxalq hüququn imperativ prinsipləri kimi tanınmasını;

- demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas prinsiplərindən birinin insan hüquqları və əsas azadlıqların təmin edilməsindən ibarət olmasını;

- hüququn aliliyinin, üzv dövlətlərin bərabər hüquqa malik olmasının və onlara qarşı hər hansı ayrı-seçkiliyin

yolverilməzliyinin Avropa Şurasının əsas prinsipləri olmasını;

- müasir dövrdə çoxtərəfilik prinsipinə əsaslanan qlobal inkişaf çərçivəsində "siyasi məhbus" məsələsinə dair aydın anlayışın olmasının beynəlxalq münasibətlər üçün zəruriliyini;

- nə universal, nə də regional beynəlxalq təşkilatlar tərəfindən indiyədək "siyasi məhbus" anlayışını özündə əks etdirən sənədlərin qəbul edilməməsini, ümumiyyətlə, beynəlxalq hüquqda bu anlayışın müəyyən edilməməsini və bir sıra nümunələrdə müxtəlif şərhlərə gətirib çıxaran qeyri-müəyyən (mücərrəd) anlayışların əks olunmasını;

- beynəlxalq məhkəmələrin, o cümlədən insan Hüquqları üzrə Avropa Məhkəməsinin öz praktikalarında "siyasi məhbus" anlayışından istifadə etməmələrini nəzərə alaraq, bütün beynəlxalq təşkilatları, xüsusən də insan hüquqlarının müdafəsi sahəsində aparıcı beynəlxalq təşkilat olan Avropa Şurası Parlament Assambleyasını bir daha hüququn aliliyi prinsipinə sədaqət və hörmət nümayiş etdirərək, problemlə bağlı bir sıra ədalətsizlikləri və ayrı-seçkiliyi aradan qaldırmaq məqsədilə: öz plenar iclasında "siyasi məhbus" anlayışını və "siyasi məhbus"ların mövcuduğunu müəyyənləşdirmək üçün konkret, şəffaf, həyata keçirilməsi mümkün olan, bütün üzv dövlətlərə şamil edilə bilən vahid meyarları özündə ehtiva edən sənəd qəbul etməyə çağırır.

Belçika parlamentinin üzvləri Azərbaycanda

06.07.2011

www.elkhan-suleymanov.az

Belçika parlamentinin üzvləri Filip Blanşar, David Geerts, Olivier Henri, Willem-Frederik Schiltz və Fəxri Senator Stef Goris Bakıda səfərdədirlər. Nümayəndə heyətinə Belçika parlamentinin üzvü, Azərbaycan-Belçika parlamentlərarası dostluq qrupunun sədri Filip Blanşar rəhbərlik edir.

Səfər millət vəkili, Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü, "AvRONESt" Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Parlament Assambleyası Sədrinin müavini və büro üzvü**, Azərbaycan-Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elxan Süleymanovun** dəvəti ilə baş tutub.

Belçikalı deputatlar bu gün Azərbaycan Respublikası Qaçqınların və Məcburi köçkünlərin işləri üzrə Dövlət komitəsinin sədri, Baş nazirin müavini əli Həsənovla görüşüblər. Görüş zamanı komitənin sədri əli Həsənov qaçqın və məcburi köçkünlərin mövcud vəziyyəti, onların problemləri haqqında belçikalı deputatlara ətraflı məlumat verib, ölkə rəhbərliyinin onların həyat şəraitinin yaxşılaşdırılması üçün gördüyü işlərdən danışıb. Belçikalı deputatlar da öz növbəsində, Azərbaycanın dünya ölkələrinə daha çox informasiya yaymasının, problemlərin həlli üçün qarşılıqlı səfərlərin edilməsinin, Azərbaycan-Belçika parlamentlərarası dostluq qrupunun işinin gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Qonaqların səfər proqramı davam edir.

Şamaxıda növbəti xeyriyyəçilik tədbiri

07.07.2011

AzərTac

Şamaxıdan Milli Məclisə deputat seçilmiş Elxan Süleymanov artıq rayon sakinləri arasında xeyriyyəçi kimi tanınır.

Bir neçə ay əvvəl Azərbaycanın görkəmli maarifçi şairi Seyid əzim Şirvaninin qəbirüstü abidəsini inşa etdirən, kimsəsiz, xəstə ailələrə baş çəkib onların problemləri ilə maraqlanan, imkansız tələbələrə maddi yardım göstərən E.Süleymanov iyulun 7-də daha bir xeyriyyəçilik tədbiri keçirmişdir. Deputat Şamaxının ucqar Qaleybuğurd kəndində Qarabağ müharibəsi iştirakçısı Mərdan Hacıyevin oğlu Bəhlul Hacıyevə toy şənliyi keçirmişdir.

E.Süleymanovun dəvəti ilə şənlikdə Milli Məclisin bir qrup deputatı, respublikamızın tanınmış ziyalıları, sənət adamları, Belçika-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Filip Blanşar başda olmaqla xarici qonaqlar iştirak etmişlər.

toy mərasimində Elxan Süleymanov, Şamaxı Rayon icra Hakimiyyətinin başçısı Asif Məmmədov, Milli Məclisin deputatı Qənirə Paşayeva və başqaları çıxış edərək yeni ailə həyatı quran gəncləri - Bəhlul və Ramiləni təbrik etmiş, onlara xoşbəxt həyat arzulamışlar. Onlar getdikcə qüdrətlənən Azərbaycanın bir parçası olan Şamaxının inkişafından, insanların həyatının gündən-günə yaxşılaşmasından ifixarla söz açmışlar.

Yeni ailə quranlar üçün deputatın şəxsi vəsaiti hesabına tikiləcək 3 otaqlı fərdi evin təməlqoyma mərasimi olmuşdur.

toy mərasimində respublikamızın tanınmış incəsənət ustaları Azərinin, Zabit Nəbizadənin və başqalarının ifa-

sında səslənən xalq mahnıları və muğamlarımız məclisin xoş ahənginə xüsusi ovqat gətirmişdir.

Elxan Süleymanov jurnalistlərə müsahibəsində xeyriyyəçilik sahəsində gələcək planlarından danışmışdır.

Şamaxının millət vəkili, AVRONEST Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Avropa Şurası Parlament Assambleyasının üzvü, Azərbaycan - Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elxan Süleymanovun Seçki Qərargahı PRESS RELİZ

18.07.2011

www.elkhan-suleymanov.az

Şamaxının millət vəkili, AvRONESt Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Avropa Şurası Parlament Assambleyasının üzvü Elxan Süleymanovun dəvəti ilə Azərbaycanda səfərdə olmuş Avropa Parlamentinin üzvləri, cənab Franko Qaston (Fransa), cənab Ferreyra Fernandez xose Manuel (Portuqaliya) və Belçika Parlamentinin üzvü Alayn Desteks dünən, 17 iyul tarixində səfərlərini başa vuraraq Azərbaycanı tərk etmişdilər. Azərbaycanla tanışlıq və rəsmi görüşlər məqsədilə edilən səfər çərçivəsindəə qonaqlar Milli Məclisin Sədri cənab Oqtay əsədov, xarici işlər Naziri cənab Elmar Məmmədyarov, Azərbaycan Respublikasının Baş Nazirinin müavini, Qaçqınların və Məcburi köçkünlərin işləri üzrə Dövlət komitəsinin sədri cənab əli Həsənov, ARDNŞ-in vitse-prezidenti cənab Elşad Nəsirov və Yeni Azərbaycan Partiyasının sədr müavini, icraçı katibi, millət vəkili əli əhmədovla görüşmüş, helikopterlə Ağdamda yerləşən məcburi köçkün qəsəbəsinə səfər etmişlər. Şamaxının millət vəkili Elxan Süleymanov bu kimi səfərləri Azərbaycan barədə

beynəlxalq təşkilatlarda doğru və obyektiv təsəvvürlərin yaradılması baxımından çox əhəmiyyətli sayır. xatırladaq ki, cənab E.Süleymanovun dəvəti ilə 04-08 iyul tarixlərində Belçika - Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri də Azərbaycana səfər etmiş və rəsmi görüşlər keçirmişdilər. Növbəti bu kimi səfər 19-22 iyul tarixlərində baş verəcək. Avropa Şurası Parlament Assambleyasında Avropa xalq Partiyası fraksiyasının rəhbəri cənab lukas volontenin rəhbərlik etdiyi 11 nəfərdən ibarət qrupun Azərbaycan Respublikasının Prezidenti cənab ilham əliyev tərəfndən qəbulu gözlənilir. Qonaqlar rəsmi görüşlərlə yanaşı, həmçinin Bakı-tifis-ceyhan boru-kəmərinin Aralıq dənizinə istiqamət aldığı yerə - Səngəçal Nef terminalına səfər edəcəklər və Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı üçün faydalana biləcək dinlərarası dialoq və Avropa dəyərlərinə dair dəyirmi masada iştirak edəcəklər.

Şamaxı sakinlərinə hüquqi yardım kampaniyası davam edir

18.07.2011

www.elkhan-suleymanov.az

Şamaxı rayonunun millət vəkili Elxan Süleymanovun təşəbbüsü ilə 18 iyul 2011-ci il tarixində Şamaxıda millət vəkilinin qərargahında rayon sakinləri üçün hüquqi yardım günü keçirilmişdir. Hüquqşünas qrupu ilə görüşə 20-dək vətəndaş gəlmişdir. vətəndaşların əksəriyyətinə hüquqi məsləhətlər verilmiş, bir çoxlarının şikayət ərizələri icraata götürülmüşdür. Müraciətlər əsasən rayonda ev problemi, torpaq mübahisələri, boşanma ilə əlaqədar əmlak mübahisələri, məhkəmə qərarlarının icrası ilə əlaqədar olmuşdur. Bundan başqa vətəndaşlar bir sıra əlaqədar qurumlarda onların müraciətlərinə vaxtında baxılmaması, ərizə və şikayətlərinə cavab verilməməsi ilə bağlı haqlı narazılıqlarını bildirmişlər.

"Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına töhfə verə biləcək dinlərarası dialoq və ya Avropa dəyərlərinə dair" mövzusunda dəyirmi masa keçirilib

21.07.2011

APA

Dini Qurumlarla iş üzrə Dövlət komitəsində (DQiDk) "Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına töhfə verə biləcək dinlərarası dialoq və ya Avropa dəyərlərinə dair" mövzusunda dəyirmi masa keçirilib. APA-nın məlumatına görə, tədbirdə komitə sədri Hidayət Orucov, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Avropa xalq Partiyası fraksiyasının rəhbəri və üzvləri, Azərbaycandakı dini icma rəhbərləri, deputatlar iştirak edib.

DQiDk sədri Hidayət Orucov "Azərbaycanda tolerantlıq ənənələri və dinlərarası dialoq" mövzusunda çıxış edib. O deyib ki, Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini, həm də məzhəb baxımından zəngindir: "Çünki müxtəlif tarixi dövrlərdə çoxsaylı dini-etnik qruplar Azərbaycanda məskunlaşıb, yerli əhali ilə qaynayıb-qarışıb, qohumluq əlaqələri qurub". H. Orucov bildirib ki, indiki dövrdə Azərbaycanda dini vəziyyətin və dini dözümsüzlüyün səviyyəsini müəyyən etmək məqsədilə qeydiyyatdan keçərək rəsmi fəaliyyət göstərən dini icmaların sayına baxmaq kifayətdir: " ə min ola bilərsiniz ki, Azərbaycan hökuməti vətəndaşlarının əqidə seçiminə hörmətlə yanaşmaqla bərabər, dini ekstremizm, dözümsüzlük ideyalarının təbliğinin qarşısını qətiyyətlə alır və bundan sonra da alacaq. Dindən siyasi məqsədlər üçün istifadəyə çalışan, insanları radikallığa çağıran qüvvələrin fəaliyyətini genişləndirməsinə,

xalqımızın yüzillər boyu formalaşmış dözümlülük ənənələrinə xələl gətirməsinə və ölkədəki dini-etiqad azadlığından sui-istifadəsinə yol vermək olmaz". AŞPA Avropa xalq Partiyası fraksiyasının prezidenti lukas volonten isə bəyan edib ki, Azərbaycanda digər dinlərə göstərilən münasibət bütün müsəlman ölkələri üçün nümunə ola bilər. tədbirdə deputatlar Elxan Süleymanov və Rövşən Rzayev, Qafqaz Müsəlmanları idarəsinin, Rus Pravoslav kilsəsinin Bakı və xəzəryanı Yeparxiyasının, "Bakı Dağ Yəhudiləri" dini icmasının və digər dini icmaların rəhbər və nümayəndələri çıxış edərək Azərbaycanın tolerant ölkə olduğunu bildirərək burada dini, milli ayrıseçkiliyin olmadığını vurğulayıblar.

AŞPA-da Avropa Xalq Partiyasının üzvləri Bakıdakı erməni kilsəsində olublar

21.07.2011

APA

Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Avropa xalq Partiyasının Azərbaycanda səfərdə olan üzvləri Bakıdakı erməni kilsəsində olublar. APA-nın xəbərinə görə, bunu Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü, millət vəkili Elxan Süleymanov bildirib. E. Süleymanov deyib ki, qonaqları ziyarət zamanı o özü və Azərbaycanda fəaliyyət göstərən vətəndaş cəmiyyəti nümayəndələri müşayiət edib.

Şamaxının millət vəkili Elxan Süleymanovun təşəbbüsü ilə rayon sakinlərinə bayram sovqatı paylanmışdır

30.08.2011

www.elkhan-suleymanov.az

Şamaxının millət vəkili Elxan Süleymanov hər bayram olduğu Ramazan bayramında da şamaxılıları unutmamışdır. Ramazan bayramı günündə millət vəkilinin təşəbbüsü ilə Qarabağ müharibəsi və 20 Yanvar şəhidlərinin ailələrinə, eləcə də ikinci Dünya müharibəsi iştirakçılarının ailələlərinə bayram sovqatı paylanmışdır. Aksiya çərçivəsində 130-dan artıq ailəyə bayram sovqatı təqdim edilmişdir.

Şamaxının millət vəkili, AVRONEST Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Avropa Şurası Parlament Assambleyasının üzvü, Elxan Süleymanovun qərargahı.
PRESS RELİZ

01.09.2011

www.elkhan-suleymanov.az

Şamaxının millət vəkili, AvRONESt Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Avropa Şurası Parlament Assambleyasının üzvü Elxan Süleymanovun dəvəti ilə Avropa Şurası Parlament Assambleyasının Hüquq Məsələləri və insan Hüquqları komitəsinin sədri cənab kristos Pirqurides və komitənin üzvü xanım Elza Papadimitrio Azərbaycanda səfərdədirlər. Bu gün, sentyabr ayının 1-də qonaqlar istintaq təcridxanası və cəzaçəkmə müəssisələrinə baş çəkəcək, Azərbaycan Respublikasının ədliyyə naziri cənab Fikrət Məmmədov, Azərbaycan Respublikasının Baş prokuroru cənab Zakir Qaralov və Azərbaycan Respublikasının ədliyyə naziri yanında ictimai komitənin üzvləri ilə görüşəcəklər. Sentyabrın 2-də cənab kristos Pirqurides və xanım Elza Papadimitrio bir sıra rəsmi görüşlər keçirəcəklər. Belə ki, qonaqlar Azərbaycan Respublikası Milli Məclisinin sədri cənab Oqtay əsədov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafzə orqanları ilə iş şöbəsinin müdiri cənab Fuad ələsgərov, Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzrə Dövlət komitəsinin sədri cənab Hidayət Orucov tərəfndən qəbul olunacaqlar və Azərbaycanda fəaliyyət göstərən dini icmaların

nümayəndələri ilə görüş keçirəcəklər. Görüşlərin sonunda mətbuat nümayəndələri üçün brifnqin keçirilməsi planlaşdırılır. Qonaqların Azərbaycan Respublikasının prezidenti, cənab ilham əliyev tərəfndən qəbulu da gözlənilir.

xatırladaq ki, cənab kristos Pirqurides Avropa Şurası Parlament Assambleyasında Avropa xalq Partiyası fraksiyasının üzvü kimi 19-22 iyul tarixlərində millət vəkili Elxan Süleymanovun tərəfndən Azərbaycana dəvət edilmiş və Avropa Şurası Parlament Assambleyasında Avropa xalq Partiyası fraksiyasının rəhbəri cənab lukas volontenin rəhbərlik etdiyi 11 nəfərdən ibarət qrupun tərkibində Azərbaycana səfər etməli idi. lakin, o tarixlərdə öz ölkəsinin parlamentində məşğul olduğundan cənab Pirqurides səfərini indi reallaşdıra bilib.

Strasburqa Kiyev hazırlığı

31.08.2011

www.elkhan-suleymanov.az

Şamaxının millət vəkili, AvRONESt Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Avropa Şurası Parlament Assambleyasının üzvü Elxan Süleymanov 29-31 avqustda kiyev şəhərində səfərdə olub. O, Şərq tərəfdaşlığı ölkələrinin AvRONESt PA-da nümayəndə heyətlərinin rəhbərlərinin qeyri-formal görüşündə iştirak edib. Görüşdə Ukrayna və Azərbaycanla yanaşı, AvRONESt PA-da Gürcüstan, Moldova və Ermənistan nümayəndə heyətlərinin rəhbərləri də iştirak edib. kiyevdə keçirilən görüş, AvRONESt PA-nın 14-15 sentyabr tarixdə Strasburqda keçiriləcək ilk sessiyasına hazırlıq məqsədi daşıyıb. Görüş zamanı sessiyada qəbul ediləcək sənədlər müzakirə edilib. Səfər zamanı qonaqları Ukrayna Ali Radasının sədri cənab vladimir litvin qəbul edib.

Belçikada Sabirin heykəli qoyulacaq

29.08.2011

www.elkhan-suleymanov.az

Şamaxının millət vəkili, Azərbaycan-Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elxan Süleymanov 26-28 avqustda Belçikaya səfər edib. O, Belçika-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri cənab Blanşarla görüşüb. Səfər zamanı cənab Blanşarın meri olduğu thuin şəhərində Azərbaycanın böyük şairi M.ə.Sabirin anadan olmasının 150 illiyi münasibəti ilə heykəlinin qoyulması üçün yer müəyyən edilib və Sabir gününün qeyd olunması ilə bağlı tədbirlər planı müzakirə edilib.

Qeyd etmək lazımdır ki, cənab Blanşarın rəhbərliyi altında Belçika-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun 5 nəfər üzvündən ibarət nümayəndə heyəti 04-08 iyul 2011-ci il tarixində Azərbaycan Respublikasına səfər etmişdi. Onlar səfər çərçivəsində həmçinin Şamaxı rayon icra hakimiyyətinin başçısı Asif Məmmədovla görüşmüşdülər. Görüş zamanı Şamaxı və thuin şəhərlərinin qardaşlaşması haqqında razılıq əldə edilmişdi. Odur ki, Şamaxının millət vəkili Elxan Süleymanovun Belçikaya səfəri zamanı Şamaxı və thuin şəhərlərinin qardaşlaşması istiqamətində müvafq sənədlərin qəbul edilməsi və yaxın zamanlarda qarşılıqlı olaraq konkret tədbirlərin keçirilməsi qərara alınıb. Görüş zamanı Belçika və Azərbaycan üçün qarşılıqlı maraq kəsb edən digər məsələlər müzakirə edilib.

www.elkhan-suleymanov.az saytında yeni bölüm fəaliyyətə başlayır

09.09.2011

Sentyabrın 9-dan etibarən, Şamaxının millət vəkili Elxan Süleymanovun şəxsi saytında (www.elkhan-suleymanov.az) yeni bölüm fəaliyyətə başlayır. "Şamaxı Azərbaycan ədəbiyyatında" adlı bu bölümdə Şamaxı torpağının yetirdiyi böyük Azərbaycan şairləri haqqında oxucularımızı geniş məlumatlandıracağıq. Bu qəbildən Seyid əzim Şirvaniyə həsr olunmuş ilk məqaləni akademik Bəkir Nəbiyev xüsusi olaraq saytımız üçün yazmışdır.

Azərbaycan nümayəndə heyəti AVRONEST PA-nın sessiyasında tam tərkibdə iştirak edəcək

09.09.2011

APA

14-15 sentyabrda Strasburqda AvRONESt Parlament Assambleyasının ilk sessiyası keçiriləcək. Şamaxının millət vəkili, AvRONESt PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Elxan Süleymanov başçılığı ilə 10 nəfərlik Azərbaycan nümayəndə heyəti artıq bazar ertəsi, sentyabrın 12-də Strasburqa yollanacaq.

Elxan Süleymanovdan aldığımız məlumata görə sessiya zamanı 29-30 sentyabr tarixində varşavada keçiriləcək Şərq tərəfdaşlığı Sammiti ilə bağlı tövsiyələrin müzakirə edilməsi və müvafq qərarın qəbul edilməsi planlaşdırılır. Bu məqsədlə Siyasi Məsələlər, insan Hüquqları və Demokratiya komitəsi tərəfndən "2011-ci il Şərqi tərəfdaşlıq Sammitinə tövsiyələr: məqsədyönlü fəaliyyət üçün yüksək gözləntilər"ə dair ilkin məruzə hazırlanaraq rəy və təklifər üçün AvRONESt PA komitələrinə göndərilmişdir. AvRONESt PA-nın Siyasi Məsələlər, insan Hüquqları və Demokratiya, iqtisadi inteqrasiya və Ai Siyasətləri ilə Uyğunluq, Enerji təhlükəsizliyi, Sosial Məsələlər, təhsil, Mədəniyyət və vətəndaş cəmiyyəti komitələri tərəfndən məruzə ilə bağlı ilkin rəylər hazırlanmışdır.

Millət vəkili həmçinin qeyd etdi ki, artıq AvRONESt PA-da Ai üzvü olan deputatlar və Şərq tərəfdaşı ölkələrinin nümayəndə heyətləri, o cümlədən Azərbaycan nümayəndə heyəti təqdim edilən sənədlər üzərində ciddi işlər aparmış və bir sıra düzəlişlər və əlavələr təqdim edilmişlər. Hazırda bu sənədlər qəbul

edilmək üçün hazırdır.

Elxan Süleymanov AvRONESt PA üzvləri, əsasən də qurumda Ai-ni təmsil edən deputatlar tərəfndən Enerji təhlükəsizliyi komitəsinin təqdim etdiyi ilkin məruzəyə daha çox düzəlişlər təklif edildiyini vurğuladı. Azərbaycan nümayəndə heyəti bütün təklif edilən düzəlişlərlə bağlı öz mövqeyini açıqlamış və müvafq qaydada öz təklifətini bildirmişdir.

AvRONESt PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Ermənistan nümayəndə heyətinin təqdim etdiyi düzəlişlərə də toxunaraq qeyd etdi ki, bu ölkənin nümayəndə heyətinin təklifəri əsasən Ermənistanın enerji siyasətinə qoşulması, regional iqtisadi inteqrasiya proseslərində və regionun iştirak etdiyi transmilli layihələrdə iştirakı, Şt ölkələri arasında sərhədlərin silinməsi və s. ibarət olmuşdur. lakin, Azərbaycan nümayəndə heyəti israrla bu təklifərin qəbuledilməz olduğunu bildirmiş, Ermənistanın 20% Azərbaycan ərazilərini işğal etməsini, 1 milyondan artıq Azərbaycan vətəndaşının qaçqın və məcburi köçkün həyatı yaşamasını, indiyədək işğal altında olan ərazilərin azad edilməməsini, məcburi köçkünlərin öz yurdlarına qayıtmaq və təhlükəsiz yaşamaq hüquqlarının təmin edilməməsini, bu istiqamətdə Ermənistanın qeyri-konstruktiv mövqe tutmasını, bu dövlətin ümümiyyətlə regionda destruktiv siyasət həyata keçirməsini AvRONESt PA üzvlərinin diqqətinə çatdırmışdır.

Qeyd etməliyik ki, iqtisadi inteqrasiya və Ai Siyasətləri ilə Uyğunluq, Enerji təhlükəsizliyi, Sosial Məsələlər, təhsil, Mədəniyyət və vətəndaş cəmiyyəti komitələrində sənədlərin qəbulu üçün səsvermə ilə bağlı ilk dəfə olaraq yenilik tətbiq ediləcək. Belə ki, bu komitələrdə səsvermə əvvəlcədən internet vasitəsilə aparılacaq. Müvafq komitə üzvlərinin səsverməsi üçün son vaxt həddi kimi Brüssel vaxtı ilə saat 14-00 təyin

edilmişdir.

Millət vəkili E.Süleymanov bildirdi ki, sessiyanın ilk günündə AvRONESt PA-nın Büro iclası keçiriləcək. Büro iclasının gündəliyində AvRONESt PA-nın 2012-ci ilin may ayında Şərq tərəfdaşı ölkələrində keçirilməsi ilə bağlı Azərbaycanın təklif müzakirə ediləcək. Azərbaycan tərəf Prosedur Qaydalarının 7-ci maddəsinə uyğun olaraq, AvRONESt PA-nın növbəti sessiyasının Bakıda keçirilməsi təklif ilə çıxış edib. Büronun 21 iyun 2011-ci il tarixli iclasında iclasında AvRONESt PA-nın növbəti Plenar iclasının 2012-ci ilin may ayında Bakıda keçirilməsi təklif ilə bağlı səsvermə zamanı Prosedur Qaydaları ilə təyin edilmiş səs çoxluğu toplanılmadığından, məsələnin cari ilin sentyabrında Strasburqda keçiriləcək sessiya zamanı yenidən müzakirə edilməsi və səsə qoyulması qərara alınıb.

Şamaxının millət vəkili "Şöhrət" ordeni ilə təltif olundu

E.S.Süleymanovun "Şöhrət"ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Elxan Sirac oğlu Süleymanov "Şöhrət"ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 14 sentyabr 2011-ci il

AVRONEST PA-nın ilk iclası başlayıb

14.09.2011

APA

Sentyabrın 14-də Strasburqda AvRONESt Parlament Assambleyasının (PA) ilk sessiyası başlayıb. APA-nın "AzərtAc" dövlət agentliyinə istinadən verdiyi məlumata görə, sessiyada Milli Məclisin Assambleyadakı nümayəndə heyətinin rəhbəri Elxan Süleymanov, parlamentin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri əli Hüseynli, deputatlardan Məlahət ibrahimqızı, Rasim Musabəyov, Fərəc Quliyev, Sevinc Hüseynova, Rövşən Rzayev, Azər kərimli, Fuad Muradov və Asim Mollazadə iştirak edirlər.

əvvəlcə qurumun komitə və büro iclasları keçirilib, insan haqları, demokratiya, iqtisadi inteqrasiya, enerji təhlükəsizliyi, sosial məsələlər və digər mövzularda fkir mübadiləsi aparılıb. Sentyabrın 15-də isə AvRONESt PA-nın ilk ümumi iclası keçiriləcək.

Avropa Parlamentinin sədri Yeji Buzekin çıxışı ilə başlayacaq iclasda sentyabrın 29-30-da tərəfdaş dövlətlərin varşavada keçiriləcək "Şərq tərəfdaşlığı" sammitinə hazırlığı nəzərdə tutan tövsiyə xarakterli qətnamə və Assambleyanın 2011-2012-ci illər üçün iş planının qəbulu gözlənilir.

AVRONEST Parlament Assambleyasının ilk sessiyasında Azərbaycan və Ermənistan nümayəndə heyətləri arasında gərginlik yaranıb

17.09.2011

APA

"Sentyabrın 14-15-də Strasburqda AVRONEST Parlament Assambleyasının ilk sessiyası keçirilib. Sessiyanın ikinci günü müzakirələr kifayət qədər gərgin oldu".

Bu açıqlamanı APA-ya hazırda Strasburqda olan Milli Məclisin deputatı, AvRONESt PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Elxan Süleymanov verib. O, müzakirələrin dramatik keçdiyini söyləyib: "Sentyabrın 15-də plenar iclas zamanı ötən gün siyasi məsələlər üzrə komitənin iclasında qəbul olunmuş yekun sənədə düzəliş təklifəri müzakirə olundu və səsə qoyuldu. Düzəliş təklifərində bizim üçün mühüm əhəmiyyət kəsb edən məqamlar var idi. Biz ilkin qəbul olunmuş sənəddə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi prinsiplərin yer almasına nail olduq. Ermənipərəst deputatlar isə həmin müddəanın tamamilə silinməsini təklif edirdilər. Biz bu təklifə razılaşmadıq və mətnin əvvəlki redaksiyada qalmasını tələb etdik. Səsə qoyulduqdan sonra biz bu müddəanın ötən gün qəbul olunmuş variantının saxlanılmasına nail olduq.

Digər məsələ isə ondan ibarətdir ki, Ermənistan nümayəndə heyəti başqa bir maddədə yuxarıda sadalanan prinsiplərin "ümumi beynəlxalq prinsiplər" ifadəsi ilə əvəz edilməsini təklif edirdi. Onların bu təklif də plenar sessiya tərəfndən rədd edildi və əvvəlki,

Azərbaycanın mövqeyini əks etdirən müddəalar qüvvədə qaldı".

Elxan Süelymanovun sözlərinə görə, məhz bu mərhələdən sonra Ermənistan nümayəndə heyəti daha da aqressivləşib və bu qərarlara qəti etiraz olaraq "AvRONESt-i boykot etməklə, veto hüququndan istifadə ilə hədələyib: "AvRONESt Parlament Assambleyasının həmsədri olan ukraynalı deputat Boris tarasyuk bu vəziyyətdə kompromis bir müddəanın yekun sənədə salınması təklif ilə bizə müraciət etdi. Azərbaycanınapardığı siyasətə uyğun olaraq ölkəmizin maraqları çərçivəsində hər cür kompromisə gedə biləcəyimizi bildirdik. əlavə etdik ki, kompromis olaraq, Ermənistan nümayəndə heyətinin xahiş etdiyi bir məsələni - münaqişələrin həllində hərbi gücdən istifadə edilməməsi təklifni qəbul edə bilərik. lakin Ermənistan nümayəndə heyətinin sədri qətiyyətlə "xalqların öz müqəddəratını təyin etmək hüququ" prinsipinin sənəddə yer almasını tələb etdi.

Biz bu təklifn qəbul edilməz olduğunu dedik. Mövqeyimizi qəti şəkildə bildirməyimiz, hər iki nümayəndə heyətinin, AvRONESt rəhbərliyinin və AvRONESt-in ermənipərəst üzvlərinin sessiyanın keçirildiyi zalın qabağına toplaşmasına səbəb oldu. Biz isə mövqeyimizdən geri çəkilməmək qərarı vermişdik. AvRONESt rəhbərliyinin də təkidləri və kompromis axtarma cəhdləri ilə sənədə ermənilər tərəfndən yeni bir müddəa təklif olundu - "xalqların öz iradələrini sərbəst və demokratik yolla ifadə etmək hüququ". Biz belə bir müddəa ilə razılaşmadıqda AvRONESt PA-nın vitse-prezidenti, ermənipərəst mövqeyi ilə fərqlənən Saryus volski bu müddəani qəbul etməyəcəyimiz təqdirdə AvRONESt PA-nin plenar iclasının Bakıda keçirilməyəcəyini bildirdi".

Elxan Süleymanovun sözlərinə görə, bu mərhələdə ol-

duqca gərgin keçən debatlarda Azərbaycan nümayəndə heyətinin üzvləri, xüsusilə Fuad Muradov, əli Hüseynli və Asim Mollazadə olduqca fəal iştirak etdilər: "Onlar verilən hər bir təklif diqqətlə təhlil edərək öz mövqelərini bildirirdilər və Azərbaycanın mövqelərini fədakarlıqla müdafə edirdilər. Onlar Şərq tərəfdaşlığı ölkələri nümayəndələrinə yuxarıdan aşağı baxan polşalı deputat Saryus volskini yerinə oturtmağı bacardılar.

Nəticədə biz son təklif də qəbul etməyi öz üzərimizə götürdük, lakin bu təklif yalnız və yalnız konfiktlərlə bağlı olmayan, vətəndaş cəmiyyəti quruculuğu, söz azadlığı ilə əlaqədar bir maddəyə əlavə edilməsi şərti ilə qəbul edə biləcəyimizi bildirdik. Ermənistan nümayəndə heyəti isə bunu yenə də qəbul etmədi. və plenar iclasın sədri kristian vigenin bu məsələdə kompromis əldə etmək üçün məsələnin yenidən Büroda müzakirə edilməsi təklifni irəli sürdü.

Büro iclasında nümayəndə heyətini mən təmsil edirdim. Ermənistan nümayəndəsi iclas zamanı "xalqların öz iradəsini sərbəst və demokratik üsulla ifadə etmək hüququ" ifadəsinin yenidən münaqişələrlə bağlı bəndə salınmasını təkidlə tələb etdi. Buna qəti etirazımı bildirdim. əlbəttə, Ermənistan nümayəndə heyətinin xalqların öz iradəsini sərbəst və demokratik üsulla ifadə etmək hüququ prinsipi üzərində təkidlə durmasının səbəbi aydın idi: Onlar 1991-ci ildə Dağlıq Qarabağ ermənilər tərəfndən keçirilmiş qondarma referenduma istinad edərək gələcəkdə bu müddəadan istifadə etmək, eyni zamanda Avropa Parlamentinin Azərbaycanın ərazi bütövlüyü barədə 2010-cu ilin may ayında qəbul etdiyi qətnamənin müddəalarının zəifəməsinə nail olmaq niyyətində idilər.

Sayrus volski bu müddəa qəbul edilməyəcəyi təqdirdə plenar iclasın Bakida keçirilməyəcəyini bir daha söylədi. Müvafq şəkildə cavablandırıldıqdan son-

ra volski Bürodan 14 sentyabrda qəbul edilmiş AvRONESt PA-nın növbəti sessiyasının Bakıda keçirilməsi ilə bağlı qərarının ləğv edilməsini tələb etdi. lakin Büro onun təklifni rədd etdi. Belə olan halda o Bakının Ermənistan nümayəndələrini dəvət etməkdə maraqlı olduğuna şübhə etdiyini vurğuladı. Bu da inandırıcı olmadığından volski Bakının Ermənistan nümayəndə heyəti üçün təhlükəli yer olduğunu qeyd etdi. Mən onu qərəzli mövqedən çəkilməyə çağırdım, saysız-hesabsız mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən Bakıda on minlərlə erməni mənşəli adamın əmin-amanlıq şəraitində yaşadığını xatırlatdım".

Millət vəkili bildirib ki, müzakirələr nəticəsində təklif olunan kompromis sənəd qəbul edilməyib və Ermənistan nümayəndə heyəti veto hüququndan istifadə edərək sənədin qəbul olunmamasına səbəb olub: Biz növbəti plenar iclasın Bakıda keçirilməsinə nail olmaqla yanaşı Azərbaycanın mövqeyinə zidd olan bir sənədin qəbul edilməməsinə də nail olduq. AvRONESt Parlament Assambleyası Siyasi Məsələlər, insan Hüquqları və Demokratiya komitəsinin məruzəsi Büronun növbəti iclasında müzakirə ediləcək.

14-15 sentyabr 2011-ci il AvRONESt-in Strasburq plenar sessiyası ümumi olaraq Azərbaycanın xeyrinə nəticələndi. AvRONESt Parlament Assambleyasının ilk sessiyası əslində böyük siyasi uğur, ölkəmizin Avropaya inteqrasiyası istiqamətində irəliyə doğru əhəmiyyətli addım kimi dəyərləndirilməlidir. Bu mötəbər qurumun növbəti sessiyasının Bakıda, Avropa itifaqının üzvü olmayan, Şərq tərəfdaşlığı ölkəsinin paytaxtında keçiriləcəyi haqqında qərar isə çox ciddi nailiyyətdir".

AVCİYA-nın nəşr etdirdiyi "Bakı haqqında 20 etüd" kitab-albomu çapdan çıxmışdır

21.09.2011

www.elkhan-suleymanov.az

Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyasının (AvciYA) yeni nəşri işıq üzü görmüşdür. "Bakı haqqında 20 etüd" adlanan bu kitab-albom Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20-ci ildönümünə həsr edilmişdir. kitabın yaradıcı heyəti hər daşına bələd olduğumuz, hər gün küçələrini dolaşdığımız Bakını yeni rakursda - 20 etüddə təqdim edirlər.

kitab-albomun ideya müəllif AvciYA-nın prezidenti, Şamaxının millət vəkili, Azərbaycan Respublikasının AŞPA-dakı nümayəndə heyətinin üzvü, AvRONESt Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Elxan Süleymanov, buraxılışa məsul AvciYA-nın vitse-prezidenti vəli əlibəyov, yaradıcı qrupun rəhbəri Fuad Babayevdir.

lakonik mətnlə və daha çox fotoların dili ilə təqdim edilən "Bakı haqqında 20 etüd"kitab-albomu geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Daha bir xeyriyyə tədbiri

12.09.2011

www.elkhan-suleymanov.az

Bir neçə gün bundan əvvəl Məlhəm kəndində yaşayan Mahmudovlar ailəsi Şamaxının millət vəkili Elxan Süleymanova ərizə ilə müraciət edərək maddi durumun pisliyi ucbatından 5-ci sinif şagirdi Ruslan Mahmudovun və 6-cı sinifdə təhsil alan Təbriz Mahmudovun məktəbli formalarının olmadığını bildirmişdi. Dünən, E.Süleymanovun Şamaxıdakı səlahiyyətli nümayəndəsi Dəyanət Musayev millət vəkilinin tapşırığı ilə Ruslanla Təbrizə məktəbli formalarını təqdim edib.

Seçicilərə hüquqi yardım

04.10.2011

www.elkhan-suleymanov.az

3 oktyabr 2011-ci ildə Şamaxının millət vəkili Elxan Süleymanovun rayon mərkəzində yerləşən qərargahında hüquqşünasların yerli sakinlərlə növbəti görüşü baş tutdu. Görüşdə təqribən 30 vətəndaşın ərizə və şikayətlərinə baxıldı. Bəzi vətəndaşlara yerində hüquqi yardım göstərildi. Bir sıra məsələrlə bağlı isə aidiyyəti orqanlara deputat sorğusu ilə müraciət etmək qərarı verildi.

Elxan Süleymanov: AŞPA-nın İnsan haqları komitəsi siyasi məhbus problemini bütün Avropa ölkələrində araşdıracaq

05.10.2011

APA

Bu gün Strasburqda AŞPA-nın insan haqları komitəsində siyasi məhbus meyarlarının müəyyənləşdirilməsi və məruzələrin bölünməsi məsələsinə baxılıb. Bu barədə APA-ya AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü, millət vəkili Elxan Süleymanov məlumat verib. E. Süleymanov bildirib ki, iclasda ciddi müzakirələr olub. AŞPA-nın Hüquq məsələləri və insan haqları komitəsinin sədri kristos Pirqurides Azərbaycana son səfəri barədə məlumat verib. k. Pirqurides bildirib ki, Azərbaycan hökuməti məruzəçilərlə əməkdaşlıq etməyə, onlara şərait yaratmağa hazırdır. lakin Azərbaycan hökuməti çox təəccüb və təəssüf hissi ilə qeyd edir ki, nə üçün siyasi məhbus problemi ilə bağlı 47 üzv ölkədən yalnız Azərbaycan seçilir. Ona görə də "Azərbaycanda siyasi məhbus məsələsinin araşdırılması"adlı məsələnin "AŞ üzv dövlətlərdə siyasi məhbus probleminin araşdırılması"adlandırılması məqsədəmüvafq sayılır. "Bundan sonra məsələ səsə qoyuldu və 2-3 deputatın etirazı olsa da, qəbul edildi. Qərara alındı ki siyasi məhbus problemi Azərbaycanda yox, AŞ üzv olan bütün dövlətlərdə araşdırılsın. Hesab edirəm ki, bu, Azərbaycan hökumətinin uzunmüddətli və gərgin işinin nəticəsidir. Bununla da bizə qarşı ikili standarta, qərəzli mövqeyə son qoyuldu", - deyə deputat vurğulayıb. E. Süleymanov deyib ki, növbəti iclaslarda siyasi məhbus probleminin araşdırılması və meyarlar üzrə məruzəçinin

müəyyənləşdirilməsi məsələsinə baxıla bilər.

E. Süleymanov bildirib ki, 2005-ci ildə Marlkolm Bryus Azərbaycanda siyasi məhbus məsələsindən alver kimi istifadə edilməsini nəzərə alaraq məsələni dondursa da, 2007-ci ildən Azərbaycana qarşı qərəzli mövqeyi olan bir neçə deputatın təşəbbüsü ilə məsələ yenidən gündəmə gətirilib. 2009-cu ildə kristoferŞtrasser Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçi təyin olunub: "Məsələ burasındadır ki, 2007-ci ildən bu günədək AŞPA Bürosu və Hüquq məsələləri və insan hüquqları komitəsində bu məsələ 9 dəfə müzakirə edilib. Meyarların müəyyənləşdirilməsi ilə bağlı Büro hər dəfə qərar verib və məsələyə yenidən baxılması üçün insan hüquqları komitəsinə göndərib. Hər dəfə də bu məsələlərdə Azərbaycana qarşı qeyri-obyektivlik və ikili standartlarla yanaşılıb. lakin sonuncu dəfə iyun ayında Avropanın 36 dövlətinin nümayəndələrinin imzası ilə göndərilmiş sənəd Büroya daxil olub. Büro yenidən bu meyarların müəyyənləşməsi və məruzələrin bölünməsi məsələsinə yenidən baxılmasını komitədən xahiş edib. Nəhayət bu gün məsələyə nöqtə qoyuldu və komitə tərəfndən çoxdan gözlənilən qərar qəbul edildi".

Belçikada Mirzə Ələkbər Sabirə heykəl ucaldılacaq

15.10.2011

APA

Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü münasibətilə Şamaxı rayonunda tədbir keçirilib. APA-nın məlumatına görə, tədbirdə Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyasının prezidenti, Şamaxı rayonundan Milli Məclisə deputat seçilmiş Elxan Süleymanov çıxış edərək müstəqillik illərində ölkəmizin əldə etdiyi uğurlardan, Heydər əliyev və prezident ilham əliyevin rəhbərliyi ilə müstəqilliyin möhkəmlənməsi və dövlət quruculuğu sahəsində görülən işlərdən danışıb. Rayon icra Hakimiyyətinin təhsil, mədəniyyət və turizm şöbələri rəhbərlərinin iştirak etdiyi tədbirdə millət vəkili tələbə və şagirdlərə fərdi təqaüdünü, pul mükafatı və qiymətli hədiyyələr verib, təhsilin inkişafına dəstək məqsədilə xeyriyyə tədbirlərini bundan sonra da davam etdirəcəyini bildirib. O, tədbirdə bu il ali məktəblərə keçirilən qəbul imtahanlarında 600-dən çox bal toplayaraq tələbə adını qazanmış 6 şamaxılı gəncin hər birinə 100 manat təqaüd verib və onlara təhsil aldıqları 4 il ərzində hər ay 100 manat təqaüd ödəyəcəyini bildirib. tədbirdə millət vəkili Qafqaz Universitetinin bakalavr pilləsini bitirərək Almaniyanın Flensburq Universitetinin avropaşünaslıq fakültəsinə daxil olan Şamaxı sakini cəlal kərimova 1000 avro pul mükafatı verib və onun magistratura təhsili alacağı iki il ərzində təhsilinə mane olmadan Almaniyada aylıq məvacibi 1000 avro olan işlə təmin etdiyini bildirib. E.Süleymanov Azərbaycan Müəllimlər institutunun Şamaxı filialı və Şamaxı Humanitar kollecinin 4 tələbəsinə

özünün təsis etdiyi xəqani və Sabir təqaüdlərini verib. Bundan əlavə tədbirdə M.ə.Sabir və S.ə.Şirvani yaradıcılığına həsr edilmiş bədii qiraət müsabiqəsinin qalibi olmuş 12 şagirdə təqaüd və hədiyyə verilib. Millət vəkili E.Süleymanov 1991-ci ildən bəri 18 oktyabr-Müstəqillik günündə anadan olan 15 uşaq və gəncin hər birinə qarşıdan gələn bayram münasibətilə pul mükafatı və qiymətli hədiyyə verib. Həmçinin, E.Süleymanov M.ə.Sabirin anadan olmasının 150 illik yubileyi münasibətilə Belçikada onun heykəlinin ucaldılması üçün qarşı tərəfə razılıq əldə etdiyini və bu günlərdə Belçikanın thuin şəhərində şairin heykəlinin təməlqoyma mərasimində iştirak etmək üçün bu ölkəyə səfər edəcəyini bildirib. Abidənin gələn ilin mayında açılışı olacaq.

Şamaxıda Qarabağ əlilinin oğlu üçün tikilmiş evin açılışı olub

Trend. 05.11.2011. M.Əliyev

Şamaxı rayonunda şənbə günü Qarabağ əlilinin yeni ailə həyatı qurmuş oğlu üçün tikilmiş evin açılışı olub.

trend-in məlumatına görə, rayonun Qaleybuğurt kəndi ərazisində Qarabağ əlili Mərdan Hacıyevin oğlu Bəhlulun ailəsi üçün inşa olunan mənzil Şamaxının millət vəkili Elxan Süleymanovun təşəbbüsü və şəxsi təşkilatçılığı ilə tikilib.

Açılış mərasimində millət vəkili Süleymanovla yanaşı, Şamaxı rayon icra Hakimiyyətinin başçısı Asif Məmmədov, həmçinin Belçika-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Filip Blanşar iştirak edib.

Mənzilin açılışından əvvəl qonaqların iştirakı ilə qurban kəsilib.

Sonra Süleymanov çıxış edərək Qarabağ uğrunda sağlamlığını itirmiş Mərdan Hacıyevin qəhrəmanlığından, onun nümunəvi insani keyfiyyətlərindən danışıb. icra başçısı Məmmədov isə təşəbbüsə və göstərdiyi köməyə görə Süleymanova təşəkkür edib.

O bildirib ki, əlil, həmçinin aztəminatlı insanların problemləri hər zaman diqqət mərkəzində olmalıdır.

Belçika-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Filip Blanşar çıxışında bildirib ki, mənzilin tikilməsi Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və onların ailə üzvlərinə göstərilən diqqətin nümunəsidir. O yeni ailə həyatı qurmuş gənclərə hədiyyələri təqdim edib. Blanşar hər dəfə Şamaxıya gəldiyi zaman çox sevindiyini, buranın insanlarına bağlandığını deyib.

Gənclərin toy mərasimi bu ilin yayında baş tutub.

Qafqaz Universitetində Heydər Əliyev haqqında kitabın təqdimatı olub

11.11.2011

525-ci qəzet

Qafqaz Universitetində "Heydər əliyev: Azərbaycanın dövlət müstəqilliyi əbədidir" (türk dilində) kitabının təqdimatı olub. Milli Məclis deputatlarının, tanınmış alimlərin, təhsil işçilərinin, tələbələrin iştirak etdikləri mərasimdə universitetin rektoru, professor əhməd Saniç ümummilli lider Heydər əliyevin tarixi xidmətlərini vurğulayıb. Bildirib ki, ümummilli lider haqqında nə qədər kitablar, elmi əsərlər yazılsa da, bu dahi şəxsiyyətin fəaliyyətinin araşdırılması üçün kifayət etmir. Rektor H.əliyevin Azərbaycanın müstəqil dövlət quruculuğu yolunda atdığı addımlardan da söz açıb. Milli Məclisin deputatı, kitabın elmi redaktoru Elxan Süleymanov isə Heydər əliyev irsini Araşdırma Mərkəzinin fəaliyyətindən söz açıb. Onun sözlərinə görə, Azərbaycan xalqının Ümummilli lideri Heydər əliyevin zəngin irsinin öyrənilməsi və təbliği 2004-cü il may ayının 10-da - Ulu Öndərin ad günündə yaradılmış Heydər əliyev irsini Araşdırma Mərkəzinin əsas fəaliyyət sahəsidir. Böyük Heydər əliyevin zəngin irsini 49 dildə internet vasitəsilə dünya oxucularına çatdıran Mərkəzin fəaliyyətinin mühüm istiqamətlərindən biri kitab nəşridir. Mərkəzin nəşriyyat qrupu tərəfndən müxtəlif dillərdə onlarla kitab, broşür və buklet nəşr edilib: "Yalnız 2011-ci ildə nəşriyyat qrupumuz tərəfndən Azərbaycan və ingilis dillərində "Azərbaycan vahid və bölünməz Avropada", Azərbaycan və gürcü dillərində "Heydər əliyev: Gürcüstan və Azərbaycan xalqlarının dostluğu dünyada nümunədir" və Azərbaycan və ingilis dillərində "Bakı-

Brüssel (Azərbaycan-Avropa itifaqı münasibətləri)" adlı kitablarımız nəşr olunub". Onun sözlərinə görə, "Heydər əliyev: Azərbaycanın dövlət müstəqilliyi əbədidir" kitabı Azərbaycan Respublikasının dövlət müstəqilliyinin türkiyə Respublikası tərəfndən tanınmasının 20 illiyinə həsr edilib. kitabın türk dilində tam versiyası, ingilis dilində isə bütün sənədlərin qısa məzmunu təqdim olunub. Bu kitab Mərkəzin türk dilində təqdim edilən ilk böyük layihəsidir. kitabda Ümummilli lider Heydər əliyevin tərcümeyi-halı, 1993-2003-cü illəri əhatə edən 52 çıxış və müraciəti, Azərbaycan-türkiyə münasibətləri haqqında tarixi arayış, məlumat-soraq materialları və foto-sənədlər yer alıb. Digər çıxış edənlər müstəqil dövlətimizin yaranmasında, inkişafında və dünyaya tanınmasında dahi şəxsiyyət Heydər əliyevin müstəsna rolundan danışıb, "Heydər əliyev: Azərbaycanın dövlət müstəqilliyi əbədidir" kitabının əhəmiyyətindən bəhs ediblər. tədbirin sonunda yaradıcı qrupun rəhbəri Fuad Babayevə Qafqaz Universitetinin fəxri plaketi təqdim olunub.

MÜRACİƏT VƏ ÇIXIŞLAR

Azərbaycan Respublikası Milli Məclisinin üzvü Elxan Süleymanovun Şamaxı şəhərində seçicilər qarşısında birinci hesabat çıxışı olub

29.12.2010

www.elkhan-suleymanov.az

85 saylı Şamaxı seçki dairəsindən Azərbaycan Respublikası Milli Məclisinin üzvü Elxan Süleymanov Yeni il bayramı ərəfəsində - 29 dekabr tarixində rayon seçiciləri ilə görüşüb.

Ötən dövr ərzində görülən işlərlə bağlı seçicilərə məlumat verən Elxan Süleymanov bildirdi ki, tezliklə rayonun Avaxıl kəndinə 3 kilometrlik yolun çəkilməsi işinə başlanacaq. Həmin kəndə 3 kilometrlik qaz xətinin çəkilməsi ilə bağlı «Azəriqaz» istehsalat Birliyinin direktoru cənab əkbər Hacıyevə müraciət edilib və razılıq əldə olunub. Avaxıl kəndində feldşer-mama məntəqəsinin inşası həll edilmək ərəfəsindədir, kəndin məktəb binasının qızdırılması ilə əlaqədar Ekologiya və təbii Sərvətlər Naziri cənab Hüseynqulu Bağırova müraciət olunub. Bu problem tezliklə həllini tapacaq.

Çuxuryurd və Göylər kəndlərində 2 ədəd bankomat quraşdırılması ilə bağlı Dövlət Sosial Müdafə Fondunun sədri Səlim Müslümova müraciət edilib. Deputat E.Süleymanov qeyd etdi ki, seçki kampaniyası dövründə Muğanlı kəndindən olan seçicilər torpaq sürüşmələri nəticəsində qəzalı vəziyyətə düşmüş evlərin bərpası ilə bağlı ona müraciət etmişdilər. E.Süleymanov vurğuladı ki, bu məsələ ilə əlaqədar Fövqəladə Hallar Naziri cənab kəmaləddin Heydərovla görüşüb. cənab nazir 362 evin bərpasına başlanmasına razılıq verib. Bu evlər mərhələ-mərhələ bərpa ediləcəkdir.

Milli Məclis üzvü Göylər kənd xəstəxanasının gələn

ilin ortalarından etibarən əsaslı təmiri və yenidən qurulması ilə bağlı Səhiyyə Naziri cənab Oqtay Şirəliyevə müraciət etdiyini bildirdi. Bu məsələ ilə bağlı tam razılıq əldə olunub.

E.Süleymanov Mədəniyyət və turizm Nazirliyində Şamaxı rayonunun durumunu öyrənmək məqsədilə nazirliyin aparat rəhbərinin başçılığı ilə xüsusi komissiyanın yaradıldığını vurğuladı. 2011-ci ildə Aşıq Şərbətin və xanəndə Mirzə Məhəmmədhəsənin yubileylərinin keçirilməsi qərara alınıb. Deputat qeyd etdi ki, Məlikçobanlı kənd kitabxanasında 50 ildən bəri çalışan əfşan Alışanovaya «Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi» fəxri adının verilməsi üçün nazir əbülfəs Qarayevə müraciət olunub. O, həmçinin qeyd etdi ki, Meysəri kəndindən olan müəllim ailəsinin torpaq sahəsi ilə təmin edilməsi və bir məscidin tikintisi ilə bağlı Rayon icra Hakimiyyətinin Başçısı Nazim ismayılovdan razılıq alınıb.

Milli Məclisin üzvü Elxan Süleymanov qeyd etdi ki, görkəmli Azərbaycan şairi xaqaninin Məlhəm kəndindəki abidəsinin ətrafının abadlaşdırılması (əraziyə asfalt salınması və işıqlandırılması), şair Seyid əzim Şirvaninin məzarının abadlaşdırılmasını öz üzərinə götürüb. (Onu da qeyd edək ki, 29 dekabrda millət vəkili xəqaninin abidəsinin rayon rəhbərliyinin, MEA-nın həqiqi üzvü Bəkir Nəbiyevin, xalq şairi Musa Yaqubun, xalq artisti Rasim Balayevin və digər tanınmış ziyalıların iştirakı ilə baş tutan açılış mərasiminə qatılıb) Elxan müəllim bildirdi ki, Şamaxıda təhsil prosesinə yardım göstərmək məqsədilə Azərbaycan Müəllimlər institutunun Şamaxı flialında və Şamaxı Humanitar kollecində təhsil alan əlaçı tələbələr üçün Sabir və xaqani təqaüdləri təsis edib. Bu təqaüdlər hər ay təhsildə fərqlənən əlaçı tələbələrin hesabına köçürüləcək. Şamaxı rayonunun uşaq bağçalarında tərbiyə olunan 1135 nəfər

uşaq da yaddan çıxarılmayıb, onlara yeni il hədiyyələri təqdim olunub.

Deputat həmçinin bildirdi ki, Şamaxı rayonuna xarici sərmayə qoyulması və yeni iş yerlərinin yaradılması ilə əlaqədar Almaniya, Fransa, türkiyə və irlandiyaya səfərlər edib. Fevral ayında üzümçülük və şərabçılığın, eləcə də maldarlığın, qoyunçuluğun, quşçuluğun və digər kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi ilə əlaqədar rayona xarici sərmayədarların səfəri gözlənilir.

E.Süleymanov söylədi ki, rayonun futbol komandası idman geyimləri ilə təmin edilib, Şamaxı taekvandoçuları üçün ən geniş imkanlar yaradılması məsələsi Azərbaycan taekvondo Federasiyasının I vitse-prezidenti cənab Füzuli Musayevlə müzakirə edilib.

Elxan Süleymanov qeyd etdi ki, onun təşəbbüsü ilə 1918-ci il Şamaxı soyqırımı ilə bağlı beynəlxalq elmi konfrans keçiriləcək, rəhbərlik etdiyi Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyasının tərkibinə daxil olan Söz Azadlığını Müdafə Fondu isə Sabir şeirlərinin ifaçılarının müsabiqəsini və Sabir günlərini təşkil edəcək.

Milli Məclis üzvü toplaşanların nəzərinə çatdırdı ki, hüquqşünaslar Dəmirçi və ərçiman kəndlərində, eləcə də Sabir qəsəbəsində şikayətçilərin problemləri ilə tanış olublar. Növbəti ildən isə ayda bir dəfə onun Şamaxı şəhərindəki qərargahında rayon əhalisi üçün hüquq maarifçiliyi və yardımı ilə bağlı qəbullar keçiriləcək.

Elxan Süleymanov bildirdi ki, rayon sakinlərini düşündürən problemlərlə bağlı təhsil, nəqliyyat, kənd təsərrüfatı, iqtisadi inkişaf nazirlərinə, «Azərenerji», «Azərsu», Meliorasiya və Su təsərrüfatı səhmdar cəmiyyətlərinin rəhbərlərinə məktubla müraciətlər ediləcək.

Azərbaycan Respublikası Milli Məclisinin üzvü Elxan Süleymanov vurğuladı ki, ölkə parlamentində Şa-

maxını təmsil etməyindən qürur duyur və seçicilərinin problemlərinin həllini özünün əsas vəzifələrindən hesab edir.

Qeyd olundu ki, seçicilərlə hesabat xarakterli görüşlər gələcəkdə də davam etdiriləcək.

29 dekabrda xalq artisti Mələkxanım Eyyubovanın iştirakı ilə Şamaxı ulduzlarının konserti də Elxan Süleymanovun təşəbbüsü və təşkilatçılığı ilə baş tutdu.

Milli Məclisin üzvü Elxan Süleymanovun Şamaxı seçiciləri qarşısında ikinci hesabat çıxışı

25.02.2011

www.elkhan-suleymanov.az

əziz seçicilərim!

Siz mənə səs verdiniz, mənə etibar etdiniz, inandınız və mən millət vəkili seçildim. Mən seçki kampaniyası dövründə sizə bildirmişdim ki, mən yalan vədlər verənlərdən deyiləm, Şamaxını tezliklə cənnətə çevirəcəyimə söz vermirəm, lakin əminliklə bildirmişdim ki, sizin problemlərinizin həlli üçün müvafq strukturların və nazirliklərin qapısını döyəcək, sizin problemləri onlarla müzakirə edəcəyəm.

Mən 29 dekabr 2010-cu il tarixində sizə birinci hesabatımda gördüyüm işləri məruzə etdim. Mən 29 dekabra qədər Fövqəladə Hallar Naziri, Sosial Müdafə Fondu, "Azəriqaz", Ekologiya və təbii Sərvətlər Naziri, Mədəniyyət Naziri, Səhiyyə Naziri və təhsil Naziri ilə görüşmüşdüm və onların qarşısında qaldırdığım problemlərin nə yerdə olması barədə yenidən maraqlanmışam. Onlar Şamaxının iqliminə görə hazırda işə başlaya bilmirlər, tezliklə başlayacaqlar. Daha doğrusu - Sosial Müdafə Fondu bankomatları qoyub, Avaxıl kənd məktəbində Ekologiya Nazirliyi istilik sistemini təşkil edir və Fövqəladə Hallar Nazirliyi evlərin tikintisi ilə məşğuldur.

Mən yanvar - fevral aylarında "Azərsu"nun sabiq rəhbəri ilə görüşdüm. Bilirsiniz ki, Şamaxıda həm şəhərdə, həm də kəndlərdə su problemləri mövcuddur. O, Mədrəsə qəsəbəsində su xətinin çəkilişinin tam həllinə dair mənə söz verdi.

"Azərenerji"nin prezidenti Etibar Pirverdiyev Şamaxının ərazisində elektrik naqilləri və dirəkləri ilə bağlı problemin mart ayından aran kəndlərində, iyun ayından isə dağ kəndlərində aradan qaldırılmasına söz vermişdir.

əmək və əhalinin Sosial Müdafəsi Naziri Füzuli ələkbərovla müzakirə vaxtı Şamaxıda 60 aztəminatlı ailənin hamısı da olmasa, böyük əksəriyyətinə ev tikilməsinə, əlillərin maşınla təmin olunmasına əmr verdi. Ancaq ev tikilməsi üçün Rayon icra Hakimiyyəti ev növbəsində olanları araşdırmalı, bunlar fərdi ev olduğundan, hər bir ailənin ən azı 5 sot torpaq sahəsi olmalıdır.

Nəqliyyat Naziri Ziya Məmmədovla görüşərək Şamaxı-Göylər-Padarçöl yolunun çəkilişi ilə bağlı müzakirə etdim. Ziya müəllim mənə əminlik verdi ki, maliyyə resurslarını tapan kimi bu yolun inşasını bərpa edəcək.

Mən Şamaxıda 2 və 6 saylı orta məktəblərin qəza şəraitində olmasını nəzərə alaraq Fövqəladə Hallar Naziri ilə görüşmüşəm. cənab nazir həmin məktəblərin təmirinə kömək edəcəyinə söz verdi.

taekvondo Federasiyasının vitse-prezidenti Füzuli müəllim söz verdi ki, taekvondo üçün hər bir şərait yaradılacaq - bina, təmir, avadanlıq, təchizat. Artıq bu sahədə işə başlanılıb.

3 aylıq fəaliyyətimdə mənə Şamaxı seçicilərindən 150-yə yaxın yazılı, 100-dən artıq isə şifahi müraciətlər olunmuşdur. Bu müraciətlərin böyük əksəriyyəti əsasən 2 qismə bölünür:

- fərdi yardımlar;
- işsizlik problemi.

Fərdi yardımların olunması Şamaxı kimi cəsur və mətin xalqın qüruruna yaddır, çünki yardım insanları zəhmətdən uzaqlaşdırır. Biz bu diyarımızı özümüz qurmalıyıq. Siz iki dəfə zəlzələdən sonra Şamaxını yenidən qurmusunuz. Biz sizinlə birlikdə işsizliyi aradan qaldırmalıyıq. işsizlik aradan qaldırılsa, sosial problemlər

dərhal öz həllini tapar. Bu, mənim əsas istiqamətimdir. Bu məqsədlə mən iqtisadi inkişaf Naziri ilə görüşdüm. Aşağıdakı məsələlər müzakirə olubdu:

- xarici investorlara - 20%,
- Yerli investorlara - 7 illik 6%-lə kreditlər,
- kiçik və orta biznesin inkişafı üçün iş adamları ilə iqtisadi inkişaf Nazirliyinin konfransının keçirilməsi.
- Yerli investorların toplanması.

Yerli investorlara 7 illik 6%-lə kreditlərin alınmasına nazir Şahin Mustafayevdən razılıq əldə etdim. Mart - may aylarında isə xarici investorlar - Fransa, Almaniya, irlandiya, türkiyə, Skandinaviyadan Şamaxıya səfər edəcəklər.

Demək, kredit var, sərmayə var, investor var, lakin torpaq sizindir. Siz müdriklik göstərib, istər xarici, istərsə də yerli investorlara iqtisadi inkişaf Nazirliyi ilə iş birliyi qurmaq üçün şərait yaratmalısınız (Bakıda evlər sökülərkən bəzi dələduzlar köhnə evinin hər kvadrat metrinə 5-10 min dollar tələb edib).

Biz investorları cəlb etdikcə, işsizlik aradan qaldırıldıqca kəndləriniz abadlaşır və şübhəsiz ki, ictimai xidmətlər problemi mərhələ-mərhələ həll olunur. Bundan başqa, Azərbaycanda və Azərbaycandan kənarda yaşayan tanınmış şamaxılı iş adamları ilə birlikdə "Şamaxı fondu"nun yaradılması təklif üzərində işləyirəm.

Mən görüşdüyüm və əməli surətdə Şamaxının problemlərinin həllində müsbət cavab verən iqtisadi inkişaf Nazirliyi, əmək və əhalinin Sosial Müdafəsi Nazirliyi, "Azərenerji", Fövqəladə Hallar Nazirliyi, Sosial Müdafə Fondu, "Azəriqaz", Ekologiya və təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyinə fürsətdən istifadə edib, sizin adınızdan minnətdarlığımı bildirirəm. lakin bildirməliyəm ki, hörmətli Mədəniyyət Naziri, təhsil Naziri, idman və Gənclər Naziri, Səhiyyə Naziri Şamaxıda olan problemləri müzakirə edərkən məmnuniyyətlə onların həllində iştirak etmək istəsələr də, nazirliyin

büdcəsinin məhdud olmasından şikayətləndilər və söz verdilər ki, ilin ikinci yarısı üçün büdcəyə baxılarkən, bu problemlərin həlli üçün Nazirlər kabinetinin qarşısında məsələ qaldıracaqlar.

Biz sizinlə tez-tez görüşürük və görüşəcəyik. Mən sizlərdən biriyəm. Biz sosial-iqtisadi problemlərlə yanaşı, Şamaxının ümumi inkişafı istiqamətində də işlər görməliyik. Mən tezliklə 4 martda Sovet itifaqı dövründə "Qəhrəman ana" adına layiq görülmüş 198 ana ilə görüşəcəm və onları 8 Martla bağlı təbrik edəcəm. Fürsətdən istifadə edib, burada əyləşən ana və bacılarımızı 8 Mart bayramı münasibətilə qabaqcadan təbrik edirəm.

Son 3 ildə Şamaxının, Azərbaycanın yox, bütün dünya satirasının parlaq ulduzu olan M.ə.Sabirin günləri keçirilməmişdir. Biz artıq Yazıçılar itifaqı ilə razılığa gəlib, yerli icra hakimiyyəti ilə birlikdə Sabirin 150 illiyi ərəfəsində bu il "Sabir günü"nü böyük təntənə ilə Şamaxıda keçirəcəyik. Eyni zamanda, mən tapdığım sponsor vasitəsilə artıq S.ə.Şirvaninin qəbrinin yenidən qurulmasına başlamışam.

Fürsətdən istifadə edib, onu da bildirim ki, 14 martda 1918-ci ildə ermənilərin Şamaxıda vəhşicəsinə törətdikləri soyqırım münasibətilə Avropanın 10 ölkəsindən iştirak edən jurnalist, tarixçi və siyasətçilərlə, Azərbaycan parlamentinin üzvlərinin, tarixçilərinin, ziyalılarının və nəhayət, şamaxılıların iştirakı ilə "Şərədil"otelində "Şamaxı soyqırımı" mövzusunda beynəlxalq konfrans keçirəcəyik. Sonda sizi bir daha əmin edirəm ki, sadaladığım görüləcək işlər Şamaxının problemlərini azaldacaq və gələcəyə inamla addımlayacağıq.

Diqqətinizə görə minnətdaram.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanovun "Şamaxı soyqırımı" beynəlxalq konfransında çıxışı

14.03.2011

www.elkhan-suleymanov.az

"Şamaxı soyqırımı" konfransında çıxış edən millət vəkili bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanlıların soyqırımı haqqında» (26 mart 1998 - ci il) Fərmanı ermənilər tərəfindən 1918 – ci ildə törədilmiş bir sıra cinayətlərin aşkara çıxarılmasına, kitab və məqalələrin nəşr olunmasına yaxından kömək göstərmişdir. lakin bu sahədə görüləsi işlər hələ çoxdur. Bu sahədə obyektiv tədqiqi gözlənən bir sıra mövzular var ki, bunlardan biri də 1918 – ci il Şamaxı soyqırımıdır.

E.Süleymanov qeyd etdi ki, 1918-ci ildə Azərbaycanın Bakı, Quba, Qarabağ, Zəngəzur və digər ərazilərində olduğu kimi erməni quldurları Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Şamaxıda da dəhşətli talan və vəhşiliklər törətmişlər. Hadisə 1918 – ci il martın əvvələrində 400 ermənin ordudan Şamaxıya qayıtması ilə başlamış, daha sonra Bakı Soveti tərəfindən göndərilmiş 3 min silahlı ermənin köməyi ilə mart - aprel aylarında davam etdirilmişdi. S.lalayan və t.əmirovun rəhbərliyi ilə təkcə Şamaxı şəhərində bir neçə gündə minlərlə müsəlman qətlə yetirilmişdir. O dövrdə Şamaxının adlı – sanlı şəxsiyyətlərindən olan Hacıbaba Hacı əli Abbas oğlu, Molla cəfərqulu Axund, Hacı Abdul Qasımlı, Hacı Qəni Zeynal, Hacı israfl,

Molla Hacı Məhyəddin əfəndi, Abdul xalıq əhməd oğlu, onun qardaşı Ağa əhməd və başqaları da qətlə yetirilənlər arasında idi.

Faciənin miqyasından bəhs edən millət vəkili söylədi ki, Şamaxıda bu dövrdə ermənilər tərəfndən 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq - cümə məscidi yandırılmışdı. Bu məscid müsəlmanlara həm bir qibləgah, həm də qədim abidə kimi əziz idi. Çoxlu sayda qadın və uşaq həyatlarını xilas etmək üçün bu məscidə pənah gətirmişdi. Onlar belə hesab edirdilər ki, əhali arasında böyük nüfuza malik olan Molla cəfərqulu Axundun da içərisində olduğu allahın evinə ermənilər toxunmağa cürət etməzlər. lakin erməni quldurları məscidə daxil olan kimi Axundun gözlərini çıxarmış, dilini, qulağını, burnunu kəsmiş, diri – diri dərisini soyaraq güllələmişlər. Bundan sonra dinc əhalini məscidə yığaraq yandırmışlar. Qafqaz-islam Ordusu Azərbaycan Milli Ordusu ilə birlikdə 1918-ci ilin iyulunda Şamaxını ermənilərdən azad edərkən küçələrdə qalan onlarla meyidi yığaraq basdırmışlar.

Şamaxıda ermənilər tərəfndən həyata keçirilən soyqırımının təhqiqatından danışan Elxan Süleymanov bildirdi ki, Azərbaycan xalq cümhuriyyəti dövründə yaradılmış Fövqələdə təhqiqat komissiyasının 1918-ci ilin oktyabr və noyabrında bu barədə hazırladığı məruzədə qeyd edilirdi ki, şəhərdə çürümüş meyitlərin qalıqları hələ də qalmaqdadır. komissiyanın sənədlərinə əsasən, Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 azərbaycanlını qətlə yetirmişlər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdu. Şamaxı qəzasının müsəlmanlar yaşayan təxminən 86 kəndinin taleyi də bu cür olmuşdur. Bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339.5 milyon manat olmuşdur. təhqiqat komissiyasının sənədlərindən aydın olur ki, təkcə Şamaxı şəhərinin azərbaycanlı əhalisinə vurulmuş

ziyan orta hesabla bir milyard manatdan çox olmuşdur. Azərbaycan xalq cümhuriyyəti dövründə Şamaxı qəzasında ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat materialları toplanmışdı.

Şamaxının millət vəkili vurğuladı ki, erməni terrorizminə aid digər hadisələr kimi, 1918 – ci ildə Şamaxının dinc müsəlman əhalisinə qarşı törədilmiş erməni cinayətləri haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması da qarşıda duran əsas vəzifələrdəndir. Bunun üçün tədqiqat işləri aparmaq, müxtəlif dillərdə kitab və məqalələr nəşr etmək, elmi konfranslar təşkil etmək zəruridir. Məhz buna görə də Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyası "Azərbaycanda erməni terrorunun izləri: 1918 – ci il Şamaxı soyqırımı" mövzusunda elmi - praktik konfransı keçirməyi qərara alıb. konfransın materiallarının Azərbaycan, rus və ingilis dillərində nəşr edilərək beynəlxalq aləmdə yayılması nəzərdə tutulur. Bu cür məqsədyönlü fəaliyyət Azərbaycanın haqq işinin dünaya çatdırılmasına, Dağlıq Qarabağ probleminin ədalətli həllinə yaxından kömək göstərə bilər.

AVCİYA-nın prezidenti, Millət vəkili Elxan Süleymanovun "Siyasi məhbus anlayışı üçün bir tərifin qəbul edilməsi zərurəti"mövzusunda keçirilən beynəlxalq konfransda çıxışı

27.05.2011

www.elkhan-suleymanov.az

Hörmətli sədr,
Hörmətli konfrans iştirakçıları,
xanımlar və cənablar,

Sizə Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyası və konfransın digər təşkilatçıları adından Azərbaycanın paytaxtı Bakı şəhərinə xoş gəlmişsiniz deyirəm və Azərbaycan qonaqpərvərliyi ilə salamlamaqdan məmnunluq duyuram.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra bazar iqtisadiyyatına əsaslanan sivil, demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu özünün əsas məqsədləri elan etmişdir. Bu məqsədlərə nail olmaq üçün dünya dövlətləri ilə qarşılıqlı hörmət və fayda əsasında əməkdaşlıq, inkişaf etmiş beynəlxalq birliklərə inteqrasiya Azərbaycanın daxili və xarici siyasətinin əsas istiqamətləri olmuşdur.

Sözsüz ki, dünyanın aparıcı iqtisadi və siyasi güc mərkəzlərindən biri olan, beynəlxalq aləmdə demokratik dəyərləri, insan hüquqlarının müdafəsini və vətəndaş cəmiyyəti quruculuğunu özünün əsas xəti hesab edən Avropa məkanına inteqrasiya Azərbaycan dövləti üçün strateji istiqamətlərdən biri olmuşdur. Bu dövr ərzində Azərbaycan Avropa Şurasına bərabərhüquqlu üzv qəbul edilmiş, Avropanın digər nüfuzlu qurumları ilə qar-

şılıqlı və işgüzar əməkdaşlıq əlaqələri qurmuşdur. Bu əməkdaşlıq əlaqələri qısa müddət ərzində genişlənmiş və hər iki tərəf üçün əhəmiyyətli olmuşdur, hətta bir sıra sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Hazırda Azərbaycan Avropanın nailiyyətlərini öz nailiyyətləri, Avropada mövcud olan problemləri isə öz problemləri kimi qəbul edir və onların həllində bilavasitə iştirak edir. Bu problemlərdən biri Avropa məkanı üçün aktual olan "siyasi məhbus" anlayışının hüquqi təbiəti ilə bağlıdır. Bu problemin həllinə nail olmaq məqsədilə təşkil edilmiş beynəlxalq konfransın Bakıda keçirilməsi göstərir ki, Azərbaycan Avropaya müvəfəqiyyətlə inteqrasiya edir. Odur ki, mən Avropanın tanınmış ictimai xadimləri, siyasətçiləri, parlament üzvlərinin Avropa məkanı üçün akrual olan "siyasi məhbus" anlayışı ilə bağlı müzakirələr aparmaq üçün Bakıya toplaşmalarından məhz bu beynəlxalq konfransın Bakıda keçirilməsindən fəxr və qürur hissi duyuram. əminəm ki, konfrans zamanı biz səmərəli müzakirələr aparacağıq və Bakı konfransı məsələnin həlli istiqamətində öz töhfələrini verəcəkdir.

Bir daha Sizi salamlayıram və konfransın işinə müvəfəqiyyətlər arzulayıram.

Hörmətli konfrans iştirakçıları!

xanımlar və cənablar!

indi isə icazənizlə konfransın mövzusu ilə bağlı hazırladığım məruzəni diqqətinizə çatdırmaq istərdim. konfaransın proqramında qeyd edildiyi kimi, Avropa Şurasında siyasi məhbus probleminin mahiyyəti ilə bağlı bir sıra əsas məqamları nəzərinizə çatdırmağı vacib hesab edirəm. Bildiyiniz kimi, uzun müddətdir ki, siyasi məhbus problemi Avropa Şurasında müzakirə edilən məsələlər sırasında daha çox mübahisə və müzakirələrə səbəb olmaqda davam edir. əsas müzakirə predmeti isə əsasən

"siyasi məhbus" anlayışının hüquqi təbiəti, ondan irəli gələn subyektiv və gərəzli nəticələrdən, ayrı-seçkili yanaşmadan ibarət olmuşdur. Belə ki, indiyə qədər "siyasi məhbus" anlayışı və onun hüquqi təbiəti heç bir beynəlxalq sənəddə, o cümlədən Avropa Şurasının sənədlərində müəyyən edilməmiş və beynəlxalq-hüquqi müstəvidə öz həllini tapmamışdır.

Obyektivlik naminə qeyd etmək lazımdır ki, "siyasi məhbus" anlayışı 1989-1990-cı illərdə BMt-nin Namibiyada, sonradan isə Beynəlxalq Qırmızı xaç komitəsinin cənubi Afrika Respublikasında həyata keçirdikləri missiyalar zamanı tətbiq edilmişdir. Bu missiyalar zamanı həmin anlayışdan professor karl Aage Nerqaard tərəfndən hazırlanmış və "Nerqaard prinsipləri" adlandırılan meyarlar əsasında istifadə edilmişdir. Bununla yanaşı, "siyasi məhbus" anlayışı hazırda yalnız Amnisti interneyşenal təşkilatı tərəfndən özünün meyarları əsasında istifadə edilir. lakin "siyasi məhbus" anlayışından istifadə edilməsi ilə bağlı nümunələr nə universal, nə də regional səviyyədə qəbul edilmiş beynəlxalq-hüquqi kateqoriyalar hesab edilə bilməzlər. Məhz "siyasi məhbus" termininin anlaşıqlı və dəqiq anlayışının mövcud olmaması nəticəsində müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən qeyri-hökumət təşkilatlarının siyasi məhbusların müəyyən edilməsi üçün irəli sürdükləri tələblər ciddi şəkildə fərqlənirlər. Belə ki, bəzi təşkilatlar daha böyük siyahı tərtib etdikləri halda, digər təşkilatların siyahıları qısa olur və bu təşkilatların hər biri həbs edilmiş şəxslərin siyasi məhbus kateqoriyasına daxil edilməsində öz xüsusi kriteriyalarına əsaslanırlar. Bir sıra hallarda isə bəzi təşkilatlar "siyasi məhbus" anlayışına öz siyasi maraqları müstəvisindən məna verirlər.

Misal üçün, Amnisti interneyşenal təşkilatı "siyasi məhbusları" "siyasi motivlərlə cinayət törətmiş şəxslər"

kimi müəyyən edir. Bildiyimiz kimi, müasir dövrdə dünya ictimaiyyəti üçün qlobal təhdid olan terror təşkilatları məhz siyasi məqsədlər və ya motivlərlə fəaliyyət göstərir. Göründüyü kimi, Amnisti interneyşenal təşkilatının meyarına əsaslansaq, biz insanlıq əleyhinə ağır cinayətlər törətmiş terrorçuları siyasi məhbuslar kimi qiymətləndirmək məcburiyyətində qalarıq. Beləliklə, "siyasi məhbus" anlayışının hüquqi təbiətinin universal və ya regional beynəlxalq təşkilatlar səviyyəsində müəyyənləşdirilməməsi praktikada bu və ya digər məhbusun və ya cinayət məsuliyyətinə cəlb edilmiş şəxsin "siyasi məhbus" kateqoriyasına aid edilməsində ciddi kolliziyaların yaranmasına gətirib çıxarır. Bu kolliziyaların aradan qaldırılmasına nail olmaq məqsədilə 2001-ci ilin əvvəllərində Avropa Şurasının Baş katibi Stefan treçel, Evert Alkema və Aleksandr Arabaciyevdən ibarət müstəqil ekspertlər qrupu yaratdı. Ekspertlərə bir neçə siyasi məhbusun olması ehtimal edilən Avropa Şurasına üzv olan iki dövlətdə siyasi məhbusların mövcudluğunu müəyyənləşdirən meyarlar hazırlamaq mandatı verildi. Müstəqil ekspertlər qrupu qısa müddət ərzində Avropa Şurasının üzvü olan iki dövlətdə siyasi məhbusların mövcudluğunu müəyyən etmək üçün meyarları özündə əks etdirən məruzə hazırladılar. Həmin məruzə 16 iyun 2001-ci ildə AŞ Baş katibinə göndərilmiş və 24 oktyabr 2001-ci ildə Avropa Şurasının sənədi kimi qeydiyyatdan keçmişdir.

xüsusilə vurğulamaq istərdim ki, müstəqil ekspertlərin hazırladığı məruzə sonradan AŞPA tərəfindən müzakirə olunmamış və onun plenar iclasında hüquqi sənəd kimi qəbul edilməmişdir. Beləliklə, müstəqil ekspertlərin hazırladığı məruzə Avropa Şurasına üzv dövlətlər üçün ümumtanınmış hüquqi sənəd olmamışdır. Odur ki, bu məruzədə siyasi məhbusların mövcudluğunu müəyyənləşdirmək məqsədilə təklif olunan meyarlar

Avropa Şurasına üzv dövlətlər üçün ümumqəbul edilmiş hüquqi norma sayıla bilməzlər.

Hesab edirəm ki, müstəqil ekspertlər qrupunun hazırladığı məruzəni burada təhlil etməyə ehtiyac yoxdur. lakin məruzədə siyasi məhbusların mövcudluğunu müəyyən etmək üçün təklif edilmiş meyarlarla bağlı bir məsələni diqqətinizə çatdırmağı vacib hesab edirəm. Müstəqil ekspertlər siyasi məhbusların mövcud olmasını müəyyənləşdirmək üçün 1989-1990-cı illədə BMt-nin missiyasının Namibiyada və sonradan Beynəlxalq Qırmızı xaç komitəsinin cənubi Afrika Respublikasında istifadə etdikləri "Nerqard prinsipləri" əsasında hazırlanmış meyarları tətbiq etmişlər. Ekspertlər öz məruzələrində bu ölkələrin hökumətlərinin siyasi məhbusların mövcudluğunu qəbul etdiklərini də qeyd etmişlər.

Bundan əlavə, professor Nerqardın tədqiqatları göstərilmiş ölkələrdə milli barışıq missiyasının tərkib hissəsi idi. Belə ki, həmin dövrdə Namibiyanın və cənubi Afrika Respublikasının cəmiyyətləri parçalanmışdı. Həmin dövlətlərin ərazilərində milli və irqi zəmində silahlı qarşıdurma hökm sürürdü. lakin Avropa Şurasına üzv olan və ya üzvlüyə namizəd olan ölkələrdə isə vəziyyət Namibiya və cənubi Afrika Respublikasından köklü surətdə fərqli olmuşdur. Belə ki, Avropa cəmiyyətləri parçalanmamışdılar və bu səbəbdən də milli barışıq missiyasına ehtiyac olmamışdır. Odur ki, Avropa Şurası ekspertlərinin və professor Nerqardın missiyaları biri-birindən əsaslı şəkildə fərqli olmuşdur.

Beləliklə, müstəqil ekspertlərin təklif etdikləri meyarlar Avropa Şurası məkanında mövcud reallıqları əks etdirmirdi. Bundan əlavə, bu meyarlar həmin vaxt tərtib edilmiş siyahı əsasında siyasi məhbus olmaları iddia edilən konkret şəxslərin işlərinə yenidən baxılmasını və ya onların azadlığa buraxılmasını nəzərdə tuturdu.

Odur ki, müstəqil ekspertlərin təklif etdikləri meyarlar konsensus şəklində qısa müddət ərzində konkret məhbusların işlərinə baxılmasını nəzərdə tuturdu və müvəqqəti xarakter daşıyırdı.

Bildiyimiz kimi, insan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları presedent, yəni məcburi xarakter daşıyır. lakin insan hüquqlarının müdafəsi sahəsində ən effektivli mexanizmə malik olan bu beynəlxalq məhkəmə öz fəaliyyətində və qəbul etdiyi qərarlarda "siyasi məhbus" anlayışından istifadə etmir. Aydın görünür ki, bunun səbəbi indiyədək heç bir ümumtanınmış beynəlxalq sənəddə, o cümlədən Avropa Şurasının sənədlərində "siyasi məhbus" anlayışının anlaşıqlı hüquqi təbiətinin müəyyən edilməməsindən ibarətdir.

Bununla belə, siyasi məhbus problemi vaxtaşırı olaraq AŞPA-nın Bürosunda və Hüquq Məsələləri və insan Hüquqları komitəsində gündəmə gətirilmişdir. Ümumiyyətlə, Büro və komitə 2007-ci ildən 9 dəfə öz iclaslarında bu məsələni müzakirə etmişdir.

Nəhayət, 2008-ci ildə Hüquq Məsələləri və insan Hüquqları komitəsi "siyasi məhbus problemi" kimi iddiaların hüquqi əsaslarının olmaması qənaətinə gəlmişdir. komitə, eyni zamanda, Avropa Şurasında "siyasi məhbus" məsələsi ilə bağlı bütün üzv dövlətlərə şamil edilə biləcək müvafq sənədin və meyarların hazırlanaraq qəbul edilməsinin vacibliyini diqqətə çəkmişdir.

Bundan başqa, AŞPA Bürosu da 2009-cu ildə Avropa Şurası çərçivəsində "siyasi məhbus" anlayışının meyarlarının hazırlanmasını vacib hesab etmişdir. Büro, öz növbəsində, məsələ ilə bağlı ümumtanınmış sənədin qəbul edilməsinə qədər üzv ölkələrə siyasi məhbus problemi üzrə təyin edilmiş məruzəçilərin fəaliyyətinin dayandırılması barədə qərar qəbul etmişdir.

Büronun və Hüquq məsələləri komitəsinin bu qərarlarına baxmayaraq, indiyədək AŞPA-nın plenar ic-

laslarında “siyasi məhbus” anlayışının hüquqi təbiətinin müəyyən edilməsi ilə bağlı müzakirələr aparılmamış və üzv dövlətlər tərəfndən ümumtanınmış heç bir sənəd qəbul edilməmişdir.

Digər tərəfdən, AŞPA-nın Hüquq Məsələləri və insan Hüquqları komitəsi özünün 24 mart 2009-cu ildə keçirilmiş iclasında Avropa Şurasının üzvü olan 47 ölkədən yalnız birində siyasi məhbus problemi üzrə xüsusi məruzəçinin təyin edilməsi barədə qərar qəbul etmişdir.

Həmin komitə daha sonra özünün 16 dekabr 2009-cu il tarixli iclasında “siyasi məhbus” anlayışının meyarlarının və bu məsələ ilə bağlı müvafq sənədin hazırlanmasını özünün təyin etmiş olduğu siyasi məhbus problemi üzrə xüsusi məruzəçiyə həvalə etmişdir. Başqa sözlə, xüsusi məruzəçiyə özünün hazırlayacağı meyarlar əsasında konkret üzv ölkədə siyasi məhbuslar haqqında məruzə hazırlamaq tapşırıldı.

Beləliklə, bir məruzəçiyə eyni zamanda iki mandat verilmiş oldu. xüsusilə vurğulamaq istərdim ki, konkret bu halda bir məruzəçiyə eyni zamanda iki hesabat hazırlaması üçün mandat həvalə edilməsi bu hesabatların obyektiv hazırlanacağına şübhə yaradır. Belə ki, məruzəçi, bir tərəfdən, “siyasi məhbusları” müəyyən etmək üçün meyarlar hazırlayır və onlara hüquqi don geyindirməyə çalışır. Digər tərəfdən, həmin məruzəçi özü hazırladığı meyarlar əsasında Avropa Şurasının konkret ölkəsində “siyasi məhbusların” mövcudluğunu müəyyən edir. Aydındır ki, məntiqdən uzaq olan bu fəaliyyət heç bir hüquqi çərçivəyə sığmır. Belə ki, professionallıq səviyyəsindən asılı olmayaraq, hər hansı bir mütəxəssisin hazırladığı meyarlar onun şəxsi fkirləri ola bilər. Belə meyarlar heç bir halda hüquqi kateqoriya kimi qəbul edilə bilməz.

Göründüyü kimi, Hüquq Məsələləri və insan Hüquqları komitəsinin Avropa Şurasına üzv olan 47 ölkədən

yalnız birində siyasi məhbus problemi üzrə xüsusi məruzəçinin təyin edilməsi və "siyasi məhbus" anlayışının meyarlarının hazırlanmasının həmin məruzəçiyə həvalə edilməsi barədə qərarları həmin komitənin və AŞPA Bürosunun məsələ ilə bağlı öncə qəbul etdikləri qərarlarla ziddiyyət təşkil etmişdir. komitə tərəfndən belə qərarların qəbul edilməsi, həm də Avropa Şurasına üzv ölkələrin bərabərliyi və hüququn aliliyi prinsiplərinin kobud şəkildə pozulmasına gətirib çıxarır, həmçinin istənilən üzv ölkəyə, o cümlədən mənim ölkəmə, qarşı ayrı-seçkiliyə yol verilməsinə yol açır.

Onu da qeyd edim ki, Hüquq Məsələləri və insan Hüquqları komitəsinin təyin etdiyi xüsusi məruzəçi siyasi məhbuslar məsələsinin izlənilməsi və siyasi məhbusların müəyyənləşdirilməsi haqqında məruzə hazırlamışdır. Həmin məruzə komitəyə təqdim edilərək, 17 iyun 2010-cu il tarixdə komitədə rəsmi sənəd kimi qeydiyyata alınmışdır. xüsusi məruzəçi tərəfndən hazırlanmış sənəd 2001-ci ildə müstəqil ekspertlərin təklif etdiyi meyarları yenidən gündəmə gətirmiş və məruzə hazırlanarkən heç bir yeni ideyalara müraciət edilməmişdir.

Hörmətli konfrans iştirakçıları, bir məqamı da diqqətinizə çatdırmağı vacib hesab edirəm. Bir neçə dəfə AŞPA-nın Hüquq Məsələləri və insan Hüquqları komitəsinin üzvləri "siyasi məhbus" anlayışının meyarlarını özündə ehtiva etdirən sənəd barədə katibliyə müraciət etmişlər. katiblik deputatların sorğusuna cavab olaraq, belə meyarların AŞPA-nın 1272(2002) saylı qətnaməsində öz əksini tapdığını bildirmişdir. lakin bildirməliyəm ki, qeyd edilən qətnamədə Avropa Şurasına üzv ölkələrin yalnız birində dörd məhbusun məsələsi müzakirə edilir. AŞPA-nın bu sənədində "siyasi məhbus" anlayışı ilə bağlı heç bir meyar öz əksini tapmamışdır. Bir daha vurğulamaq istəyirəm ki, belə bir meyarlar indiyədək AŞPA-nın plenar iclaslarında qəbul edilməmişdir.

Beləliklə, belə bir qənaətə gəlirik ki, hazırda Avropa Şurasında "siyasi məhbus" anlayışına dair bütün üzv dövlətlər tərəfndən tanınmış sənəd qəbul edilməmişdir. Belə bir şəraitdə bu nüfuzlu təşkilata üzv olan hər hansı bir dövlətdə siyasi məhbusların olması barədə iddiaların irəli sürülməsi Avropa Şurasının təməl prinsipləri olan üzv dövlətlərin bərabərliyi və hüququn aliliyi prinsiplərinin pozulmasına və həmin üzv dövlətə qarşı ayrı-seçkiliyə gətirib çıxarmış olur. Odur ki, Avropa Şurasının üzvü olan istənilən ölkə, o cümlədən mənim ölkəm, siyasi və digər konyunkturalardan asılı olaraq istənilən zaman ayrı-seçkiliyə məruz qala bilər. Bu isə, öz növbəsində, təcili şəkildə "siyasi məhbus" anlayışının meyarlarının işlənib hazırlanmasını və onun hüquqi kateqoriya kimi müəyyənləşdirilməsini labüd edir. Ümumiyyətlə, hesab edirəm ki, "siyasi məhbus" anlayışının meyarlarının olmaması AŞPA-nın, həmçinin Hüquq Məsələləri və insan Hüquqları komitəsinin nüfuzuna ciddi zərbədir.

Çıxışımın sonunda bir daha Sizə minnətdarlığımı bildirirəm və Sizi müzakirələrdə aktiv iştirak etməyə çağırıram.

Diqqətinizə görə təşəkkür edirəm.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanovun Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin iyirminci ildönümünə həsr olunmuş bayram tədbirində giriş sözü

23.09.2011

www.elkhan-suleymanov.az

Sizi bu salonda salamlamaqdan fəxr hissi duyuram və böyük şərəf anları yaşayıram. Bu tədbirin təşkilatçısı olan Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyasının dəvətini qəbul eləyib buraya təşrif buyuran bütün yerli və xarici qonaqlarımızı Azərbaycan qonaqpərvərliyilə salamlayır və onlara öz minnətdarlığımı bildirirəm.

vətənim Azərbaycanın müstəqillik bayramı tədbirində dünyanın dörd qitəsinin 58 ölkəsini təmsil eləyən 207 nəfər möhtərəm qonaq iştirak eləyir. Onların sırasında sabiq ölkə rəhbərləri, Avropa Parlamenti, Avropa Şurası, Ət ə t, milli parlamentlərin deputatları, siyasətçilər, tanınmış zialılar, alimlər, Nobel mükafatı laureatı və ictimaiyyətin nümayəndələri vardır.

kədərdə hamı kədərlənə bilər, sevincə qoşulmaq, sevinci bölüşmək üçün gərək o insanı, o xalqı, o ölkəni sevəsən və ən azı o ölkəyə maraq göstərəsən. Sizlərin bizim bu böyük təntənəli bayramımızda iştrakınızı mən yüksək dəyərləndirir və bir daha bu sevincə qoşulduğunuz üçün sizə öz minnətdarlığımı bildirirəm.

Azərbaycan Respublikası 20 illik müstəqillik tarixinə malikdir. Bu illər ərzində ölkəmiz bir çox uğurlara imza

atıb. Siz də bu gün və sabah Azərbaycan rəsmilərinin çıxışları zamanı bütün sahələrdə qazanılan uğurlar və 20 ildə əldə edilən nailiyyətlərlə çox yaxından tanış olacaqsınız. Bu uğurlar sırasında üçüncü sektorun da əməyi az deyil. təvazökarlıqdan uzaq da olsa, Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyasının da bu uğurlarda rolu var. Biz böyük laihələr işləyirik və işləməkdə davam edirik. Bu gün möhtərəm prezident cənab ilham əliyevin AvciYA-nın təşkilatçılığı ilə keçirilən bu möhtəşəm tədbirdə iştirakı və məzmunlu çıxışı, eyni zamanda bu gün və sabah yüksək ranqlı rəsmilərin, dövlətimizin nümayəndələrinin çıxışları və iştirakı, dövlətmizin ictimai sektora verdiyi dəstəyin və qiymətin əyani sübutudur. Ancaq mən ictimai sektorun bir nümayəndəsi kimi deyə bilərəm ki, hələ görüləsi işlərimiz çoxdur, problemlərimiz var və biz vətəndaş cəmiyyətinin nümayəndəsi olaraq bu problemlərin həllində dövlətimizə yaxından kömək etməyi vəd edirik.

Hörmətli tədbir iştirakçıları, Azərbaycana olan sevgimi, sizə və ölkəmə olan sonsuz məhəbbətimi, müstəqil Azərbaycanın təntənəsinə ürək sözümü böyük şairimiz Səməd vurğunun sözlərilə bitirmək istərdim:

Ey bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.
Anam, doğma vətənimsən,
Ayrılarmı, könül candan,
Azərbaycan! Azərbaycan!

Mən sizə bir daha minnətdarlığımı bildirir və tədbirimizin işində bu gün və sabah uğurlar arzulayıram. Sağ olun. Minnətdaram.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanovun Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin iyirminci ildönümünə həsr edilmiş bayram tədbirinin bağlanış nitqi

24.09.2011

www.elkhan-suleymanov.az

xanımlar və cənablar,

Çox-çox uzaqlardan gəlmiş dəyərli qonaqlar!

Biz 2 gündür bir yerdəyik. Düşünürəm ki, 2 gündə siz Azərbaycanla yaxından tanış oldunuz. Azərbaycanın xarici və daxili siyasəti, iqtisadiyyatı, hüquq və ədliyyə islahatları, qanunvericilik sistemi, neft və enerji layihələri, ictimai-siyasi vəziyyəti cənab Prezidentin məruzəsində doqquz Azərbaycan rəsmisinin çıxışlarında öz əksini tapdı. Eyni zamanda, 3 gün Bakıda olduğunuz vaxt insanlarla təmasda oldunuz, bu xalq haqqında ən azı məlumatınız oldu. Bu, hər iki tərəf üçün faydalıdır. Ona görə ki, biz gənc demokratik ölkəyik, cəmi 20 yaşımız var və biz maraqlıyıq ki, demokratiya quran sizlərdən daha çox öyrənək. Ona gorə də, sizlərin hər birinizin Bakıya gəlməsini sizin Azərbaycanda demokratiya quruculuğuna investisiya qoymağınız kimi qiymətləndirirəm. Mən ictimai sektorun nümayəndəsi kimi bunu özümə əsas meyar etmişəm. Biz gənc demokratik ölkəyik, lakin biz inamla və həvəslə Avropaya inteqrasiya edirik. ə gər bunu obrazlı dillə desək: "Azərbaycanın demokratiya qatarı polad relslərin üzərindədir". O hərəkət edir. Fərq bir şeydədir. Fransada, Almaniyada Avropanın ən inki-

şaf etmiş ölkələrində qatarın sürəti ən azı 150-300- dür, Azərbaycan demokratiya qatarı da kifayət qədər sürətlə, ən başlıcası isə inamla irəliləyir. inanıram ki, siz bunu da düzgün qiymətləndirirsiniz. Sürətli qatar tikmək və sürmək üçün 20 il azdır. əsas məsələ ondadır ki, biz demokratiya qatarında gedirik. Bu tədbiri eyni zamanda ölkələrimiz arasında və parlament qrupları arasında çox önəmli və vacib əhəmiyyət kəsb edən tədbir kimi dəyərləndirirəm.

Yaşadığımız dövrdə hər hansı bir ölkə ilə bağlı məlumatları müasir informasiya texnologiyaları, o cümlədən internet vasitəsilə almaq olar. Mən hesab edirəm ki, belə məlumatlar bu ölkə ilə bağlı təsəvvür yaratsa da, bu təsəvvür hər hər zaman dolğun və bir sıra hallarda isə obyektiv olmur. Azərbaycan xalqının bir atalar sözü var: Min dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır. Döğrudan da belədir. Belə ki, hər hansı bir ölkəni tanımaq üçün mütləq o ölkədə olmaq lazımdır, o ölkənin problemləri və nailiyyətləri ilə tanış olmaq lazımdır. Biz bunu etmək üçün əlimizdən gələn bütün imkanlardan istifadə etdik.

xalqımızın ən qiymətli ulu babalarımızdan qalma adəti qonaqpərvərlik və yaşlılarına hörmət etməkdir. 1988-ci ildə sovet diktaturasının çökməsində ilk addımını atan, bu gün toplantımızın ən yaşlı nümayəndəsi Arnold Rüütelə müraciət edirəm. Estoniya Ali Sovetinin sədri kimi onun 1988-ci ildə verdiyi ilk sərəncamı xatırlatmaq istərdim: “Estoniya qanunları, SSRi qanunlarından yüksəkdə durur”. 15 respublika içərisində bu cəsarətli addım diktatura zəncirini qırdı. Bu toplantımızın ən qocaman nümayəndəsi kimi xalqımızın adət-ənənəsinə görə ona hörmət və ehtiramımı və onun simasında sizlərin hər birinə öz ürək sözlərimi obrazlı dildə belə çatdırardım.

əgər şair olsaydım,
ən yaxşı şeirimi sizlərə həsr edərdim.
Bəstəkar olsaydım,
ən yaxşı mahnım sizin ölkənizə həsr olunardı
Rəssam olsaydım, qəhrəmanım siz olardınız.

Çox təəssüf ki, mən nə şair, nə bəstəkar, nə də rəssamam.

Yumruq boyda ürəyi olan adi bir insanam. Ancaq mən sizin ölkənizdən və bizlərə olan hörmət və ehtiramdan yazmaq istəsəm xəzər dənizini mürəkkəb, onun üstündə uçan qağayıların lələklərini karandaş etsəm, mənə nə mürəkkəb nə də karandaş çatmaz. Mən ictimai təşkilatın rəhbəri kimi ölkəmdə vətəndaş quruculuğuna xidmət edirəm. və bu quruculuğun inkişafı üçün təşkilatım sizlərin hər biri ilə əməkdaşlıq etməyə hazırdır. Düşünürəm ki, bu əməkdaşlıq hər iki ölkə üçün faydalı ola bilər. Mənim seçicilərim üçün bir devizim var. Bu devizi burada iştirak edənlərin hamısına demək istərdim: “Mən sizinləyəm, sizin ixtiyarınızdayam”.

Bir daha sizə təşəkkürümü bildirirəm. Bununla da 2 günlük görüşümüzü sona çatmış hesab edirəm.

Sağ olun. Diqqətinizə görə minnətdaram!

Şamaxının millət vəkili Elxan Süleymanovun "Şöhrət" ordeninin təqdim olunma mərasimində çıxışı

30.09.2011

www.elkhan-suleymanov.az

Borc, Öhdəlik, Şərəf, Ölkə. Bu dörd müqəddəs söz siyasətçinin necə olması, ola bilməsi və ola bilməli olduğunu hörmətlə diktə edir.

Bütün həyatım boyu bu dəyərlər, Borc, Öhdəlik, Şərəf və Ölkə mənim bələdçilərim olub və indi - 50 ildən artıq bir müddətdə fəaliyyətdə olduqdan sonra bu fəaliyyətin nəticəsi olaraq möhtərəm Prezidentin məni "Şöhrət" ordeni ilə təltif etməsi və bununla da şərəf qazandığım üçün ona dərin minnətdarlığımı bildirirəm. Bu gün bu şərəfə çatdıqda cənab Prezident ilham əliyevə, sizlərin hər birinizə, seçicilərimə, iş həmkarlarıma, məni tanıyanlara və ən nəhayət övladlarıma əminlik verirəm ki, mən bu şöhrət və şərəf ömrümün sonunadək öz şanlı əməyimlə fədakarcasına qoruyub uca tutmaq üçün əlimdən gələn hər şeyi edəcəyəm. Bu gün yaşlı nəslin 3 nümayəndəsinə təqdim olunan bu "Şöhrət" ordeni eyni zamanda böyük bir tərbiyəvi xarakter daşıyır və bizim bu şərəfə çatmağımız hamıya örnək olmalıdır.

Elxan Süleymanov: "Azərbaycan poliqon deyil..."

20.10.2011

Lent.az

Oktyabrın əvvəlində bir sıra internet saytlarının yaydığı məlumatlara əsasən, "insan Haqları Uğrunda" ictimai Birliyi ilə Norveçin xarici işlər Nazirliyi arasında "Azərbaycanda siyasi məhbusların Avropa Şurası və BMt-nin meyarları əsasında müəyyən olunaraq seçilməsi və onlar haqqında məlumat bazasının yaradılması" layihəsinin həyata keçirilməsinə dair saziş imzalanıb. Sazişi "insan Haqları Uğrunda" ictimai Birliyinin sədri Eynulla Fətullayev və Norveç xiN-in Avrasiya və Regional əməkdaşlıq Departamentinin rəhbəri Marit Halsvik lillealtern imzalayıblar.

tərəfər arasında imzalanmış sazişin mövzusu, bu sazişə Norveç xiN-nin departament rəhbəri səviyyəsində rəsmi imza atılması ciddi narahatlıq doğurur. Odur ki, aşağıda göstərilən bir sıra vacib məqamlara aydınlıq gətirilməsini zəruri hesab edirəm:

1. BMt-nin müxtəlif qurumları tərəfndən indiyədək "siyasi məhbus" anlayışı və onun meyarları ilə bağlı hər hansı bir konvensiya, qətnamə və ya digər sənəd qəbul edilməyib. Qeyd etməliyəm ki, BMt çərçivəsində "siyasi məhbus" anlayışı yeganə hal kimi 1989-1990-cı illərdə bu qurumun Namibiyada həyata keçirdiyi barışıq missiyası zamanı professor karl Aage Nerqaard tərəfndən hazırlanmış və "Nerqaard prinsipləri" adlandırılan meyarlar əsasında istifadə edilib. xüsusilə vurğulamalıyam ki, "Nerqaard prinsipləri" nə Namibiyada tətbiq edildiyi zaman, nə də sonradan BMt-nin hər hansı səlahiyyətli orqanı tərəfndən bütün üzv dövlətlərə şa-

mil edilə biləcək universal sənəd kimi təsdiq edilməyib və edilə də bilməzdi. Belə ki, həmin dövrdə Namibiyada milli və irqi zəmində silahlı qarşıdurma hökm sürürdü, onların cəmiyyətləri parçalanmışdı, lakin digər dünya dövlətlərində, xüsusən də inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərdə vəziyyət köklü şəkildə fərqli idi və indi də fərqli olaraq qalır. Digər tərəfdən, Namibiyada barışıq missiyası BMt Baş katibinin mandatı əsasında həyata keçirilirdi və bu missiyanın tərkib hissəsi olan "Nerqaard prinsipləri" presedent qüvvəsinə malik deyildi. Odur ki, qeyd edilən prinsiplər digər dövlətlərə, o cümlədən hazırda hərtərəfi dinamik inkişaf edən, Avropa Şurasının üzvü olan və Şərqi Avropa ölkəsi statusu almış Azərbaycan Respublikasına tətbiq edilə bilməz. Beləliklə, BMt-nin siyasi məhbuslar meyarlarının olması kimi iddialar reallıqdan tam uzaqdır və bu universal təşkilatın mövcud olmayan meyarları əsasında Azərbaycanda növbəti dəfə siyasi məhbus axtarışına başlanılması isə yuxarıda göstərilən sazişdə iştirak edən tərəfərin ölkəmizə qarşı qərəzli, məkrli mövqedən çıxış etmələrindən xəbər verir.

2. indiyədək Avropa Şurası tərəfndən bütün üzv dövlətlərə şamil edilə biləcək ümumtanınmış sənəd qəbul edilməyib. Bu təşkilat çərçivəsində yeganə hal kimi, 2001-ci ildə Ermənistan və Azərbaycan Avropa Şurasına qəbul edilərkən bir sıra QHt rəhbərlərinin bu ölkələrdə siyasi məhbusların olması barədə iddialarına son qoymaq məqsədilə AŞ-nın Baş katibi tərəfndən müstəqil ekspertlər qrupu yaradıldı. Müstəqil ekspertlər qrupu "Nerqaard prinsipləri" əsasında 5 bənddən ibarət meyarları özündə ehtiva edən məruzə hazırlayıb Baş katibə təqdim etdilər. lakin bu məruzə sonradan hüquqi sənəd kimi AŞ-nın plenar iclasında təsdiq edilmədi. Qeyd etməliyəm ki, bu meyarlar konsensus şəklində qısa müddət ərzində konkret məhbusların işlərinə ba-

xılmasını nəzərdə tuturdu və müvəqqəti xarakter daşıyırdı. O dövrdən indiyədək AŞPA-nın plenar iclasında siyasi məhbus məsələsi ilə bağlı bütün üzv dövlətlərə şamil edilə biləcək heç bir hüquqi sənəd qəbul edilməyib.

3. Azərbaycan tərəfinin ardıcıl olaraq AŞPA-nın siyasi məhbus meyarlarını özündə əks etdirən hüquqi sənədinin olmadığını bildirməsinə baxmayaraq, bəzi maraqlı qüvvələr AŞPA-da "Azərbaycanda siyasi məhbuslar" adlı 1272 (2002) saylı qətnamə qəbul edilməsinə nail oldu. Bildirməliyəm ki, bu qətnamədə siyasi məhbus olmaları ehtimal olunan bir neçə nəfərin cinayət işlərinə yenidən baxılması məsələsi müzakirə edilirdi və "siyasi məhbus" anlayışı ilə bağlı heç bir meyar göstərilməyib. Daha sonra, quruma üzv olan 47 ölkədən yalnız Azərbaycana siyasi məhbus problemi üzrə məruzəçi təyin edildi. lakin Avropa Şurasında Azərbaycan tərəf təkidlə ümumtanınmış hüquqi sənədin olmadığını və ölkəmizə qarşı ayrı-seçkiliyin yolverilməz olduğunu diqqətə çatdırmışdır. Nəhayət, AŞPA-nın Hüquq Məsələləri və insan Hüquqları komitəsinin 5 oktyabr 2011-ci il tarixli iclasında "Azərbaycanda siyasi məhbus məsələsinin araşdırılması"adlı məruzənin adının dəyişdirilərək, "AŞ üzv dövlətlərdə siyasi məhbus probleminin araşdırılması"adlandırılması barədə qərar qəbul edildi. lakin məruzənin adının dəyişdirilməsi məsələnin çözülməsi demək deyil, belə ki, AŞPA-nın plenar iclasında "siyasi məhbus" anlayışının hüquqi təbiətini, onun meyarlarını özündə ehtiva edən sənəd qəbul edilməyib.

4. Qərarları presedent hüququna malik olan beynəlxalq məhkəmələr, o cümlədən insan hüquqları üzrə Avropa Məhkəməsi də öz praktikasında "siyasi məhbus" anlayışından istifadə etmir və özünün hər hansı bir qərarında bu anlayışın meyarlarını müəyyənləşdirməyib.

Beləliklə, "Azərbaycanda siyasi məhbusların Avropa

Şurası və BMt-nin meyarları əsasında müəyyən olunaraq seçilməsi və onlar haqqında məlumat bazasının yaradılması" sazişini imzalayan tərəfərin ölkəmizə qarşı əsassız, düşünülmüş və qərəzli mövqe nümayiş etdirmələri, dünya ictimaiyyətində Azərbaycanla bağlı neqativ fkir formalaşdırmaq məqsədi şübhə doğurmur. Norveç Avropa Şurasının üzvüdür və əminliklə təsdiq edə bilərəm ki, bu dövlətin xarici işlər Nazirliyi Avropa Şurasının və BMt-nin siyasi məhbuslarla bağlı ümumtanınmış meyarlarının olmamasından xəbərdardır. Belə olan halda, Norveçin xarici işlər Nazirliyinin AŞ və BMt-nin mövcud olmayan meyarları əsasında Azərbaycanda siyasi məhbus axtarışına çıxmasının arxasında nə dayanır? Şübhəsiz ki, imzalanmış sazişdə iştirak edən tərəfərin, o cümlədən Norveç xiN-nin əsas məqsədi müxtəlif bəhanələrlə Azərbaycanın daxili işlərinə müdaxilə etmək və ölkədə ictimai-siyasi sabitliyi pozmaqdan ibarətdir.

Hesab edirəm ki, Azərbaycan Respublikasının müvafq dövlət qurumları məsələ ilə bağlı dərhal tədbirlər görməli və əsassız olaraq Azərbaycanın daxili işlərinə qarışmağın yolverilməz olduğunu Norveç tərəfnin diqqətinə çatdırmalıdır. Nəhayət, hamı birdəfəlik başa düşməlidir ki, Azərbaycan beynəlxalq-hüquqi təbiəti və meyarları məlum olmayan "siyasi məhbus" anlayışının tətbiq edilməsi üçün poliqon deyil.

Elxan Süleymanov,
Millət vəkili, AŞPA-da Azərbaycan nümayəndə heyətinin üzvü, AVRONEST PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri.

Millət vəkili Norveçin Azərbaycandakı səfirinə açıq məktub yazıb

24.10.2011

APA

Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin üzvü, AŞPA-da Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin üzvü, AVRONEST PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Elxan Süleymanov Norveç Krallığının Azərbaycanda fövqəladə və səlahiyyəti səfiri Erlinq Şönsberqə açıq məktub yazıb.

APA-nın məlumatına görə, məktubda deyilir: "Bu günlərdə bəzi saytlarda ölkənizin Azərbaycandakı səfrliyi vasitəsilə cari ilin 4 noyabrında Bakıda siyasi tədbir təşkil etdiyini və yaxud ən azı bu tədbiri fəal surətdə dəstəklədiyi haqqında məlumatlar yayımlandı. Bu xəbərlər şəxsən məndə dərin təəssüf hissi oyadıb. Həmin gün "insan Hüquqları uğrunda" adlı QHt "BMt və AŞ meyarları əsasında siyasi məhbusların müəyyənləşdirilməsi və azad edilməsinə müraciət" məsələsinə dair konfrans təşkil edəcək. iki ildən artıqdır ki, Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyəti AŞPA çərçivəsində həmin meyarlarla bağlı açıq və şəfaf müzakirəyə başlamaq üçün (təəssüf ki, uğursuz olaraq) müraciətlər edir. Bəzi QHt-lər Azərbaycanın bir sıra müxalifət partiyaları ilə birgə bütün vasitələrlə bu müzakirələrin baş tutmaması üçün çalışır, bu açıq müzakirənin aparılmaması məqsədilə xarici ölkələr və onların səfrlərinə dəstək üçün müraciət edirlər.

Ölkənizin bu yanaşmanı dəstəkləməsi həm təəccüblü, həm də təəssüf yaradan məqamdır. Hər halda şəxsən mənim üçün.

Azərbaycan Respublikası uzun müddət meyarlara

dair müzakirələrin olacağını gözləməli olub. Özü də həmin məsələ üzrə faktaraşdırıcı məruzə tərəfndən "öyrənilən" yeganə ölkə ola-ola. xoşbəxtlikdən, bu yaxınlarda AŞPA institutları nəhayət bu məsələnin təkcə Azərbaycana deyil, AŞ-nın bir sıra üzv ölkələrinə aid ola bilməsi həqiqətini qəbul etdi. Sözügedən məruzənin adı yeni redaksiyada belə səslənir: "Siyasi məhbuslar məsələsinə yenidən baxılması". Eyni zamanda, bu məruzənin dəqiq müəyyənləşdirilmiş hissəsi olaraq, anlayış və meyarlara dair müzakirəni daxil etmək qərarı da verildi.

Bütün üzv dövlətlərlə eyni cür rəfar ediləcəksə etibar da yarana bilər. Bu yeni yanaşma AŞPA-ya bundan sonra bu həssas məsələ ilə tam hərtərəfi və bitərəf formada məşğul olmağa imkan verəcək, belə ki, məruzə 47 üzv dövlətin hamısını əhatə edəcək və bütün aidiyyəti ölkələrə eyni faktaraşdırıcı missiyalar təşkil ediləcək və iddia edilən bütün ayrıca hallara eyni meyarlar əsasında baxılacaq.

ilkin yanaşmada almaniyalı məruzəçi cənab Ştrasserin bütün üzv ölkələrdə siyasi məhbusların mövcudluğunu hansı meyarlarla yoxlamaq və çərçivə istinadı kimi, hansı sənəddən istifadə etmək istədiyini öyrənmək maraqlı olacaq. Deyilənə görə, AŞPA-nın Hüquq Məsələləri komitəsinin katibliyi də müzakirədən çəkinmək məqsədilə BMt tərəfndən Namibiya halında müəyyənləşdirilmiş qeyri-müəyyən 1991-ci il meyarlarına istinada üstünlük verir. Qeyd etməliyəm ki, BMt çərçivəsində "siyasi məhbus" anlayışı yeganə hal kimi 1989-1990-cı illərdə bu qurumun Namibiyada həyata keçirdiyi barışıq missiyası zamanı professor karl Aage Nerqaard tərəfndən hazırlanıb və "Nerqaard prinsipləri" adlandırılan meyarlar əsasında istifadə edilib. xüsusilə vurğulamalıyam ki, "Nerqaard prinsipləri" nə Namibiyada tətbiq edildiyi zaman, nə də sonradan

BMt-nin hər hansı səlahiyyətli orqanı tərəfndən bütün üzv dövlətlərə şamil edilə biləcək universal sənəd kimi təsdiq edilməyib. Bildiyiniz kimi, bu meyarlar AŞPA-nın plenar sessiyasında da heç zaman müzakirə və ya təsdiq edilməmişdir. Bundan əlavə, bu gün bu meyarların müəyyənləşməsindən 20 ildən çox vaxt keçir. təsəvvür edirsinizmi? O zaman hətа beynəlxalq hüquqda "terrorçu" anlayışı təqdim edilməmişdi və adı çəkilən meyarlar həmin zaman kəsiyində müstəsna olaraq, yalnız BMt-nin həmin cənubi Afrika dövlətinin vəziyyəti ilə necə məşğul olacağına aid idi.

Bu səbəbdən Bakıda 4 noyabr tədbirinin təşkilatçılarının "BMt və AŞ meyarları əsasında" ifadəsi ilə nə demək istədiklərini anlamıram, belə ki, bu meyarlar mövcud deyildir.

təəssüf edirəm ki, zəngin demokratik ənənələrə malik olan ölkəniz Səfrlik vasitəsilə hər hansı ümumtanınmış standartlar və ya meyarlar müəyyən etmədən iddia edilən siyasi məhbusların adlarından ibarət siyahı qurmaq istəyən QHt-nin bu təşəbbüsünü dəstəkləyir. Aydındır ki, onların öz siyasi məqsədlərinə nail olmaq üçün yeganə hədəf heç bir meyar olmadan siyasi sövdələşmə vəziyyəti yaratmaq və siyasi məhbus adı altında ölkəmizə xələl gətirməkdir. Bundan əlavə, faktiki, yenilənmiş və ümumi meyarlara dair istənilən açıq, demokratik və ya şəfaf müzakirədən qaçmaq bu şəxslərə istədiklərini elan etmək imkanı verir. xahiş edirəm, siyasi məhbusla bağlı meyarlar olmadan dəyərli dəstəyinizi nəyə verdiyinizi anlayın...

Fikrimcə, əvvəlcə AŞPA meyarları ilə bağlı qərar vermək və bu meyarların bütün üzv dövlətlərə bərabər formada aid etmək lazımdır. təkrar edirəm, təkcə Azərbaycana deyil, AŞPA-ya üzv olan bütün ölkələrə.

Bizim üçün hüquqi əminlik qanunun aliliyinin ən mühüm elementlərindəndir. Niyə sizin üçün yox?"

Şamaxının millət vəkili E.Süleymanovun "Heydər Əliyev: Azərbaycanın dövlət müstəqilliyi əbədidir" kitabının təqdimat mərasimində nitqi

11.11.2011

www.elkhan-suleymanov.az

xanımlar və cənabar!

Hörmətli tədbir iştirakçıları!

Bu gün biz buraya Heydər əliyev irsini Araşdırma Mərkəzinin türk dilində nəşr etdirdiyi "Heydər əliyev: Azərbaycanın dövlət müstəqilliyi əbədidir" kitabının təqdimat mərasiminə yığışmışıq.

Bildiyiniz kimi, Heydər əliyev Azərbaycan kommunist Partiyası Mərkəzi komitəsinin birici katibi vəzifəsinə 1969-cu ilin iyul ayında seçilmişdir. O vaxt mənim 28 yaşım var idi. Bakının ən qocaman mədəniyyət saraylarından birinə rəhbərlik edirdim. təvazökarlıqdan uzaq da olsa, təhsil aldığım və işlədiyim kollektivlərdə görkəmli ziyalıların təcrübəsindən bəhrələnib az-çox dərk etmək qabiliyyətinə malik idim və 1969-cu ildən indiyədək Heydər əliyevin keçdiyi həyat yolu və əmək fəaliyyətini öyrənməyə cəhd göstərmişəm.

Bir neçə faktı sadalamaq istərdim. O, hakimiyyətə gələrkən Azərbaycan, xüsusilə də regionlar çox zəif iqtisadi inkişaf dövründə idi. Həyatımızın bütün sahələri çox zəif görünürdü. təkcə bunu demək kifayətdir ki, 1969-cu ildə Azərbaycan 130-150 min ton üzüm, 250 min ton pambıq yetişdirib təhvil verirdi. Bir neçə ildən sonra bu rəqəm - üzüm təhvili 2 milyon tona, pambıq təhvili isə 1 milyon tona çatdırıldı. Qabaqcıl kolxozçuların aylıq əmək haqları 300-350 manatadək çatırdı. təsəvvür edin ki, o vaxtkı dolların kursu ilə bu 1750 manat demək

idi. Dağlıq regionlarda 5-10 evi olan kəndlər də qaz, işıq və su ilə təmin olunmuşdu. Bütün kəndlərimizdə klublar, kitabxanalar, feldşer və mama məntəqələri fəaliyyət göstərirdi. Heydər əliyev Brejnevdən, SSR-nin büdcəsindən Azərbaycanın kənd təsərrüfatının inkişafı üçün faizsiz aldığı dotasiya hesabına bütün kənd və rayonları ən yüksək səviyyəyə qaldırmışdı. Son illərin şahidi isə siz özünüz olmusunuz. Müstəqillik dövründə hakimiyyətə gəldikdən sonra hər şeyi dağıdılmış ölkəmizdə qısa müddətdə bütün sahələri bərpa etdi. Heydər əliyev müstəqilliyimizin həm memarı, həm də inşaatçısı oldu. H. əliyev çox vətənpərvər idi, xalqını çox sevirdi. vaxtınızı çox almamaq üçün bir misal çəkmək istərdim.

O, Sovet rejimi dövründə repressiyaya uğramış və sürgündə vəfat etmiş Azərbaycanın böyük şairi Hüseyn cavidin qəbrini Sibirdən tapıb Azərbaycana köçürtdü. əfsanəvi qəhrəmanlıqlarına baxmayaraq unudulmuş Mehdi Hüseynzadəyə ölümündən bir neçə il sonra Sovet itifaqı Qəhrəmanı adının verilməsinə nail oldu. Bu yaxınlarda mən Sloveniya yazıçısı tərəfndən yazılmış Mehdi Hüseynzadə haqqındakı kitabı Azərbaycan oxucularına təqdim edəcəyəm.

Heydər əliyevin hakimiyyəti dövründə saysız-hesabsız insanların əməyi Sosialist əməyi Qəhrəmanı və bir çox fəxri adlarla qiymətləndirilmişdir. Burada oturanların hamısına bunlar bəllidir. Bunları ona görə sadalayıram ki, mənim fkrimcə, Heydər əliyev haqda monoloq, tərif və şüar deməməliyik. Biz onun irsini öyrənib onun qurduğu məktəbin layiqli şagirdi olmalıyıq. Onun bizə qurduğu və tikdiyi yolda mətin addımlarla irəliləməliyik. Bu baxımdan mən Heydər əliyev irsini Araşdırma Mərkəzinin fəaliyyətini olduqca təqdirəlayiq hesab edirəm.

Heydər əliyev irsini Araşdırma Mərkəzi 2004-cü il

may ayının 10-da ümummilli liderimizin anadan olduğu gün "Heydər əliyev irsi" Beynəlxalq Elektoron kitabxanası kimi fəaliyyətə başlamışdır. Beynəlxalq Elektron kitabxananın yaradılmasında əsas məqsəd zəmanəmizin görkəmli siyasətçilərindən biri, adı müasir Azərbaycan tarixinin 34 ili ilə bilavasitə bağlı olan Heydər əliyevin zəngin irsini - çıxışları, bəyanatları, məktubları və görüşlərinin mətnlərini geniş oxucu kütləsinə çatdırmaqdan ibarət idi.

Qeyd edim ki, yalnız tarixdə həqiqətən iz qoymuş böyük dövlət xadimlərinin (Avraam linkoln, corc vaşinqton, Franklin Delano Ruzvelt, Mahatma Qandi, Uinston Çörçill, Harri trumen, con kennedi, Ronald Reyqan, Mustafa kamal Atatürk və s.) irsinə həsr olunmuş analoji layihələr mövcuddur.

Azərbaycanda ilk elektron kitabxana olan "Heydər əliyev irsi" Beynəlxalq Elektron kitabxanası həmin layihələrdən əhatə etdiyi dil coğrafyasının və oxucu kütləsinin genişliliyi ilə fərqlənir. Belə ki, yuxarıda sadaladığım elektron kitabxanalar 1-2 dildə fəaliyyət göstərirsə, "Heydər əliyev irsi" Beynəlxalq Elektoron kitabxanası bu gün 49 dildə oxuculara xidmət göstərir. Hər gün elektron kitabxanaya dünyanın 150-dən artıq ölkəsindən minlərlə oxucu daxil olur ki, bu da Heydər əliyev irsinə, Azərbaycana dünyada olan böyük marağın göstəricisidir. Bu gün dünyanın taleyüklü qərarlar qəbul edən siyasi mərkəzləri, nüfuzlu elm ocaqları və ali məktəblər, transmilli şirkətlər elektron kitabxananın daimi oxucularıdır.

Ötən dövr ərzində "Heydər əliyev irsi" Beynəlxalq Elektoron kitabxanası həm də beynəlxalq əlaqələr yaratmışdır. Hazırda elektron kitabxana ABŞ konqresinin kitabxanası, bir sıra dövlətlərin əsas kitabxanaları ilə yanaşı, Çorc vaşinqton Mərkəzi, Harri trumen Mərkəzi və digər analoji qurumlarla qarşılıqlı faydalı əlaqələrə ma-

likdir.

Ötən dövrdə öz fəaliyyətini daha da genişləndirən elektron kitabxana artıq 2007-ci ilin oktyabrından Heydər əliyev irsini Araşdırma Mərkəzi kimi fəaliyyət göstərir. Ulu öndərin irsinin öyrənilməsi və təbliği ilə məşğul olan Heydər əliyev irsini Araşdırma Mərkəzi "Heydər əliyev irsi" Beynəlxalq Elektron kitabxanası, Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən regional bürolardan ibarətdir. Mərkəz oriinal tədris proqramları əsasında gənc müəllimlər, ali məktəblərin magistrantları və tələbələri üçün "Heydər əliyev irsini öyrənirik" interaktiv kursları və yay məktəbləri təşkil edir, eləcə də planetin mühüm elmi mərkəzləri ilə internet körpülər yaradır.

Mərkəzin Qəbələ, Göyçay, lənkəran, Qobustan və Yardımlı rayonlarında regional büroları fəaliyyət göstərir.

Heydər əliyev irsini Araşdırma Mərkəzi həmçinin, siyasətçilər, politoloqlar, diplomatlar və tarixçilər üçün ən müxtəlif dillərdə kitablar nəşr edir. indiyə kimi müxtəlif dillərdə Azərbaycanın BMt, NAtO, Atət, ikt, Avropa Birliyi, Avropa Şurası və Gürcüstanla münasibətləri, qadın siyasəti və media haqqında, Heydər əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 40 illiyinə həsr olunmuş kitablar nəşr edilmişdir. Qeyd edim ki, Mərkəz bu kitabların nəşri ilə müxtəlif önəmli tarixləri ictimailəşdirməyə nail olmuşdur.

Bu gün təqdimatına toplaşdığımız "Heydər əliyev: Azərbaycanın dövlət müstəqilliyi əbədidir" kitabı isə başqa bir tarixə - Azərbaycanın dövlət müstəqilliyinin türkiyə tərəfndən tanınmasının 20 illiyinə həsr olunmuşdur.

20 il öncə - noyabrın 9-da türkiyə dünya dövlətləri arasında birinci olaraq Azərbaycanın dövlət müstəqilliyini tanıdığını bəyan etmişdir. vaxtilə Mustafa kamal Atatürk deyirdi: "Dünya yeni bir müvazinətə keçə bilər. O

zaman türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostluğumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək lazım deyil, hazır olmaq lazımdır." türkiyənin 20 il öncə atdığı addım həmin günə hazır olduğunu göstərdi.

türkiyə-Azərbaycan əlaqələri, münasibətləri günügündən inkişaf edir, güclənir. Bu münasibətlərin inkişafında Azərbaycanın ümummilli lideri Heydər əliyevin xidmətləri müstəsnadır. Məhz onun fəaliyyəti nəticəsində türkiyə-Azərbaycan münasibətləri güclənmiş, inkişaf etmişdir və bu gün ölkələrarası münasibətlərə örnək, nümunə ola bilər. Ölkələrimiz arasında bütün sahələrdə uğurlu əməkdaşlıq, işbirliyi mövcuddur. Siyasi, iqtisadi, hərbi, mədəni - bütün sahələrdə münasibətlərimiz inkişaf edir və bu, bizi çox sevindirir.

Ötən 20 il ərzində Azərbaycanla türkiyə arasındakı münasibətlər hətrəfəli inkişaf etmiş və bu gün artıq strateji müttəfqlik münasibətlərinə yüksəlmişdir. Mən Azərbaycan Respublikasının Prezidenti cənab ilham əliyevin sözlərini təkrarlamaq istəyirəm: *"Azərbaycan müstəqil ölkə kimi yaşamağa başlayandan sonra biz hər zaman Türkiyənin dəstəyini hiss etmişik və ümummilli liderimiz Heydər Əliyevin həmişə kəlamını yadda saxlayırıq: Biz bir millət, iki dövlətik. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır."*

kitabın ön sözündə qeyd etdiyim kimi, Heydər əliyevin zəngin və çoxcəhətli irsini bir kitabda əhatə etmək mümkünsüzdür. Amma bu kitaba daxil edilən əsərlər böyük Heydər əliyevin müstəqilliyimizin əbədi olması üçün keçdiyi gərgin yolu açmağa kömək edir.

Bu yaxınlarda kitab mağazasından nəvələrimə oxumaq üçün kitab aldım. Evə çatıb, həmin kitabı nəvələrimə oxudum. Bu kitab böyük Atatürk haqda xatirələr idi. xatirələrin birində deyilirdi: "Atatürk kəndlərin birinə

baş çəkir. kənd ağsaqqalları ona hədiyyə verir və xahiş edirlər ki, kəndin camaatının vəziyyəti çox ağır olduğundan, uşaqları müsəlman olmaq üçün onlara toy etməkdə yardımçı olsun. O, dərhal cibindən bank çeki çıxarıb imzalayaraq ağsaqqallara verir. 3 aydan sonra maliyyə naziri Atatürklə görüşüb, hesabdan pul çıxarılmadığını bildirir. Atatürk buna əhəmiyyət vermir. 6 aydan sonra maliyyə naziri Atatürkə təkrar müraciət edərək bildirir ki, çekdən yenə də pul çıxarılmayıb. Atatürk hazırlaşıb həmin kəndə gedir. camaat toplaşır, Atatürk ağsaqqallardan çekdən pul çıxararaq uşaqlara niyə toy edilmədiyinin səbəbini soruşur. Ağsaqqallardan biri deyir: "Hörmətli Atatürk, biz sizin imzanızı pula dəyişə bilmədik. Biz özümüz pul toplayıb toy etdik. Sizin imzanızı isə əbədi olaraq saxlayacağıq."

Mən bu müdrik qocanın sözlərini təkrarlayaraq deyirəm: "Gəlin, Heydər əliyevin Azərbaycanın xoşbəxtliyi üçün atdığı imzanı heç nəyə dəyişməyib, qoruyub saxlayaq."

AŞPA-nın Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin Azərbaycandan olan üzvləri Kristof Ştrasserlə bağlı Komitədə təmsil olunan həmkarlarına müraciət ediblər

14.11.2011

APA

"Ştrasserin məruzəçi mandatından istefa verməsi düzgün olardı"

AŞPA Hüquq Məsələləri və insan Hüquqları komitəsinin Azərbaycandan olan üzvləri Elxan Süleymanov, Rəfael Hüseynov və Fazil Mustafa komitədə təmsil olunan həmkarlarına müraciət ediblər. APA-nın məlumatına görə, müraciətdə deyilir: "AŞPA Hüquq Məsələləri və insan Hüquqları komitəsinin siyasi məhbuslar üzrə məruzəçisi, cənab kristof Ştrasserin "Azadlıq" qəzetinin 28-29 oktyabr 2011-ci il tarixli saylarında "Ştrasser hakimiyyəti sanksiyalarla hədələdi" başlığı altında müsahibəsi çap edilib. Müsahibədə tək Azərbaycan hakimiyyətinə qarşı deyil, eyni zamanda AŞPA-nın və Hüquq Məsələləri və insan hüquqları komitəsinin üzvlərinə, eləcə də Almaniya Bundestaqının üzvlərinə qarşı ciddi ittihamlar irəli sürülüb.

cənab Ştrasser müsahibədə 5 oktyabr 2011-ci il tarixdə Hüquq Məsələləri və insan Hüquqları komitəsinin siyasi məhbuslar üzrə məruzənin adının dəyişdirilməsi ilə bağlı komitənin böyük əksəriyyətinin lehinə və iki səs əleyhinə olmaqla qəbul edilmiş qərarı ilə razılaşmadığını bildirib və bu qərarın onun iştirakı olmadan qəbul edildiyini deyib. O öz mövqeyini belə izah edib: "Öz mövqeyimi ifadə edim ki, mən bu kompromislə razı deyiləm. Bu, elə də xoşagələn nəticə deyil. Bu kompromis mənim iştirakım olmadan qəbul edilib. Ona görə də etirazımı bildirirəm,

razı olmadığımı qeyd edirəm". cənab Ştrasser deyib ki, "AŞPA-da gedən proseslərlə razı deyiləm". O, AŞPA deputatlarını qruplaşmalar yaratmaqda günahlandıraraq, deyir ki, "hazırda bu məsələlərlə bağlı müəyyən qruplaşmalar yaratmağa cəhd göstərilir ki, bu da xoşagələn deyil".

cənab Ştrasser bununla yanaşı, bildirib ki, məruzədən Azərbaycanın adı çıxarılsa da, söhbət yenə də Azərbaycandakı siyasi məhbuslardan gedəcək. Məruzəçi indiyədək Azərbaycana səfər edə bilməməsinə baxmayaraq, onun siyahısında ölkəmizdə 100 nəfər siyasi məhbusun olduğunu bildirib. Məruzəçinin Hüquq Məsələləri və insan Hüquqları komitəsinin qəbul etdiyi qərara özünəməxsus belə bir interpretasiya verməsi və heç bir araşdırma aparmadan ölkədə konkret miqdarda siyasi məhbusun olmasını iddia etməsi, onun məsələyə əvvəlcədən qərəzli və qeyri-obyektiv mövqe nümayiş etdirməsini bir daha təsdiq edir. cənab Ştrasser öz müsahibəsində Azərbaycan hakimiyyətini təhdid edərək bildirib ki, "hazırlanan məruzə isə Azərbaycan tərəf üçün elə də müsbət olmayacaq". Göründüyü kimi, biz bu gün açıq-aşkar olaraq məruzəçi cənab Ştrasserin hamımızın ondan gözlədiyi kimi, neytral arbitr olmaq və neytral faktaraşdırıcı missiya qurmaq niyyətində olmaması faktı ilə üzləşmişik.

Bu azmış kimi, cənab Ştrasser müsahibədə Azərbaycan hakimiyyətinin və ona yaxın qüvvələrin Qərbi Avropada lobbi işini həyata keçirməsinin onun işini çətinləşdirdiyini bildirib. O, eyni zamanda Almaniya Bundestaqının daxili paylama sistemindən deputatlar tərəfndən hazırlanan qətnamə mətninin oğurlandığını iddia edib. Qeyd edilməlidir ki, cənab Ştrasser Bundestaq deputatlarını oğurluqla məşğul olmaqda ciddi ittiham etməsi ilə yanaşı, həm də yalan danışır. Belə ki, 24 mart 2011-ci ildə cənab Ştrasser Almaniya Bundestaqının bütün sosialist deputat-

larına siyasi məhbus məsələsi ilə bağlı Azərbaycana qarşı petisiyanı dəstəkləyərək, imzalamaq üçün müraciət etmişdi. O, məktubunda verdiyi izaha əsasən, bu petisiyanı özü imzalamamışdı: "Mən AŞPA-nın həmməruzəçisi olmağıma baxmayaraq, neytrallıq səbəbindən bu təklif imzalaya bilmərəm". Belə ki, cənab Ştrasser çox yaxşı bilir ki, o, qaydaları və bitərəf AŞPA məruzəçisinin normalarını pozur. Odur ki, qeyd edilən sənəd, cənab Ştrasserin "Azadlıq" qəzetinə verdiyi müsahibəsində dediyinin əksinə olaraq, Bundestaqın deputatları tərəfndən hazırlanan qətnamə olmayıb və həmin sənədin yuxarısında yazıldığı kimi, bu siyasi təşəbbüsü digər deputatlar deyil, məhz cənab Ştrasserin özü irəli sürüb. Bununla o, neytrallığı bilərək pozub.

"Azadlıq" qəzetinin 28-29 oktyabr tarixli saylarında deyilir ki, "Avropalı deputat (Ştrasser) Azərbaycan hökumətinin oyunlarını ifşa edib". Belə ki, qəzetin həmin saylarında nəşr edilmiş müsahibədə cənab Ştrasser Avropanın müxtəlif ölkələrindən, o cümlədən Almaniyanın Berlin şəhərindən olan keçmiş deputatları açıq-aşkar mütəşəkkil cinayət əməllərinin təzahür formalarından biri olan korrupsiyada günahlandırır. O iddia edir ki, "Azərbaycana lobbiçilik edənlər AŞPA-nın Hüquq Məsələləri və insan Hüquqları komitəsinin üzvlərinə rüşvət vermək üçün çoxlu səylər göstərirlər". O, daha sonra yalnız öz adından danışa biləcəyini anladığına görə, müsahibədə etiraf edir ki, "özümlə bağlı deyə bilərəm ki, Azərbaycan tərəf heç vaxt mənə rüşvət təklif etməyib".

Aydındır ki, hər hansı sübut və ya həta sübut əlaməti olmadan verilmiş bu cür qalmaqallı açıq bəyanat Azərbaycan hakimiyyətinə qarşı böhtanla dolu itiham olmaqla yanaşı, ümumilikdə AŞPA və Hüquq Məsələləri və insan Hüquqları komitəsinin üzvlərinin obyektivliyini şübhə altına alır. cənab Ştrasserin bu iddiaları belə bir

təsəvvür yaradır ki, Azərbaycanın mövqeyini obyektiv qiymətləndirən hər kəs, o cümlədən komitə üzvləri guya Azərbaycan tərəfndən rüşvət alıblar. Odur ki, cənab Ştrasserin ittihamlarının heç bir əsasının olmadığını və onların tamamilə qəbuledilməz olduğunu qeyd edərək, belə ittihamların Azərbaycanın beynəlxalq imicinə qarşı yönəlmiş qərəzli və düşünülmüş bir addım olduğunu, eyni zamanda bu saxta ittihamların ölkə rəhbərliyinin şərəf və işgüzar maraqlarına zərbə vurmaq niyyəti ilə irəli sürüldüyünü bildiririk.

Müsahibəsinin sonunda ictimai fikrə daha aydın olması üçün cənab Ştrasser, bir daha Azərbaycan hakimiyyətinə xəbərdarlıq edərək və Azərbaycanı təhdid edərək, bildirir ki, "hazırlanan məruzə Azərbaycanın xeyrinə olmayacaq". Ümumiyyətlə, müsahibədə cənab Ştrasserin Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirməsini sübut edən faktlar və onun ölkəmizə qarşı irəli sürdüyü əsassız ittihamlar daha geniş əhatəyə malikdir.

Obyektivlik naminə bildirməliyik ki, cənab Ştrasserin saytında onun "Azadlıq" qəzetinə heç vaxt müsahibə vermədiyi bildirilib. Göstərilib ki, cənab Ştrasser Berlində Azərbaycanın dövlət müstəqilliyinin 20 illiyinə həsr edilmiş konfransda iştirak edib və həmin konfransda AŞPA-nın siyasi məhbuslar üzrə ona verdiyi mandatla bağlı çıxış edib. Çıxışın "Azadlıq" qəzetində təqdim edilməsi stilindən kristof Ştrasserin kənarda dayandığı və çıxışın onun icazəsi olmadan müsahibə şəklində çap edildiyi bildirilib.

Yaranmış vəziyyətlə bağlı bildiririk ki, Azərbaycana qarşı irəli sürülən əsassız və qərəzli ittihamlardan sonra, ölkəyə səfər etmədən və hər hansı bir ciddi faktaraşdırıcı missiya olmadan, nəhayət, Hüquq Məsələləri və insan Hüquqları komitəsində hər hansı müzakirə aparılmadan rəsmi şəkildə dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarından biri olan Avropa Şurası adından öz şəxsi

antiazərbaycan mövqeyini ortaya qoyan cənab Ştrasserin məruzəçi qismində bitərəf arbitr kimi obyektiv mövqe nümayiş etdirəcəyinə inanmırıq və onunla əməkdaşlığın mümkün olmayacağını bildiririk. Hesab edirik ki, belə bir məzmunda müsahibənin nəşrindən sonra cənab Ştrasserin məruzəçi mandatından istefa verməsi daha düzgün olardı.

Digər tərəfdən, cənab Ştrasserin "Azadlıq" qəzetinə heç vaxt müsahibə verdiyini bildirdiyini nəzərə alaraq, AŞPA Hüquq məsələləri və insan Hüquqları komitəsinin məruzəçisinin belə formada təkzib verməsinin kifayət olmadığını bildiririk. Hesab edirik ki, cənab Ştrasser hüquqi müstəvidə məsələyə aydınlıq gətirmək məqsədilə müvafq məhkəmədə "Azadlıq" qəzetinə qarşı iddia qaldırmalı, məhkəmədə bu qəzetə heç bir müsahibə verdiyini, çap edilmiş müsahibədə irəli sürülən əsassız və qeyri-obyektiv iddiaların müəllif olmadığını sübuta yetirməlidir".

Azərbaycan deputatları Belçika xarici işlər nazirinə müraciət ediblər

Millət vəkilləri bu ölkədə fəaliyyət göstərən şirkətin saytında Azərbaycana qarşı təxribat xarakterli məlumatın yerləşdirilməsinə etiraz edirlər

24.11.2011

APA. Kəmalə Quliyeva

Azərbaycan-Belçika Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, millət vəkili Elxan Süleymanov və Azərbaycan-Belçika Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, millət vəkili Azər kərimli Belçikanın "Betravel" şirkətinin 2012-ci ildə Dağlıq Qarabağa səyahətin təklif edilməsinə dair məlumat yayması ilə bağlı Belçika krallığının xarici işlər naziri Steven vanackere, Belçika krallığının Azərbaycandakı səfri lük truyens, Belçika-Azərbaycan Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Filip Blanşar və "Betravel" kompaniyasının rəhbərinə müraciət edib.

APA-nın məlumatına görə, müraciətdə deyilir: "Bu günlərdə Belçika krallığında fəaliyyət göstərən "Betravel" kompaniyasının rəsmi internet saytında (http://www.betravel.be/optimum-travel.html) təxribat xarakterli məlumat yerləşdirilib.

Həmin məlumat həmçinin "la tribune de Bruxelles" qəzetində çap edilib, insanların çoxluq təşkil etdiyi yerlərdə-dəmir yolu vağzallarında və metro stansiyalarında pulsuz qəzet və jurnallar üçün nəzərdə tutulmuş dəmir qutularda yerləşdirilərək, əhali arasında paylanıb.

kompaniyanın saytında 15-27 sentyabr 2012-ci il

tarixlərdə Ermənistan və Dağlıq Qarabağa səyahət təklif edilir. Saytda eyni zamanda tarixi faktlar ciddi şəkildə saxtalaşdırılaraq, Dağlıq Qarabağ müstəqil dövlət kimi göstərilir və xIII əsrdə tikilmiş qədim alban məbədləri erməni kilsələri kimi təqdim edilir.

Qeyd edilənlərlə bağlı diqqətə çatdırırıq ki, ermənilər bu dövrdə həmin ərazilərdə məskunlaşmayıblar, onlar Dağlıq Qarabağa Fars və Osmanlı dövlətlərinin ərazilərindən yalnız xIx əsrin əvvəllərində cənubi Qafqaz Çar Rusiyasına birləşdirildikdən sonra köçürülüblər. Odur ki, saytda göstərilən məbədlər heç bir halda erməni kilsələri ola bilməz. Bununla bərabər, qədim alban məbədlərinin erməni kilsəsi kimi təqdim edilməsi tarixi faktları saxtalaşdırmaqla yanaşı, həm də bu ərazilərdə yaşamış xalqların tarixi-mədəni irsinə hörmətsizliyin bariz nümunəsidir.

Eyni zamanda bildirməliyik ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir və Azərbaycan Respublikasının ayrılmaz hissəsidir. 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində Ermənistan Azərbaycana qarşı silahlı təcavüz edib, Azərbaycanın Dağlıq Qarabağ regionunu və digər 7 rayonunu işğala məruz qoyub. Ermənistan işğal etdiyi ərazilərdə yerli Azərbaycan əhalisinə qarşı etnik təmizləmə siyasəti həyata keçirib və həmin ərazilər monoetnik zonaya çevrilib.

Azərbaycan xalqına qarşı ən dəhşətli cinayətlərdən biri xocalı şəhərində törədilib. Belə ki, 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Ermənistan Silahlı Qüvvələri Azərbaycanın Dağlıq Qarabağ ərazisindəki erməni silahlı dəstələri ilə birgə xankəndi ilə əsgəran arasında yerləşən xocalı şəhərini zəbt edərək, Azərbaycan xalqına qarşı soyqırımı siyasəti həyata keçirib. xocalının işğalı zamanı bir gecə ərzində dinc əhalinin 613 nəfəri, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi amansızlıqla, işgəncələrlə öldürülüb, insanların başları kəsilib,

gözləri çıxarılıb, hamilə qadınların qarınları süngü ilə deşik-deşik edilib, 1275 insan əsir götürülüb, xocalı şəhərinin özü isə məhv edilərək yer üzündən silinib.

Bütövlükdə, işğal zamanı Ermənistanın silahlı qüvvələri tərəfindən 20 mindən çox insan öldürülüb, 50 mindən çox insan yaralanıb və şikəst edilib, minlərlə insan itkin düşüb, məhkəməsiz edamlar və mülki əhalinin kütləvi qırğını, girov götürülməsi, onlardan icbari işlərdə istifadə olunması halları baş verib, 760 mindən artıq azərbaycanlı isə məcburi köçkünə çevrilib.

Hazırda Ermənistanın işğalı altında olan ərazilər Azərbaycanın və dünya birliyinin nəzarətindən kənardadır. Nəzarətsiz zonalara çevrilmiş bu ərazilərdə transmilli mütəşəkkil cinayətkar fəaliyyət üçün münbit şərait formalaşdırılmış, burada narkotik bitkilərin yetişdirilməsi üçün plantasiyalar yaradılmış və narkotik maddələr emal edilir, beynəlxalq terror təşkilatları üçün mənzil qərargahlar və təlim düşərgələri yaradılıb. işğal altında olan ərazilərdə cinayətkar yollarla əldə edilmiş "çirkli" pulların "yuyulması" həyata keçirilir.

Bir daha diqqətə çatdırırıq ki, beynəlxalq təşkilatlar, o cümlədən BMt, Atət, Avropa Birliyi, Avropa Şurası və digərləri Azərbaycan ərazilərinin, o cümlədən Dağlıq Qarabağ regionunun hazırda işğal altında olması faktını tanıyıb, məcburi köçkünlərin öz vətənlərinə qayıtmaq və təhlükəsiz yaşamaq hüququnu təsdiqləyib, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində, Dağlıq Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü dəstəklədiklərini dəfələrlə birmənalı şəkildə bildirib.

Uzun müddətdir ki, Atət-in Minsk Qrupu çərçivəsində münaqişənin sülh yolu ilə həllinə nail olmaq məqsədilə Azərbaycan və Ermənistan prezidentləri səviyyəsində danışıqlar aparılır. Hazırda danışıqlar Atət-in Minsk qrupunun həmsədr ölkələri olan ABŞ,

Rusiya və Fransa prezidentlərinin G8 (Böyük səkkizliyin) 2009-cu il Akvil (italiya), 2010-cu il Muskok (kanada) və 2011-ci il Dovil (Fransa) sammitləri zamanı qəbul etdikləri bəyanatlarda təklif etdikləri prinsiplər əsasında davam etdirilir.

Bildiririk ki, Azərbaycan tərəf işğal edilmiş ərazilərin BMt Nizamnaməsinin 51-ci maddəsinə əsasən, özünümüdafə hüququna malik olmasına baxmayaraq, münaqişənin sülh yolu ilə həllində maraqlıdır və bu məqsədlə öz səylərini əsirgəmir. lakin Ermənistan tərəf münaqişənin həllində maraqlı olmadığını və mövcud "status-kvo" vəziyyətinin saxlanılmasında maraqlı olduğunu öz praktiki fəaliyyətində sübuta yetirib. Belə ki, münaqişənin sülh yolu ilə həlli istiqamətində danışıqlar prosesinin davam etdiyi bir vaxtda Ermənistan tərəf, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni diaspor təşkilatları və münaqişənin həll edilməsində maraqlı olmayan müxtəlif qüvvələr mütəmadi olaraq müxtəlif xarakterli təxribatlar həyata keçirirlər — müxtəlif ölkələrdəki şirkətlərin Azərbaycanın işğal altında olan ərazilərində güzəştli şərtlərlə fəaliyyətə cəlb edilməsi, digər ölkələrin sənət adamlarının bu ərazilərdə konsertlərinin təşkili, bu ərazilərə dünyanın müxtəlif ölkələrindən turistlərin dəvət edilməsi istiqamətində səylər göstərilir, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən təşkilatlara Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistanın ərazisi kimi göstərildiyi xəritələr təqdim edilir.

Qeyd edilməlidir ki, Belçika krallığında fəaliyyət göstərən "Betravel" kompaniyasının rəsmi saytında və "la tribune de Bruxelles" qəzetində 15-27 sentyabr 2012-ci il tarixlərdə Dağlıq Qarabağa səyahətin təşkil ediləcəyi barədə məlumatların yerləşdirilməsi və Dağlıq Qarabağın Ermənistan bölümündə verilməsi belə bir növbəti təxribatlardandır.

Odur ki, “Betravel” kompaniyasından rəsmi saytından belə təxribat xarakterli məlumatları dərhal yığışdırmağı, “la tribune de Bruxelles” qəzetində çap edilmiş məlumatların reallığı əks etdirmədiyini və həmin məlumatların təkzib edilməsini əks etdirən materialın dərc edilməsini, Azərbaycanın dövlət suverenliyi və ərazi bütövlüyünü şübhə altına ala biləcək məlumatlar yaydığına görə izahat verməsini və Azərbaycan dövlətindən üzr istəməsini tələb edirik.

Nəhayət, bildirmək istəyirik ki, Azərbaycan dövlət strukturlarının rəsmi icazəsi olmadan Dağlıq Qarabağa səfər etmək Azərbaycanın sərhədlərinin pozulması və dövlət suverenliyinə hörmətsizlik kimi qiymətləndirilir. Belə bir addımı atmış xarici ölkə vətəndaşları Azərbaycan tərəfindən arzuolunmaz şəxslər kimi qiymətləndirilir və bir daha Azərbaycan ərazilərinə buraxılmırlar”.

Millət vəkili Elxan Süleymanov Almaniya Bundestaqının üzvlərinə müraciət edib

05.12.2011

APA

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Hüquq məsələləri və insan hüquqları komitəsinin üzvü Elxan Süleymanov Almaniya Bundestaqının İnsan Hüquqları və Humanitar Yardım komitələrinin Azərbaycanda insan hüquqlarının vəziyyətinə dair qəbul etdikləri birgə bəyannamə ilə bağlı Almaniya Bundestaqının üzvlərinə müraciət edib.

APA-nın məlumatına görə, müraciətdə deyilir: "Almaniya Bundestaqının insan Hüquqları və Humanitar Yardım komitəsinin Azərbaycandakı məsələlərə dair qəbul etdiyi bəyannamə bizi çox təəssüfləndirir. Belə ki, qəbul edilmiş birgə bəyannamədə Azərbaycanın Avropa Şurası qarşısında öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi şübhə altına alınır və biz bu yanlış və səhv ittihamı ən güclü və aydın şərtlərdə təkzib edirik.

Azərbaycan bütün öhdəliklərə, eyni zamanda 2002-ci il insan Hüquqlarına dair Avropa konvensiyasının öhdəliklərinə sadiqdir və Münsterdə, Almaniyadakı əyalətdə və ya başqa bir yerdə olmasından asılı olmayaraq, heç bir ölkədə, heç bir yerli siyasətçi ədalətsiz lobbiçiliyə, yanlış iddialara və ya deputat yoldaşlarının qərəzli mövqeyinə nail olmağa səy göstərməyə əsaslanan yerli və ya beynəlxalq auditoriya üçün demaqoq tipli çıxışlarla məşğul olmamalıdır.

Sənəddə ölkəmizin konkret olaraq AŞPA-nın 2009-cu ildə Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçisi cənab kristofŞtrasserlə əməkdaşlıqdan imtina etdiyi və "Bakının tələbinə cavab olaraq bir neçə həftə əvvəl

mandatın yalnız Azərbaycanda siyasi məhbuslar ilə məhdudlaşdırılması götürülsə də", Azərbaycanın "siyasi məhbuslar üzrə məruzəçiyə yenə viza" vermədiyi və "onu yenə ölkəyə səfərini təxirə salmağa məcbur" etdiyi göstərilir. Bu, sadəcə yalandır. Azərbaycan cənab Ştrasserlə əməkdaşlıq üçün fəal çalışır. Digər tərəfdən, görünür ki, cənab Ştrasser özü konstruktiv səylər istiqamətindəki hər cəhddən imtina edir, sanki o, məsələyə sırf Azərbaycandakı fərdi müxalifət fəalları ilə tez-tez əlaqə qurmasından irəli gələn qərəzli və Bundestaqın nüfuzlu üzvü bir kənara, AŞPA komitəsinin məruzəçisindən gözlənilən balans və bitərəfik olmayan mövqe nümayiş etdirib.

cənab Ştrasserin sizə nə deməsinin əksinə, aydınlaşacaq ki, Azərbaycan əməkdaşlıq edir və elə bir neçə gün əvvəl cənab Ştrasserin Yeni ildə səfərini planlaşdıra bilmək məqsədilə məsələni yenidən nəzərdən keçirmək istəyi barədə yazılı formada AŞPA-nın Hüquq Məsələləri komitəsinə məlumat verib. Beləliklə, buna zidd istənilən bəyanat təhqiredici və qeyri-müvafqdir, çünki yanlış məlumata əsaslanır.

Bəyannamədə komitəniz AŞPA-nı "Azərbaycanın Avropa Şurasının siyasi məhbuslar üzrə məruzəçisi kristofer Ştrasserə yubadılmadan Azərbaycana daxil olmasına icazə verməsinə və ona öz mandatını yerinə yetirmək üçün zəruri olan hər bir dəstək göstərməyə" və "insan Hüquqları və əsas azadlıqların qorunması üzrə Avropa konvensiyasına riayət etməsi üçün hərtərəfi tədbir görməyə" çağırır.

Bununla bağlı, əziz həmkarlar, qeyd etməyi vacib hesab edirik ki, Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməkdən heç vaxt imtina etməyib, əksinə, bu öhdəliklərin tam şəkildə yerinə yetirilməsi üçün davamlı tədbirlər həyata keçirib. Hazırda da Azərbaycan Avropa Şurası qarşısında öz üzərinə

götürdüyü öhdəliklərə sadiqdir və biz Avropa Şurasının üzvü kimi bu təşkilat tərəfndən qəbul edilmiş qərarları, o cümlədən siyasi məhbus məsələsi ilə bağlı qərarları yerinə yetirməkdə israrlıyıq.

Eyni zamanda, AŞPA üzvlərinin uğurla səsverməsindən göründüyü kimi, biz artıq neçə illik müzakirədən sonra göstərmişik ki, AŞPA-da siyasi məhbus məsələsini müzakirə edərkən, ikili standartlardan çəkinmək məqsədilə təşkilata üzv 47 ölkə arasında heç bir ayrı-seçkiliyə yol verilmədən ümumqəbul edilmiş meyarlar qəbul edilməlidir.

Ai üzvü olan 27 ölkədən bir çox parlamentarilər, eləcə də beynəlxalq akademik orqanlar bu və ya digər ölkəni araşdırmazdan və ya itiham etməzdən əvvəl beynəlxalq hüquqi çərçivənin hazırlanması məqsədi daşıyan bu təklifə dəstək veriblər.

Bunun nəticəsi olaraq, AŞPA Hüquq Məsələləri və insan Hüquqları komitəsi bir neçə həfə əvvəl, cari ilin oktyabrında siyasi məhbus probleminin araşdırılması məruzəsinin adının dəyişdirilməsi barədə qərar qəbul edib. komitənin bu qərarı Sizin qəbul etdiyiniz bəyannamədə göstərildiyinin əksinə olaraq "Bakının tələbinə cavab olaraq" qəbul edilməyib - çünki bu, bizim təşəbbüsümüz deyildi - və bu qərar AŞPA Hüquq Məsələləri və insan Hüquqları komitəsinin üzvlərinin böyük əksəriyyətinin (bir səs əleyhinə olmaqla) dəstəklədiyi qərar olub.

istənilən halda, komitənin bu vacib qərarından sonra Azərbaycan hakimiyyəti cənab Ştrasserin noyabrın ikinci yarısında öz mandatına uyğun olaraq səfərinin və səfərin gündəliyinin hazırlanması ilə bağlı işlərə başlayıb.

lakin belə bir vaxtda mühüm müxalifət qəzeti kimi tanınan "Azadlıq" qəzetinin 28-29 oktyabr 2011-ci il tarixli saylarında cənab kristof Ştrasserin "Ştrasser

hakimiyyəti sanksiyalarla hədələdi" başlığı altında müsahibəsi çap edildi. Bu müsahibədə tək Azərbaycan hakimiyyətinə qarşı deyil, eyni zamanda AŞPA-nın və Hüquq məsələləri və insan hüquqları komitəsinin üzvlərinə, eləcə də Almaniya Bundestaqının üzvlərinə qarşı ciddi və böhtan dolu ittihamlar irəli sürülüb.

cənab Ştrasser müsahibədə 5 oktyabr 2011-ci il tarixdə Hüquq məsələləri və insan Hüquqları komitəsinin siyasi məhbuslar üzrə məruzənin adının dəyişdirilməsi ilə bağlı komitənin böyük əksəriyyətinin lehinə və iki səs əleyhinə olmaqla qəbul edilmiş qərarı ilə razılaşmadığını vurğulayıb və bu qərarının onun iştirakı olmadan qəbul edildiyini bildirib. O, öz mövqeyini belə izah edib: "Öz mövqeyimi ifadə edim ki, mən bu kompromislə razı deyiləm. Bu, elə də xoşagələn nəticə deyil. Bu kompromis mənim iştirakım olmadan qəbul edilib. Ona görə də etirazımı bildirirəm, razı olmadığımı qeyd edirəm".

cənab Ştrasser çox aydın şəkildə deyib ki, "AŞ PA-da gedən proseslərlə razı deyiləm". O, AŞPA deputatlarını qruplaşmalar yaratmaqda günahlandıraraq, deyir ki, "hazırda bu məsələlərlə bağlı müəyyən qruplaşmalar yaratmağa cəhd göstərilir ki, bu da xoşagələn deyil".

cənab Ştrasserlə bağlı başqa nə isə deməyə ehtiyac yoxdur. O, öz sözləri və hərəkətləri ilə özünün qərəzli və qeyri-obyektiv mövqeyə malik və institusional məsuliyyət hissi olmayan Bundestaqda Münsteri təmsil edən yerli siyasətçi olduğunu göstərir. Belə ki, o, bunu suveren dövlətin yerli siyasətinə müdaxiləni bildirən müxalifət qəzetlərinə düşünülməmiş və böhtanla dolu müsahibələr silsiləsi ilə nümayiş etdirir. Hətta demaqoq ritorikası ilə bir daha aydın şəkildə göstərir ki, Avropa qurumunun məruzəçisi kimi rəsmi səfər etmədən qərarını verib.

cənab Ştrasserin Bakıya ədalətli, bitərəf və obyektiv şəkildə səfərdən və müzakirənin hər iki tərəfni

dinləməkdən imtina etməsi Bundestaq və ya Avropa qurumunun məsul üzvünün rəfarı deyil. Hətta belə olsa da, Azərbaycan Avropa qurumuna hörmət edir və cənab Ştrasserlə əməkdaşlıq etmək istəyir, o şərtlə ki, cənab Ştrasser qərəzi bir kənara qoysun və ədalətli, tarazlaşdırılmış rəfar etsin.

Məruzəçinin Hüquq Məsələləri və insan Hüquqları komitəsinin qəbul etdiyi qərara özünəməxsus belə bir interpretasiya verməsi və heç bir araşdırma aparmadan ölkədə konkret miqdarda siyasi məhbusun olmasını iddia etməsini nəzərə alsaq, o, məsələyə əvvəlcədən qərəzli və qeyri-obyektiv mövqeyinin olduğunu bir daha təsdiq edir.

Azərbaycana səfər ərəfəsində olan bir məruzəçi üçün şok bir haldır ki, cənab Ştrasser yerli və fəal müxalifət qəzetinə müsahibəsində hətta Azərbaycan hakimiyyətini təhdid edərək bildirib ki, "hazırlanan məruzə isə Azərbaycan tərəf üçün elə də müsbət olmayacaq".

Göründüyü kimi, biz bu gün açıq-aşkar olaraq məruzəçi cənab Ştrasserin hamımızın ondan gözlədiyi kimi neytral arbitr olmaq və neytral fakt-araşdırıcı missiya qurmaq niyyətində olmaması faktı ilə üzləşmişik.

Məhkəmə yolu ilə mümkün olsaydı, cənab Ştrasser açıq qərəzli davranışı ilə AŞPA-dakı vəzifəsindən impiçment üçün ideal namizəd olardı. Bu azmış kimi, cənab Ştrasser müsahibədə Azərbaycan hakimiyyətinin və ona yaxın qüvvələrin Qərbi Avropada lobbi işini həyata keçirməsinin onun işini çətinləşdirdiyini bildirib. O, eyni zamanda Almaniya Bundestaqının daxili paylama sistemindən deputatlar tərəfndən hazırlanan sənədin mətninin oğurlandığını iddia edib. Qeyd edilməlidir ki, cənab Ştrasser Bundestaq deputatlarını oğurluqla məşğul olmaqda ciddi itiham etməsi ilə yanaşı, göründüyü kimi, həm də yalan danışır.

Belə ki, 24 mart 2011-ci ildə cənab Ştrasser Almani-

ya Bundestaqının bütün sosialist deputatlarına siyasi məhbus məsələsi ilə bağlı Azərbaycana qarşı petisiyanı dəstəkləyərək, imzalamaq üçün müraciət etmişdi. O, məktubunda verdiyi izaha əsasən, bu petisiyanı özü imzalamayıb: "Mən AŞPA-nın həmməruzəçisi olmağıma baxmayaraq, neytrallıq səbəbindən bu təklif imzalaya bilmərəm." Belə ki, cənab Ştrasser çox yaxşı bilir ki, o, qaydaları və bitərəf AŞPA məruzəçisinin normalarını pozur. Odur ki, qeyd edilən sənəd, cənab Ştrasserin "Azadlıq" qəzetinə verdiyi müsahibəsində dediyinin əksinə olaraq, Bundestaqın deputatları tərəfndən hazırlanan petisiya olmayıb və həmin sənədin yuxarısında yazıldığı kimi, petisiyaya dəstək almaq məqsədi daşıyan bu siyasi təşəbbüsü digər deputatlar deyil, məhz cənab Ştrasserin özü irəli sürüb. Bununla o, neytrallığı bilərək pozub.

"Azadlıq" qəzetinin 28-29 oktyabr tarixli saylarında deyilir ki, "Avropalı deputat (Ştrasser) Azərbaycan hökumətinin oyunlarını ifşa edib". Belə ki, qəzetin həmin saylarında nəşr edilmiş müsahibədə cənab Ştrasser açıq-aşkar ciddi itiham irəli sürür və iddia edir ki, "Azərbaycana lobbiçilik edənlər AŞPA-nın Hüquq Məsələləri və insan Hüquqları komitəsinin üzvlərinə rüşvət vermək üçün çoxlu səylər göstərirlər." O, daha sonra yalnız öz adından danışa biləcəyini anladığına görə, müsahibədə etiraf edir ki, "özümlə bağlı deyə bilərəm ki, Azərbaycan tərəf heç vaxt mənə rüşvət təklif etməyib".

Aydındır ki, hər hansı sübut və ya həta sübut əlaməti olmadan verilmiş bu cür qalmaqallı açıq bəyanat Azərbaycan hakimiyyətinə qarşı böhtanla dolu ağır cinayətlərdə itiham etməklə yanaşı, ümumilikdə AŞPA və Hüquq Məsələləri və insan Hüquqları komitəsinin üzvlərinin obyektivliyini şübhə altına alır. cənab Ştrasserin bu iddiaları belə bir təsəvvür yaradır ki, Azərbaycanın mövqeyini obyektiv qiymətləndirən

hər kəs, o cümlədən komitə üzvləri guya Azərbaycan tərəfndən rüşvət alıblar.

Bu, Bundestaqın və ya Almaniya hökumətinin və ya Avropa qurumunun etibarlı üzvünün hərəkəti deyildir. Bu, bir təhrikçi və demaqoqa xas hərəkətdir.

Odur ki, cənab Ştrasserin ittihamlarının heç bir əsasının olmadığını və onların tamamilə qəbuledilməz olduğunu qeyd edərək, belə qərəzli ittihamların Azərbaycanın beynəlxalq imicinə qarşı yönəlmiş qərəzli və düşünülmüş bir addım olduğunu, eyni zamanda bu saxta ittihamların ölkə rəhbərliyinin şərəf və işgüzar maraqlarına zərbə vurmaq niyyəti ilə irəli sürüldüyünü vurğulayırıq.

Biz şübhə edirik ki, kansler xanım Angela Merkelə kristof Ştrasser kimi bir kəsin təsiri ola bilər.

əziz həmkarlar, bilməlisiniz ki, hazırda cənab kristof Ştrasserin "Azadlıq" qəzetinin 28-29 oktyabr 2011-ci il tarixli saylarında "Ştrasser hakimiyyəti sanksiyalarla hədələdi" başlığı altında müsahibəsi ətrafında daha ciddi və mübahisəli məqamlar ortaya çıxıb. Belə ki, bir tərəfdən, cənab Ştrasserin saytında onun "Azadlıq" qəzetinə heç vaxt müsahibə vermədiyi bildirilib. Göstərilib ki, cənab Ştrasser Berlində Azərbaycanın dövlət müstəqilliyinin 20 illiyinə həsr edilmiş konfransda iştirak edib və həmin konfransda AŞPA-nın siyasi məhbuslar üzrə ona verdiyi mandatla bağlı çıxış edib. Çıxışın "Azadlıq" qəzetində təqdim edilməsi üslubundan kristof Ştrasserin kənarda dayandığı və çıxışın onun icazəsi olmadan müsahibə şəklində çap edildiyi bildirilib.

Digər tərəfdən, "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahid cənab Ştrasserin saytında göstərilənləri rəsmi şəkildə təkzib edib və "Musavat" qəzetinin 15 noyabr 2011-ci il tarixli sayında aydın formada təsdiq edib ki, "qəzetdə əksini tapan fikirlər tamamilə və bütövlükdə cənab Ştrasserə məxsusdur".

Bundan əlavə, "Azadlıq" qəzetinin 16 noyabr 2011-ci

il tarixli sayında "Ştrasser "Azadlıq"a müsahibə veribmi?" başlığı altında sonrakı məqalə dərc edilib. Həmin məqalədə cənab Ştrasserdən yuxarıda qeyd edilmiş qalmaqallı və qərəzli müsahibə götürmüş jurnalist Fikrət Hüseynli yaranmış vəziyyətlə bağlı bütün məqamlara aydınlıq gətirib. O, müsahibənin cənab Ştrasser tərəfindən inkar edilməsinin əsassız olduğunu və həqiqəti əks etdirmədiyini bildirib. "Azadlıq" qəzetinin əməkdaşı Fikrət Hüseynli cənab Ştrasserin konfransda çıxışının, ona çıxışla bağlı verilən suallar və həmin sualların cavablandırılmasının, konfransdan sonra cənab Ştrasserlə şəxsi söhbətinin və ona verdiyi suallar və onlara verilən cavabların diktofona yazıldığını vurğulayıb və həmin audio-yazıların hazırda mövcud olmasını diqqətə çatdırıb. Bundan əlavə, jurnalist Fikrət Hüseynli müsahibə hazırlanıb başa çatdıqdan sonra cənab Ştrasserin bürosu ilə telefon əlaqəsi saxladığını, bürodan müsahibənin çap edilməsi ilə bağlı sorğularına "heç bir problem yoxdur və yazı dərc edilə bilər" cavabı verildiyini bildirib.

Beləliklə, fikirləri xülasələşdirsək:

- Bitərəf, ədalətli və tarazlaşdırılmış mövqe nümayiş etdirməli olan məruzəçi cənab Ştrasser Berlində fəal müxalifət qəzetinə verdiyi və 28 və 29 oktyabr 2011-ci ildə nəşr edilmiş müsahibəsində Azərbaycan hökumətini "sanksiyalarla" təhdid edib və "ədalətli və tarazlaşdırılmış" məruzə hazırlamaq üçün Azərbaycana səfəri ərəfəsində bildirib ki, məruzəsi Azərbaycana qarşı olacaq.

- Daha sonra cənab Ştrasser Münster seçicilərinin izlədiyi saytında heç vaxt müsahibə vermədiyini deyərək, müsahibəni təkzib edib və Bundestaq üzvləri və Almaniya ictimaiyyətinə yalan deyib.

- Sonra cənab Ştrasser AŞPA-nın Hüquq Məsələləri komitəsinin AŞ-nın 47 üzv dövlətinin siyasi məhbuslara dair meyarları işləmək kimi mühüm məsələdə ədalətli

və açıq səsverməsi ilə əlaqədar mandatı barədə qərarı icra etməyəcək.

- indi cənab Ştrasser yanlış olaraq iddia edib ki, Azərbaycan onu Bakıya məruzəçi qismində dəvət etmək istəmir, halbuki Azərbaycanın xoş niyyəti AŞPA-nın Hüquq Məsələləri komitəsinin Sədrinə ünvanlanan son məktubda aydın görünür.

- indi cənab Ştrasser öz motivləri və hərəkətləri haqqında faktları və şəffaflığı təmin etmədən, nüfuzlu həmkarları və parlamentariləri ölkəmiz barədə birgə bəyannamə verməyə ruhlandıra bilib. Nəticə etibarilə, o, öz düzgünlük və etibarlılığına zərbə vurub və Bundestaq və AŞPA-da deputat yoldaşlarına xələl gətirib.

Beləliklə, əziz deputat həmkarlarım, dərin hörmət hissi ilə biz bu Birgə Bəyannamədən çox təəssüfənirik, çünki o, tam faktlar və şəffaflıq əsasında sizin mühakimə qabiliyyətinizə əsaslanmayıb.

Yuxarıda qeyd edildiyi kimi, ölkəmizə dair hər zaman gələcək koordinasiya, əməkdaşlıq, səfərlər və bəyanatlara və düzgün və şəffaf məlumata malik olmağınızı təmin etmək məqsədilə bütün sənədlərin təqdimatına şərait yaratmağı təklif etmək istəyirik.

Biz belə düşünürük ki, cənab Ştrasserin yarı həqiqətlər və az miqdarda məlumatı uğurla manipulyasiya etməsi nəticəsi olaraq, onun nüfuzlu komitənizin bütün faktları əldə etməsi imkanına yol vermədiyi görünür.

Bu mənada, biz sizdən dərin hörmətlə xahiş edirik ki, yuxarıda adı çəkilən Almaniya Bundestaqının insan Hüquqları və Humanitar Yardım komitəsinin qəbul etdiyi bəyanatı nəzərdən keçirib düzəliş edəsiniz və bu məqsədlə bu gün burada hazırladığımız bütün elementləri əsaslandıran tam sənədləşmə ilə sizi təmin etmək təklifmizi təkrarən nəzərinizə çatdırırıq.

Şübhəsiz ki, siyasi insidentlərlə dolu bu vəziyyət belə bir sual yaradır: “Yuxarıda qeyd edilən olaylardan son-

ra cənab Ştrasser məruzəçi qismində bitərəf arbitr kimi obyektiv mövqe nümayiş etdirə bilərmi və onunla qarşılıqlı etibar əsasında konstruktiv əməkdaşlıq mümkündürmü?"

Eyni zamanda qeyd edilməlidir ki, cənab Ştrasserin qeyri-obyektiv, qərəzli antiazərbaycan mövqe nümayiş etdirməsinə baxmayaraq, AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri bu qurumun rəhbərliyinə məktub ünvanlayıb. Məktubda ədalət və bərabərlik naminə tərəfər arasında razılaşdırılacaq tarixdə və gündəlik əsasında iddia edilən siyasi məhbuslar məsələsinin müzakirə edilməsi məqsədilə cənab Ştrasserin 2012-ci il ərzində ölkəyə baş tuta biləcək rəsmi səfərini müzakirə edilməsinə Azərbaycanın hazır olduğunu bildirilib.

təəssüf hissi ilə bildiririk ki, cənab Ştrasser AŞPA rəhbərliyinə göndərilən məktubdan xəbərdar olmasına baxmayaraq, Avropa parlamentarilərinə reallıqdan uzaq olan məlumatlar verərək, onları aldatmaqla özünün antiazərbaycan fəaliyyətini davam etdirir".

MÜSAHİBƏLƏR

Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin üzvü Elxan Süleymanovun APA-ya müsahibəsi

01.02.2011

APA. Rəşad Süleymanov

- Millət vəkili olaraq ilk dəfə AŞPA-nın iclaslarına qatıldınız. İlk iclas barədə təəssüratlarınız necə oldu?

- Mən Azərbaycan nümayəndə heyətinin üzvü olaraq AŞPA-nın 3 komitəsinə - Siyasi, Monitorinq, insan Haqları və Hüquq komitələrinə üzv seçilmişəm. ilk fəaliyyətim də insan Haqları və Hüquq komitəsindən başladı. Yeni üzv kimi yanvarın 24-də Avropa Şurasının iqamətgahında bu komitənin iclasında iştirak etdim. Elə ilk iclasda Almaniyadan olan həmkarımız kristofer Ştrasserin Azərbaycana dair məruzəsi barədə çox qəribə müzakirədən heyrətləndim. Məncə, komitə üzvləri müzakirə predmeti olan siyasi məhbus məsələsi barədə Büro və komitənin özünün son 5 ildə çıxardığı qərarlardan ya xəbərsiz idilər, ya da özlərini xəbərsiz kimi göstərməyə çalışırdılar. Bu səbəbdən də, təcili şəkildə bəzi araşdırmalar apararaq məsələnin xronologiyasını hazırladım. komitənin bu məsələyə ciddi hüquqi və qərəzsiz mövqedən yanaşmasını Büronun yaxından izləyəcəyinə əminliyimi ifadə edib AŞPA prezidentinə, komitənin sədrinə, katibinə, və üzvlərinə məktubla müraciət etdim.

- Ümumilikdə AŞPA-nın son zamanlar Azərbaycanda siyasi məhbus məsələsini yenidən gündəmə gətirməsi nədən qaynaqlanır?

- Mən ötən 4 ildə bununla bağlı baş verən hadisələri

xronoloji ardıcıllıqla AŞPA prezidentinə göndərdiyim məktubda göstərmişəm. 2007-ci il dekabrın 18-də Purqurides və insan Haqları və Hüquq komitəsinin bütün üzvləri "Azərbaycanda siyasi məhbuslar məsələsinin izlənilməsi"nə dair təklif təqdim edib. 2008-ci il martın 13-də AŞPA Bürosu bu təklif ilə əlaqədar qərarı 2008-ci ilin iyun ayına qədər təxirə salmaq qərarı verib. 2009-cu il yanvarın 26-da Büro təklif "hesabat üçün" insan Haqları və Hüquq komitəsinə ötürmək qərarına gəlir. cənab Ştrasser məruzəçi təyin olunur. AŞPA Bürosunun bütün üzvləri ikili standartlar və bir sıra ölkələrdə fərdi hallara görə meyarların mümkün pozulmasından çəkinmək məqsədilə bütün üzv dövlətlər üçün müvafq olan "siyasi məhbuslar anlayışının müəyyənləşdirilməsi"nə dair hesabat üçün təklif təqdim edirlər. Həmin il iyunun 22-də Büro insan Haqları və Hüquq komitəsinin bu təklifə bağlı fkrini öyrənmək qərarına gəlir. Sentyabrın 11-də insan Haqları və Hüquq komitəsi həta gündəlikdə olduqda belə, Büro tərəfndən fkrin öyrənilməsi barədə xahiş ilə məşğul olmayıb. Purquridesin təklifnin ardınca komitə mövzunu növbəti iclasa qədər təxirə salmaq qərarı verib. Sentyabrın 29-da isə məsələ Strasburqda plenar iclas zamanı insan Haqları və Hüquq komitəsinin iclasında müzakirə olunub. O vaxt sədr Purqurides və bəzi üzvlər bu hesabatın Ştrasserin məruzəçiliyi ilə Azərbaycana dair mövcud hesabata daxil edilməsinin tərəfdarı idi. lakin müzakirə və açıq səsvermədən sonra insan Haqları və Hüquq komitəsi hesabatın daxil edilməsi mövqeyini nəzərə almadan Bürodan "hesabat üçün" bu təklifn ona göndərilməsini xahiş etmək qərarına gəlib ki, bu isə ayrıca hesabat deməkdir. Nəhayət noyabrın 19-da komitənin fkrini nəzərə alaraq, Büro "hesabat üçün" bu ikinci təklif insan Haqları və Hüquq komitəsinə ötürüb, bu da bir daha ayrıca hesabat deməkdir. Dekabrın 16-da isə Purquridesin sədrliyi və təklif ilə komitə Ştrasseri

(o iştirak etmədiyi zaman) "siyasi məhbuslar anlayışının müəyyənləşdirilməsi" üçün məruzəçi təyin edib. 2010-cu ilin iyun ayında Assambleyanın plenar iclası zamanı insan Haqları və Hüquq komitəsi Ştrasser tərəfndən işlənib hazırlanmış hesabatın ilkin variantını araşdırıb. Büronun və komitənin əvvəlki qərarlarına baxmayaraq, Ştrasserin bir və yeganə məruzəçi olmaqla, hər iki hesabatın (Azərbaycanda siyasi məhbusların vəziyyətinin izlənilməsi və siyasi məhbus anlayışı) bir hesabatda birləşdirilməsi qərarına gəlib.

- Siz bu "siyasi məhbus" məsələsinin çözülməsi yolunu necə görürsünüz və hansı təkliflәriniz var?

- Hüquq komitəsinin yanvarın 24-də keçirilən iclasında Purqurides bir daha "siyasi məhbusun müəyyənləşdirilməsi"nə dair ayrıca hesabatın hazırlanması üçün səbəb olmadığını bəyan etdi. Bu mövqe Büronun "siyasi məhbusun müəyyənləşdirilməsi" barədə ilkin hesabatın hazırlanmasına dair qərarına ziddir. Bu qərar faktı açıq-aşkar sübut edir ki, Büronun fkrincə, bu meyarları müəyyənləşdirmək və ya ən azı mümkün mövcud meyarları nəzərdən keçirmək və reallaşdırmağa ehtiyac var. Öyrəndim ki, bir məruzəçi Ştrasser tərəfndən birinci hissədə siyasi məhbusun müəyyənləşdirilməsi, ikinci hissədə isə eyni məruzədə bu meyarları bir ölkəyə tətbiq etməklə, artıq komitə tərəfndən razılaşdırılmış bir və yeganə hesabat hazırlanır. Bu mövqe Büronun qərarına və komitənin ilk qərarına ziddir. Hər hansı vəkil üçün eyni şəxsin meyarları müəyyən edə bilməsi və daha sonra eyni hesabatda bir ölkəni "öz" meyarlarına uyğun qiymətləndirməsi qəbuledilməzdir. Bu, hüquq normasının bütün əsas prinsiplərinə də uyğun gəlmir. Bu cür meyarlara dair yekun qərarı məruzəçi və komitə verə bilməz. Bu cür meyarlara dair yekun qərarı bütün üzv dövlətlərin marağı, eləcə də təşkilatın özünün maraq və etibarına hörmət edilə bilən çox açıq və aşkar müzakirədən sonra

yalnız AŞPArlament Assambleyasının plenar iclası qəbul edə bilər. Bütün bu səbəblərə görə mən ümumilikdə insan Haqları və Hüquq komitəsi və xüsusilə onun sədrinin qərəzli yanaşmasına tamamilə etiraz edirəm. AŞPA üzvü kimi, Büro və insan Haqları və Hüquq Məsələləri komitəsinin qərarlarına hörmət edilməsində təkid edirəm. Düşünürəm ki, Azərbaycan rəsmiləri də AŞPA-nın Bürosuna, eyni zamanda, ölkəmizə hüququn aliliyinə hörmət edərək siyasi məhbus anlayışı ilə bağlı kriteriyalar müəyyənləşməmiş, həmin məsələ ilə bağlı AŞPA-nın plenar sessiyasında müvafq konvensiyanın və ya qətnamə qəbul edilməmiş hər hansı bir hesabatın hazırlanmasının əleyhinədir

- Sizcə bu kriteriyalar kim tərəfindən hazırlanmalıdır? Bu işlər kimə həvalə olunmalıdır?

- Mən şəxsən hüquqi sənədin olmaması ilə yanaşı iki məruzənin bir məruzəçiyə verilməsini absurd hesab edirəm. Fikrimcə, məsələnin obyektiv, qərəzsiz və ayrıseçkiliyə yol vermədən həllinə nail olmaq üçün insan Haqları və Hüquq komitəsi "siyasi məhbus" məsələləri üzrə alt komitə yaradılması barədə qərar qəbul etməlidir. Həmin alt komitənin üzvləri tərəfndən "siyasi məhbus"anlayışını və siyasi məhbusların müəyyən edilməsi üçün kriteriyaları özündə ehtiva edən sənəd layihəsi hazırlanmalıdır. Bu layihə AŞPA-nın plenar sessiyasında səsə qoyularaq qəbul edildikdən sonra AŞ-na üzv olan 47 dövlətin hamısına şamil edilə biləcək hüquqi sənəd olur. Həmin sənəd ya Avropa Şurasının müvafq konvensiyası və ya AŞPA-nın qətnaməsi formasında ola bilər. Yalnız AŞ çərçivəsində ümumtanınmış belə bir sənəd qəbul edildikdən sonra, AŞ-na üzv ölkələrinin hər hansı birində, o cümlədən Azərbaycanda, siyasi məhbus olması ehtimalı olduqda, həmin ölkə üzrə məruzəçi təyin edilə bilər. Alt komitə öz gələcək fəaliyyətini Avropa Şurasına üzv ölkələrdə siyasi məhbus məsələləri

üzrə heç bir ayrı-seçkiliyə yol vermədən monitoriqlər aparmaqla davam etdirməlidir. Mən millət vəkili olaraq hər hansı digər orqan deyil, Avropa Şurası Parlament Assambleyası tərəfndən rəsmi sənədin (konvensiya və ya qətnamənin) qəbul edilməsi üçün təkidimdə qalıram və növbəti iclaslarda da bu məsələni qaldıracağam. Hesab edirəm ki, hər hansı konkret şəxs "siyasi məhbus" anlayışı və meyarlarını özündə əks etdirən sənəd hazırlaya bilməz, bu yalnız məsələ ilə bağlı onun fkirləri və ya mövqeyi ola bilər. Bununla yanaşı, konkret şəxs belə bir meyarlar hazırlasa belə, həmin ölkə üzrə məruzəçi ola bilməz.

- AŞPA-nın bu günədək "siyasi məhbus" kriterisini müəyyənləşdirməməsi hansı səbəblərdən irəli gəlir?

- Sirr deyil ki, iddia edilən siyasi məhbuslar problemi yalnız Azərbaycanı deyil, Avropa Şurasına üzv olan bir çox dövlətləri də narahat edən çox incə bir məsələdir. Bir üzv dövləti itiham etməyə cəhd məqsədilə qərəzli yolla yaradılmış meyarların öz ölkələrində bir çox digər halları mürəkkəbləşdirə bilməsindən qorxan digər dövlətlərdən olan bir çox həmkarlarımızın narahatlığı başa düşüləndir. Siyasi məhbus anlayışı kriterilərinin müəyyənləşməsi ilə bağlı AŞPA qətnamə qəbul etdikdən sonra qurumun əksər üzvləri Azərbaycanda iddia edilən siyasi məhbuslara dair hesabatın hazırlanmasını əhəmiyyətli hesab edərsə, mən bu fkrə qarşı çıxmayacam. lakin bizim ikili standartların qurbanı olmamaq hüququmuz var. Bizim haqqımız var ki, plenar iclas tərəfndən qəbul edilən və bütün üzv dövlətlər üçün tamamilə müvafq olan universal meyarlar və standartlara dair araşdırma aparaq.

- Belə olan təqdirdə hansısa məruzəçinin Azərbaycana səfəri və hansısa hesabat hazırlaması da doğru olmazdı.

- Mən bu fkrmdə qalıram. AŞPA-nın plenar icla-

sı tərəfndən bu meyarlar aydın müəyyən edilməyənə qədər, Azərbaycana hər hansı məruzəçinin səfərini dəstəkləmək üçün heç bir səbəb görmürəm. Bu cür məruzəçi ölkəmin yaxşı imicinə zərər vurmaq, bütün üzv dövlətləri çətin vəziyyətə salmaq və nəhayət, AŞPA-nın beynəlxalq təşkilat kimi etibarını sual altına almaq üçün bu səfərdən istifadə edə bilər. Ona görə də siyasi məhbusların müəyyənləşdirilməsinin universal meyarları barədə məsələ Avropa Şurasının plenar iclasında açıq müzakirə edilməyənə və tamamlanmayana qədər səlahiyyətli orqanlarımıza bu mövzuya dair hər hansı məruzəçinin dəvət edilməsini tövsiyə etməyəcəyəm.

- Bəs qarşı tərəf sizin bufikrlərinizə hansı arqumentlə cavab verir?

- Hüquq komitəsinin iclasında aparılan müzakirələrlə bağlı həmin komitənin sədri və katibliyinə müraciət etdim. Onlardan siyasi məhbus anlayışı və meyarlarnın müəyyənləşdirilməsinə dair AŞPA tərəfndən plenar iclasda qəbul edilən hər hansı qərarın nüsxəsini mənə göndərmələrini xahiş etdim. Müraciətə cavab olaraq katiblik bir sıra konkret məhbusların, xüsusilə əlikram Hümbətov, isgəndər Həmidovun və Rəhim Qazıyevin azad edilməsi və ya onların işlərinə məhkəmədə yenidən baxılması barədə AŞPA-nın 2002-ci ildə qəbul etmiş olduğu 1272 (1) saylı və özündə heç bir meyarları əks etdirməyən "Azərbaycanda siyasi məhbuslar" adlı qətnaməsini təqdim etdi. Mən bununla katibliyin nəzərinə çatdırdım ki, bu qətnamə özündə nə "siyasi məhbus" anlayışını, nə də heç bir meyarı əks etdirmir. Deyə bilərəm ki, mənim insan Haqları və Hüquq komitəsinin sədrinə və katibliyinə ünvanladığım müraciət cavabsız qalıb.

-Ştrasserin bu məsələ ilə bağlı verdiyi açıqlamalardan da yəqin ki xəbərdarsınız.

- təbii ki. Bu gün Hüquq komitəsinin məntiqinə

görə Ştrasser özü kriteri yazır, sonra onu plenar sessiyada təsdiq etdirmədən Azərbaycanın üzərində eksperiment aparmağa cəhd göstərir. Həta Ştrasser bu cəhdi çox fəallıq və canfəşanlıqla etməyə çalışır. Guya Azərbaycanın Almaniyadakı səfrliyi ona viza vermir və bu kimi digər xoşagəlməz ifadələr səsləndirir. Bir məsələni də deyim. O, yanvarın 24-də Azərbaycan nümayəndə heyətini və AŞPA Monitorinq komitəsinin Azərbaycan üzrə həmməruzəçilərini (Debono Qrex və Pedro Aqramundu) xəbərdar etmədən Strasburqda bir neçə QHt nümayəndələri ilə görüşlər keçirib. Avropanın aparıcı ölkələrindən biri olan Almaniya Bundestaqının deputatı Ştrasserdən və Yunanıstanın deputatı Purquridesdən soruşuram: "Mən və bizlərdən hər birimiz hüquqi sənəd olmadan sizin ölkənizə gələrək, ölkənizin rəsmiləri və şəxsən sizlərlə görüşüb siyasi məhbus problemini müzakirə edə bilərdikmi? tərəddüd etmədən deyirəm: Yox! Faktlar Purquridsin AŞPA Bürosunun qərarına məhəl qoymadan Azərbaycana açıq-aşkar qərəzli mövqedən çıxış etdiyini və öz məqsədlərinə nail olmaq üçün Büro üzvlərini bilərəkdən aldadaraq onlara guya "siyasi məhbus" anlayışı və meyarı ilə bağlı AŞPA-nın plenar iclasında qəbul edilmiş qətnamənin olması kimi səhv məlumat verdiyini sübut edir.

AVRONEST PA-nın vitse-prezidenti: "Assambleyada Dağlıq Qarabağ münaqişəsinə dair qərar və qətnamələrin qəbuluna çalışacağıq"

05.05.2011

Elxan Süleymanov: "Bu Avropa təsisatı Azərbaycan üçün yeni bir tribuna olmaqla yanaşı, ölkəmizin mənafeyi baxımından maraq kəsb edən məsələlərin beynəlxalq səviyyədə müzakirəsinə də imkanlar açır"

APA

Mayın 2-3-də Brüsseldə təsis yığıncağı keçirilən AvRONESt Parlament Assambleyasının vitse-prezidenti, Azərbaycan nümayəndə heyətinin sədri, millət vəkili Elxan Süleymanovun APA-ya müsahibəsi.

- Əvvəlcə AVRONEST Parlament Assambleyası haqqında ətraflı məlumat verməyinizi istərdik.

- Avropa itifaqı xarici işlər nazirlərinin 26 may 2008-ci il tarixdə Brüsseldə keçirilmiş iclasında Polşa və isveç Avropa Qonşuluq Siyasətinə daxil olan ölkələrlə (Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova və Belarus) əməkdaşlığın vahid formatının təsis edilməsini nəzərdə tutan "Şərq tərəfdaşlığı" (Şt) təşəbbüsü ilə çıxış ediblər. Şt təşəbbüsü üzrə Məlumat Sənədi və onu müşayiət edən işçi Sənəd 3 dekabr 2008-ci il tarixdə Avropa komissiyası tərəfndən Avropa Parlamentinə və Avropa itifaqının dövlət və hökumət başçıları Şurasına təqdim olunub. Bu iki sənəd Şərq tərəfdaşlığına dair Avropa komissiyasının mövqeyi və təklifərini əks etdirərək tərəfdaş ölkələrlə gələcək əməkdaşlıq istiqamətlərini müəyyənləşdirib. Şərq tərəfdaşlığı üzrə 7 may 2009-cu il tarixində Praqa-

da keçirilmiş zirvə görüşündə qeyd edilən təşəbbüsün əsas məqsədləri və prinsiplərini, həmçinin gələcək əməkdaşlıq prosesinin ümumi parametrlərini müəyyən edən Birgə Bəyannamə qəbul edilib və bununla da şərq tərəfdaşlığı prosesinə yüksək səviyyədə rəsmi start verilib.

Qeyd etməliyəm ki, şərq tərəfdaşlığı prosesi çərçivəsində bir tərəfdən Avropa Parlamentinin nümayəndələrindən, digər tərəfdən isə tərəfdaş ölkələrin parlamentlərinin nümayəndələrindən ibarət olan və Avropa Parlamentinin bir qurumu kimi fəaliyyət göstərəcək Parlament Assambleyasının yaradılması da nəzərdə tutulmuşdu və bu qurum AvRONESt Parlament Assambleyası adlandırılmışdı. Odur ki, AvRONESt Parlament Assambleyası Avropa itifaqı ilə şərqdəki tərəfdaşlar arasında yaradılmış birgə assambleyadır. Bu təsisatın qarşılıqlı maraqlar və öhdəliklər, eləcə də diferensiasiya, bölüşdürülmüş mülkiyyət və məsuliyyət prinsipləri əsasında yaradılması və fəaliyyət göstərməsi nəzərdə tutulub.

- AVRONEST PA-nın strukturu necə formalaşdı?

- 3 may tarixində Avropa Parlamentinin spikeri Yeji Buzekin iştirakı ilə AvRONESt Parlament Assambleyasının təsis konfransı keçirildi. konfransda müzakirələr zamanı Milli Məclis sədrinin 1-ci müavini Ziyafət əsgərov ətrafı çıxış etdi. Çıxış zamanı o, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verərək münaqişə ilə bağlı 20 may 2010-cu ildə Avropa Parlamenti tərəfndən qəbul edilmiş qətnamədə Avropa itifaqının nümayiş etdirdiyi mövqeni yüksək qiymətləndirdi. O, eyni zamanda AvRONESt PA-nın da regionda olan münaqişələrlə, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konstruktiv mövqe tutacağına ümid etdiyini bildirdi.

Qeyd etdiyim kimi, AvRONESt PA Avropa itifaqı ilə şərq tərəfdaşı olan ölkələrin birgə assambleyası, yəni

iki tərkib hissəsindən ibarət Parlament Assambleyası kimi formalaşır. Prosedur qaydalarına əsasən AvRONESt PA Avropa Parlamentinin 60, hər tərəfdaş ölkənin parlamentlərinin 10 üzvündən ibarətdir. Qanunverici Aktda təsbit edilmiş üzvlük meyarlarına əməl edilmək şərtilə AvRONESt Parlament Assambleyasında iştirak könüllüdür.

Parlament Assambleyası plenar tərkibdən başqa həm də Büro, daimi komitələr, işçi qrupları və katiblikdən ibarət təşkil edildi. Siyasi Məsələlər, insan Hüquqları və Demokratiya komitəsi, iqtisadi inteqrasiya, Hüquqi Yanaşma və Ai Siyasətinə Uyğunluq komitəsi, Enerji təhlükəsizliyi komitəsi, Sosial Məsələlər, təhsil, Mədəniyyət və vətəndaş cəmiyyəti üzrə komitə kimi 4 daimi komitə, Belarus üzrə və Qayda və Prosedurlar üzrə 2 işçi qrup yaradıldı. Belarus üzrə işçi qrup bu ölkənin gələcəkdə AvRONESt PA-ya üzv olma perspektivlərini öyrənəcək. işçi qrup 5 nəfərdən ibarət təşkil edildi və Azərbaycan nümayəndə heyətinin üzvü Asim Mollazadə həmin qrupa üzv seçildi. Qayda və Prosedurlar üzrə işçi qrupun tərkibinin isə növbəti iclasda formalaşdırılması qərara alındı.

Bundan əlavə, AvRONESt PA-nın prezidenti, onun müavinləri, o cümlədən Büro və komitə üzvləri seçildilər. Azərbaycan nümayəndə heyəti bu qurumun idarəçilik orqanlarının formalaşdırılması zamanı ciddi nailiyyətlər əldə etdi. Belə ki, bu seçkilər zamanı Fuad Muradov Enerji təhlükəsizliyi komitəsinin sədri, Azay Quliyev Sosial Məsələlər, təhsil, Mədəniyyət və vətəndaş cəmiyyəti üzrə komitənin, Asim Mollazadə isə Siyasi Məsələlər, insan Hüquqları və Demokratiya komitəsinin sədr müavinləri seçildilər. Mən isə AvRONESt PA-nın vitse-prezidenti və Büro üzvü seçildim.

- AVRONEST PA-nın əsas məqsədləri nələrdir?

- Ümumi formada desək, AvRONESt PA-nın fəaliy-

yəti "Şərq tərəfdaşlığı" proqramı sahəsində siyasi dialoq, hüquqi və iqtisadi islahatlar, təhlükəsizlik, enerji təchizatı və s. kimi geniş sferaları əhatə edəcək. Məsələyə daha konkret yanaşsaq qeyd etməliyik ki, Parlament Assambleyasının məqsədləri prosedur qaydalarında təsbit edilib və aşağıdakı dörd tematik platformanı əhatə edir:

- əsas dəyərlər, "dondurulmuş" münaqişələr, demokratiya, hüququn aliliyi, insan hüquqları və əsas azadlıqlara hörmət, eləcə də bazar iqtisadiyyatı, davamlı inkişaf və yaxşı idarəçilik məsələləri;

- Ai ilə şərq tərəfdaşları olan ölkələr arasında sosial-iqtisadi islahatları, eləcə də ticarət və investisiya mühitinin liberallaşmasını dəstəkləyən, azad ticarət zonaları şəbəkəsi yaratmaq məqsədilə Ai qanunları və standartları ilə oxşarlığa aparan sonrakı iqtisadi inteqrasiya;

- Qarşılıqlı enerji dəstəyi, təhlükəsizlik mexanizmləri və tərəfdaşların enerji siyasətləri və qanunvericiliyinin uzlaşdırılması;

- Müxtəlif ölkələrin əhalisi arasında əlaqələrin inkişaf etdirilməsi və Avropa itifaqı və tərəfdaş ölkə vətəndaşları, xüsusilə gənclər arasında qarşılıqlı əlaqənin asanlaşdırılması; mədəni əməkdaşlıq və mədəniyyətlərarası dialoqun təkmilləşdirilməsi, eləcə də təhsil, tədqiqat, informasiya və media cəmiyyətinin inkişafının dəstəklənməsi.

- AVRONEST PA-da iştirakın Azərbaycan üçün nə dərəcədə əhəmiyyət kəsb etdiyi barədə fikirlərinizi bilmək istərdik.

- Azərbaycan-Avropa itifaqı münasibətləri 1992-ci ildən başlayıb və sonradan dinamik olaraq inkişaf edib. əgər əməkdaşlığın ilk illərində Azərbaycana müxtəlif yardımların göstərilməsi diqqət mərkəzində olmuşdusa, bu münasibətlər sonralar siyasi dialoq, iqtisadi inkişaf, nəqliyyat, regional təhlükəsizlik, enerji təminatı, ətraf mühit, təhsil, mədəniyyət və s. kimi müxtəlif sahələri

əhatə edən çoxşaxəli strateji əməkdaşlıq səviyyəsinə qədər yüksəlib. Azərbaycan Avropa itifaqının tərəfdaşıq və əməkdaşlıq Sazişinin, Avropa Qonşuluq Siyasətinin iştirakçısı olub. Yuxarıda qeyd etdiyim kimi, bu münasibətlər hazırda yeni və daha mühüm proqram olan "Şərq tərəfdaşlığı" çərçivəsində davam etdirilir. indi sadaladığım hər bir mərhələ Azərbaycanın Avropa itifaqı məkanına inteqrasiyası üçün yeni imkanlar açıb. Odur ki, "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində AvRONESt PA-nın yaranması təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Bu Avropa təsisatı, sözsüz ki, Azərbaycanda baş verən hadisələri dünya ictimaiyyətinə çatdırmaq üçün yeni bir tribuna olmaqla yanaşı, həm də ölkəmiz üçün maraq kəsb edən məsələlərin beynəlxalq səviyyədə müzakirə edilməsi üçün də imkanlar açır. AvRONESt PA-nın sənədlərində göstərildiyi kimi, bu qurum tərəfdaş ölkələr ərazisində mövcud olan "dondurulmuş" münaqişələrlə bağlı müzakirələr keçirəcək, qərar və qətnamələr qəbul edəcək. Bu məsələ isə Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Sözsüz ki, Azərbaycan nümayəndə heyəti AvRONESt PA-da Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dair qərar və qətnamələrin qəbul edilməsinə nail olmağa çalışacaq.

Elxan Süleymanov: "Çalışacağıq ki, AVRONEST PA öz qərarlarında Azərbaycan ərazilərinin işğal edilməsi faktını təsdiqləsin"

23.05.2011

"Azərbaycan nümayəndə heyəti Metsamor AES-in fəaliyyətinin dayandırılması üçün təcili tədbirlərin görülməsi istiqamətində konkret addımlar atacaq"

APA. Rəşad Süleymanov

Azərbaycanın AvRONESt Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, millət vəkili Elxan Süleymanovun APA - ya müsahibəsi

- Avropa Parlamentinin prezidenti Yerji Buzek mayın 20-də Azərbaycana səfər edib. Azərbaycanın AVRONEST PA-da nümayəndə heyətinin rəhbəri kimi bu səfərin nəticələri haqqında nə deyə bilərsiniz?

- Avropa Parlamentinin sədri Yerji Buzekin Bakıya səfəri onun cənubi Qafqaz ölkələrinə səfəri çərçivəsində həyata keçirilib. O, əvvəlcə Ermənistan və Gürcüstanda olub, daha sonra isə Azərbaycana gəlib. Səfərin proqramı əvvəlcədən müəyyənləşdirilmişdi və rəsmi şəkildə elan edilmişdi. Səfər çərçivəsində Y. Buzek prezident cənab ilham əliyev və Milli Məclisin sədri Oqtay əsədovla görüşlər keçirib, müxalifət partiyalarının rəhbərləri, jurnalistlər və vətəndaş cəmiyyəti nümayəndələri ilə müzakirələr aparıb. Görüşlər zamanı demokratiyanın daha da genişləndirilməsi, insan hüquqlarının təmin edilməsi, hüququn aliliyinin möhkəmləndirilməsi, təhlükəsizliyin və sabitliyin qorunub saxlanması, ümumi problemlərin qarşılıqlı fayda əsasında həllinə nail

olunması kimi məsələlər müzakirə predmeti olub.

Şübhəsiz ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli danışıqların əsas predmeti olub, bu münaqişənin beynəlxalq hüquq normalarına uyğun, dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll edilməsinin vacibliyi vurğulanıb. Önəmli haldır ki, cənab Buzek bir neçə gün əvvəl Ermənistana səfəri çərçivəsində Yerevanda keçirdiyi mətbuat konfransında Avropa ittifaqının Dağlıq Qarabağı müstəqil subyekt kimi tanımayacağını və dövlətlərin ərazi bütövlüyünü dəstəklədiyini birmənalı şəkildə diqqətə çatdırmışdı. Hesab edirəm ki, bu, çox vacib bəyanatdır və bir daha Avropa ittifaqının müxtəlif qurumlarının Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəklədiklərini özündə ehtiva edir. Ümumiyyətlə, hesab edirəm ki, Avropa Parlamentinin sədri Yerji Buzekin cənubi Qafqaz ölkələrinə, o cümlədən Azərbaycana səfəri region ölkələri ilə Avropa ittifaqı arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə təkan verəcək.

- Mayın 12-də Avropa Parlamenti Azərbaycanla bağlı tənqidi sənəd qəbul edib. Milli Məclis bu sənədi pisləyən bəyanat verib. Bu hal Yerji Buzekin səfəri zamanı dialoqa hər hansı mənfi təsir göstərdimi?

- Avropa Parlamentinin qəbul etdiyi qətnamə doğrudan da qeyri-obyektivliyi ilə seçilir. Həmin sənəddə Azərbaycana qarşı irəli sürülən ittihamların böyük əksəriyyəti dəqiqləşdirilməmiş məlumatlar əsasında yazılıb. Azərbaycan parlamenti bu sənədlə bağlı öz mövqeyini bildirdi və müvafq müraciət qəbul etdi. Digər tərəfdən, Avropa Parlamenti vaxtaşırı olaraq hətta Avropa ittifaqına üzv olan dövlətlərlə bağlı da belə tənqidi sənədlər qəbul edir. Odur ki, bu qurumun Azərbaycanla bağlı qəbul etdiyi son qətnamə ölkəmizin Avropa ittifaqı ilə əməkdaşlıq əlaqələrinə kölgə salmamalıdır. əksinə, biz daha da əzmlə Azərbaycan reallıqlarını Avropa

ictimaiyyətinin diqqətinə çatdırmalı və əməkdaşlığın konstruktiv məcrada inkişaf etdirilməsinə çalışmalıyıq. Bunun üçün isə müxtəlif səviyyələrdə əlaqələr daha səmərəli qurulmalı, Avropa Parlamenti üzvləri ilə münasibətlər konseptual şəkildə həll edilməli, həmin qurumda fəaliyyət göstərən siyasi partiyalardan ibarət qruplarla həm dövlət səviyyəsində, həm də ayrı-ayrı ictimaiyyət nümayəndələri, o cümlədən Milli Məclis üzvləri səviyyəsində işlər aparılmalıdır. Belə olan halda, ölkəmizə qarşı atıla biləcək qeyri-obyektiv addımların qarşısını vaxtında ala bilərik və bu, öz növbəsində, Azərbaycanla Avropa itifaqı qurumları arasında işgüzarlığın artmasına müsbət təsir göstərər.

- Mayın əvvəllərində AVRONEST PA təsis edildi. Nümayəndə heyətinin rəhbəri kimi Azərbaycanın bu qurumda fəaliyyətini necə görürsünüz?

- Bildirmək istərdim ki, Azərbaycan nümayəndə heyəti AvRONESt PA-da 10 nəfər deputatla təmsil olunur. Azərbaycan nümayəndə heyəti ilk gündən bu qurumda aktiv iştirak etməyə başlayıb və təsis konfransı zamanı idarəçilik orqanlarının formalaşdırılmasında ciddi uğurlar əldə edib. Nümayəndə heyətimizin üzvlərindən biri komitə sədri, digər ikisi isə müxtəlif komitələrdə sədr müavinləri seçilib. Gələcəkdə biz AvRONESt PA-da fəaliyyətimizi daha da inkişaf etdirməyi planlaşdırırıq. Azərbaycan nümayəndə heyəti PA-nın bütün komitələrində və işçi qruplarında təmsil olunacaq. Hər bir komitədə və plenar iclaslarda Azərbaycanın milli maraqlarına cavab verən, regionda sülh, təhlükəsizlik və s. məsələlərin gündəliyə salınması və bu barədə müvafq qərarların qəbul edilməsi əsas məqsədlərimizdəndir. konkret planlara gəldikdə isə, bir sıra məsələləri xüsusilə qeyd etməliyəm.

Prioritet istiqamətlərdən biri kimi Ermənistanın işğalı və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan

artıq Azərbaycan vətəndaşının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, onların beynəlxalq sənədlərdə tövsif olunmuş bütün hüquq və azadlıqlarının kütləvi və kobud şəkildə pozulması daim gündəmdə saxlanılmalıdır. Çalışacağıq ki, AvRONESt PA tərəfndən işğal nəticəsində kütləvi və kobud şəkildə insan hüquqlarının pozulması və bu pozuntulara görə məsuliyyətin məhz Ermənistan dövlətinin üzərinə düşməsi ilə bağlı qətnamə qəbul edilsin.

Fəaliyyətimizin digər bir istiqaməti Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasətini həyata keçirməsini diqqət mərkəzində saxlamaqdan ibarət olacaq. Bildiyiniz kimi, Ermənistan işğal etdiyi ərazilərdə demoqrafk vəziyyəti dəyişməyə çalışır. Dəfələrlə bu məsələ Azərbaycan tərəfndən qaldırılıb, Atət-in faktaraşdırıcı missiyasının 2011-ci ilin əvvəlində təqdim etdiyi məruzədə işğal altındakı ərazilərə qeyri-qanuni olaraq 13000 nəfərin köçürülməsi faktı öz təsdiqini tapıb. əvvəllər bu ərazilərə 23000-dən artıq ermənինin köçürülməsi faktı da müxtəlif mənbələrdə qeyd edilirdi. Hazırda Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasətinin yeni mərhələsinə başlamağa hazırlaşır. Belə ki, bu yaxınlarda Qırğızıstanda yaşayan emşinaz etnik qrupun nümayəndəsi Ermənistanda və işğal edilmiş Azərbaycan ərazilərində olub, Ermənistan rəhbərliyi ilə 200 eşminaz ailəsinin Dağlıq Qarabağda yerləşdirilməsi məsələsini müzakirə edib və razılıq əldə olunub. ilkin məlumatlara görə, eşminaz ailələrinin Azərbaycanın xocavənd rayonunda məskunlaşdırılması planlaşdırılır. Azərbaycan nümayəndə heyəti AvRONESt PA-da məsələnin araşdırılması üçün məruzəçilərin təyin olunmasına və təqdim ediləcək məruzənin nəticəsi kimi qətnamənin qəbuluna çalışacaq.

Hazırda Ermənistanın Metsamor Atom Elektrik Stan-

siyası tək region dövlətləri üçün deyil, bütövlükdə Avropa və Orta Şərq ölkələri üçün ciddi təhlükə mənbəyidir. Belə ki, bu stansiya seysmik baxımdan təhlükəli ərazidə tikilməklə yanaşı, həm də orada istifadə edilən nüvə reaktorları köhnəlib, öz resurslarını tam başa vurub və istənilən an bir neçə regionu əhatə edən geniş bir ərazidə yaşayan xalqlar üçün fəlakət mənbəyinə çevrilə bilər. Odur ki, Azərbaycan nümayəndə heyəti Metsamor AES-in fəaliyyətinin dayandırılması üçün təcili tədbirlərin görülməsi istiqamətində konkret addımlar atacaq.

Bundan əlavə, ölkəmizin turizm imkanlarının artırılması və kənd təsərrüfatının inkişafı məqsədilə Avropa ittifaqı ölkələrinin şirkətləri tərəfindən investisiyaların cəlb edilməsi, Azərbaycanda alternativ enerji mənbələrinin yaradılmasında Avropa ittifaqı ölkələrinin təcrübəsinin öyrənilməsi, ölkəmizin Ümumdünya ticarət təşkilatına üzv qəbul edilməsi məsələsi və s. istiqamətlərdə fəaliyyət göstərilməsi planlaşdırılır. Sosial, mədəni, elmi, təhsil sahələrdə Azərbaycan əhalisinin, xüsusən də gənclərin Avropa ittifaqı və "Şərq tərəfdaşlığı" ölkələrinin vətəndaşları ilə əlaqələrinin asanlaşması, daimi əsaslarla fəaliyyət göstərən mədəniyyətlərarası dialoq forumlarının təşkil edilməsi, vətəndaş cəmiyyətinin, o cümlədən QHt sektorunun və kiv-in inkişafı sahələrində də konkret irəliləyişlərə nail olmağa çalışacağıq.

Ümumiyyətlə, AvRONESt PA-da Azərbaycan nümayəndə heyətinin çoxşaxəli fəaliyyət istiqamətlərini müəyyənləşdirmişik və çalışacağıq ki, bu planların böyük əksəriyyətini reallaşdıraq.

- Sizcə, AVRONEST PA Dağlıq Qarabağ münaqişəsinin həllində əhəmiyyətli rol oynaya biləcəkmi?

- Azərbaycan nümayəndə heyətinin fəaliyyət planından göründüyü kimi, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olunması prioritet istiqamət olacaq. Bildiyiniz kimi, Azərbaycan Respublikası sülh yolu ilə

işğal olunmuş ərazilərin azad edilməsinə, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmasına çalışır. Biz çalışacağıq ki, AvRONESt PA, digər nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən Avropa Parlamenti kimi öz qərarlarında Azərbaycan ərazilərinin işğal edilməsi faktını təsdiqləsin. Bu istiqamətdə beynəlxalq ictimaiyyətin dəstəyini qazanmaq vacib amillərdəndir. Belə ki, işğal faktı beynəlxalq-hüquqi cinayət sayılır və hər dəfə işğal faktının təsdiqlənməsi Azərbaycanın danışıqlar prosesində mövqeyinin güclənməsinə gətirir. Digər bir tərəfdən, qeyd etməliyəm ki, Avropa itifaqı Dağlıq Qarabağ münaqişəsinin həllində bilavasitə iştirak etmir. AvRONESt PA isə Avropa itifaqı ilə "Şərq tərəfdaşlığı" dövlətlərinin müştərək təsisatı kimi formalaşıb. Bu təsisatın prosedur qaydalarında "Şərq tərəfdaşlığı" dövlətləri ərazisində mövcud olan "dondurulmuş münaqişələr"ə dair müzakirələr aparmaq və müvafq qərarların qəbulu nəzərdə tutulsa da, qurum həmin münaqişələrin həlli üçün konkret səlahiyyətlərə və mexanizmlərə malik deyil. Odur ki, AvRONESt PA Dağlıq Qarabağ münaqişəsinin həllində aktiv və bilavasitə iştirak edə biləcək təsisat deyil. Amma bu təsisat qəbul edəcəyi qərarlarla münaqişənin sülh yolu ilə həllinə öz töhfəsini verə bilər.

Millət vəkili: "Azərbaycanla Belçika arasında parlamentlərarası münasibətlər genişlənir"

Belçika parlamentariləri Şamaxının Qaleybuğurd kəndində toy mərasimində iştirak ediblər

09.07.2011

APA

Belçika-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun 5 üzvündən ibarət nümayəndə heyəti iyulun 4-dən 8-dək Azərbaycanda səfərdə olub, bir sıra görüşlər keçirib. Millət vəkili, Azərbaycan-Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elxan Süleymanov səfərin məqsədi və müzakirə edilən məsələlərlə bağlı APA-ya müsahibə verib.

- Belçika nümayəndə heyətinin Azərbaycanın səfərinin əsas məqsədi nə idi?

- Azərbaycan Milli Məclisi müxtəlif ölkələrin parlamentləri ilə çoxtərəfi və ikitərəfi səviyyələrdə əməkdaşlıq edir. Çoxtərəfi əməkdaşlıq deyəndə müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, ikitərəfi əməkdaşlıq deyəndə isə iki ölkə arasında formalaşdırılmış birbaşa əməkdaşlıq nəzərdə tutulur. Onu da deyim ki, əksər hallarda çoxtərəfi əməkdaşlığın səmərəli olması ikitərəfi əməkdaşlıq əlaqələrinin səviyyəsindən və sıxlıq dərəcəsindən asılıdır. Odur ki, Azərbaycan Milli Məclisi tərəfdaş ölkələrin parlamentləri ilə, o cümlədən Belçika parlamenti ilə müxtəlif səviyyəli əlaqələr qurub. Bu əlaqələrin daha da intensiv və dinamik şəkildə inkişaf etdirilməsi üçün tərəfdaş ölkələrlə parlamentlərarası əlaqələr üzrə işçi qrupları yaradılıb. Bu işçi qruplardan

biri də Azərbaycan-Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupudur. Analoji işçi qrupu Belçika parlamenti tərəfindən də yaradılıb. cənab Filip Blanşarın rəhbərliyi ilə Belçika-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun ölkəmizə səfəri tanışlıq xarakteri daşıyır. Səfər çərçivəsində qonaqlar insan Hüquqları üzrə Müvəkkil Elmira Süleymanova, Mədəniyyət və turizm Naziri əbülfəs Qarayev, Qaçqınlar və Məcburi köçkünlərlə iş üzrə Dövlət komitəsinin sədri əli Həsənovla görüşüblər. Görüşlər zamanı hüquqi, demokratik dövlət quruculuğu və insan hüquqlarının müdafəsi istiqamətində ölkəmizin əldə etdiyi irəliləyişlər, Azərbaycanda həyata keçirilən çoxşaxəli layihələr, Azərbaycan-Belçika mədəni əlaqələrin inkişafı imkanları və perspektivləri müzakirə edilib. Qaçqınlar və Məcburi köçkünlərlə iş üzrə Dövlət komitəsində keçirilən görüş zamanı qonaqlar Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində ölkəmizin 20% ərazisinin işğal edilməsi, həmin ərazilərdə işğalçı Ermənistan tərəfindən etnik təmizləmə siyasətinin həyata keçirilməsi, bir milyondan artıq insanın qaçqın və məcburi köçkün halına düşməsi, işğal nəticəsində regionda fövqəladə humanitar vəziyyətin yaranması faktları qonaqların diqqətinə çatdırılıb. Qonaqlar ölkəmizin iqtisadi inkişafını görmək məqsədilə "caspian Fish" və "Səngəçal" neft terminalı ilə tanış olub, mənim millət vəkili seçildiyim Şamaxı rayonuna səfər ediblər.

- Belçika parlamentariləri ilə hər hansı müştərək fəaliyyət planı müzakirə etdinizmi?

- Belçika parlamentarilərinin ölkəmizə səfəri tanışlıq xarakteri daşısa da, biz onlarla gələcək fəaliyyətimiz barədə də müzakirələr apardıq və bu müzakirələr nəticəsində yaxın 1-2 il ərzində görüləcək işlər üzrə plan hazırladıq. Plan üzrə görüləcək işlər, əsasən, praktiki xarakterli olmaqla, Azərbaycanı Belçika cəmiyyətinə tanıt-

dırmaq, ölkəmizlə bağlı obyektiv və səmimi fikir formalaşdırmaq məqsədi daşıyır. Bu, çox vacib məsələdir. Belə ki, Belçika ümumavropa təşkilatlarının təsisatçılarından biridir, Avropa dəyərlərinin inkişaf etdirilməsi və genişləndirilməsində mühüm rol oynayır. Digər tərəfdən, Belçika krallığı Avropa itifaqının üzvü kimi Azərbaycanın dövlət müstəqilliyini 31 dekabr 1991-ci ildə tanıyıb, 17 iyun 1992-ci ildə isə ölkələrimiz arasında diplomatik münasibətlər qurulub. Hazırda ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensial var və Azərbaycanla Belçika arasında əməkdaşlıq bu potensialın səviyyəsinə uyğun gəlmir. təkcə onu demək kifayətdir ki, Azərbaycanla Belçika arasında indiyədək cəmi 7 sənəd imzalanıb. Odur ki, Belçika parlamentariləri ilə hazırladığımız fəaliyyət planı ölkələrimizin əməkdaşlığında bu boşluqları aradan qaldırmaq və onu yeni səviyyəyə qaldırmaq məqsədi güdür.

- Qəbul edilmiş fəaliyyət planında hansı konkret işlərin görülməsi nəzərdə tutulur?

- Hazırladığımız fəaliyyət planında ali təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin qurulması nəzərdə tutulur. Belə ki, bir Azərbaycan universiteti ilə Belçika universitetlərindən biri arasında tələbə mübadiləsi və qarşılıqlı olaraq Azərbaycan və Belçika haqqında mühazirələrin oxunması planlaşdırılır. Bundan əlavə, Azərbaycanın televiziya kanallarından biri ilə Belçika telekanallarının birində ölkələrimiz haqqında proqramların hazırlanaraq translyasiya edilməsi, iki ölkənin iş adamlarının forumlarının təşkil edilməsi barədə razılığa gəldik. Fəaliyyət planında Belçika parlamentində 2011-ci ilin payızında Azərbaycanın dövlət müstəqilliyinin, 2012-ci ilin fevralında xocalı faciəsinin, 2012-ci ilin iyun ayında ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 20-ci illiyinə həsr edilmiş müzakirələrin aparıl-

ması və müvafq tədbirlərin keçirilməsi öz əksini tapıb. Qeyd edim ki, Belçika-Azərbaycan parlamentlərarası işçi qrupunun rəhbəri cənab Blanşar thuin şəhərinin meridir. Şamaxı və thuin şəhərlərinin qardaşlaşması istiqamətində müvafq sənədlərin qəbul edilməsi və yaxın zamanlarda qarşılıqlı olaraq çeşidli tədbirlərə start verilməsi barədə razılıq əldə etdik. Bu tədbirlər sırasında hər iki şəhərin incəsənət adamlarının qarşılıqlı səfərləri, müştərək biznes layihələrinin gerçəkləşdirilməsi, 2012-ci ilin ortalarında Şamaxıda, 2011-ci ilin sonlarında isə thuində biznes forumlarının keçirilməsi, 2012-ci ildə böyük şairimiz M. ə. Sabirin anadan olmasının 150 illiyi münasibətilə thuin şəhərində büstünün qoyulması, Sabir gününün qeyd olunması və s. nəzərdə tutulur.

- Yuxarıda qeyd etdiniz ki, Belçika-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Şamaxı rayonunda da olublar...

- Belçika parlamentariləri iyulun 7-də Şamaxı rayonunda oldular. Onlar Şamaxı Rayon icra Hakimiyyətinin başçısı Asif Məmmədovla görüşdülər. Görüş zamanı Şamaxıda aparılan abadlıq işləri barədə qonaqlara məlumat verildi, qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə edildi. Bundan sonra qonaqlar Şamaxı rayonunun ən ucqar yaşayış məntəqələrindən biri olan qədim Qaleybuğurt kəndində oldular. Parlamentarilər Qaleybuğurt kəndində əhalisinin yaşayış şəraiti ilə tanış olduqdan sonra həmin kəndin sakinləri olan iki Azərbaycan övladının - Bəhlul və Ramilənin toy şənliklərinə qatıldılar. Mənim dəstəyimlə baş tutan və xalqımızın adət-ənənəsinə uyğun şəkildə keçirilən toy mərasimində Belçikalı parlamentarilərlə yanaşı, Milli Məclisin deputatları Qənirə Paşayeva, əli Hüseynov, xanhüseyn kazımov, Rövşən Rzayev və Azər kərimli, Azərbaycanın elm və mədəniyyət xadimləri, tanınmış müğənnilər, xalq artistləri Alim Qasımov və Şeyx əbdül, əməkdar artistlər

Zabit Nəbizadə və Azad Şükürov, gözəl ifaçımız Azərin xanım, tanınmış rejissor və aktyor Ramiz əzizbəyli, muğam müsabiqələrinin iştirakçıları və "xalq Ulduz"ları vüsal israflov, valeh israflov və digərləri iştirak etdilər. Yeri gəlmişkən qeyd edim ki, adlarını çəkdiyim müğənni və musiqiçilərin hamısı Şamaxı əsilli sənətkarlardır. Alim Qasımov başda olmaqla, onların hamısına toyda təmənnasız xidmətlərinə görə minnətdarlığımı bildirirəm. Qeyd edim ki, böyük sevinclə toylarında iştirak etdiyimiz Bəhlulun atası Mərdan kişi Qarabağ uğrunda döyüşlərdə iştirak edib və əlil olub, Ramilənin atası isə Sovetlər dövründə əfqanıstan müharibəsi əlilidir. Gənc ailə üçün tikiləcək evin təntənəli təməlqoyma mərasiminin keçirilməsi toy şənliyi zamanı ən yadda qalan hadisə oldu. Dağlar qoynunda Azərbaycan xalq mahnılarının sədaları altında keçirilən bu mərasimdən sonra Belçika-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri cənab Filip Blanşar toy iştirakçılarına müraciət edərək bildirdi ki, Qaleybuğurta gəlməklə və bu toy şənliklərində iştirak etməklə Azərbaycanı yenidən kəşf edib. Sonra belçikalı qonaqlar böyük həvəslə yallı getdilər. Hesab edirəm ki, yeni tikiləcək bu evin təməl daşı eyni zamanda Belçika və Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın inkişafına bir təkan olacaq.

- Yaxın vaxtlarda Şamaxı rayonunda hansı işləri görməyi planlaşdırırsınız?

- Şamaxı rayonunda görüləsi işlər çoxdur və mən seçki kampaniyası zamanı seçicilərlə keçirdiyim görüşlər zamanı rayonda mövcud olan problemlərin həlli istiqamətində var gücümü əsirgəməyəcəyimə söz vermişəm. Bu istiqamətdə müəyyən işlər aparıram, nəticələr barədə danışmaq tezdir. Bildiyiniz kimi, seçicilərlə birbaşa təmasda olmaq, onların fikir və qayğılarını bölüşmək insani baxımdan vacib məsələlərdəndir. Qarşıdan mübarək Ramazan ayı gəlir. Bu ay ərzində

Şamaxı rayonunun 59 kəndində seçicilərim üçün ifar süfrəsi açmağı planlaşdırıram və özüm də seçicilərimin arasında olacağam. Digər məsələ rayonun Çarhan kəndində tikilməkdə olan məscidlə bağlıdır. Belə ki, məlum olmayan səbəblər üzündən məscidin tikintisi yarımçıq dayandırılıb. Məscidin tikintisinin başa çatdırılaraq əhalinin istifadəsinə verilməsinə səy göstərəcəyəm. Bildiyiniz kimi, bu il əslən Şamaxıdan olan məşhur Azərbaycan şairi M. ə. Sabirin anadan olmasının 150 illik yubileyi qeyd edilir. Bu münasibətlə biz may ayında Şamaxı rayonu üzrə müsabiqə keçirdik. Həmin müsabiqəni bu ilin avqust ayının sonlarından başlayaraq ölkə üzrə keçirməyi və gələn ilin may ayında Şamaxıda bitirməsini də planlaşdırmışıq.

"Çalışacağıq ki, AVRONEST PA-nın qərarlarında Azərbaycan ərazilərinin işğalı faktı rəsmən təsdiqlənsin"

06.08.2011

525-ci qəzet. Bəxtiyar

Müsahibimiz AVRONEST Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Elxan Süleymanovdur.

- Elxan müəllim, Azərbaycanın AVRONEST Parlament Assambleyasına üzv olması erməni təcavüzünün nəticələrinin aradan qaldırılmasında müsbət rol oynaya bilərmi?

- Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olunması yeni təsis olunmuş AvRONESt Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin fəaliyyətində prioritet istiqamət olacaq. Biz çalışacağıq ki, AvRONESt PA, digər nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən Avropa Parlamenti kimi, öz qərarlarında Azərbaycan ərazilərinin işğal edilməsi faktını rəsmən təsdiqləsin. Bu istiqamətdə beynəlxalq ictimaiyyətin dəstəyini qazanmaq vacib amillərdəndir. işğal faktı beynəlxalq-hüquqi cinayət sayılır və hər dəfə işğal faktının təsdiqlənməsi Azərbaycanın danışıqlar prosesində mövqeyinin güclənməsinə gətirir.

Avropa itifaqı Dağlıq Qarabağ münaqişəsinin həllində bilavasitə iştirak etmir. AvRONESt PA isə Avropa itifaqı ilə Şərq tərəfdaşı dövlətlərinin müştərək təsisatı kimi formalaşıb. Bu təsisatın prosedur qaydalarında Şərq tərəfdaşı dövlətləri ərazisindəki münaqişələrin sülh yolu ilə nizamlanması üzrə müzakirələr aparmaq və müvafq qərarlar qəbul etmək nəzərdə tutulsa da, onun münaqişələrin həlli üçün konkret səlahiyyətləri yoxdur.

Onun qəbul edəcəyi qərarlar tövsiyə xarakteri daşıyacaq. Amma buna da ehtiyac var və bu, Azərbaycanın xeyrinə olan mövqe kimi qiymətləndirilməlidir.

- Rəhbəri olduğunuz nümayəndə heyətinin AVRONEST PA strukturlarında konkret iş planı varmı? Əsas məqsəd nədən ibarətdir?

- Azərbaycan nümayəndə heyəti AvRONESt PA-nın bütün komitələrində və işçi qruplarında təmsil olunacaqlar. Hər bir komitədə və plenar iclaslarda Azərbaycanın milli maraqlarına cavab verən, regionda sülh və təhlükəsizlik və s. məsələlərin müzakirəsi və Azərbaycanın xeyrinə müvafq qərarların qəbul edilməsi, müəyyən sualların cavablandırılması kimi aktiv fəaliyyət aparmaq əsas məqsədimiz olacaq.

konkret planlara gəldikdə isə, prioritet istiqamətlərdən biri kimi Ermənistanın işğalı və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq Azərbaycan vətəndaşının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi və onların beynəlxalq sənədlərdə təsbit olunmuş bütün hüquq və azadlıqlarının kütləvi və kobud şəkildə pozulması məsələsini daim gündəmdə saxlamağa çalışacağıq. Çalışacağıq ki, AvRONESt PA-da işğal nəticəsində kütləvi və kobud şəkildə insan hüquqlarının pozulması və bu pozuntulara görə məsuliyyətin məhz Ermənistan dövlətinin üzərinə düşməsilə bağlı müvafq qətnamə və qərarlar qəbul edilsin.

Fəaliyyətimizin bir istiqaməti də Ermənistanın işğal etmiş olduğu Azərbaycan ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasətini gündəlikdə saxlamaqdır. Ermənistan işğal etdiyi ərazilərdə demoqrafk vəziyyəti dəyişməyə çalışır. Azərbaycan nümayəndə heyəti AvRONESt PA-da bu məsələnin araşdırılması üçün məruzəçilərin təyin edilməsinə və təqdim ediləcək məruzənin müzakirə olunub müvafq qərarlar qəbul edilməsinə çalışacaq.

vacib məsələlərdən biri də Ermənistanın Metsamor Atom elektrik stansiyası ilə bağlıdır. Bu atom elektrik stansiyası tək region dövlətləri üçün deyil, bütövlükdə Avropa və Orta Şərq ölkələri üçün ciddi təhlükə mənbəyidir. Belə ki, bu stansiya seysmik baxımdan təhlükəli ərazidə tikilməklə yanaşı, həm də orada istifadə edilən nüvə reaktorları köhnəlmiş, öz resurslarını tam başa vurmuşlar və istənilən an bir neçə regionu, Avropa və Orta Şərqi əhatə edən geniş bir ərazidə yaşayan xalqlar üçün fəlakət mənbəyinə çevrilə bilər. Odur ki, Azərbaycan nümayəndə heyəti Metsamor AES-nin fəaliyyətinin dayandırılması üçün təcili tədbirlərin görülməsi istiqamətində faktlara əsaslanan konkret mövqe nümayiş etdirmək fikrindədir.

Başqa bir vacib məsələ isə ölkəmizin turizm imkanlarının artırılması və kənd təsərrüfatının inkişafı ilə bağlıdır. Bu məqsədlə ölkəmizin qeyri-neft sektoruna Avropa itifaqı ölkələrinin şirkətləri tərəfindən investisiyaların cəlb edilməsi, Azərbaycanda alternativ enerji mənbələrinin yaradılmasında Avropa itifaqı ölkələrinin təcrübəsinin öyrənilməsi, ölkəmizin Ümumdünya ticarət təşkilatına üzv qəbul edilməsi məsələsi və s. istiqamətlərdə bu günədək göstərilən uğurlu fəaliyyətə dəstək verməkdədir.

Sosial, mədəni, elm, təhsil sahələrdə Azərbaycan əhalisinin, xüsusən də gənclərin Avropa itifaqı və Şərq tərəfdaşı ölkələrinin vətəndaşları ilə əlaqələrin asanlaşması, daimi əsaslarla fəaliyyət göstərən mədəniyyətlərarası dialoq forumlarının təşkil edilməsi, vətəndaş cəmiyyətinin, o cümlədən QHt sektorunun və kiv-nin Avropa məkanına aktiv inteqrasiya sahələrində də konkret addımlar atmağa çalışacağıq.

Ümumiyyətlə, AvRONESt PA-da Azərbaycan nümayəndə heyətinin çoxşaxəli fəaliyyət istiqamətlərini müəyyənləşdirmişik və çalışacağıq ki, yaxın illərdə bu planların böyük əksəriyyətini reallaşdıraq.

Deputat Elxan Süleymanov: "Millət vəkillərinin deputat andı içməsi mütləqdir"

20.08.2011

Modern.az

Şamaxıdan seçilən millət vəkili, AvRONESt PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri, Azərbaycanın AŞPA-da nümayəndə heyətinin üzvü Elxan Süleymanov qanunvericilik prosesi ilə bağlı **Modern.az** saytına müsahibə verib.

- Elxan müəllim, fikrinizcə, Azərbaycanda aparılan islahatların hansı sahəsi daha vacibdir?

- ilk növbədə sosial-iqtisadi və hüquqi islahatlarin, həmçinin təhsil və səhiyyə sistemində islahatların aparılmasını vacib hesab edirəm.

- Maraqlıdır, Milli Məclisin deputatı kimi daha çox nəyə diqqət yetirirsiniz, qanunvericilik prosesinə, yoxsa seçicilərlə işə?

- təbii ki, qanunverici orqanın nümayəndəsi kimi qanunvericilik sahəsindəki fəaliyyət prioritet olmalıdır. Eyni zamanda millət vəkili kimi bu prosesdə iştiraka seçicilərdən mandat aldığım üçün seçicilərin problemlərinin öyrənilməsinə və həllinə diqqətlə yanaşmaq əsas borcumdur. Ümumiyyətlə bütün inkişaf etmiş ölkələrdə hesab olunur ki, deputatın əsas vəzifəsi seçiciləri ilə işləməkdir. Seçicilərimlə keçirdiyim görüşlərdə etdiyim çıxışlarda da dəfələrlə xüsusi olaraq vurğulamışam ki, mən qanunlar yazan millət vəkili olmayacam, mən seçicilərimin gündəlik problemləri ilə yaşayan, həmin problemlərin həll olunmasına bütün varlığımla çalışan millət vəkili olacağam. Bu prinsipdən çıxış edərək seçicilərlə, sıravi vətəndaşlarla işləməyə daha çox üstünlük verirəm. Millət vəkili seçildiyim ilk

6 ay ərzində keçirdiyim çoxsaylı görüşlər, seçicilərimlə etdiyim fərdi söhbətlər mənim bu qənaətimin doğru olduğuna bir daha əminliyimi artırıb. Onu da xüsusi olaraq qeyd etməliyəm ki, Azərbaycan qanunları bütün beynəlxalq standartlara cavab verir və bu mənada bizim əsas vəzifələrimizdən biri də həmin qanunların düzgün icrasına nail olmaqdır.

- Sizin üçün Milli Məclisdə qanunvericilik prosesində komitələrdə işləmək maraqlidir, yoxsa plenar iclaslarda iştirak etmək?

- Plenar iclaslarda iştiraka daha çox üstünlük verirəm.

- Elxan müəllim, fikrinizcə, vətəndaşlarla işdə ən vacib məsələ nədir?

- ən vacibi millət vəkilinə müraciət etmiş vətəndaşın problemlərinə diqqət və qayğı ilə yanaşmaq, həssas münasibət göstərmək, məsuliyyət hissinin olmasıdır. Hesab edirəm ki, sadaladığım bu məsələlər hər bir millət vəkilinin həyat kredosu olmalıdır. Ümumiyyətlə isə vəzifəsinin icrasına başlayan millət vəkillərinin deputat andı içməsi mütləqdir. Dünya ölkələrinin əksəriyyətində deputatlar mandat aldıqdan sonra parlamentin ilk iclasında təntənəli surətdə and içirlər və bu andiçmə mərasimi televiziya ilə yayımlanır. Millət vəkili ictimaiyyət qarşısında təntənəli surətdə vəzifəsinə vicdanla yanaşacağına, seçicilərin rifahı üçün əlindən gələni əsirgəməyəcəyinə, yalnız qanun və vicdanını rəhbər tutacağına dair söz verirsə, bu, xalq nümayəndəsinin üzərinə əlavə məsuliyyət qoymuş olur. Bizim hər birimiz seçildiyimiz regionda seçicilərin iradəsini ifadə edirik. Parlamentdə və xalq qarşısında and içməyimiz həm də ona görə vacibdir ki, seçici səs verdiyi millət vəkilinin verdiyi söz və içdiyi and müqabilində gördüyü işlərə, deputatın fəaliyyətinə və fəaliyyətsizliyinə qiymət verərək bu fəaliyyəti təhlil etmək imkanı qazanmış olur. Bu bütün dünyada qəbul olunmuş normadır.

Mən hələ seçki kampaniyası dövründə seçilmiş millət vəkillərinin parlamentin ilk iclasında deputat andı içməsinə dair təklifə çıxış etmişdim. Deputat seçildikdən sonra isə ilk olaraq "Deputat andı haqqında" qanun layihəsini işləyərək Milli Məclisin Qanunvericilik komitəsinə təqdim etdim. təəssüf ki, təqdim etdiyim qanun layihəsi hələ də baxılmamış qalmışdır.

- Necə hesab edirsiniz, Milli Məclisdə qanun layihələrinin müzakirəsi zamanı ictimai dinləmələrin keçirilməsi lazımdırmı?

- Mənim qənaətimə görə qanun layihəsinin Milli Məclisdə müzakirəsi başlamamışdan ən azı 3-6 ay əvvəl ictimai müzakirəyə çıxarılması olduqca vacibdir. Bütün demokratik, sivil inkişaf yolu keçən ölkələrdə bu tip müzakirələr ən vacib prosedur kimi həyata keçirilir. Çünki, qəbul olunacaq hər bir qanun ölkə əhalisinin gündəlik həyatına bu və ya digər şəkildə təsir edir və bu baxımdan ictimaiyyətin qanunvericilik orqanında qəbul olunacaq hər bir qanun layihəsi barədə öz fikrini bildirmək və təkliflərini vermək imkanı olmalıdır. Bu müzakirələrdə kiv-lər xüsusi rol oynaya bilər. Şübhəsiz ki, hər sahə üzrə ayrı-ayrı mütəxəssislərin rəyləri də ciddi surətdə nəzərə alınmalıdır. Yalnız bundan sonra Qanun layihələrinin komitələrdə və nəhayət Milli Məclisin plenar iclaslarında müzakirələri keçirilə bilər. Belə üsulla qəbul olunmuş Qanunlar həm uzunömürlü olur, həm də həmin qanunların icrası zamanı problemlər yaşanmır.

Eyni zamanda hesab edirəm ki, ictimai müzakirələr zamanı ictimaiyyət nümayəndələri və həmçinin mütəxəssislər tərəfndən verilmiş səmərəli təklifərin Milli Məclisin komitə və plenar iclaslarında keçirilən müzakirələrdə nəzərə alınmasına ictimai nəzarət mexanizminin formalaşması da çox məqsədəuyğun olardı.

- Sizcə, qanun layihələrinin müzakirələri harada keçirilməlidir-komitələrdə, yoxsa plenar iclasda?

- Hər ikisində. Hər bir konkret sahə üzrə mütəxəssislər də müzakirələrə cəlb olunmaqla əsas müzakirələrin komitələrdə keçirilməsi daha məqsədəuyğundur. Yuxarıda qeyd etdiyim fikrə bir daha qayıtmaq istəyirəm ki, hər bir qanun layihəsinin qəbulu ilkin olaraq ictimai müzakirələrdən keçməli, sonra isə mütəxəssis rəyləri də nəzərə alınmaqla ekspertlərin və mütəxəssislərin iştirakı ilə komitələrdə müzakirə olunmalı, müzakirələrin nəticəsi barədə mütləq ictimaiyyətə məlumat verilməli, nəhayət, plenar iclaslarda geniş müzakirələr aparılmalıdır.

- Tədqiqat mərkəzləri və QHT-lər tərəfindən verilmiş təkliflər əsasında qanun layihələrinin hazırlanmasını səmərəli hesab edirsinizmi?

- Ümumiyyətlə, hər bir inkişaf etmiş ölkədə demokratik dəyərlərin mövcudluğu həm də həmin ölkədə vətəndaş cəmiyyətinin rolu, QHT-lərin ölkədə gedən proseslərə təsiri və onların inkişaf dərəcəsi ilə ölçülür. Bu mənada Azərbaycan da inkişaf etməkdə olan sivil, demokratik və gənc ölkə olmaqla istisna təşkil etmir. Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafındakı uğurlar göz qabağındadır, amma ölkənin nüfuzlu və böyük QHT-lərindən birinin rəhbəri kimi deyə bilərəm ki, mövcud vəziyyət qənaətbəxş deyil. Təəssüf ər olsun ki, bu tip məsələlərdə vətəndaş cəmiyyətinin rəyi nəzərə alınmır və bu da ümumi işimizə zərər gətirən amildir. Belə hal qanunların qəbulu zamanı verilən təkliflərin iqnor olunmasında da özünü göstərir. Hesab edirəm ki, qanun layihələrinin hazırlanmasında tədqiqat mərkəzləri və vətəndaş cəmiyyətinin təşkilatlanmış strukturları olan QHT-lər tərəfindən verilmiş təkliflər mütləq mənada nəzərə alınmalı, QHT-lərin verdiyi təkliflər ictimaiyyətə açıqlanmalıdır. Adları çəkilən qurumlar tərəfindən verilən təkliflər əssasında qanun layihələrinin hazırlanması və qəbulu səmərəli olmaqla yanaşı, həm də

vətəndaş cəmiyyətinin qanunvericilik prosesində iştirakını təmin edər.

- Deputat köməkçilərində vacib bacarıqlar hansılar olmalıdır?

- Çox təəssüfər olsun ki, bizim cəmiyyətdə sovet dönəmindən qalmış stereotiplərə görə ümumilikdə köməkçi postuna sıradan olan bir vəzifə kimi baxılır. Mən isə köməkçi vəzifəsini, xüsusilə də deputat köməkçisi vəzifəsini mühüm hesab edirəm. Hesab edirəm ki, bu vəzifədə çalışan şəxs olduqca hazırlıqlı və hərtərəfi dünyagörüşünə, xüsusilə də siyasi və hüquqi biliklərə malik, vətənpərvər, məsuliyyətli, əsl vətəndaş keyfyyətlərini özündə daşıya bilən şəxs olmalıdır. köməkçi sadə insanların həyatına bələd olmalı, onlara qayğı ilə yanaşmağı bacarmalı, onları sevməlidir. Deputat köməkçisində vətəndaşlar tərəfndən edilən müraciətlərin, həmin müraciətlərdə qaldırılan problemlərin vaxtında və səmərəli araşdırılaraq təklifər hazırlamaq və millət vəkilinə təqdim etmək bacarığının olması vacib şərtlərdəndir. Eyni zamanda bu vəzifəyə qeyd elədiyim keyfyyətlərə malik olan 30-35 yaşa qədər gənclərin götürülməsini daha məqsədəuyğun hesab edirəm. Yaddan çıxarmamalıyıq ki, bu gənclər bizim kadr potensialımızdır və millət vəkilinin köməkçisi qismində iş rejimi və vətəndaşlarla daimi təmasda olmaq həmin şəxslərin gələcək fəaliyyətlərində əhəmiyyətli baza rolunu oynayacaqdır. Deyilənlərlə yanaşı, köməkçi vəzifəsində işləyən şəxslərin aylıq məvaciblərinin artırılması və gördükləri fəaliyyətə adekvat olaraq qiymətləındirilmələrini də vacib faktor hesab edirəm. təəssüf ki, bugünki millət vəkilinin köməkçisinin aldığı məvacib heç də yuxarıda sadaladığım kriteriyalara cavab verən bacarığı, savadı, işgüzarlığı özündə cəmləşdirən şəxsin tələbatına uyğun deyil. Misal üçün ABŞ-da konqresmen və senatorların

köməkçiləri xüsusi statusa malık şəxslərdir və olduqca geniş səlahiyyətlərə malik olmaqla ciddi məsələləri həll edə bilirlər. Bizimlə eyni geosiyasi məkanda olan Ukraynada da köməkçi vəzifəsinə yaxşı mənada fərqli münasibət formalaşıb. Bu yaxınlarda həmin ölkədə səfərdə olduğum zaman Ukrayna Radasının deputatı, AvRONESt-in rəhbərlərindən biri olan Boris tarasyukla söhbətlərim əsnasında bu məsələ ilə əlaqədar maraqlı faktlar öyrəndim. Məlum oldu ki, Ukrayna Radası deputatının rəsmi olaraq məvacib alan 4 köməkçisi var. Bundan əlavə, Ukrayna deputatı ictimai əsaslarla daha 16 nəfər köməkçi təyin edə bilər və həmin köməkçilər də digər 4 köməkşi ilə bərabər statusa malikdirlər.

- Seçicilərlə ünsiyyətdə hansı formalardan daha çox istifadə edirsiniz?

- Hələ seçki kampaniyası dövründən seçicilərlə canlı ünsiyyətə üstünlük vermişəm və bu gün də bu üsulu ardıcıl olaraq davam etdirirəm. Gündəlik həyatlarında daima seçicilərimlə, sadə vətəndaşlarla birlikdə olmağa çalışıram. Deputatı olduğum Şamaxı rayonunda keçirilən əksər toy və yas mərasimlərində imkanım daxilində iştirak edirəm. Bir çox hallarda mənimlə görüşə gələ bilməyən əlillərin, yaşlı insanların evlərinə gedirəm. Ayda bir dəfə seçicilərim qarşısında gördüyüm və görməyi planlaşdırdığım işlər barədə hesabat verirəm. Deputat seçildiyim 6 ay ərzində Şamaxıda müxtəlif kütləvi tədbirlərin, xeyriyyəçilik və açılış mərasimlərinin, müsabiqələrin keçirilməsinə nail olmuşam. Mütəmadi olaraq görüşlər keçirməklə yeni il bayramında körpələri və ahılları, qadınlar bayramında rayon qadınlarını, analarımızı, qələbə bayramında müharibə veteranlarını və təşkilatçısı olduğum müxtəlif tədbirlərdə digər kateqoriyalardan olan seçicilərimi, sıravi vətəndaşları şəxsən təbrik etmiş, onlara hədiyyələr təqdim etmişəm. Bundan əlavə, Şamaxı şəhərində

fəaliyyət göstərən qərərgahımın qapısı daim bütün vətəndaşların üzünə açıqdır. Qərərgahda çalışan işçilər müraciət etmiş vətəndaşları qəbul edir, hüquqi yardıma ehtiyacı olanlara hüquqşünaslar tərəfndən məsləhətlər verilir, digər məsələlərin həllində müxtəlif köməkliklər göstərilir. Ötən dövr ərzində seçicilərim tərəfndən mənə 1500-dən artıq yazılı və şifahi müraciətlər edilib. Hər bir müraciətə qayğı ilə yanaşaraq mövcud problemlərin həllinə nail olmağa çalışmışam. lakin bəzən buna nail olsam da, bir çox hallarda məndən asılı olmayan səbəblərə görə müraciət etmiş vətəndaşlara kömək etmək imkanım olmadığı səbəbindən mənəvi əzab çəkirəm. Məni incidən əsas məsələ isə bir çox hallarda mənə pənah gətirmiş vətəndaşların problemlərini həll etməyə borclu olan müxtəlif strukturların rəhbərlərinin onlara etdiyim müraciətlərə laqeyd, hətta tam etinasız yanaşmaları olur. Çox təəssüfər olsun ki, bir sıra məmurlar, hətta nazirlər və komitə rəhbərləri səviyyəsində etdiyimiz yazılı və şifahi müraciətlərə, telefon zənglərinə ümumiyyətlə cavab verilməməsi bir millət vəkili kimi məni seçicilərim qarşısında çıxılmaz vəziyyətdə qoymaqla yanaşı, həm də ümumilikdə deputat statusuna və Parlamentin işgüzar nüfuzuna xələl gətirir. Hesab edirəm ki, Parlamentin rəhbərliyi deputat statusunun artırılması istiqamətində ciddi işlər görməlidir.

"Amalım Azərbaycana xidmət etməkdir"

Azərbaycan Respublikası Milli Məclisinin üzvü,
Şamaxının millət vəkili Elxan Süleymanov
www.elkhan-suleymanov.az saytının
suallarını cavablandırır.
15.09.2011

- Hörmətli Elxan müəllim, bu günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Sizi "Şöhrət" ordeni ilə təltif edti. Sizi təbrik edirik və fəaliyyətinizdə uğurlar arzulayırıq.

- Çox sağ olun. Prezident cənab ilham əliyevə mənə göstərdiyi yüksək etimada görə minnətdarlığımı bildirirəm. Mənim həyatda əsas amalım Ölkəm, vətənə Borc, vətən qarşısında Öhdəlik, vətənə Şərəf gətirmək və Azərbaycana yorulmadan xidmət etməkdir. cənab Prezidenti və seçicilərimi əmin edirəm ki, bu istiqamətdə səylərimi daha da səfərbər edəcəyəm, doğma Azərbaycanın çiçəklənməsi və hərtərəfi davamlı inkişafı istiqamtində qüvvəmi əsirgəməyəcəyəm, gələcək fəaliyyətimlə bu etimadı doğrultmağa çalışacağam.

- Millət vəkili kimi fəaliyyətinizin istiqamətləri haqqında məlumat verməyinizi xahiş edirik.

- Mən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüyəm. Bundan əlavə AŞPA-da Azərbaycan nümayəndə heyətinin üzvüyəm, AvRONESt PA-da Azərbaycan nümayəndə heyətinin və Azərbaycan-Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəriyəm. Odur ki, fəaliyyətimi də müvafq qaydada qurmuşam. Odur ki, Millət vəkili kimi mənim fəaliyyətimi əsasən iki

istiqamətdə həyata keçirirəm. Bunlardan biri beynəlxalq əməkdaşlıq istiqamətində göstərdiyim fəaliyyətdir, digəri isə ölkənin ali qanunvericilik orqanında Şamaxı rayonu əhalisinin nümayəndəsi kimi onların layiqincə təmsil edilməsi, hüquqlarının qorunması və mövcud problemlərinin həllinə nail olunması istiqamətində fəaliyyətdir.

- AŞPA-da Azərbaycan nümayəndə heyətinin üzvü kimi, ölkəmizlə bu beynəlxalq təşkilatın əməkdaşlığı ilə bağlı fikirlərinizi bilmək istərdik.

- Azərbaycan Respublikası 25 yanvar 2001-ci ildə Avropa Şurasına tam və bərabərhüquqlu üzv qəbul edilmişdir. Avropa Şurasına üzv olmaq, bir tərəfdən, Azərbaycan Respublikası üçün müasir dövrdə beynəlxalq aləmdə, o cümlədən Avropa məkanında baş verən proseslərə qoşulmaq, Avropa ölkələri ilə ikitərəfi və çoxtərəfi münasibətləri genişləndirərək daha da inkişaf etdirmək, qlobal problemlərin həllində bilavasitə iştirak etmək üçün əsas faktorlardan olmuşdur. Digər tərəfdən, belə bir nüfuzlu beynəlxalq təşkilatın üzvü kimi insan hüquqları və əsas azadlıqları sahəsində konvensiyalara qoşulmaq, onlardan irəli gələn öhdəliklərə əməl etmək dünya birliyi tərəfndən Azərbaycanın demokratik dövlət kimi tanınmasında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizdə insan hüquqları sahəsində hüquqi bazanın yaradılmasına, əhalinin sosial təminatının Avropa standartlarına uyğunlaşdırılmasına, Avropa ölkələri ilə siyasi, iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığın daha yüksək mərhələyə keçməsinə təminat vermişdir.

keçən dövr ərzində Azərbaycanla Avropa Şurası arasında münasibətlər dinamik inkişaf edib. Misal üçün, AŞPA-da Dağlıq Qarabağ münaqişəsinə dair 2005-ci ildə qəbul edilmiş 1416 saylı qətnamə öz obyektivliyi ilə seçilən beynəlxalq sənəd olub. Bu qətnamədə

Azərbaycan ərazisinin əhəmiyyətli hissəsinin işğal altında olması, təşkilatın üzvü olan bir dövlətin digər bir üzvün ərazilərini işğal altında saxlamasının yolverilməzliyi, işğal altında olan ərazilərin azad edilməsinin vacibliyi, məcburi köçkünlərin hüquqlarının bərpa olunmasının və öz yurdlarına qayıtma kimi ayrılmaz hüquqa malik olmaları kimi müddəalar ehtiva edilib. Obyektivlik naminə qeyd etməliyik ki, bu təşkilat qətnaməni qəbul etdikdən sonra işğalçı dövlət olan Ermənistana qarşı öz arsenalında olan heç bir təsir və təzyiq vasitələrindən istifadə etməmişdir. Qeyd edilən qətnaməyə əsasən təsis edilmiş Dağlıq Qarabağ münaqişəsinə dair alt komitə 2006-cı ildən fəaliyyət göstərmir. Bu ilin yazında həmin alt komitənin fəaliyyətinin bərpa edilməsinə dair qərarın qəbul edilməsinə baxmayaraq, Ermənistan nümayəndə heyətinin destruktiv mövqe nümayiş etdirməsi nəticəsində AŞPA hələ də buna nail ola bilməyib.

Demək olmaz ki, AŞ ilə Azərbaycan arasında münasibətlərdə heç bir problem yaşanmır. əlbəttə, belə problemlər mövcuddur. Bu problemlər sırasında obyektiv amillərlə şərtlənənləri var ki, onlar da vaxtaşırı öz həllini tapır. lakin elə problemlər də var ki, onlar bu və ya digər qruplar tərəfndən qərəzli şəkildə gündəmə gətirilir. Belə subyektiv və qeyri-obyektiv xarakter daşıyan qondarma problemlər uzun müddət gündəmdə qalmaqla, ölkəmizlə AŞ münasibətlərinə kölgə salır. Qarşılıqlı münasibətlərə kölgə salan problemlərdən biri qondarma "siyasi məhbus" problemidir.

Bu qondarma "problem" barədə indiyədək kifayət qədər məlumat verilib. Odur ki, mən bu məsələ üzərində dayanmaq istəmirəm. Yalnız onu qeyd etmək istərdim ki, Azərbaycan Avropa Şurasına üzv qəbul edildiyi zamana qədər "siyasi məhbus" anlayışı və onun hüquqi təbiəti heç bir beynəlxalq hüquqi sənəddə, o cümlədən Avropa Şurasının sənədlərində müəyyən edilməmişdi və həmin

problem bu günədək beynəlxalq-hüquqi müstəvidə öz həllini tapmamışdır. Bundan əlavə, heç bir beynəlxalq məhkəmə, o cümlədən qərarları presedent xarakteri daşıyan insan Hüquqları üzrə Avropa Məhkəməsi öz qərarlarında bu anlayışdan istifadə etmirlər. Buna baxmayaraq, Avropa Şurasında bəzi dairələr Azərbaycana qarşı dövri olaraq ölkədə seçkilər ərəfəsində və ya AŞPA-nın sessiyaları ərəfəsində ayrıseçkiliyə yol verərək siyasi məqsədlərlə "siyasi məhbus" anlayışından istifadə edirlər. Həmin qüvvələr "siyasi məhbus"anlayışının hüquqi təbiətini ehtiva edən ümumtanınmış sənədin olmamasına məhəl qoymadan, Avropa Şurasına üzv olan 47 dövlətdən yalnız Azərbaycan üzrə siyasi məhbus problemi üzrə xüsusi məruzəcinin təyin edilməsinə nail olmuşdur. Bu azmış kimi, həmin qüvvələr AŞPA-nın Hüquq məsələləri və insan hüquqları komitəsində Azərbaycanda siyasi məhbusların mövcudluğunu müəyyən etmək üçün meyarların hazırlanmasının da həmin məruzəçiyə həvalə edilməsinə nail olmuşlar. Bu açıq-aşkar qərəzli məntiqə əsasən eyni bir məruzəçi meyarlar hazırlayır və həmin meyarlar əsasında ölkədə siyasi məhbuslarla bağlı məruzə hazırlayır. Bu yaxınlaşma heç bir halda obyektiv sayıla bilməz. Belə ki, o, Avropa Şurası Nizamnaməsinin 3-cü maddəsində ehtiva edilmiş "hüququn aliliyi" və "üzv dövlətlərin bərabərliyi" prinsipləri ilə ciddi ziddiyət təşkil edir. Odur ki, bu yaxınlaşma qəbuledilməzdir. Avropa Şurasında problem üzrə ümumtanınmış hüquqi sənəd qəbul edildikdən sonra Avropa Şurasına üzv olan hər hansı dövlətdə, o cümlədən Azərbaycanda siyasi məhbusların olub-olmaması barədə danışmaq olar. Mən qeyd edilən məsələ ilə bağlı 2011-ci ildə işıq üzü görmüş "Avropa Şurasında siyasi məhbus problemi və onun həlli yolları" kitabımda ətraf ı təhlil aparmışam və problemin həllinə nail olmaq istiqamətində müvafq təklifər irəli sürmüşəm.

Yeri gəlmişkən, mən eyni zamanda Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına Yardım Assosiasiyasının (AvciYA) təsisçisi və prezidentiyəm. AvciYA bu ilin may ayında Avropanın beynəlxalq hüquq sahəsində tanınmış mütəxəssislərinin, AŞPA və Avropa Parlamentinin üzvlərinin iştirakı ilə "Siyasi məhbus anlayışının vahid meyarlarının vacibliyi" mövzusunda beynəlxalq konfrans keçirdi. konfrans iştirakçıları öz çıxışlarında indiyədək "siyasi məhbus" anlayışının nə universal, nə də regional beynəlxalq təşkilatlar tərəfndən qəbul edilmiş meyarlarının olmadığını bir daha vurğuladılar və belə bir meyarların qəbul edilməsinin vacibliyini özündə əks etdirən bəyanat qəbul etdilər.

Nəhayət, qeyd etmək istərdim ki, 2011-ci ildə Azərbaycanın Avropa Şurasına bərabərhüquqlu üzv qəbul edilməsinin 10 illiyi tamam oldu. Bu illər ərzində ölkəmizlə AŞ arasında münasibətlərin dinamikası, Azərbaycanda aparılmış islahatlar, 10 il ərzində ölkəmizin insan hüquqlarının müdafəsi sahəsində əldə etdiyi irəliləyişlər və digər məsələlər müəllif olduğum "Azərbaycan 10 il Avropa Şurasında" kitabında ətrafı təhlil edilib.

- AVRONEST PA yeni bir qurumdur və Siz bu qurumda Azərbaycan nümayəndə heyətinin rəhbərisiniz. AVRONEST PA-nın vəzifə və məqsədləri, strukturu, o cümlədən Azərbaycan nümayəndə heyətinin bu qurumda fəaliyyəti barədə məlumat verməyinizi xahiş edirik.

- Avropa itifaqı xarici işlər Nazirlərinin 26 may 2008-ci il tarixdə Brüsseldə iclası keçirildi. Həmin iclasda Polşa və isveç Avropa Şərq Qonşuluq Siyasətinə daxil olan ölkələrlə (Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova və Belarus) əməkdaşlığın vahid formatının təsis edilməsini nəzərdə tutan Şərq tərəfdaşlığı (Şt) təşəbbüsü ilə çıxış etdilər. Şərq tərəfdaşlığı üzrə 7 may 2009-cu il tarixində Praqada dövlət başçılarının zirvə

görüşü keçirildi. Sammit zamanı qeyd edilən təşəbbüsün əsas məqsədləri və prinsiplərini, həmçinin gələcək əməkdaşlıq prosesinin ümumi parametrlərini müəyyən edən Birgə Bəyannamə qəbul edildi və bununla da Şərq tərəfdaşlığı prosesinə yüksək səviyyədə rəsmi start verildi.

Şərq tərəfdaşlığı prosesi çərçivəsində bir tərəfdən Avropa Parlamentinin nümayəndələrindən, digər tərəfdən isə Şərq tərəfdaşı olan ölkələrin parlamentlərinin nümayəndələrindən ibarət olan və Avropa Parlamentinin bir qurumu kimi fəaliyyət göstərən Parlament Assambleyasının yaradılması nəzərdə tutulurdu və bu qurum AvRONESt Parlament Assambleyası adlandırıldı. Odur ki, AvRONESt Parlament Assambleyası Avropa itifaqı ilə Şərq tərəfdaşları arasında yaradılmış birgə Assambleyadır. Bu təsisat qarşılıqlı maraqlar və öhdəliklər, eləcə də diferensiasiya, bölüşdürülmüş mülkiyyət və məsuliyyət prinsipləri əsasında yaradılıb. Göründüyü kimi, AvRONESt PA Avropa itifaqı regionu ilə Şərq tərəfdaşlığı ölkələri regionunun birgə parlamenti olmaqla, mahiyyətcə regionlararası parlament təsisatıdır.

Beləliklə, AvRONESt PA Avropa itifaqı ilə Şərq tərəfdaşlığı ölkələrinin birgə parlament təsisatı kimi 2-3 may 2011-ci il tarixdə bu Brüsseldə təsis edilib. Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti də qurumun təsis iclasında iştirak etdi. keçirilən tədbirlər çərçivəsində AvRONESt PA-nın təsisat Aktı və Prosedur qaydaları qəbul edilərək imzalandı. Şübhəsiz ki, bu yeni beynəlxalq qurum, onun məqsədləri, ölkəmizin bu qurumda təmsil olunması Azərbaycanın milli maraqlarına və xarici siyasət kursuna cavab verir.

Prosedur qaydalarına əsasən AvRONESt PA Avropa Parlamentinin 60, hər Şərq tərəfdaşı olan ölkələrin Parlamentlərinin 10 üzvündən ibarətdir. AvRONESt PA plenar tərkibdən başqa həm də Büro, daimi komitələr,

işçi qrupları və katiblikdən ibarət təşkil edilib. Qurumun nəzdində Siyasi Məsələlər, insan Hüquqları və Demokratiya komitəsi, iqtisadi inteqrasiya, Hüquqi Yanaşma və Ai Siyasətinə Uyğunluq komitəsi, Enerji təhlükəsizliyi komitəsi, Sosial Məsələlər, təhsil, Mədəniyyət və vətəndaş cəmiyyəti üzrə komitəsi kimi 4 daimi komitə, Belarus üzrə və Prosedur Qaydaları üzrə 2 işçi qrupu yaradılıb.

Azərbaycan nümayəndə heyəti AvRONESt PA-nın idarəçilik orqanlarının formalaşdırılması zamanı ciddi nailiyyətlər əldə etdi. Belə ki, bu seçkilər zamanı Fuad Muradov Enerji təhlükəsizliyi komitəsinin sədri, Azay Quliyev Sosial Məsələlər, təhsil, Mədəniyyət və vətəndaş cəmiyyəti üzrə komitənin, Asim Mollazadə isə Siyasi Məsələlər, insan Hüquqları və Demokratiya komitəsinin sədr müavinləri seçildilər. Mən isə AvRONESt PA-nın vitse-prezidenti və Büro üzvü seçildim.

Prosedur Qaydaları üzrə işçi qrupu ilə bağlı qeyd etməliyəm ki, bu işçi qrupu başlanğıc olaraq bir il müddətinə yaradılıb və onun fəaliyyət müddəti Büronun təklif ilə Assambleyanın qərarı əsasında uzadıla bilər. Bu işçi qrupunun əsas məqsədi Assambleya və onun qurumları tərəfndən Prosedur Qayalarının yerinə yetirilməsinə nəzarət etməkdən ibarətdir. Bu işçi qrupu həmçinin Prosedur Qaydalarına düzəlişlərin edilməsi prosesini stimullaşdırmaq üçün Büroya yazılı təklifər təqdim edə bilər. Bunlar ondan irəli gəlir ki, AvRONESt PA və onun qurumları yeni yaradılıb, onlar hələ ki, müntəzəm olaraq təcrübə qazanaraq, öz fəaliyyətlərini təkmilləşdirmə mərhələsindədirlər. Göründüyü kimi, Prosedur Qaydaları üzrə işçi qrupu AvRONESt PA-nın çox vacib bir qurumudur və bizim üçün bu işçi qrupuna kimin sədr olacağı prinsipal xarakter daşıyırdı.

Məhz bu səbəbdən Ermənistan nümayəndə heyəti qısa müddəti əhatə etsə də. hər hansı bir zaman

kəsiyində Prosedur Qaydaları üzrə işçi qrupuna Şt ölkələri tərəfndən sədrlik etməyə iddialı idi, bu isə heç bir halda Azərbaycanın maraqlarına cavab vermirdi. Ermənistan tərəf öz məqsədlərinə nail olmaq üçün Prosedur Qaydaları üzrə işçi qrupuna sədrliyin bir il ərzində növbə ilə Ukrayna, Azərbaycan və Ermənistan arasında bölünməsini, daha sonra isə onun fəaliyyət vaxtı uzadıldığı halda Moldova və Gürcüstan arasında bölünməsini təklif edirdi.

lakin biz bu variantı məqbul saya bilməzdik, çünki belə bir vacib işçi qrupuna, yuxarıda qeyd etdiyim kimi, Ermənistanın sədr təyin edilməsi Azərbaycanın maraqlarına cavab vermirdi. Odur ki, biz Moldova və Gürcüstana qarşı ayrıseçkiliyin yolverilməzliyini qeyd edərək, 2 təklif irəli sürdük. Birinci təklif sədrliyin Azərbaycan və Ermənistan istisna olmaqla, digər iştirakçı dövlətlərdən birinə həvalə edilməsindən ibarət idi. Onu da qeyd edim ki, biz əvvəlcədən Ermənistanın bu təklifə razılaşmayacağını proqnozlaşdırmışdıq. Odur ki, Büro üzvlərinə göndərdiyimiz məktubda bu vəziyyəti nəzərə alaraq, Azərbaycanla Ermənistanın işçi qrupuna həmsədrlik etməsi barədə ikinci təklıf də irəli sürdük. Bizim Büronun 21 iyun 2011-ci il tarixli iclası ərafəsində tərəfdaşlarla apardığımız intensiv məsləhətləşmələr nəticəsində Ermənistanın təklif səsverməyə çıxarılmadı. Bunun əvəzində Azərbaycanla Ermənistanın həmsədrliyi səsə qoyuldu və qəbul edildi.

Digər bir məsələ AvRONESt PA-nın cari ilin sentyabr ayında plenar sessiyasının keçiriləcəyi məkanla bağlı idi. Belə ki, Prosedur Qaydalarının 7-ci maddəsinə əsasən AvRONESt Parlament Assambleyası həmprezidentlər tərəfndən çağrılır və Assambleyanın sessiyaları əsas etibarilə ildə bir dəfə olmaqla növbə ilə Şərqi Avropa tərəfdaşı ölkələrindən birində və Avropa Parlamentinin iş binalarında keçirilir.

Ermənistan nümayəndə heyəti AvRONESt PA-nın növbəti sessiyasının Ermənistanın dövlət müstəqilliyinin 20 illiyinin keçirildiyi günlər sentyabrın sonlarında Yerevanda keçirilməsi təklifni irəli sürmüşdülər. Biz dərhal bu təklifn qəbuledilməz olduğunu bildirdik. AvRONESt PA göndərdiyimiz məktubda bildirdik ki, Ermənistan dövlət müstəqilliyinin ilk ilərində Azərbaycan Respublikasına qarşı həyata keçirdiyi silahlı təcavüz nəticəsində ölkəmizin 20% ərazisini işğal etmiş, həmin ərazilərdə etnik təmişləmə siyasəti aparmış, yerli əhali olan azərbaycanlıların etnik zəmində hüquqlarını kütləvi və kobud şəkildə pozmuş və bunun nəticəsində 1 milyondan artıq insan qaçqın və məcburi köçkünə çevrilmişdir, indiyədək Ermənistan Azərbaycan ərazilərini iğğaldan azad edilməsi və məcburi köçkünlərin öz vətənlərinə qaytarılması istiqamətində heç bir addım atmamışdır. Biz eyni zamanda AvRONESt PA üzvlərinin Ümumavropa evinin üzvləri olduğunu və Avropa dəyərlərinin təməlini təşkil edən insan hüquqlarının təmin edilməsinə hörmət nümayiş etdirməli olduğun diqqətə çatdırdıq. Eyni zamanda bildirdik ki, Ermənistanın dövlət müstəqilliyinin 20-ci ildönümü ilə bağlı keçiriləcək tədbirlərə qoşulmaqla və həmin ərəfədə AvRONESt PA-nın Büro iclasının və ya Plenar sessiyasının Yerevanda keçirməklə yüz minlərlə insanın hüquqlarının pozulması faktını təşviq etmiş olarıq. Bizim səylərimiz nəticəsiz qalmadı və Büronun 21 iyun tarixli iclasında AvRONESt PA-nın sessiyasının cari ilin 14-15 sentyabr tarixlərində Strasburqda keçirilməsi barədə qərar qəbul edildi.

Onu da qeyd edim ki, Azərbaycan tərəf Prosedur Qaydalarının 7-ci maddəsinə uyğun olaraq, AvRONESt PA-nın növbəti sessiyalarından birinin Bakıda keçirilməsi təklif ilə çıxış etmişdi. lakin Büronun 21 iyun 2011-ci il tarixli iclasında AvRONESt PA-nın

növbəti Plenar sessiyanın 2012-ci ilin may ayında Bakıda keçirilməsi təklif ilə bağlı səsvermə zamanı Azərbaycan, Ukrayna, Gürcüstan və AvRONESt PA-nın Avropa Parlamenti tərəfndən həmprezidenti xristian vigenin PA-nın Plenar iclasının Azərbaycanda keçirilməsini dəsdəkləsələr də, Ermənistan, Büronun üzvləri olan Polşalı deputat Saryuj-volski və Rumıniyalı deputat trayan Unqreanu əleyhinə səs verdilər, Moldova isə bitərəf qaldı. Bunun nəticəsində 2/3 səs çoxluğu qazanılmadı və məsələnin sentyabr sessiyası zamanı Büro iclasında yenidən müzakirə edilməsi qərara alındı. Büronun 14 sentyabr tarixli iclasında bu məsələ yenidən müzakirəyə çıxarıldı. Ermənistan tərəfnin və ermənipərəst deputatların səylərinə baxmayaraq, AvRONESt PA-nın ikinci növbəti sessiyasının 2012-ci il aprel ayında Bakıda keçirilməsi barədə qərar qəbul edildi. Beləliklə, AvRONESt PA növbəti sessiyasının ilk dəfə olaraq Ai məkanından kənarda keçiriləcəyi ölkə Azərbaycan olacaq. Hesab edirəm ki, bu Azərbaycan nümayəndə heyətinin əldə edtiyi ciddi siyasi uğur oldu.

vurğulamaq istərdim ki, AvRONESt PA-nın təsis iclası, strukturunun formalaşması və ilk növbəti sessiyasına hazırlıq mərhələsində Azərbaycan nümayəndə heyətinin fəaliyyəti uğurlu olmuşdur. Azərbaycan parlamentariləri bu yeni təşkilatın müxtəlif qurumlarında vacib postlarda təmsil olunmağa nail olmaqla yanaşı, Ermənistan tərəfnin və ermənipərəst deputatların ölkəmizin milli maraqlarına zərbə vura biləcək təklifərinin qarşısını almış və öz təklifərinin qəbul edilməsinə nail olmuşlar.

- Cari ilin 14-15 sentyabr tarixində Strasburqda AVRONEST PA-nın ilk sessiyası keçirildi. Bu sessiya Azərbaycan nümayəndə heyəti üçün hansı məqamlarla yadda qaldı?

- cari ilin 14-15 sentyabr tarixində AvRONESt PA-nın

ilk növbəti sessiyası keçirildi. Sessiyanın əsas məqsədi 29-30 sentyabr tarixində varşavada keçiriləcək Şərq tərəfdaşlığı Sammiti ilə bağlı tövsiyyələrin hazırlanması və müvafq sənədin qəbul edilməsindən ibarət idi. Sessiyanın ilk günü Büro və 4 kimitənin iclasları keçirildi.

Büronun iclasında, yuxarıda qeyd etdiyim kimi, AvRONESt PA-nın növbəti sessiyasının 2012-ci ilin may ayında Bakıda keçirilməsi barədə qərar qəbul edildi. Qurumun iqtisadi inteqrasiya və Ai Siyasətləri ilə Uyğunluq, Enerji təhlükəsizliyi, Sosial Məsələlər, təhsil, Mədəniyyət və vətəndaş cəmiyyəti komitələrinin iclaslarında bu komitələr tərəfndən hazırlanməş sənədlər müzakirə edilərək qəbul edildi.

lakin Siyasi Məsələlər, insan Hüquqları və Demokratiya komitəsinin hazırladığı "2011-ci il Şərqi tərəfdaşlıq Sammitinə tövsiyələrə dair: məqsədyönlü fəaliyyət üçün yüksək gözləntilər" məruzəsinin müzakirəsi zamanı ciddi gərginlik yaşandı. Məruzəyə əvvəlcədən AvRONESt PA-da Ai üzvü olan deputatlar və Şərq tərəfdaşı ölkələrinin nümayəndə heyətləri tərəfndən bir çox düzəlişlər təklif edilmişdi. Ermənistan nümayəndə heyətinin düzəlişləri əsasən Şt ölkələri ərazisində mövcud olan münaqişələrin həlli ilə bağlı BMt tŞ, AŞPA, Avropa Parlamenti kimi beynəlxalq təşkilatların qəbul etmiş olduqları qətnamə və qərarlardan məruzədə yan keçilməsindən, məruzədən Şərq tərəfdaşı ölkələrinin suverenlik, ərazi bütövlüyü və sərhədlərinin toxunulmamazlığının dəstəklənməsi kimi əsas beynəlxalq prinsiplərin silinməsindən, bu ölkənin enerji siyasətinə qoşulmasından, regional iqtisadi inteqrasiya proseslərində və regionun iştirak etdiyi transmilli layihələrdə iştirakından, Şt ölkələri arasında sərhədlərin aradan qaldırılmasından və s. ibarət idi.

Azərbaycan nümayəndə heyəti komitə iclası zamanı Ermənistanın təklifərinin qarşısının alınması-

na nail oldu. Azərbaycan tərəfinin səyləri nəticəsində məruzədə nüfuzlu beynəlxalq təşkilatların qərarları nəzərə alınmaqla, Avropa itifaqının Şt ölkələri ərazisində münaqişələrin həllində aktiv iştirak etməsi, Şərq tərəfdaşı ölkələrinin suverenlik, ərazi bütövlüyü və sərhədlərinin toxunulmamazlığının dəstəklənməsi kimi müddəaların məruzədə yer alması barədə qərar qəbul edildi. Bundan əlavə, Ermənistanın "mənbə və ya tranzit ölkəsi olmasından asılı olmayaraq, hər hansı Şt ölkəsinin enerji təhlükəsizliyi sahəsində tam regional əməkdaşlıqdan çıxarılması və ya təcridinə yönəlmiş siyasəti itiham etmək" təklif məruzədən silindi.

Sentyabrın 15-də AvRONESt PA-nın plenar iclasında yenidən ciddi gərginlik yaşandı və ermənipərəst deputatların nümayiş etdirdikləri destruktiv mövqe nəticəsində bu gərginlik ən yüksək həddə çatdı. Belə ki, Siyasi məsələlər üzrə komitənin iclasında qəbul olunmuş yekun sənədə düzəlişlərin müzakirəsi zamanı ermənipərəst deputatlar yenidən Azərbaycanın mövqeyini əks etdirən yuxarıda göstərilmiş prinsipal xarakterli müddəaların məruzədən silinməsini təklif etdilər. lakin plenar sessiya tərəfndən bu təklifər rədd edildi və səsvermə nəticəsində Azərbaycanın mövqeyini əks etdirən müddəalar qüvvədə qaldı.

Belə olan halda Ermənistan nümayəndə heyəti daha da aqressiv mövqe nümayiş etdirdi və qəbul edilmiş qərarlara qəti etiraz olaraq AvRONESt PA-nı boykot etməklə, veto hüququndan istifadə etməklə hədələdi. Ermənistan nümayəndə heyəti AvRONESt PA həmprezidentlərinin təkidləri və kompromis axtarma cəhdlərindən istifadə edərək, sənədə «xalqların öz iradələrini sərbəst və demokratik yolla ifadə etmək hüququ» kimi yeni bir müddəa təklif etdi. lakin Azərbaycan nümayəndə heyəti qətiyyətlə öz mövqeyində qaldığını və belə bir müddəanın qəbuledilməz olduğunu bildirdi.

Biz belə bir müddəa ilə razılaşmadıqda AvRONESt PA-nın vitse-prezidenti, ermənipərəst mövqeyi ilə fərqlənən Saryus volski bu müddəanı qəbul etməyəcəyimiz təqdirdə AvRONESt PA-nin plenar iclasının Bakıda keçirilməyəcəyini bildirdi. Belə bir vəziyyətdə AvRONESt PA-nın plenar iclasına sədrlik edən həmprezidenti kristian vigenin kompromis əldə etmək üçün məsələnin yenidən Büroda müzakirə edilməsi təklifni irəli sürdü.

Beləliklə, 15 sentyabrda yenidən Büronun iclası keçirildi. Ermənistanın nümayəndəsi iclas zamanı "xalqların öz iradəsini sərbəst və demokratik üsulla ifadə etmək hüququ" ifadəsinin yenidən münaqişələrlə bağlı bəndə salınmasını təkidlə tələb etdi. Sayrus volski isə çıxış edərək, Ermənistan nümayəndəsinin təklifnin qəbul edilməyəcəyi təqdirdə plenar iclasın Bakıda keçirilməyəcəyini bir daha söylədi. Mən müvafq şəkildə Mən Büro üzvü kimi Ermənistan nümayəndəsinin bu təkidinə qəti etirazımı bildirdikdən və Sayrus volskini cavablandırıldıqdan sonra o, Bürodan 14 sentyabrda qəbul edilmiş AvRONESt PA-nın növbəti sessiyasının Bakıda keçirilməsi ilə bağlı qərarının ləğv edilməsini tələb etdi. lakin Büro Sayrus volskinin təklifni rədd etdi. Büro eyni zamanda Ermənistan nümayəndə heyətinin "xalqların öz iradəsini sərbəst və demokratik üsulla ifadə etmək hüququ" ifadəsinin məruzəyə salınması barədə təklifni də rədd etdi. AvRONESt PA-nın növbəti sessiyasının Bakıda keçirilməsi barədə Büronun qərarı qüvvədə qaldı.

Ermənistan nümayəndə heyəti bütün səylərinin uğursuzluğa məruz qaldığına əmin olduqdan sonra veto hüququndan istifadə etdi və nəticəsində Siyasi Məsələlər, insan Hüquqları və Demokratiya komitəsinin hazırladığı "2011-ci il Şərqi tərəfdaşlıq Sammitinə tövsiyələrə dair: məqsədyönlü fəaliyyət üçün yüksək gözləntilər" məruzəsi qəbul edilmədi. Odur ki, Ermənistan

nümayəndə heyətinin və bir qrup ermənipərəst deputatın destruktiv, qeyri-obyerkiv və qərəzli mövqeyi nəticəsində AvRONESt PA məruzə şəklində 29-30 sentyabr tarixində varşavada keçiriləcək Şərq tərəfdaşlığı Sammitinə tövsiyyələr göndərmək imkanından məhrum edildi.

Eyni zamanda qeyd edilməlidir ki, sessiya zamanı Azərbaycan nümayəndə heyəti siyasi uğur əldə etdi və ilk dəfə olaraq AvRONESt PA-nın növbəti sessiyasının Avropa itifaqı hüdudlarından kənarda məhz Bakıda keçirilməsi barədə qərarın qəbul edilməsinə nail oldu. Bununla yanaşı, Azərbaycan nümayəndə heyəti müzakirələrə çıxarılan sənədlərdə ölkəmizin mənafelərinə xələl gətirə biləcək hər hansı bir müddəanın əks etdirilməsinə imkan vermədi, Ermənistan nümayəndə heyətinin və bir qrup ermənipərəst deputatın qeyri-obyektiv, açıq-aşkar destruktiv və qərəzli antiazərbaycan mövqelərinə qarşı çıxdılar, ölkəmizin mənafelərini sonadək əsaslı və obyektiv şəkildə müdafə etdilər. Belə bir nəticənin əldə edilməsi uzunmüddətli və gərgin işlərin sayəsində mümkün oldu.

- Siz qeyd etdiniz ki, Azərbaycan-Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbərisiniz. Azərbaycanla Belçika Krallığı arasında əlaqələrin inkişafı istiqamətində hər hansı bir iş görmüsünüzmü?

- Azərbaycan Milli Məclisi tərəfdaş ölkələrin parlamentləri ilə əməkdaşlıq edir və bu əməkdaşlıq əlaqələrinin daha da intensiv və dinamik şəkildə inkişaf etdirilməsi üçün tərəfdaş ölkələrlə parlamentlərarası əlaqələr üzrə işçi qrupları yaradılıb. Belə işçi qruplardan biri də Azərbaycan-Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupdur və mən bu işçi qrupunun rəhbəri təyin edilmişəm. Qeyd edim ki, analoji işçi qrupu Belçika parlamenti tərəfndən də yaradılıb və Belçika-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupuna cənab Filip

Blanşar rəhbərlik edir.

cənab Filip Blanşarın rəhbərliyi altında Belçika-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun 5 üzvündən ibarət nümayəndə heyəti mənim dəvətimlə 2011-ci ilin 4-8 iyul tarixlərində tanışlıq məqsədilə ölkəmizə səfər etdi. Səfər çərçivəsində qonaqlar insan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova, mədəniyyət və turizm naziri əbülfəs Qarayev, Qaçqınlar və Məcburi köçkünlərlə iş üzrə Dövlət komitəsinin sədri əli Həsənovla görüşdülər. Görüşlər zamanı hüquqi, demokratik dövlət quruculuğu və insan hüquqlarının müdafəsi istiqamətində ölkəmizin əldə etdiyi irəliləyişlər, Azərbaycanda həyata keçirilən çoxşaxəli layihələr, Azərbaycan-Belçika mədəni əlaqələrin inkişafı imkanları və perspektivləri müzakirə edildi. Qonaqlar Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində ölkəmizin 20% ərazisinin işğal edilməsi, həmin ərazilərdə işğalçı Ermənistan tərəfndən etnik təmizləmə siyasətinin həyata keçirilməsi, bir milyondan artıq insanın qaçqın və məcburi köçkün halına düşməsi, işğal nəticəsində regionda fövqəladə humanitar vəziyyətin yaranması faktları qonaqların diqqətinə çatdırıldı. Qonaqlar "caspian Fish" və Səngəçal nef terminalı ilə tanış oldular, mənim Millət vəkili seçildiyim Şamaxı rayonuna səfər etdilər.

Qonaqlar Şamaxı Rayon icra Hakimiyyətinin başçısı Asif Məmmədovla görüşdülər, rayonda aparılan abadlıq işləri barədə qonaqlara məlumat verildi, qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə edildi. Daha sonra qonaqlar Şamaxı rayonunun ən ucqar yaşayış məntəqələrindən biri olan qədim Qalaybuğurt kəndində oldular. Parlamentarilər Qalaybuğurt kəndində əhalisinin yaşayış şəraiti ilə tanış olduqdan sonra həmin kəndin sakinləri olan iki Azərbaycan övladının - Bəhlul və Ramilənin toy şənliklərinə qatıldılar. Mənim dəstəyimlə

baş tutan və xalqımızın adət-ənənəsinə uyğun şəkildə keçirilən toy mərasimində Belçikalı parlamentarilərlə yanaşı, Milli Məclisin deputatları Qənirə Paşayeva, əli Hüseynov, xanhüseyn kazımov, Rövşən Rzayev və Azər kərimli, Azərbaycanın elm və mədəniyyət xadimləri, tanınmış müğənnilər, xalq artistləri Alim Qasımov və Şeyx əbdül, əməkdar artistlər Zabit Nəbizadə və Azad Şükürov, gözəl ifaçımız Azərin xanım, tanınmış rejissor və aktyor Ramiz əzizbəyli, muğam müsabiqələrinin iştirakçıları və "xalq Ulduz"ları vüsal israflov, valeh israflov və digərləri iştirak etdilər. Qeyd edim ki, böyük sevinclə toylarında iştirak etdiyimiz Bəhlulun atası Mərdan kişi Qarabağ uğrunda döyüşlərdə iştirak edib və əlil olub, Ramilənin atası isə Sovetlər dövründə əfqanıstan müharibəsi əlilidir. Gənc ailə üçün tikiləcək evin təntənəli təməlqoyma mərasiminin keçirilməsi toy şənliyi zamanı ən yadda qalan hadisə oldu. Dağlar qoynunda Azərbaycan xalq mahnılarının sədaları altında keçirilən bu mərasimdən sonra Belçika-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri cənab Filip Blanşar toy iştirakçılarına müraciət edərək bildirdi ki, Qalaybuğurta gəlməklə və bu toy şənliklərində iştirak etməklə Azərbaycanı yenidən kəşf etdim. Sonra Belçikalı qonaqlar böyük həvəslə yallı getdilər.

Səfər zamanı biz Belçika parlamentariləri ilə gələcək fəaliyyətimiz barədə də müzakirələr apardıq və bu müzakirələr nəticəsində yaxın 1-2 il ərzində görüləcək işlər üzrə plan hazırladıq. Plan üzrə görüləcək işlər, əsasən, praktiki xarakterli olmaqla, Azərbaycanı Belçika cəmiyyətinə tanıtdırmaq, ölkəmizlə bağlı obyektiv və səmimi fikir formalaşdırmaq məqsədi daşıyır. Bu, çox vacib məsələdir. Belə ki, Belçika ümumavropa təşkilatlarının təsisatçılarından biridir, Avropa dəyərlərinin inkişaf etdirilməsi və genişləndirilməsində mühüm rol oynayır. Digər tərəfdən, Belçika krallığı Avropa itifaqının üzvü

kimi Azərbaycanın dövlət müstəqilliyini 31 dekabr 1991-ci ildə tanıyıb, 17 iyun 1992-ci ildə isə ölkələrimiz arasında diplomatik münasibətlər qurulub. Hazırda ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensial var və Azərbaycanla Belçika arasında əməkdaşlıq bu potensialın səviyyəsinə uyğun gəlmir. Odur ki, Belçika parlamentariləri ilə hazırladığımız fəaliyyət planı ölkələrimizin əməkdaşlığını bu yeni səviyyəyə qaldırmaq məqsədi güdür.

Hazırladığımız fəaliyyət planında ali təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin qurulması nəzərdə tutulur. Belə ki, bir Azərbaycan universiteti ilə Belçika universitetlərindən biri arasında tələbə mübadiləsi və qarşılıqlı olaraq Azərbaycan və Belçika haqqında mühazirələrin oxunması planlaşdırılır. Bundan əlavə, Azərbaycanın televiziya kanallarından biri ilə Belçika telekanallarının birində ölkələrimiz haqqında proqramların hazırlanaraq yaımlanması, iki ölkənin iş adamlarının forumlarının təşkil edilməsi barədə razılığa gəldik. Fəaliyyət planında Belçika parlamentində 2011-ci ilin payızında Azərbaycanın dövlət müstəqilliyinin, 2012-ci ilin fevralında xocalı faciəsinin, 2012-ci ilin iyun ayında ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 20-ci illiyinə həsr edilmiş müzakirələrin aparılması və müvafq tədbirlərin keçirilməsi öz əksini tapıb.

Qeyd edim ki, Belçika-Azərbaycan parlamentlərarası işçi qrupunun rəhbəri cənab Blanşar thuin şəhərinin meridir. Şamaxı və thuin şəhərlərinin qardaşlaşması istiqamətində müvafq sənədlərin qəbul edilməsi və yaxın zamanlarda qarşılıqlı olaraq çeşidli tədbirlərə start verilməsi barədə razılıq əldə etdik. Bu tədbirlər sırasında hər iki şəhərin incəsənət adamlarının qarşılıqlı səfərləri, müştərək biznes layihələrinin gerçəkləşdirilməsi, 2011-ci ilin sonlarında isə thuində, 2012-ci ilin ortalarında Şamaxıda biznes forumlarının keçirilməsi, 2012-ci ildə

böyük şairimiz M. ə. Sabirin anadan olmasının 150 illiyi münasibətilə thuin şəhərində büstünün qoyulması, Sabir gününün qeyd olunması və s. nəzərdə tutulub.

Mən Belçika-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun Azərbaycana səfəri zamanı razılaşdırdığımız planda nəzərdə tutulmuş işlərə başlanılması məqsədilə 26-28 avqustda Belçikaya səfər etdim. Səfər zamanı cənab Blanşarla görüşdüm və onunla thuin şəhərində Azərbaycanın böyük şairi M.ə.Sabirin anadan olmasının 150 illiyi münasibəti ilə büstünün qoyulması üçün yer müəyyənləşdirdik və Sabir gününün qeyd olunması ilə bağlı tədbirlər planını müzakirə etdik.

əminəm ki, Belçika parlamentariləri ilə qurduğumuz əlaqələr yaxın zamanlarda öz bəhrəsini verəcək. Bu əlaqələr tək ölkələrimiz arasında parlamentlərarası münasibətlərin möhkəmlənməsi ilə məhdudlaşmayacaq. Bu əlaqələr bütövlükdə ölkələrimiz arasında münasibətlərin davamlı və dinamik inkişafına ciddi töhvələr verməklə yanaşı, Azərbaycan həqiqətlərinin Ümumavropa məkanına obyektiv və qərəzsiz formada çatdırılmasına və Avropa ictimaiyyətində ölkəmizin müvafq olaraq müsbət imicinin təsdiqini tapmasına təkan verəcək.

- Siz Şamaxı rayonundan Milli Məclisə üzv seçilmisiniz. Ölkənin ali qanunverici orqanının üzvü kimi öz seçicilərinizin problemlərinin həlli istiqamətində hansı işləri görə bilmisiniz?

- Mən Milli Məclisin üzvü kimi, ilk növbədə, səs verib-verməməsindən asılı olmayaraq, təmsil etdiyim dairənin bütün əhalisinin vəkiliyəm, ölkənin qanunverici hakimiyyətində onların səlahiyyətli nümayəndəsi və təmsilçisiyəm. Odur ki, mənim əsas və prioritet vəzifələrimdən biri də hec bir fərq qoymadan və yaxud hansısa məsələdə ayrıseçkilik nümayiş etdirmədən bütün seçicilərin hüquqlarını qorumaqdan, onla-

rın problemlərini öyrənməkdən, onları narahat edən məsələləri müvafq icra strukturları qarşısında qabartmaqdan və bu məsələlərin həllinə nail olmaqdan ibarətdir.

Məhz bunun üçün də mən çalışıram ki, öz seçicilərimlə daim təmasda olum, onlarla ünsiyyət qurum və onları narahat edən problemləri bütün çılpaqlığı ilə aydınlaşdırım. Hələ seçki kampaniyası dövründən seçicilərlə canlı ünsiyyətə üstünlük vermişəm və bu gün də bu üsulu ardıcıl olaraq davam etdirirəm. Gündəlik həyatlarında daima seçicilərimlə, sadə vətəndaşlarla birlikdə olmağa çalışıram. Millət vəkili olduğum Şamaxı rayonunda keçirilən əksər toy və yas mərasimlərində imkanım daxilində iştirak edirəm. Bir çox hallarda mənimlə görüşə gələ bilməyən əlillərin, yaşlı insanların evlərinə gedirəm. Ayda bir dəfə seçicilərim qarşısında gördüyüm və görməyi planlaşdırdığım işlər barədə hesabat verirəm. Deputat seçildiyim müddət ərzində Şamaxıda müxtəlif kütləvi tədbirlərin, xeyriyyəçilik və açılış mərasimlərinin, müsabiqələrin keçirilməsinə nail olmuşam. Mütəmadi olaraq görüşlər keçirməklə yeni il bayramında körpələri və ahılları, qadınlar bayramında rayon qadınlarını, analarımızı, qələbə bayramında müharibə veteranlarını və təşkilatçısı olduğum müxtəlif tədbirlərdə digər kateqoriyalardan olan seçicilərimi, sıravi vətəndaşları şəxsən təbrik etmiş, onlara hədiyyələr təqdim etmişəm.

Bundan əlavə Şamaxıda bir sıra tədbirlər təşkil etmişəm. O cümlədən, mənim təşkilatçılığımla Şamaxı şəhərində 1918-ci il Şamaxı soyqırımına həsr olunmuş Beynəlxalq konfrans keçirilmiş və eyni adlı kitabın təqdimat mərasimi olmuşdur, S. ə. Şirvaninin qəbirüstü abidəsi yenidən bərpa edilmiş və açılışı ilə əlaqədar tədbir keçirilmişdir. tədbirdə 2 şagirdə - Nəcəfova Fəridə Elçin qızına və Ataşikişiyev Asim Mehman oğ-

luna bütün mandatlıq dövründə aylıq təqaüd ayrılması barədə qərar qəbul etdiyimi bildirdimş Eyni zamanda Şamaxıda yerləşən məktəblərdən birinə S. ə. Şirvaninin adının verilməsi üçün Rayon icra Hakimiyyətinə müraciət ünvanlamışam, 4 nəfər tələbəyə, o cümlədən Şamaxı Humanitar kollecinin tələbələri - Rəşidova Ayşən Elşən qızına və isgəndərov ilham ismayıl oğluna, həmçinin Azərbaycan Müəllimlər institutunun Şamaxı filialının tələbələri - Gülalıyev Fikrət kərim oğlu və Abdullayeva Süsən Qadir qızına hər birinə ayda 120 manat olmaqla M. ə. Sabir və ə. xaqani adına təqaüd verirəm. təşəbbüsümlə Şamaxıda bədii özfəaliyyət ansamblı yaradılmışdır. Mənim tərəfmdən Azərbaycan kooperasiya Universitetində təhsil alan bir tələbənin və Şamaxı texniki kollecində təhsil alan bir tələbənin illik təhsil haqqları ödənilmişdir.

Şamaxı rayonunun Məlhəm kəndində böyük mütəfəkkir şairimiz xaqaninin abidəsi ucaldılmiş və bununla əlaqədar tədbir keçirilmişdir, tanınmış Şirvan aşığı Aşıq Şərbətin "Azərbaycanım" adlı şeirlər kitabı çap olunmuş və həmin kitabın təqdimat mərasimi keçirilmişdir.

Qeyd edilənlərlə yanaşı, mənim təşəbbüsüm və prezidenti olduğum AvciYA-nın üzvü olan Söz Azadlığını Müdafə Fondunun təşkilatçılığı ilə Şamaxıda görkəmli satirik-şair M.ə.Sabirin yaradıcılığının bədii qiraət müsabiqəsi keçirilmiş, müsabiqənin 10 qalibinə aylıq təqaüd təyin edilmişdir. Qiraət müsabiqəsinə 25 may 2011-ci ildə Şamaxı rayon Mədəniyyət evində keçirilən Sabir günündə yekun vurulmuşdur. Sabir günündə rayon ziyalıları ilə yanaşı Bakıdan dəvət olunmuş tanınmış qələm ustaları və alimlər də iştirak etmişlər.

xüsusilə vurğulamalıyam ki, Şamaxı şəhərində Qərərgahım fəaliyyət göstərir və onun qapısı daim bütün vətəndaşların üzünə açıqdır. Qərərgahda çalışan işçilər

müraciət etmiş vətəndaşları qəbul edir, hüquqi yardıma ehtiyacı olanlara hüquqşünaslar tərəfndən məsləhətlər verilir, digər məsələlərin həllində müxtəlif köməkliklər göstərilir. Ötən dövr ərzində seçicilərim tərəfndən mənə 1500-dən artıq yazılı və şifahi müraciətlər edilib. Hər bir müraciətə qayğı ilə yanaşaraq mövcud problemlərin həllinə nail olmağa çalışmışam. lakin bəzən buna nail olsam da, bir çox hallarda məndən asılı olmayan səbəblərə görə müraciət etmiş vətəndaşlara kömək etmək imkanım olmadığı səbəbindən mənəvi əzab çəkirəm. Məni incidən əsas məsələ isə bir çox hallarda mənə pənah gətirmiş vətəndaşların problemlərini həll etməyə borclu olan müxtəlif ranqlı dövlət məmurlarının onlara etdiyim müraciətlərə laqeyd, hətta tam etinasız yanaşmaları olur. Mənim öz imkanlarım daxilində seçicilərimə göstərdiyim kömək rayonda mövcud olan problemləri həll etmir. Bu problemləri müvafq strukturlar həll etməlidir. Bu problemlərlə bağlı mən həmin strukturlara dəfələrlə müraciətlər etmişəm. təəssüf hissi ilə bildirməliyəm ki, bu müraciətlərin böyük əksəriyyətinə müsbət cabab verilməmişdir.

lakin biz əsla ruhdan düşmədən işləməli, Azərbaycanımızın dilbər güşəsi olan Şamaxının inkişafı üçün durmadan çalışmalıyıq.

AVRONEST-in növbəti sessiyası Bakıda keçiriləcək AVRONEST Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinin rəhbəri Elxan Süleymanov: "Bu bizim AVRONEST-dəki uğurlu işimizin nəticəsidir"

21.09.2011

525-ci qəzet

Sentyabrın 14-15-də AVRONEST Parlament Assambleyasının iclası keçirildi. Sessiyada müzakirə edilən bəzi məsələlərlə bağlı Azərbaycan nümayəndə heyəti ilə Ermənistan nümayəndələri arasında müəyyən gərginliklər yaşandı. Lakin bu gərginliyə baxmayaraq, nümayəndə heyətimiz öz üzərinə düşən işi layiqincə yerinə yetirməyi bacardı. Bu və digər məsələlərlə bağlı millət vəkili AVRONEST Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinin sədri, eləcə də Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) rəhbəri Elxan Süleymanovla söhbətləşdik. Bir neçə gün öncə dövlət başçısı tərəfindən "Şöhrət" ordeni ilə təltif edilən E.Süleymanov ilk olaraq bu məsələ ilə bağlı fikirlərini bölüşüb.

- Seçki kampaniyam dövründə seçicilərimə deyirdim ki, mənim üçün müqəddəs məsələlərdən bir də sizin qarşınızda şərəf qazanmaqdır. Bu şərəf odur ki, siz mənə səs verirsiniz və mən sizə borclu oluram. Sonra bu borcumu yerinə yetirmək üçün sizin bütün problemlərinizin həllində iştirak edirəm. Bununla həm də siz şərəf qazanırsınız ki, seçdiyimiz deputat bizə layiq olan millət vəkilidir. Mən də öz növbəmdə sizə xidmət etdiyim üçün şərəf qazanıram. əlbəttə, cənab prezidentin məni "Şöhrət" ordeni

ilə təltif etməsi böyük şərəfdir. Ona görə şərəfdir ki, bütün həyatım boyu -beş yaşımdan indiyə kimi məni ancaq əmək müşayiət edib. Məmur, biznesmen oğlu olmamışam və valideynsiz böyümüşəm. Həyatım boyu nail olduğum bütün uğurları alın tərimlə əldə etmişəm. xüsusilə "Şöhrət" ordeni ilə təltif edilməyim mənim üçün çox qiymətli bir məqamdır. Bu, təkcə mənim üçün deyil, eyni zamanda övladlarım üçün unudulmaz bir hal, seçicilərim üçün isə daha şərəfi məsələdir. Ona görə harada olmağımdan asılı olmayaraq, seçicilərimi düşünürəm. Onlar hər zaman mənim qəlbimdə yaşayırlar. Hər gün seçicilərimin problemləri ilə bağlı Şamaxıda olan köməkçimlə əlaqə saxlayır, onların həlli yollarını arayırıq. əlbəttə ki, mənə "Şöhrət" ordeninin verilməsi məsuliyyətimi daha da artırır. Şöhrəti qazanmaq asandır, amma onu qoruyub-saxlamaq çox çətindir. Şərəf qazanmaq asandır, lakin şərəfi yaşamaq heç də asan məsələ deyil. Bununla bağlı fikirlərimi belə ifadə edərdim: Düşünmə ki, qocalmısan, qocaldıqca ucalmısan, hər yaranan qocalmaz. Düşünmə ki, qocalmısan, qocaldıqca ucalmısan, hər qocalan ucalmaz. əlbəttə bu mənə çox böyük ucalıq gətirib. Buna görə dövlət başçısına minnətdaram.

- Elxan müəllim, AVRONEST Parlament Assambleyası ilə bağlı bir qədər məlumat verərdiniz.

- təəssüf ki, bir çoxları, hətta siyasətçilərin bəziləri belə AvRONESt-in nə olduğuna az əhəmiyyət verirlər. Hesab edirəm ki, media nümayəndələri və hər bir kəs daima bu qurumu izləməli və onun fəaliyyətilə maraqlanmalıdırlar. əslində bu qurum Azərbaycan üçün vacib, eyni zamanda önəmli bir təşkilatdır. AvRONESt Şərq tərəfdaşlığı ölkələri ilə Avropa itifaqı arasında əlaqələr quran bir parlament assambleyasıdır. Bu qurumun 60 üzvü Avropa parlamentindən, bir o qədər üzvü isə Ukrayna, Gürcüstan, Ermənistan, Azərbaycan və Moldovadandır. Azərbaycanın bu vaxta qədər Avropa parlamenti qarşısında öhdəliyi yox

idi, lakin bu il 29-30 sentyabrda varşavadakı Sammitdə artıq 5 Şərq tərəfdaşlığı ölkə rəhbərinin imzaladığı sənəddən sonra biz birbaşa Avropa Parlamenti qarşısında öhdəlik götürəcəyik. Yəni artıq Azərbaycanın Avropa Parlamenti qarşısında öhdəliyi olacaqdır. AvRONESt məhz elə bu deməkdir. Azərbaycan bu qurumun üzvü olmaqla Avropada mühüm bir tribuna əldə edib. Ermənistan bu təşkilatın üzvü olduğu halda, biz sözügedən təşkilata üzv olmaya bilməzdik. Çünki Ermənistan torpaqlarımızı işğal etməsinə baxmayaraq, haqqımızda istər Avropada, istərsə də dünyanın başqa nöqtələrində tamamilə yanlış olan təbliğat aparır. Hətta böhtanlar, uydurmalar yayırlar. Erməni lobbisinin dünyada çox intensiv iş aparması hər kəsə bəllidir. Bütün bunlara reaksiya göstərmək və reallığı dünya ictimaiyyətinə çatdırmaq üçün belə bir tribunadan istifadə etmək Azərbaycan üçün çox vacib idi. Artıq bunu əldə edərək həqiqəti deyir, həmçinin erməni uydurmalarının qarşısını alırıq.Qeyd edim ki, AvRONESt-in təsis qurultayı mayın 3-də, ilk sessiyası isə iyunun 21-də olub. təşkilatın dörd komitəsi var. Siyasi komitədə Asim Mollazadə vitse həmsədr, Enerji komitəsində Fuad Muradov həmsədr, Sosial komitədə isə Azay Quliyev vitse həmsədrdir. Hər komitədə üç üzvlə təmsil olunuruq, iqtisadi komitədə isə müavinlik və sədrlikdə üzvümüz yoxdur. Bu, prosedur qaydalarına görə belədir. Eyni zamanda bu təşkilatda iki işçi qrupu fəaliyyət göstərir. Belarus işçi qrupunda Azərbaycanı Asim Mollazadə təmsil edir. Digər bir işçi qrupu isə prosedur qaydaları üzrədir. Ermənilər çox cəhd göstərirdilər ki, bu işçi qrupuna həmsədr olsunlar, ancaq biz buna imkan vermədik. Mən birinci büro iclasında buna etiraz etdim, onlara bu imkanı verilməsinin mümkünsüz olduğunu söylədim. Çünki burada qurumun prosedur qaydaları müəyyənləşir. təbii ki, bu imkandan ermənilər öz maraqları üçün geniş istifadə edə bilərdilər. Buna görə də biz ikili həmsədrlik təklif etdik. Yəni bu

qrupda Azərbaycan və Ermənistan həmsədr olmalı idi. Bu məsələ büroda səsə qoyuldu və Azərbaycandan mən, Ermənistandan vahan Ohanesyan bu qrupun həmsədri seçildik.

- Son sessiya ilə bağlı nə deyə bilərsiniz?

- Sözün həqiqi mənasında Azərbaycan nümayəndə heyəti bütün yayı dayanmadan fəal iş aparıb. iyul və avqust aylarında gərgin işlə məşğul olmuşuq. Hər qrupda olan üç üzvümüz çox aktiv fəaliyyətlə məşğul olub. Yay ərzində AvRONESt katibliyinin bizə göndərdiyi məruzələr üzərində işləmişik. Bütün məruzələrdə, xüsusən siyasi, sosial və enerji məsələlərində Azərbaycanın maraqlarına zidd məqamlar var idi. Bir neçə dəfə üzvlərlə görüşərək, məsələlər ətrafında müzakirələr aparmış və sənədə düzəlişlər etmişik. Nəticədə AvRONESt-ə Azərbaycan maraqlarının müdafəsini təmin edən son sənədi təqdim etmişik. Sentyabrın 14-15-də Parlament Assambleyasının sessiyası keçirildi. Bununla yanaşı komitələrin iclası baş tutdu.

- Sessiyada erməni nümayəndə heyəti ilə Azərbaycan nümayəndələri arasında gərginlik yaşandı. Bunun mahiyyətində nə dayanırdı?

- komitələrdə keçirilən heç bir iclasda problemimiz olmadı. Ancaq siyasi məsələlər və demokratiya məsələlər komitəsində ciddi problemlə qarşılaşdıq. Belə ki, ermənilər təklif edirdilər ki, təhlükəsizlik Şurasının, BMt-nin, Avropa Şurasının, eləcə də Avropa Parlamentinin sərhədlərin pozulmaması, ərazi bütövlüyü və suverenlik bəndi pozulsun. Bu azmış kimi erməni nümayəndə heyəti qətnamədə işğal, erməni təcavüz haqqında maddələrin yer almamasını istəyirdi. Habelə bütün bunları göz ardına vuraraq, böyük enerji layihələrində iştiraklarının qətnaməyə salınmasını tələb edirdilər. Eyni zamanda onlar Şərq tərəfdaşlığı ölkələri arasında sərhədlərin açılmasına çalışırdılar. Çox maraqlıdır ki, onları bu məntiqsiz təklifərini bir çox av-

ropalı deputat dəstəkləyirdi. Bunların başında dayanan isə özünü AvRONESt-in lideri hesab edən polşalı deputat Saryus volski idi. Ermənilərin bu təklifərinə baxmayaraq, biz hər üç bəndi səsə qoyaraq onların qəbul olunmasına imkan vermədik. Bizim Gürcüstanla birlikdə irəli sürdüyümüz bəndə görə, Avropa itifaqının Şərq tərəfdaşlığı ölkələrinin ərazisindəki münaqişələrin həllində aktiv iştirak etməsi, Şərq tərəfdaşlığı ölkələrinin suverenlik, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığı dəstəklənirdi. Ermənistan nümayəndə heyətinin rəhbəri vahan Ohanesyan məndən xahiş etdi ki, bu bəndlərdə BMt-nin, təhlükəsizlik Şurasının, Avropa Parlamentinin, Avropa Şurasının verdiyi qətnamələrin hamısını saxlayın, ancaq bura güc işlətməmək sözünü əlavə edin. Biz də öz aramızda müzakirələr apardıqdan sonra buna razılıq verdik. lakin bu bəndin müzakirəsi aparılan zaman, erməni nümayəndələr yeni bir təklifə çıxış etdilər. Bu da ondan ibarət idi ki, sözügedən bəndə xalqların öz iradələrini sərbəst və demokratik üsulla həll etmək hüquq əlavə edilsin. Biz bunun qəti əleyhinə çıxdıq. əsas gərginlik də buradan yarandı. Hesab edirəm ki, ermənilərin təklif etdikləri bəndlərin bura daxil edilməməsinə nail olmaq çox böyük uğurumuzdur.

- Sizin təklifiniz sayəsində gələn il AVRONEST-in plenar iclası Bakıda keçiriləcək. Bunu necə qiymətləndirirsiniz?

- Bu çox böyük bir uğurdur. Başqa sözlə desəm, nümayəndə heyətimizin gərgin və düzgün iş aparmasının nəticəsidir. Çünki biz daha öncə sessiyanın Azərbaycanda keçirilməsini təklif etdik, bir çox deputatlar, o cümlədən Saryus volski buna kəskin etirazını bildirmişdi. O deyirdi ki, Azərbaycan o qədər də demokratik ölkə deyil və orada bu sessiyanı təşkil etmək olmaz. lakin mən onu inandırdım və dedim ki, bu beş ölkədən -Ukrayna, Gürcüstan, Ermənistan, Belarus, Moldova hansıda

demokratik vəziyyət Azərbaycandan yaxşıdır? Bu yolla bütün fikirlərimi əsaslandırdım. O, 2014-cü ilə qədər Şərq tərəfdaşlığı ölkələrində plenar iclasın keçirilməsini istəmədiyini bildirdi. Mən dərhal Şərq tərəfdaşlığı ölkələrinin nümayəndələrinə məktublar yazdım və onlarla görüşdüm. Bunun Şərq tərəfdaşlığı ölkələrinə və xalqlarına qarşı təhqir, ikili standart olduğunu, həmçinin bizim Avropaya inteqrasiyamıza maneə olduğunu söylədim. Saryus volski bildirdi ki, Azərbaycan hökuməti tərəfindən ermənilərin Bakıya gəlməsinə icazə verilməyəcək və ya onların təhlükəsizliyi təmin edilməyəcək. Mən bildirdim ki, Azərbaycanda 30 min erməni əmin amanlıq şəraitində yaşayır və erməni nümayəndə heyətinin Bakıya sessiyaya gəlməsi üçün təhlükəsizliyi Azərbaycan hökuməti öz üzərinə götürür. Nəticədə Büro üzvlərinin sessiyanın ölkəmizdə keçirilməməsi üçün heç bir bəhanələri qalmadı və buna qərar verdilər. Bütün bunlar AvRONESt-in çox ciddi bir qurum olması anlamına gəlir.

- Elxan müəllim, Azərbaycan nümayəndə heyətinin AVRONEST-dəki fəaliyyəti sizi qane edirmi?-Biz nümayəndə heyəti olaraq çox uğurlu iş aparırıq. Məhz elə bunun nəticəsidir ki, ermənilərin layiqli cavabını verdik. Bununla yanaşı Avropada, dünyada daha güclü iş aparmalıyıq. Buna çox böyük ehtiyacımız var. Çünki bizim lobbiçilik fəaliyyətimiz çox zəifdir. Nəinki Ermənistan, Gürcüstandan, hətta Ukraynadan da zəif lobbiçilik fəaliyyətimiz var. Bu işi ciddi şəkildə aparmalıyıq. Bu heç də o anlama gəlmir ki, biz xaricdə daha pis iş aparırıq. Burada başqa məqamlar, maraqlar var. Məhz buna görə də biz müqayisə edilməz dərəcədə çox işləməliyik ki, öz sözümüzü qəbul etdirə bilək. Bunun üçün AvRONESt ciddi bir tribunadır.

- Millət vəkili olmaqla yanaşı, siz həm də AVCİYAnın rəhbərisiniz. Bir neçə sahədə iş aparmaq sizi yormur ki?

- Məni çox işləmək, ağır iş rejimində çalışmaq yor-

mur. Həta mən bu işlərdən ilham alıram, zövq alıram. Ancaq məni yoran işləməyimə maneə olan bürokratik əngəllərdir. Bir çox hallarda ayrı-ayrı məmurlar tərəfndən deputat sorğuları heçə sayılır. Həta onlara məhəl belə qoyulmur. Bir halda ki, məmurlar deputatın sorğusuna cavab vermirlərsə, o zaman sadə vətəndaşların problemi ilə bağlı hansısa idarəyə müraciət etməsinin əhəmiyyəti belə qalmır. əgər biz seçicilərin problemləri ilə bağlı aidiyyəti qurumlar qarşısında məsələ qaldırırıqsa və bəzi məmurlar buna əhəmiyyət vermirsə, həqiqətən bu, insanın işləməsinə çox mənfi təsir göstərir. təbii ki, bu kimi məmurlar işləməyimizə maneə olmasa, əksinə seçicilərimizin, sadə vətəndaşların problemini həll etməyimizə yardımçı olsa, o zaman biz daha ilhamla iş apararıq. Hesab edirəm ki, yerlərdə deputatlarla məmurlar məhz elə birgə iş aparmalıdırlar. əks təqdirdə uğurlu iş aparmaq, seçicilərin gözləntilərinə cavab vermək çox çətin olar. Yay ərzində çox geniş işlə məşğul olmuşuq. istər qeyri-hökumət sektorunda, istərsə də digər sahələrdə uğurlu iş qrafkimiz olub.AvciYA haqqında demək istərdim ki, Assosiasiyaya daxil olan qeyri-hökumət təşkilatlarının və üçüncü sektorun digər nümayəndələrinin fəaliyyətinin əlaqələndirilməsi ilə ölkədə vətəndaş cəmiyyətinin yaradılması prosesinə yardım göstərmək məqsədilə yaradılmış təsisat artıq bir çox uğurlara imza atıb.AvciYA demək olar ki, dünyanın 4 qitəsini əhatə edən fəaliyyətlə məşğuldur. Məsələn, AvciYA-nın təşkilatçılığı ilə 23-24 sentyabr 2011-ci il tarixlərində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 20-ci ildönümü münasibətilə Bakıda beynəlxalq tədbir keçiriləcək. tədbirdə dünyanın 58 ölkəsindən 300-dən artıq tanınmış ictimai-siyasi xadim, o cümlədən, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Atət, AvRONESt, Avropa ölkələri parlamentlərinin deputatları, hazırkı və keçmiş dövlət xadimləri, Nobel mükafatı laureatları, ABŞ-ın

regional spikerləri, keçmiş konqresmen və senatorlar, alim və biznesmenlər iştirak edəcəklər. Bütün bu işləri ruh yüksəkliyi ilə həyata keçiririk. Məgər işdən zövq alan, xalqına, millətinə xidmət edən insan yorularmı?

- Elxan müəllim, bu qədər iş çoxluğunda seçicilərinizə necə, vaxt ayıra bilirsinizmi?

- Məndə iki aləm yaşayır. Buna görə də hər gün gördüyüm və ya görəcəyim işlərlə bağlı özümü mühakimə edir, özümə hesabat verirəm. Mən vicdanım qarşısında həmişə hesabat verirəm. Çünki seçicilərimin problemləri məni hər zaman narahat edir, onların problemini öz məsələm kimi görür və var qüvvəmlə həmin işlərin həllinə çalışıram. Hətta xaricdə səfərdə olan zaman belə seçicilərimin problemini, onların həll yolları barədə düşünürəm. Məhz bütün bunların nəticəsidir ki, seçicilərimə qarşı çox sağlam münasibətdəyəm. Millət vəkili olaraq üzərimə düşən işləri necə gördüyümü bilmək üçün sadəcə saytımı (www.elkhan-suleymanov.az) açın, orada necə fəaliyyət göstərdiyim, hansı işləri gördüyüm açıq-aşkar qeyd edilib. Artıq Şamaxıda bir sıra işlər həyata keçirmişik. Bunlardan bəzilərini sadalayacam. Seyid əzim Şirvaninin məqbərəsini düzəltdirmişik. 16 nəfər şagirdə təqaüd veririk. Onlardan 4 nəfəri tələbədir ki, bu şəxslər hər ay 120 manat təqaüdlə təmin edilirlər. 12 nəfər şagirdə isə hər ay 50 manat təqaüd veririk. Bunlarla yanaşı, Məlhəm kəndində xaqaninin büstünü inşa etdirdik. Habelə Belçikanın thuin şəhərində Mirzə ələkbər Sabirin heykəli ucaldılacaq. Bir Qarabağ əlilinin oğluna toy etdik. indi həmin gənc ailə üçün üç otaqlı yaşayış evi tikirik. Eləcə də qəhrəman analara yardımlar edirik, Qarabağ əlillərinə, Böyük vətən Müharibəsi iştirakçılarına öz qayğımızı əsirgəmirik. Bunlar sadəcə gördüyümüz işlərin az bir qismidir və bir millət vəkili kimi borcumdur. Mən üzərimə düzən vəzifə borcumu yerinə yetirməyi özüm üçün müqəddəs borc bilirəm.

Elxan Süleymanov: "AVRONEST Parlament Assambleyasının növbəti sessiyası Azərbaycanda keçiriləcək"

AVRONEST Parlament Assambleyasının Bürosu bununla bağlı müvafiq qərar qəbul edib

20.09.2011

APA

Dünən Strasburqda AvRONESt Parlament Assambleyasının ilk sessiyası işə başlayıb. Sessiyanın ilk günündə AvRONESt PA Bürosunun və komitələrinin iclasları keçirilib. iclaslarda müzakirə edilən məsələlər və qəbul edilən qərarlar barədə suallarımızı millət vəkili, AvRONESt PA-da Azərbaycan nümayəndə heyətinin sədri Elxan Süleymanov cavablandırır.

- Büro iclasında müzakirə edilən məsələlərlə bağlı məlumat verməyinizi xahiş edirik.

- əvvəlcədən bildirdiyimiz kimi, Büro iclasının gündəliyində AvRONESt PA-nın 2012-ci ilin may ayında Şərq tərəfdaşlığı ölkələrində keçirilməsi ilə bağlı Azərbaycanın təklif müzakirə ediləcək. Azərbaycan tərəf Prosedura Qaydalarının 7-ci maddəsinə uyğun olaraq, AvRONESt PA-nın növbəti sessiyasının Bakıda keçirilməsi təklif ilə çıxış etmişdi. lakin Büronun 21 iyun 2011-ci il tarixli iclasında AvRONESt PA-nın növbəti plenar iclasının 2012-ci ilin may ayında Bakıda keçirilməsi təklif ilə bağlı səsvermə zamanı Azərbaycan, Ukrayna, Gürcüstan və AvRONESt PA-nın Avropa Parlamenti tərəfndən həmprezidenti xristian vigenin PA-nın plenar iclasının Azərbaycanda keçirilməsini dəstəkləsələr də, Ermənistan, Büronun üzvləri olan polşalı deputat Saryujvolski və rumıniyalı deputat trayan Unqreanu əleyhinə səs vermişdilər, Moldova isə bitərəf qalmışdı. Bunun nəticəsində 2/3 səs

çoxluğu qazanılmadı. Odur ki, məsələyə sentyabr sessiyası zamanı Büro iclasında yenidən baxılması qərara alındı. Müzakirələr zamanı AvRONESt PA-nın Ai-dən olan üzvü, Polşalı deputat Saryujvolski AvRONESt PA-nın sessiyalarının növbəti 2 il ərzində Şərq tərəfdaşlığı ölkələrində keçirilməməsi barədə təklifə çıxış etdi. Mən dərhal volskinin bu təklif ilə bağlı öz fkrimi bildirdim və qeyd etdim ki, bu təklif açıq-aşkar etibarlılıq, qarşılıqlı etimad və aydınlıq prinsiplərinə əsaslanan əməkdaşlığın başlanğıcında Şərq tərəfdaşı ölkələrinə qarşı ayrı-seçkiliyə və ikili standartlara yol açır, bütövlükdə bu təşkilatı mənasız bir qurama çevirir. Şərq tərəfdaşlığı ölkələri, xüsusən də Ukrayna, Gürcüstan və Moldova mənə dəstək göstərdilər. Belə olan halda cənab Saryujvolski bir daha söz alaraq soruşdu ki, Azərbaycandan başqa digər Şərq tərəfdaşlığı ölkəsi sessiyanın keçirilməsi ilə bağlı müraciət edibmi? Mən onun sualını cavablandıraraq bildirdim ki, Ermənistan tərəf cari ilin sentyabr sessiyasının bu dövlətin müstəqilliyinin ildönümü günlərində irəvanda keçirilməsi ilə bağlı müraciət etmişdi, lakin 2012-ci il sessiyasının keçirilməsi ilə bağlı müraciət etməyib. Uzun müzakirələrdən sonra AvRONESt PA-nın ikinci növbəti sessiyasının 2012-ci ilin may ayında Bakıda keçirilməsi barədə qərar qəbul edildi. Hesab edirəm ki, bu qərar Azərbaycan nümayəndə heyətinin əldə etdiyi siyasi uğurdur. Eyni zamanda qərara alındı ki, komitələrin iclaslarının hansı ölkədə keçiriləcəyi barədə məsələlər Büroda müzakirə edilsin. Büro sosial komitənin iclasının 2012-ci ilin fevral ayında Ermənistanda keçirilməsi haqqında da qərar qəbul etdi. Büroda həmçinin yeni məruzə mövzuları, fəaliyyət planı müzakirə edildi.

- Komitə iclasları barədə nə deyə bilərsiniz?

- Sessiyanın ilk günü AvRONESt PA-nın Enerji təhlükəsizliyi, iqtisadi siyasət və Sosial məsələlər komitələrinin iclasları keçirildi və bu komitələrin hazırladıqları sənədlər qəbul edildi.

- Siz Siyasi Məsələlər, İnsan Hüquqları və Demokratiya Komitəsinin iclasını qeyd etmədiniz...

- 14 sentyabrda Siyasi Məsələlər, insan Hüquqları və Demokratiya komitəsinin də iclası keçirildi. iclasda bu komitə tərəfndən hazırlanmış "2011-ci il Şərqi tərəfdaşlıq Sammitinə tövsiyələrə dair: məqsədyönlü fəaliyyət üçün yüksək gözləntilər" adlı məruzə müzakirə edildi. Məruzə ilə bağlı AvRONESt PA-nın Şərq tərəfdaşlığı ölkələrinin milli nümayəndə heyətləri və Ai-dən olan üzvləri tərəfndən çoxsaylı düzəlişlər təklif edilmişdi. Qeyd edim ki, Ermənistan tərəf Azərbaycanın mövqeyinə ciddi zərbə vura biləcək təklifər etmişdi. Ermənistan nümayəndə heyətinin təklifəri əsasən Şərq tərəfdaşlığı ölkələri ərazisində mövcud olan münaqişələrin həlli ilə bağlı BMt təhlükəsizlik Şurası, AŞPA, Avropa Parlamenti kimi beynəlxalq təşkilatların qəbul etmiş olduqları qətnamə və qərarlardan məruzədə yan keçilməsi, Ermənistanın enerji siyasətinə qoşulması, regional iqtisadi inteqrasiya proseslərində və regionun iştirak etdiyi transmilli layihələrdə iştirakı, Şərq tərəfdaşlığı ölkələri arasında sərhədlərin silinməsi və s. ibarət olub.

lakin, Azərbaycan nümayəndə heyəti israrla bu təklifərin qəbuledilməz olduğunu bildirib, Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğal etməsini, 1 milyondan artıq Azərbaycan vətəndaşının qaçqın və məcburi köçkün həyatı yaşamasını, indiyədək işğal altında olan ərazilərin azad edilməməsini, məcburi köçkünlərin öz yurdlarına qayıtmaq və təhlükəsiz yaşamaq hüquqlarının təmin edilməməsini, bu istiqamətdə Ermənistanın qeyri-konstruktiv mövqe tutmasını, bu dövlətin ümumiyyətlə regionda destruktiv siyasət həyata keçirməsini komitə üzvlərinin diqqətinə çatdırıb. Nəticədə, məruzədə nüfuzlu beynəlxalq təşkilatların qərarları nəzərə alınmaqla, Avropa itifaqının Şərq tərəfdaşlığı ölkələri ərazisində münaqişələrin həllində aktiv iştirak etməsi, Şərq tərəfdaşlığı ölkələrinin

suverenliyi, ərazi bütövlüyü və sərhəd toxunulmazlığına hörmət edilməsi barədə bəndlərin əks etdirilməsi qərara alındı. Bundan əlavə, Ermənistanın "mənbə və ya tranzit ölkəsi olmasından asılı olmayaraq, hər hansı Şərq tərəfdaşlığı ölkəsinin enerji təhlükəsizliyi sahəsində tam regional əməkdaşlıqdan çıxarılması və ya təcridinə yönəlmiş siyasəti itiham etmək" təklif məruzədən silindi. Azərbaycan nümayəndə heyəti adından çıxış edərək bildirdim ki, mən bu sənədi təsdiqləyə bilmərəm. Belə ki, bu sənəd cənubi Qafqazdakı reallıqları əks etdirmir, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı nüfuzlu beynəlxalq təşkilatların qəbul etdikləri qərarlara hörmət və onların yerinə yetirilməsinin təsdiq edilməsi cəsarətini özündə əks etdirmir. Odur ki, AvRONESt PA üçün bu sahədə hər hansı irəliləyiş əldə etmək çətindir. Nəticədə, Azərbaycanın etirazı ilə bağlı məsələləri konsensus yolu ilə razılaşdırılmaq üçün AvRONESt PA-nın 15 sentyabrda keçiriləcək plenar iclasında müzakirəyə çıxarılması qərara alındı. inanıram ki, Azərbaycan nümayəndə heyəti plenar iclasda Azərbaycanın maraqlarını sona qədər qoruya biləcək, ona cavab verməyən hər hansı bir qərarların qəbul edilməsinə imkan verməyəcək.

- Qəbul edilmiş qərarlar kontekstində Azərbaycan nümayəndə heyətinin fəaliyyətini necə qiymətləndirirsiniz?

- Azərbaycan nümayəndə heyətinin üzvləri son dörd ay ərzində gərgin işlər aparıb, bu işlərin sayəsində AvRONESt PA-nın növbəti sessiyasının Bakıda keçirilməsi kimi siyasi uğur əldə etmiş, Azərbaycanın maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olub, ölkəmizin mövqelərinin zəifədilməsi istiqamətində Ermənistan tərəfnin düzəlişlərinin qarşısını alıb. Odur ki, Azərbaycan nümayəndə heyətinin fəaliyyətini yüksək qiymətləndirirəm.

"Avropa Şurasının siyasi məhbus meyarları ilə bağlı bütün üzv dövlətlərə şamil edilə biləcək hüquqi sənədi yoxdur"

12.10.2011

APA. Rəşad Süleymanov

"AŞPA-nın Hüquq məsələləri və insan hüquqları komitəsi qərara aldı ki, siyasi məhbus problemi tək Azərbaycanda deyil, quruma üzv olan bütün dövlətlərdə araşdırılsın".

AŞPA-nın Hüquq məsələləri və insan hüquqları komitəsinin və Monitorinq komitəsinin üzvü, millət vəkili Elxan Süleymanovun APA-ya müsahibəsi

- Avropa Şurasında siyasi məhbus problemi on ildən artıqdır ki, gərgin müzakirə obyektinə çevrilib. Sizin fikrinizcə, bu nədən qaynaqlanır?

- Öncə məsələyə aydınlıq gətirmək üçün problemin yaranma tarixinə qısa nəzər salmaq lazımdır. Odur ki, siyasi məhbus problemi ilə bağlı bəzi məqamları xatırlatmaq istərdim. 2001-ci ildə AŞ baş katibinin sərəncamı ilə Ermənistan və Azərbaycanda siyasi məhbusları araşdırmaq üçün müstəqil ekspertlər qrupu yaradıldı. Müstəqil ekspertlər qrupu bunun üçün 5 bənddən ibarət meyarları özündə ehtiva edən məruzə hazırlayıb baş katibə təqdim etdi, lakin bu məruzə sonradan hüquqi sənəd kimi AŞ-nın plenar iclasında təsdiq edilmədi. Yəni 2001-ci ildən indiyə qədər 10 il ərzində Avropa Şurasının siyasi məhbus problemi ilə bağlı bütün üzv dövlətlər üçün ümumi meyarları olmayıb.

AŞPA müstəqil ekspertlər qrupunun məruzəsində müəyyən edilmiş meyarlar əsasında 2002-ci ildə "Azərbaycanda siyasi məhbuslar" adlı 1272 saylı qətnamə qəbul etdi. Qətnamədə siyasi məhbus olmaları

ehtimal olunan bir neçə məhbusun (isgəndər Həmidov, əlikram Hümbətov, Rəhim Qazıyev və digərləri) cinayət işlərinə yenidən baxılması məsələsi müzakirə edilirdi və bu sənəddə "siyasi məhbus" anlayışı ilə bağlı heç bir meyar öz əksini tapmamışdı. Diqqəti çəkən məqamlardan biri də ondan ibarətdir ki, müstəqil ekspertlər qrupunun hazırladığı məruzə Ermənistan və Azərbaycana aid olsa da, AŞPA tərəfindən Ermənistanla bağlı nə əvvəlcə, nə də sonradan analoji qətnamə qəbul edilməyib.

Qeyd etmək lazımdır ki, müstəqil ekspertlər siyasi məhbus meyarlarını 1989-1990-cı illədə BMt-nin missiyasının Namibiyada və sonradan Beynəlxalq Qırmızı xaç komitəsinin cənubi Afrika Respublikasında istifadə etdikləri prinsiplər əsasında hazırlamışdılar. Həmin dövrdə bu ölkələrdə milli və irqi zəmində silahlı qarşıdurma hökm sürürdü, onların cəmiyyətləri parçalanmışdı. lakin Avropa Şurasına üzv qəbul edilən Azərbaycanda və digər üzv dövlətlərdə vəziyyət göstərilən Afrika ölkələrdən köklü surətdə fərqlənirdi, onların cəmiyyətləri bölünməmişdi. Ona görə də Avropa Şurasına üzv olan ölkələri Afrika ölkələri ilə müqayisə etmək və həmin meyarları Avropa məkanına, Avropa dövlətlərinə şamil etmək düzgün sayılmazdı. Beləliklə, müstəqil ekspertlərin təklif etdikləri meyarlar ümumiyyətlə, Avropa Şurası məkanındakı mövcud reallıqları əks etdirmirdi. Eyni zamanda, həmin meyarlar konsensus şəklində qısa müddət ərzində konkret məhbusların işlərinə baxılmasını nəzərdə tuturdu və müvəqqəti xarakter daşıyırdı.

- Siyasi məhbus problemi ilə bağlı Azərbaycan hansı mövqedən çıxış edir?

- Azərbaycan inkişaf etmiş dünya birliyinə, o cümlədən Avropa məkanına inteqrasiyanı özünün başlıca məqsədləri elan edib, Avropa Şurasının üzvüdür, Avropa itifaqı ilə müxtəlif sahələrdə sıx əməkdaşlıq

edir. Məhz bunun nəticəsidir ki, cari ilin 29-30 sentyabrında Avropa itifaqının varşavada keçirilən "Şərq tərəfdaşlığı" sammitində Azərbaycan Şərqi Avropa ölkəsi statusu alıb. Ölkəmiz Avropa Şurası çərçivəsində siyasi məhbus probleminin obyektiv və qərəzsiz şəkildə öz həllini tapması məsələsində də ənənələrinə sadiq qalıb. Azərbaycan nümayəndə heyəti və Azərbaycan hökuməti 2001-ci ildən indiyə qədər ardıcıl olaraq siyasi məhbus meyarlarını özündə əks etdirən hüquqi sənədin olmadığını bildirib. Azərbaycan tərəf mövqeyini həmişə belə bildirib ki, nə qədər hüquqi sənəd yoxdur, meyarlar müəyyənləşməyib, bu məsələnin aydınlaşdırılması, araşdırılması qeyri-mümkündür. kimi siyasi məhbus adlandırmaq olar? Sənəd olmadan bu, baş tuta bilməz. AŞ isə həmişə bu sahədə Azərbaycana qarşı ikili standartlı və qeyri-obyektiv mövqedə olub, quruma üzv olan 47 ölkədən yalnız Azərbaycana məruzəçi təyin edir, Azərbaycanı bu işdə günahlandırır və Azərbaycanın tələblərinə məhəl qoymur. Nəhayət, Azərbaycan nümayəndə heyəti və Azərbaycan hökumətinin təkidlərindən sonra məruzəçi olan Malkolm Bryus 2005-ci ildə siyasi məhbus probleminin alver xarakteri daşımasını öz məruzəsində göstərib vəzifəsindən könüllü olaraq getdi və bununla da məsələ bağlandı.

Azərbaycana qarşı qeyri-obyektiv, qərəzli mövqe tutan, həmişə ciddi problemlər axtarmağa cəhd göstərən bir qrup 2008-ci ildən başlayaraq qondarma siyasi məhbus problemini yenidən gündəmə gətirdi. Çox maraqlıdır ki, 2008-ci ildən indiyə qədər ötən 3 il ərzində 9 dəfə Büroda bu məsələ müzakirə edilib. Hər dəfə bir qrup deputat, əsasən də Qərbi Avropa ölkələrini təmsil edən deputatlar Hüquq məsələləri komitəsinin Azərbaycan üzrə məruzəçi təyin etməsi ilə bağlı meyarlar olmadan siyasi məhbusu müəyyənləşdirməyin qeyri-mümkünlüyünü bildirilən sənəd imzalayaraq Büroya təqdim

etmişdilər. Sənəd Büroya, Hüquq məsələləri və insan hüquqları komitəsinə, oradan yenidən Büroya, sonra yenidən komitəyə göndərilmişdi. Hüquq məsələləri və insan hüquqları komitəsində buna həmişə qeyri-obyektiv yanaşıblar. komitədə 1272 (2002) saylı qətnaməyə istinad edərək bildirmişdilər ki, AŞPA-nın guya meyarları var. Məsuliyyətlə deyirəm ki, 1272 saylı qətnamə ümumi Avropa məkanına şamil edilə biləcək hüquqi sənəd sayıla bilməz. 1272 saylı qətnamə özündə heç bir meyarları əks etdirmir və siyasi məhbus ehtimal olunan bir neçə məhbusun azadlığa buraxılması haqqında qətnamədir. Bir sözlə, Avropa Şurasının siyasi məhbus meyarları ilə bağlı bütün üzv dövlətlərə şamil edilə biləcək hüquqi sənədi yoxdur.

- Komitənin 5 oktyabr tarixli iclası zamanı müzakirələr və qəbul edilmiş qərarın mahiyyəti haqqında məlumat verməyinizi xahiş edirik.

- Bu ilin yaz-yay aylarında AŞPA-nın əsasən Qərbi Avropa ölkələrindən olan 36 deputatı Büroya sənəd təqdim etdi. Onlar bu sənəddə tələb etmişdilər ki, "siyasi məhbus" anlayışının meyarlarını hazırlamaq və siyasi məhbusların mövcudluğunu təyin etmək üçün hazırlanacaq sənədlər müxtəlif məruzəçilər arasında bölünsün. Nəhayət, Hüquq məsələləri və insan hüquqları komitəsinin 5 oktyabr 2011-ci il tarixli iclasında siyasi məhbus problemi ilə bağlı yenidən müzakirələr keçirildi. Müzakirələr çox gərgin keçdi. Müzakirələr zamanı komitə sədri cənab kristos Pirqurides, Fransadan, ispaniyadan komitə üzvü olan deputatlar çıxış etdilər. Pirqurides öz çıxışında vurğuladı ki, Azərbaycan hökuməti siyasi məhbuslar üzrə məruzəçilərlə əməkdaşlıq etməyə, onlara şərait yaratmağa hazırdır. lakin Azərbaycan hökuməti siyasi məhbus problemi ilə bağlı 47 üzv ölkədən yalnız Azərbaycanın seçilməsini böyük təəccüb və təəssüf hissi ilə qarşılayır. O, siyasi məhbus üzrə

məruzənin yalnız Azərbaycana şamil edilməsinin doğrudan da ikili standart və ayrı-seçkiliyə səbəb olduğunu diqqətə çatdırdı, bu səbəbdən də "Azərbaycanda siyasi məhbus məsələsinin araşdırılması" adlı məsələnin "Avropa Şurasına üzv dövlətlərdə siyasi məhbus probleminin araşdırılması" adlandırılmasını məqsədəmüvafq sayıldığını bildirdi. Sonra təklif səsə qoyuldu, 2 nəfər əleyhinə səs versə də, mütləq çoxluqla qəbul edildi. Səsvermə nəticəsində komitə qərara aldı ki, siyasi məhbus problemi tək Azərbaycanda deyil, quruma üzv olan bütün dövlətlərdə araşdırılsın.

Beləliklə, Azərbaycan hökumətinin və Azərbaycan nümayəndə heyətinin on illik gərgin səyləri nəticəsində haqq və ədalət bərpa edildi, ölkəmizə qarşı ayrı-seçkiliyə, ikili standarta, qərəzli mövqeyə son qoyuldu. Yeri gəlmişkən, bildirməliyəm ki, Monitorinq komitəsinin 6 oktyabr tarixində keçirilən iclasında da siyasi məhbus problemi müzakirə predmeti olub. Müzakirələr zamanı Azərbaycan üzrə həmməruzəçilər jurnalist Eynulla Fətullayevin, "ieqova Şahidləri" dini sektasının həbsdə olan yeganə üzvünün Azərbaycan hakimiyyəti tərəfndən əfv edilərək azadlığa buraxılmasını pozitiv hal kimi komitə üzvlərinin diqqətinə çatdırdılar. iclasda eyni zamanda leyla Yunusun ofsinin sökülməsi məsələsinə də toxunublar. Onlar bildiriblər ki, ofsin yerləşdiyi ərazidə yüzlərlə vətəndaşın da evləri sökülüb və hər bir kəsə dövlət tərəfndən müvafq qaydada bazar qiymətinə uyğun kompensasiyalar ödənilib, lakin leyla Yunus təklif edilən qiymətlərlə razı olmayıb. Qərara alınıb ki, həmməruzəçilərin Azərbaycana növbəti səfəri zamanı məsələ araşdırılsın.

- Nəhayət hesab etmək olarmı ki, Avropa Şurasında siyasi məhbus problemi öz həllini tapdı?

- xeyr. Belə qərarın qəbul edilməsi problemin öz həllini tapması demək deyil, məsələ hələ də AŞPA Hü-

quq Məsələləri və insan Hüquqları komitəsində sona qədər öz cavabını tapmayıb. Belə ki, yalnız məruzənin adı dəyişdirilib, lakin meyarlar olmadan məruzəçi hər hansı ölkədə kimin siyasi məhbus olmasını müəyyən edəcək. Bu isə qeyri-məntiqi bir vəziyyətin yaranmasından xəbər verir. Problemin öz həllini tapması üçün yeganə yol var. Bu yol AŞPA-nın plenar iclasında "siyasi məhbus" anlayışının hüquqi təbiətini, onun meyarlarını özündə ehtiva edən sənədin qəbul edilməsindən ibarətdir. Azərbaycan məruzəçilərlə və beynəlxalq institutların nümayəndələri ilə əməkdaşlıq edir və etməyə hazırdır. Biz siyasi məhbus üzrə məruzəçi ilə də əməkdaşlıq etməyə hazırıq, lakin qəbul etmək lazımdır ki, hazırda məruzəçi təkcə Azərbaycan üzrə deyil, AŞ-yə üzv olan bütün dövlətlərdə siyasi məhbus məsələsinin araşdırılması və meyarların müəyyənləşdirilməsi üzrə məruzəçidir. Düşünürəm ki, məruzəçi hər hansı ölkəyə getməzdən əvvəl öz təqvim planı, hansı ölkələrdə olacağına dair fəaliyyət planı və onun istiqamətləri barədə məlumatları komitəyə təqdim etməli və bunlar komitədə təsdiq edildikdən sonra o, öz fəaliyyətinə başlamalıdır.

Elxan Süleymanov: AVRONEST PA-nın İşçi Qrupunda siyasi qrupların yaradılması və onların imtiyazları müzakirə ediləcək

13.10.2011

Trend

Toplantıda müzakirə ediləcək məsələlərlə bağlı Trend-in suallarını AVRONEST PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri, millət vəkili Elxan Süleymanov cavablandırır.

- AVRONEST PA-nın Prosedur Qaydaları üzrə İşçi Qrupu barədə məlumat verməyinizi xahiş edirik.

- AvRONESt PA Avropa ittifaqı ilə «Şərq tərəfdaşlığı» (Şt) ölkələrinin birgə parlament təsisatı kimi 2-3 may 2011-ci il tarixdə Brüsseldə təsis edilib. Onun qurumları kimi 4 komitə və 2 işçi qrupu yaradılıb. Bu komitələrin və işçi Qrupların içərisində Prosedur Qaydaları üzrə işçi Qrupu Azərbaycan üçün çox mühüm əhəmiyyət kəsb edir. Bu işçi Qrupunun əsas vəzifəsi Assambleya və onun qurumları tərəfndən Prosedur Qaydalarının yerinə yetirilməsinə nəzarət etməkdən ibarətdir. Bu işçi qrupu həmçinin Prosedur Qaydalarına düzəlişlərin edilməsi prosesini stimullaşdırmaq üçün Büroya yazılı təklifər təqdim edə bilər. Göründüyü kimi, Prosedur Qaydaları üzrə işçi Qrupu AvRONESt PA-nın çox vacib bir qurumudur. Odur ki, bizim üçün bu işçi Qrupuna kimin sədr olacağı prinsipal xarakter daşıyırdı.

təsadüf deyil ki, AvRONESt PA təsis edilərkən bu işçi Qrupuna ermənilər sədrlik etmək istəyirdi. lakin bu Azərbaycanın maraqlarına cavab vermirdi. Odur ki, Azərbaycan nümayəndə heyəti qətiyyətlə bunun əleyhinə çıxış etdi və bildirdi ki, Ermənistan nümayəndə heyətinin üzvü Prosedur Qaydaları üzrə işçi Qrupunun tək sədri ola bilməz. Bu qrupa sədr digər ölkələr - Ukray-

na, Moldova, Gürcüstan ola bilər. Amma Azərbaycan ilə Ermənistanın təkbətək sədr olması düzgün deyil və yaxud ikimiz həmsədr ola bilərik. Ermənistan tərəf bu işçi Qrupuna çox maraqlı olduğundan hər ikimizin həmsədr olmasını qəbul etdi və beləliklə, biz Prosedur Qaydaları üzrə işçi Qrupunun həmsədri kimi fəaliyyətə başladıq. Nəhayət, cari ilin 17 oktyabrında Prosedur Qaydaları üzrə işçi Qrupunun ilk iclası keçiriləcək. Burada beş nəfər Avropa Parlamenti üzvü və beş nəfər Şt ölkələri üzvləri təmsil olunur.

- İşçi Qrupunun ilk toplantısında hansı məsələlər müzakirə ediləcək və hər hansı qərarın qəbul edilməsi gözlənilirmi?

- Qeyd edildiyi kimi, 17 oktyabrda Prosedur Qaydaları üzrə işçi Qrupunun ilk iclası baş tutacaq. Bu iclasda heç bir sənədin qəbul edilməsi gözlənilmir. iclasda işçi Qrupun mandatı və AvRONESt PA-nın əsas sənədi olan Prosedur Qaydalarına bir sıra düzəlişlərin edilməsinin mümkünlüyü müzakirə ediləcək. Müzakirəyə çıxarılan təklifər siyasi qrupların yaradılması və onların imtiyazları, Prosedur Qaydalarında mühüm maraqların təmin edilməsi, komitələrdə və plenar iclaslarda ayrıca düzəlişlərin qəbul edilməsi üçün zəruri səs çoxluğu və s. ilə bağlıdır.

Qeyd etməliyəm ki, bizim üçün xüsusi əhəmiyyət kəsb edən mühüm maraqların təmin edilməsi, o cümlədən komitələrdə və plenar iclaslarda ayrıca düzəlişlərin qəbul edilməsi üçün zəruri səs çoxluğu ilə bağlı məsələlərdir. Məsələ burasındadır ki, Prosedur Qaydalarının 4 və 16-cı maddələrində Şərqi Avropa tərəfdaşlarının hər hansı nümayəndə heyəti AvRONESt PA qəbul edəcəyi qərarın öz ölkəsi üçün mühüm əhəmiyyət kəsb etdiyini elan edərsə, bu zaman nümayəndə heyətləri arasındakı konsensusun olması tələb olunur. Burada hansı məsələnin həmin ölkə üçün «mühüm əhəmiyyət kəsb»

etməsi ifadəsi tam açıqlanmayıb.

Ermənistan nümayəndə heyəti Prosedur Qaydalarındakı boşluqlardan istifadə edərək, AvRONESt PA-nın 14-15 sentyabr tarixli sessiyası zamanı son sənəddə Şt ölkələrindəki münaqişələrlə bağlı nüfuzlu beynəlxalq təşkilatların qəbul etdikləri qərarların təşviqi və icra edilməsinə, o cümlədən Şt ölkələrinin dövlət suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığı kimi prinsiplərə hörmət edilməsinə qarşı çıxdı. Bunların əvəzində son sənəddə xalqların sərbəst və demokratik yolla öz iradəsini ifadə etmək hüququnun göstərilməsini tələb etdi. Ermənistan nümayəndə heyətinin təklifəri qəbul edilmədi. Siyasi ifasa uğradığını anlayan Ermənistan nümayəndə heyəti bu məsələlərin ölkələri üçün «mühüm əhəmiyyət kəsb etdiyini» bəhanə gətirərək veto hüququndan istifadə etdi.

Odur ki, AvRONESt PA-nın ilk sessiyası zamanı Ermənistan nümayəndə heyətinin tutduğu destruktiv mövqe nəticəsində yaranmış presedent, sözsüz ki, Prosedur Qaydalarının göstərilən maddələrində müvafq düzəlişlər edilməsini, hər hansı dövlət üçün mühüm əhəmiyyət kəsb edən məsələlərin dəqiq ifadə edilməsini zəruri edir. Biz Ermənistan tərəfnin müxtəlif bəhanələrinin qarşısını almaq üçün konkret təklifər paketi hazırlamışıq. Mən müzakirələrdən əvvəl bu təklifəri açıqlamaq istəmirəm. Ümid edirəm ki, biz bu təklifərin sonda Prosedur Qaydalarında əks edilməsinə nail olacağıq.

Müzakirəyə çıxarılacaq digər vacib məsələ komitələrdə və plenar iclaslarda səsvermə başlamazdan əvvəl AvRONESt PA-da Avropa Parlamentini təmsil edən ən azı iki siyasi qrupa daxil olan minimum on üzvündən və ya Şərqi Avropa tərəfdaşlarının ən azı iki nümayəndə heyətindən olmaqla ayrı-ayrı tərkiblərdən gələn ayrıca düzəlişlərin qəbul edilməsi üçün zəruri səs çoxluğu ilə

bağlıdır. Qeyd edim ki, belə hal üçün zəruri səs çoxluğu Prosedur Qaydalarının 16-cı maddəsinin 4-cü bəndində dəqiqliklə göstərilib. lakin görünür ki, müxtəlif xarakterli, heç də həmişə obyektiv və konstruktiv olmayan təklifərin qəbul edilməsində maraqlı tərəfər var. Yeri gəlmişkən belə tərəfərin olması şübhə doğurmur, onlarla bağlı bizdə kifayət qədər məlumatlar var. Onu deyə bilərəm ki, biz bu müddəanın dəyişməz qalmasına çalışacağıq.

Müzakirələr üçün digər ikinci dərəcəli təklifər də var. Mən onlar üzərində dayanmaq istəmirəm. 17 oktyabrda Prosedur Qaydaları üzrə işçi Qrupunun iclasında ölkəmizi Azərbaycan nümayəndə heyətinin üzvü Rövşən Rzayev təmsil edəcək.

- Bir qurum olaraq AVRONEST PA-nı və Azərbaycan nümayəndə heyətinin bu qurumda fəaliyyətini necə qiymətləndirirsiniz?

AvRONESt PA-ya Avropa itifaqının Şt ölkələri ilə birgə parlament təsisatı kimi xüsusi önəm verilir. Bu təşkilat artıq ciddi fəaliyyətə başlayıb. Hazırda bütün komitələrdə məruzələr üzrə müzakirələr aparılır, artıq bütün Şt ölkələrinin nümayəndə heyətlərinə məruzələrin mövzuları təqdim edilib. Bu yaxınlarda bütün komitələrdə bu məruzələr üzrə məruzəçilər təyin ediləcək. Hər mövzu üzrə iki məruzəçi təyin olunacaq, biri Şt, o birisi isə Avropa Parlamentinin üzvü olacaqdır. əlbətə ki, Azərbaycan üçün ən mühüm və maraqlı olan Siyasi komitədir. Siyasi komitədəki mövzulara üstünlük veririk. Belə ki, bu komitənin hazırlayacağı mövzulardan biri Avropa Şərq tərəfdaşlığı ölkələrində regional təhlükəsizlik problemləri, digəri isə Şt və Ai ölkələrində demokratiyanın gələcəyi, eləcə də azad və müstəqil media ilə bağlı problemlərdir. Biz çalışacağıq ki, bu məruzələr üzrə həmməruzəçi olaq. lakin bu məsələlər Şt ölkələri və AP nümayəndələri arasında

yaxın günlərdə müzakirə olunacaq. komitələrdə hansı ölkələrə hansı məruzələrin verilməsi bu müzakirələr nəticəsində məlum olacaq.

Azərbaycan nümayəndə heyəti AvRONESt PA-nın qurumlarının formalaşması mərhələsində uğurla fəaliyyət göstərdi. AvRONESt-in 14-15 sentyabr tarixli ilk sessiyası da çox böyük uğurla başa çatdı. Ermənistan tərəfnin ərazi bütövlüyünü şübhə altına alan, enerji layihələrinə şərtsiz qoşulmaq, Şt ölkələri arasında sərhədlərin açılması kimi təklif və düzəlişlərinin qarşısı alındı. Azərbaycan Büro iclasında çox gərgin və uzun müzakirələrdən sonra AvRONESt PA-nın ilk plenar sessiyasının Şt ölkələri arasında Azərbaycanda keçirilməsi barədə qərarın qəbul edilməsinə nail oldu. Bu sessiya 2-5 aprel 2012-ci ildə Azərbaycanda keçiriləcək. Bu, Azərbaycan üçün siyasi uğurdur.

Eyni zamanda, cari ilin 20-30 sentyabr tarixində Avropa itifaqının varşavada keçirilmiş Şərq tərəfdaşlığı Sammitində prezidentlərin qəbul etdiyi bəyannamədə Azərbaycan Şərqi Avropa ölkəsi statusu aldı. Mən bu münasibətlə Azərbaycan xalqını təbrik edirəm. inanıram ki, AvRONESt PA-da Azərbaycan nümayəndə heyəti həmişə ölkəmizin maraqlarını ardıcıl və davamlı şəkildə müdafəsində fəallıqla fəaliyyət göstərəcəkdir. AvRONESt PA-da əldə etdiyimiz uğurlar isə Azərbaycanın Avropa Parlamentində mövqelərinin möhkəmlənməsinə yardım edəcək.

Şamaxının millət vəkili Elxan Süleymanov: "Mən seçicilərim qarşısında öhdəlik götürmüşəm"

17.10.2011

525-ci qəzet

Ötən həftənin şənbə günü Şamaxının millət vəkili Elxan Süleymanov müstəqilliyimizin 20 illiyi ilə əlaqədar adıçəkilən rayonda 18 oktyabrda dünyaya gəlmiş şəxslərlə və digər seçiciləri ilə görüş keçirib. Görüşdə müstəqillik günü ilə əlaqədar 18 oktyabr tarixində Şamaxıda doğulmuş 16 nəfərə millət vəkili tərəfindən müxtəlif hədiyyələr və pul mükafatları verilib. Deputat həmçinin Almaniya universitetlərindən birinə qəbul olan şamaxılı Cəlal Kərimova 1000 avro məbləğində pul mükafatı verib. E.Süleymanov artıq C.Kərimovu Almaniyada işə düzəltdiyini, onun hər ay 1000 avro maaş alacağını bildirib. Bununla yanaşı görüşdə millət vəkili hər ay təqaüd verdiyi 16 nəfəri və bu il yüksək ballarla ali təhsil müəssisələrinə daxil olmuş daha 6 şamaxılı gənci pul mükafatları ilə sevindirib. Onlara oxuduqları 4 il ərzində hər birinə hər ay 100 manat təqaüd ayıracağını vəd edib. Mərasimdə seçicilər tərəfindən Şamaxının deputatına ünvanlanmış bir sıra problemlər dərhal həll edilib. Daha sonra E.Süleymanov bu və digər məsələlərlə bağlı sualları-mızı cavablandırıb.

- Bu gün, yəni 15 oktyabr tarixi mənim üçün çox əziz və müqəddəs bir gündür. Həqiqətən bu gün çox əlamətdar bir təqvimə təsadüf edib. Çünki bir neçə gündən sonra müstəqilliyimizin 20 ili tamam olacaq. Eyni zamanda bu gün mənim üçün çox məsuliyyətli gündür, çünki bir

il qabaq, 15 oktyabr tarixində seçki kampaniyama start vermişdim. Müstəqillik günü çox böyük əhəmiyyətə malik bir bayramdır. Müstəqilliyimizin 20 illiyi ərəfəsində seçicilərimlə görüşmək fkrimcə, unudulmaz və incə bir məqamdır. Buna görə də çalışdım ki, müstəqillik günündə dünyaya gəlmiş şəxslərə az da olsa, sevinc bəxş edim. əslində onların problemləri ilə müqayisədə gördüyüm işlər elə də böyük deyildir. Görüşdə seçicilərimi onların probleminin mənim problemim olduğunu və hər zaman onların yanında olduğuma bir daha əmin etdim.

Bu, danılmaz bir faktdır ki, müstəqilliyimizin əldə olunmasında, qorunub-saxlanılmasında, 20 il ərzində böyük inkişaf yolu keçməyimizdə Ulu Öndər Heydər əliyevin və onun layiqli davamçısı cənab prezident ilham əliyevin müstəsna xidmətləri var. Həqiqətən də, Ümummilli lider dahi şəxsiyyət və böyük bir siyasətçi idi. əlbətə ki, müstəqilliyimizin, bu günkü xoşbəxtliymizin, suverenliyimizin banisi Heydər əliyevdir. O, müstəqilliyimizin həm memarı, həm də inşaçısıdır. Sevindirici və qürurverici haldır ki, ilham əliyev Ulu Öndərin bu siyasi kursunu inamla, şərəfə, ilhamla davam etdirir. Bizə müstəqillik bəxş etdiyi üçün Ümummilli liderin ruhu qarşısında baş əyir, həmçinin cənab prezidentə uğurlar arzu edir və məni "Şöhrət" ordeni ilə təltif etdiyi üçün ona minnətdarlığımı bildirirəm. Bu şərəfə layiq olmaq üçün əlimdən gələn hər şeyi edəcəyəm. Bu şərəf qorumaqda mənim üçün ən vacib iş seçicilərimin probleminin həllində iştirak etmək, onların yanında olmaqdır. Bu bir il ərzində şamaxılılarla bir addım atmaqdan, bir həyat yaşamaqdan çox fəxr və qürur hissi keçirirəm. Hesab edirəm ki, müstəqillik çox böyük, əvəzolunmaz bir sərvətdir. Buna görə də hər birimiz müstəqilliyimizin qorunub-saxlanması, daha da inkişaf etdirilməsi üçün əlimizdən gələni əsirgəməməliyik.

Çünki müstəqilliyimizin əldə olunması bizim üçün o qədər də asan olmayıb. Müstəqilliyimiz qanımız, canımız, çoxlu şəhid verməyimiz, torpaqlarımızın işğal olunması, eləcə də bir milyondan artıq soydaşımızın yurd-yuvasından didərgin düşməsi bahasına ərsəyə gəlib. Müstəqilliyimizin yenidən bərpa olunması böyük bir tarixi məqamdır. 20 illik müstəqilliyimiz dövründə çox böyük inkişaf yolu keçən Azərbaycan mühüm uğurlara imza atıb. Sözün həqiqi mənasında bu 20 il ərzində Azərbaycan iqtisadi cəhətdən çox böyük inkişaf yolu keçib. "əsrin kontraktı"nın imzalanması bu uğurlardan biridir. inkişafın bariz nümunələrindən biri yeni məktəblərin, xəstəxanaların, idman komplekslərinin, yolların salınmasıdır. inkişafımız və tərəqqimiz göz qabağındadır və artıq bütün dünyanın qapıları üzümüzə açıqdır. Azərbaycanın müstəqilliyinin bizə çox şey verdiyi şübhəsizdir. əgər biz müstəqilliyimizə qədər çox çətin bir yaşayış tərzi ilə üzləşirdiksə, indi artıq bu, belə deyil. Bizim gəncliyimiz çox məşəqqətli keçib, lakin indi müstəqil dövlətimiz sayəsində gənclərimiz daha yaxşı yaşayır və istənilən xarici ölkədə təhsil almaq imkanı qazanır. Gənclərimiz gün keçdikcə müstəqilliyimizi daha dərindən dərk edəcək və onun necə şirin nemət olduğunu anlayacaqlar. Fəxr edirəm ki, müstəqilliyimiz cəlal kərimov kimi gənclərimizə xaricdə təhsil almaq imkanı yaradır. Hazırda xaricdə təhsil alan tələbələrimiz kifayət qədərdir, ancaq hesab edirəm ki, həmin gənclərimiz təhsil aldıqdan sonra vətənə qayıtmalı və dövlətimizə xidmət etməlidir. Eyni zamanda həmin gənclərin hər birinin azərbaycanlı qızla evlənməsini tövsiyə edirəm. Mən cəlal kərimovla bu məqamları nəzərə alan bir müqavilə imzalamışam. Heç şübhə yox ki, xalqı, milləti irəli aparan, inkişafına səbəb olan məqam elm və təhsildir. Məhz buna görə də mən imkan daxilində təhsil alan gənclərimizə maddi və mənəvi cəhətdən yardımçı

olmağa çalışıram. Bu gənclərin problemlərinin həlli ilə məşğul olan zaman buna öz övladlarımın problemi kimi yanaşıram.

- Elxan müəllim, artıq bir ilə yaxındır ki, millət vəkili kimi fəaliyyət göstərirsiniz. Bu bir illik fəaliyyətinizi necə qiymətləndirirsiniz?

- əgər insan səmimi deyilsə, ondan hansısa müsbət addımlar gözləmək olmaz. Deyərdim ki, deputatlıq fəaliyyətimdə beş istiqamət var. Birincisi AvRONESt PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi fəaliyyətimdir. Bu, birbaşa Avropa Parlamenti ilə əməkdaşlıq deməkdir. Avropa Parlamenti isə birbaşa Avropanın siyasətini müəyyənləşdirir. ikinci istiqamətim Avropa Şurasındakı fəaliyyətimlə bağlıdır. Mən Avropa Şurasının ən mühüm komitələrindən olan Monitorinq, eləcə də Hüquq və insan Haqları komitəsinin üzvü kimi fəaliyyət göstərirəm. Bütün bunlarla yanaşı, həm də Belçika-Azərbaycan parlamentlərarası qrupunun üzvüyəm. Sovet dövründə bütün SSRi-nin paytaxtı Moskva idi və postsovet ölkələrilə bağlı bütün qərarlar Moskvada qəbul edilirdi. indi isə bütün Avropanın paytaxtı Brüsseldir. Hazırda bu şəhərdə Avropa Parlamenti, Avropa itifaqı, Avropa komissiyası ilə yanaşı saysız-hesabsız beynəlxalq təşkilatlar fəaliyyət göstərir. Demək olar ki, hazırda bir çox siyasi qərarlar Brüssel şəhərində qəbul edilir. Dördüncü fəaliyyət istiqamətim seçicilərimdir. Beşinci fəaliyyət istiqamətim isə Milli Məclisin üzvü kimi qanunların qəbul edilməsində iştirak etməkdir. Bütün bu işlərdə üzərimə düşən vəzifələri nəzərə alsaq, çox gərgin bir fəaliyyətlə məşğul olduğumu söyləmək olar. Heç şübhə yox ki, üzərimə düşən vəzifələrin hamısı mühüm işlərdir. lakin ötən ilin 15 oktyabr tarixində təbliğat-təşviqat kampaniyasına start verdiyim zaman bəyan etdim ki, mənim üçün ən vacib bir amal var: seçicilərim. Mənim üçün ən vacib məqam

məhz seçicilərimin maraqlarını təmin etmək, onların problemlərinin həll olunmasında iştirak etməkdir. Ona görə də, seçicilərimlə olan fəaliyyətimi mən özüm üçün ən vacib və birinci hesab edirəm.

- Bu qədər mühüm vəzifələrin məsuliyyəti sizin üzərinizdədir. Bəs bütün bunların fonunda sizin üçün ən vacib məqamın seçiciləriniz olması nə ilə bağlıdır?

- Düzdür, mənim AvRONESt PA-da, Avropa Şurasında və digər məsələlərdə üzərimə mühüm vəzifələr düşür. AvRONESt PA-da gördüyümüz son işlərdən çox danışmaq olar.

Bir neçə uğurumuzu qeyd etmək istərdim. Sentyabrın 14-15-də mötəbər qurumun sessiyası keçirildi. Siyasi məsələlər və demokratiya məsələləri komitəsində qətnamənin müzakirələri zamanı ermənilər təklif edirdilər ki, təhlükəsizlik Şurasının, BMt-nin, Avropa Şurasının, eləcə də Avropa Parlamentinin sərhədlərin pozulmaması, ərazi bütövlüyü və suverenlik bəndi pozulsun, üstəlik işğal, erməni təcavüzü haqqında maddələr sənəddə yer almasın. və bütün bunlarla yanaşı böyük enerji layihələrində şərtsiz iştiraklarının qətnaməyə salınmasını tələb edirdilər. Eyni zamanda, onlar Şərq tərəfdaşlığı ölkələri arasında sərhədlərin açılmasına çalışırdılar.

Azərbaycan nümayəndə heyəti bütün bunların qarşısını ala bildik. ən əsas uğurumuz isə AvRONESt PA-nın 2-5 aprel sessiyasının Bakıda keçirilməsinə nail olmağımız oldu.

Daha bir məsələni qeyd etmək istəyirəm. Avropa Şurasında siyasi məhbus məsələsi ilə bağı Azərbaycan hökumətinin və Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin 10 il ərzində apardığı iş uğurla nəticələndi. təfərrüatlara varmaq istəmirəm. Amma onu deyim ki, Avropa Şurasının üzvü olan 47 ölkədən yalnız Azərbaycan üzrə siyasi məhbus problem üzrə məruzə

hazırlanırdı. indi isə "Azərbaycanda siyasi məhbus məsələsinin araşdırılması" adlı məsələnin "Avropa Şurasına üzv dövlətlərdə siyasi məhbus probleminin araşdırılması" adlandırılması məqsədəuyğun sayılıb. Artıq siyasi məhbus problemi tək Azərbaycanda deyil, quruma üzv olan bütün dövlətlərdə araşdırılacaq.

Bu böyük uğurda insan Haqları komitəsinin üzvü kimi mənim də kiçik də olsa fəaliyyətim olmuşdur.

Ancaq bir gerçəklik var. Məni Milli Məclisə seçən, millət vəkili kimi mühüm bir statusu mənə qazandıran məhz seçicilərimdir. təbii ki, bütün bunlara görə mən seçicilərimin qarşısında öhdəlik götürmüşəm. Seçicilərin seçkiyə gəlməyə qətiyyən həvəsi və marağı yox idi. Seçki kampaniyam dövründə seçicilərimlə 47 görüş keçirdim. əgər ilk görüşlərimə 100-200 nəfər qatılırdısa, son görüşlərimin hər birində iştirak edən seçicilərin sayı 1000-1500-ə qədər yüksəldi. Bütün bunlar isə mənim onlardan biri olduğumu, seçicilərimin vəkili, elçisi olduğumu onları inandırmağımın nəticəsi idi. Məhz bütün bunlara görə deputatlıq fəaliyyətimdə mənim üçün ən önəmli və ilk yeri seçicilərim tutur. Seçicilər mənim həyatımda yaşayır. Mən seçicilərimlə nəfəs alıram. Onların problemlərini həll edə bilməyəndə əziyyət çəkir və bu zaman vicdanımı mühakimə edirəm. Ona görə ki, axı təşviqat kampaniyamda onlara problemlərini həll edəcəyimə söz verdim, amma onların ictimai xidmət problemlərini həyata keçirməkdə bi sıra bürokratik maneələri dağıda bilmirəm. inkişaf etmiş bütün ölkələrdə deputatın amalı seçicilərin problemlərinin həllinə yardımçı olmaq, onların həyatında yaşamaqdan ibarətdir. Məsələn, Fransada millət vəkili istədiyi vaxt seçicilərinin problemi ilə bağlı birbaşa nazirlə telefon bağlantısını yarada bilir. Almaniyada və digər Avropa ölkələrində deputat sorğusuna nazirlər 3-15 gün arasında cavab verir. Bizdə isə fərqli durum var. tutaq ki

deputat sorğusuna ümumiyyətlə cavab verilməməsi adi haldır. lakin bütün bunların müqabilində seçicilərimin problemlərinin həll olunmasında az da olsa, iştirakdan və onların yanında olmaqdan çox xoşbəxtəm.

- Seçicilərin problemlərinin həllində yaxından iştirak etməyiniz bizə sirr deyil. Ümumiyyətlə, bütün bu bəlli çətinliklərə baxmayaraq, seçicilərin problemlərinin həllində iştirakınızdan məmnunsuz?

- Sözün həqiqi mənasında seçicilərimin çoxlu problemləri var və onları həll etmək o qədər də asan deyil. Bu problemləri həll etmək bir ayın, bir ilin işi deyil. Bacardığım qədər seçicilərimin problemlərini həll etməyə çalışıram. Seçki kampaniyam dövründə demişəm ki, mənim üçün seçicilərimin qarşısında dörd müqəddəs vəzifə var: öhdəlik, borc, şərəf və ölkə. Buna görə də onların həllinə qadir olduğum hər bir probleminin həllində iştirak etməyə çalışıram. Hər zaman seçicilərimin yanındayam və bundan zövq alıram. Ümumiyyətlə gördüyüm işlərlə saytımda (www.elkhan-suleymanov.az) tanış ola bilərsiniz. Ancaq üzərimə düşən xarici fəaliyyətlə müqayisədə seçicilərimin problemlərinin həllində iştirakımdan məmnun deyiləm. Çünki xarici fəaliyyətimdə müstəqiləm, ölkəmin maraqlarını beynəlxalq təşkilatlarda müdafə etmək vətəndaşlıq borcumdur. Bu, öz idrakımdan asılı olduğundan problemlərim yoxdur. Seçicilərimin problemlərinin həlli isə müvafq strukturların məmurlarından asılıdır.

Məlum olduğu kimi, Belçikada Mirzə ələkbər Sabirin heykəlinin qoyulmasını artıq razılaşdırmışıq. Bu sahədə iş aparırıq və yaxın vaxtlarda sözügedən məsələni yekunlaşdıracağıq. Hesab edirəm ki, Belçikada Mirzə ələkbər Sabirin heykəlinin qoyulması mühüm mühüm tarixi məqamdır. Bu, Azərbaycan üçün əbədiyyətdir. Sabirin heykəlinin Belçikada qoyulması şamaxılılar üçün mənəvi yüksəliş olsa da seçicilərimin ictimai problemləri

onlar üçün çox vacibdir.

Problemlərə gəlincə Şamaxının bir sıra ciddi problemləri var. Belə ki, rayonun 59 kəndinin 58-də su problemi var. Həmçinin Şamaxıda yol, qaz, işıq, eləcə də mədəniyyət müəssisələri və məktəblərdə problemlər aşıb-daşır. Misal üçün, Avaxlı kəndində müasir məktəb tikilib, lakin onun istilik sistemi yoxdur. Bir ildir ki, bu problemin həllinə çalışırıq, amma hələ ki, bununla bağlı müsbət nəticə əldə edə bilməmişik. 8 min əhalisi olan Göylər kəndində sovet vaxtı 80 çarpayılıq yaxşı bir xəstəxanası vardı. indi biz onu təmir etdirmək istəyirik. Mədrəsə qəsəbəsindən ermənilər çıxıb getdiyi zaman su xətlərini tamamilə bərbad vəziyyətə salıblar. 20 ildən artıqdır ki, böyük bir qəsəbə olan Mədrəsədə su problemi həll olunmur. Bununla bağlı da aidiyyəti qurumlara müraciətlər etmişəm. Həmin qəsəbədə işıq problemi də var. Hesab edirəm ki, gördüyüm işlər seçicilərimin bu kimi problemləri qarşısında kiçikdir. Fikrimcə, Azərbaycan millət vəkillərinin Avropa deputatları ilə müqayisədə çətin iş rejimi var. Bunun başlıca səbəbi odur ki, Avropada deputata aidiyyəti qurumlar tərəfndən daha artıq dəstək verilir.

- Belçikada Mirzə Ələkbər Sabirin heykəlinin qoyulması ideyası haradan yarandı?

- Fikrimcə, milləti, xalqı yaşadan onun ədibləri, xadimləri və görkəmli şəxsiyyətləri, mədəniyyətidir. Azərbaycanın böyük şəxsiyyətlərinə qiymət vermək hər birimizin müqəddəs borcudur.

Heykəl qoymaq ideyası tamamilə öz ideyamdır. Bu ideyanı həyata keçirməklə heç olmasa seçicilərimə olan çoxsaylı borclarımdan birini qaytarmış oluram. Belə bir addım atmağı özümə şərəf bilirəm. Bununla həm də Şamaxının millət vəkili kimi bu rayona olan borcumu verirəm. Sabirin böyük ideyalarının təbliği üçün bu məqamı özüm və Azərbaycan üçün tarixi bir əlamət he-

sab edirəm. O, sovet dövründə də böyük şair idi, indi də. Deyərdim ki, əvəzsiz şair olan Sabir bütün dövrlərin mütəfəkkiridir.

- Bir neçə ay öncə Qarabağ müharibəsi veteranının oğlu üçün möhtəşəm toy təşkil etdiniz. Ona mənzil inşa edəcəyinizi də söz vermişdiniz. Hazırda bu məsələ nə yerdədir?

- Artıq həmin gəncin 3 otaqlı evi hazırdır və avadanlıqları da sifariş etmişəm. 3-4 noyabrda Belçika-Azərbaycan dostluq qrupunun rəhbəri cənab Blanşarla müqəddəs Qurban bayramı ərəfəsində gənclərə mənzili təhvil verəcəyəm. Bu təntənənin noyabrın birinci həfəsində baş tutması mənim həyatımda silinməz hadisədir. Çünki 7 noyabrda mənim deputat mandatı almağım barədə seçicilərim qərar veriblər. Qarabağ uğrunda döyüşmüş Mərdan kişinin övladına verdiyim bu töhfəni -3 otaqlı evi unudulmuş köhnə borclardan biri kimi qiymətləndirirəm. Bu iş mənim ürəyimin qidasıdır. Bu gözəl diyarın arif insanlarına xidmət göstərməkdən fəxr və qürur hissi duyuram və onlara olan böyük sevgimə görə mən öz imzamı belə yazıram: Şamaxının millət vəkili Elxan Süleymanov.

Şamaxının millət vəkili, AVRONEST Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Avropa Şurası Parlament Assambleyasının üzvü Elxan Süleymanovun 1 illik fəaliyyəti haqqında Hesabat (30 noyabr 2010 - 30 noyabr 2011)

11.12.2011

Seçici müraciətləri

www.elkhan-suleymanov.az

Şamaxının millət vəkilinin ünvanına 1 il ərzində yüzlərlə müxtəlif xarakterli seçici məktubları, ərizə və şikayətlər daxil olmuşdur. 2010-cu il noyabr ayının 30-dan 2011-ci il noyabrın 30-dək olan dövr ərzində ümumilikdə 856 yazılı müraciət edilmişdir. Həmin müraciətlərdən 225 müraciət sosial problemlər, 278 müraciət iqtisadi problemlər, 353 müraciət isə maddı yardım istəyi də daxil olmaqla digər problemlərlə əlaqədar olmuşdur.

təbii ki, seçicilər həm də şifahi müraciətlər etmişlər. Yenə də hesabat dövrü olan 30 noyabr 2010 - 30 noyabr 2011-ci il ərzində 452 şifahi müraciət edilmişdir ki, öz növbəsində həmin müraciətlərin də 98-i sosial problemlər, 165 müraciət iqtisadi problemlər, 189 müraciət isə digər ptoblemlərlə əlaqədar edilmişdir.

Daxil olmuş bütün müraciətlər diqqətlə araşdırılmış və hər biri barədə müvafq tədbirlər görülmüşdür. Belə ki, 169 ərizə ilə əlaqədar aidiyyəti üzrə müvafq orqanlara sorğu ilə müraciət olunmuşdur ki, həmin müraciətlərin 15-i hazırda icra olunmaq ərəfəsindədir, qalan 164

müraciət isə aidiyyatı üzrə orqanlardadır və nəticəsi barədə hələlik cavab verilməyib.

vətəndaşlar tərəfndən edilmiş 156 müraciət hüquq normaları ilə müəyyən edilməyən hallara dair olduğu səbəbindən əsassız sayılmış və bu barədə müraciət etmiş şəxslərə müvafq izahat verilmişdir.

Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı Milli Məclisdə 1 təklif verilmişdir.

Ötən dövr ərzində seçicilər tərəfndən edilmiş 22 müraciət müsbət həll olunmuşdur. Müsbət həllini tapmış problemlər aşağıdakılardır:

1. Şamaxı şəhəri, Sabir qəsəbə sakini Rahim Musayevə məxsus zəbt olunmuş torpaq sahəsi qanunvericiliyə müvafq olaraq geri alınaraq vətəndaşın istifadəsinə verilmişdir;

2. Şamaxı şəhəri, Sabir qəsəbə sakini Şıxıyev əvəz Şıxı oğluna məxsus torpaq sahəsinə qanunvericiliyə müvafq olaraq Şəhadətnamə alınmasında yardım göstərilmişdir;

3. Şamaxı şəhəri, Göylər kənd sakini Fizuli Həsənova ona məxsus həyətyanı sahəyə qanunvericiliyə müvafq olaraq Şəhadətnamə alınmasında yardım göstərilmişdir;

4. Şamaxı şəhər sakini Mələk Dəmirovaya qaz sayğacı ilə bağlı probleminin həllində köməklik göstərilmişdir;

5. Məlhəm kənd sakini Səidə Mahmudovanın iki məktəbyaşlı oğlu məktəbli forması və lazımi dərs vəsaitləri ilə təmin edilmişdir;

6. Şamaxı şəhər sakini Rizvan Mayılova əməliyyat olunması üçün maddi yardım edilmişdir;

7. Muğanlı qəsəbə sakini Qahir Fətəliyevin mağazasının qarşısında hasar çəkilməsi ilə əlaqədar mövcud problem həll olunmuşdur;

8. Göylər kənd sakini, 2-ci qrup əlil Daşqın Nifalıyev səhhətinin bərpa olunması məqsədi ilə rentgen və həkim müayinəsindən keçirilmiş, onun xaricdə müalicə olunması üçün müvafq orqanlara müraciət edilmişdir;

9. Çuxuryurd kənd sakini Elçin Şıxəliyev millət vəkilinin dəstəyi ilə Moskva şəhərinə ixtisaslı tibb müəssisəsinə müalicəyə göndərilmişdir;

10. Qaravəlli kənd sakini Ağagül Zülfüqarov əlil arabası ilə təmin edilmişdir;

11. Şamaxı şəhər sakini Aysun Axundovanın yaşayış evinin dam örtüyünün bərpa olunması üçün yardım edilmişdir;

12. Mədrəsə qəsəbəsi də daxil olmaqla rayonun bir neçə kəndinə evlərin dam örtüklərinin bərpası üçün şifer verilmişdir;

13. Mədrəsə qəsəbə məscidinə 3 ədəd kondisioner verilmişdir və s.

Seçicilərlə görüşlər

Ötən dövr ərzində 14 dəfə seçicilərlə, o cümlədən 29.12.2010 və 30.12.2010 tarixlərində yeni il münasibətilə Şamaxı seçiciləri ilə, 17.02.2011-ci il tarixində Şamaxı şəhərində yerləşən texnikum və kolleclərin müəllim və tələbə kollektivləri ilə, 07.03.2011-ci il tarixində Qəhrəman və çoxuşaqlı analarla, 07.05.2011-ci il tarixində müharibə veteranları ilə görüşlər keçirilmiş və seçicilərin təklif və problemləri dinlənilmişdir.

Ümumiyyətlə isə 25 dəfə Şamaxı seçiciləri ilə kütləvi görüşlər, həmçinin mətbuat konfransı və brifinq keçirilmişdir. O cümlədən:

- 14.03.2011-ci il tarixində Şamaxı şəhərində "Şamaxı soyqırımı (1918-ci il)" mövzusunda beynəlxalq elmi - praktik konfrans keçirilmiş və eyni adlı kitabın təqdimat mərasimi olmuşdur. tədbirdə Almaniya Parlamentinin millət vəkili və Avropa Şurası Parlament Assambleyasının üzvü (2005-2009), professor Haqqı kəskin, AŞPA-nın fəxri deputatı, Qərbi Avropa itifaqı Assambleyasının